# Ramiz Dəniz

# II cild

# Aqibət

**Bakı – 2013**

Redaktor: Filologiya elm. dokt. professor-türkoloq **Minəxanım Təkləli**
Ön söz: professor-türkoloq **Minəxanım Təkləli**
Korrektor: Filoloq **Luiza Məmmədova**
Kompüter ustası: **Sinay**
Kompüter dizaynı: **Sevinc**

**Ramiz Dəniz "Aqibət" II cild.**
**Bakı, "MM-S" müəssisəsi, 2013, 315 səh.**

Dünyaya olan baxışları və aldıqları tərbiyə ilə bir-birindən fərqlənən insanların qonşu kimi yaşaması, istər-istəməz onların arasında böyük ədavətin yaranmasına gətirib çıxarır. Yeni qonşu olan müğənni Zemfira neft sənayesində uzun müddət işləmiş Arif adlı ziyalının və Elmlər Akademiyasının elmi işçisi Xədicənin ailəsi ilə yola getmir və özünün tərbiyəsiz hərəkətlərilə həmin qonşularda ikrah hissi yaradırdı. Bundan əlavə bəlli olur ki, həmin qondarma müğənni əsl havadarını aldadaraq, ona aldığı evdə, tamamilə başqa bir oğlanla görüşüb xəyanət edir.

Yüngül həyat tərzi sürən Zemfiranı qəzet səhifələrində ifşa edən Əliyusif adlı müxbir həmin müğənni və onun havadarları tərəfindən kəskin təzyiqlərə məruz qalır. Lakin bütün bu təzyiqlərə baxmayaraq müxbir televiziya kanallarında istedaddan kənar olan "müğənniləri", mənəviyyata zidd olan hadisələri, mentalitetə təsir edən bazar qalmaqallarını, kənar mədəniyyətin təbliği ilə məşğul olan verilişləri tənqid atəşinə tutur və paralel olaraq istedadları, sənətkarları, əxlaq kodeksinə riayət edən müğənnilərin fəaliyyətini önə çəkib, onları öz adları ilə saf cəmiyyətə təqdim edir.

Neqativ hallara göz yuman bəzi işbazlar və redaksiya rəhbərləri Əliyusifi sıxışdırmağa başlasalar da o, öz əqidəsindən dönməyərək, mübarizəsini davam etdirir. Ondan sonra Zemfira qonşusunu şərləməyə qərara alır. Bunun üçün o, ilk növbədə Əliyusif ilə xoş münasibət quraraq, prinsipial müxbiri öz tərəfinə çəkməyə çalışır. Alfons havadarı olan Namiqin planına əsasən, Zemfira qonşusunun boynuna oğurluq yıxıb onu tudurur.

**D 4702060103**
**M 087-2013**
**© R.Dəniz 2013**

***Əsərin nəşr olunmasında mənə maddi və mənəvi yardım göstərdiyi üçün SOCAR-ın rəhbərliyinə təşəkkür və minnətdarlığımı bildirirəm***

***Kitab SOCAR-ın ayırdığı qrant hesabına "Partnyor Elmin İnkişafina Dəstək" İctimai Birliyinin sifarişi əsasında çap olunmuşbdur***

*Roman milli-mənəvi mühitimizin məruz qaldığı bir sıra zərərli-ziyanlı nəticələr verə biləcək problemə toxunur. Cəmiyyətimizin ucuz sənət, yüngül şöhrət və bunlarla birlikdə haram pullara susayan aşağı mənəviyyatlı adamlarını, özünü sənət ulduzu görən əsil "ulduz xəstəliyi"nə düçar olan şəxsləri müəllif ciddi tənqid edir. Əsərdən məlum olur ki, yüksək mənəviyyat və yetkin zövq tərbiyə etməli olan bir sıra sənətkarlar əslində özləri sənətə təhlükə törədən mənbəyə çevrilmişlər.*

*İstedadı olmayan və sənətə yalnız gəlir mənbəyi kimi baxan bu "yeni ulduzlar" və onların havadarları – ömründə bir yol xeyir işlərə bir qəpik də xərcləməyən, əksinə belə simasız, aşağı səviyyəli üzdəniraq sənətçilərə sağa-sola pul xərcləyən harınlaşmış bəzi məmurlar, onların meşşan təbiəti, yaşam tərzi geniş planda təqdim edilir. Ciddi həyat müşahidələri əsasında yazılmış əsərin oxucuların nəzər-diqqətinə səbəb olacağı şübhəsizdir.*

***Müəllif***

## Ön söz

### Qələmin çəkdiyi yol...

Sözə onunla başlamaq istəyirəm ki, Ramiz Dəniz adında yazmaqdan yorulmayan, qələmi kökdən düşməyə qoymayan fədakar bir yazıçı dostumuz var. Ramiz hər yerdə, həmişə özünün saflıq, dürüstlük deyə indi az-az rastlanan bir xüsusiyyəti, yəni, qeyri-adi təbiəti və çoxlarına bənzəməyən istedadı ilə fərqlənir. Orta təhsilli olmasına baxmayaraq çox mütaliəli bir qələm adamıdır. Bir neçə maraqlı, səhifələrində oxucunu elmin müxtəlif məsələləri və bu məsələlərin təhlilinə həsr olunmuş fərdi düşüncələri ilə təəccübləndirən kitablarını oxumuşam. **“Yeni Dünya sahillərinə yollanan konkistadorlar”, “Konkistadorların Mərkəzi Çili sahillərində faciəli ölümü”, “Müqəddəs missiya”, “Cənnətə gedənlər cəhənnəmə düşürülər”, “Xristofor Kolumb, Nəsrəd-din Tusi və Amerika qitəsinin həqiqi kəşfi”, “Əsrləri qabaqlamış alim - Nəsrəddin Tusi”, “Fitva”, “Bəşəriyyəti yaşadanlar”, “Qəlblərdə yaşayan Mir Cəlal**” romanları Ramiz Dənizin geniş ədəbi-bədii təfək-

kürünün məhsuludur. Ədəbi imzasından da göründüyü kimi Ramiz Dənizin qəlbi daim dəniz kimi təlatümlüdür.

Dəniz təlatümə gəlib coşanda dalğalar sahilə can atdığı kimi yazıçı da hər zaman onu silkələyən iç duyğularını fikir, düşüncə ümmanın sahillərinə çıxarmaq eşqi ilə yaşayır. Və bu yaşam R. Dənizin gündəlik həyat tərzinə çevrilib. Qeyd etdiyim kimi o, mükəmməl ali təhsil almasa da böyük inadkarlıqla öz üzərində işləyərək zəngin mütaliə və yaradıcılıq yolu keçib.

Qələmə aldığı romanlar yazıçının bu istiqamətdə böyük təcrübəsindən, ardıcıl mütaliənin verdiyi qənaət-bəxş yetkinliyin, bitkin təəssüratların bəhrəsi olan həyat bilgisindən xəbər verir. Bu gün tam əminliklə demək olar ki, Ramiz Dənizin əsərləri müxtəlif mövzulara həsr olunsa da yazıçının bütün yaradıcılığı boyu düşüncələrini bir məcraya gətirən əsas ideya zaman içərisində tarixi həqiqətlərin yazıçı qələmi ilə xüsusi bir məharətlə müdafiə olunması və qaranlıqlar içərisində boğulmuş gerçəklikləri üzə çıxararaq yenidən oxucuya təqdim etmək missiyası Ramiz Dənizin bir qələm sahibi kimi əsas güc mənbəyidir.

Öncə deməliyəm ki, **“Konkistadorların Mərkəzi Çili sahillərində faciəli ölümü”** romanı R. Dənizə Azərbay-can ədəbi mühitində xeyli nüfuz qazandırdı. Daha

doğrusu müəllif bu kitabı ilə yaradıcılıq aləmində öz imzasını təsdiqlədi. Romanda təcavüzkarlığa, işğala, ədalətsizlik və haqsızlığa qarşı sədaqətlə vuruşan bir yazıçı obrazının canlanması əsərin hər səhifəsində öz oxucusuna işıqlı bir təbəssüm bəxş edir. Yazıçı yerli əhalinin işğalıçı qüvvələr tərəfindən əsil soyqrıma məruz qoyulmasını tarixi-bədii detallarla göz önünə gətirərək hər kəsdə təcavüzkar qüvvələrə nifrət hissi aşılaya bilir.

Ramiz Dənizin bir gözəl xüsusiyyəti də ondan ibarətdir ki, kitab halına gətirəcəyi mövzunu dərinliyinə qədər öyrənir. Tutaq ki, o yerdə söhbət Amerikanın həqiqi kəşfi kimi tarixi-coğrafi bir mövzudan gedirsə yazıçı dənizləri, okeanları, məhz o dövrə aid yer-yurd adlarını, coğrafi məkanları, dünyanın fiziki-coğrafi xəritəsini ən azı bir coğrafiya müəllimi qədər mənimsə-məsə yazmağa başlamaz. Açığı onun elə əsərləri var ki, oxuyanda elə sanırsan ki, bu kitabda məşhur fantastik yazıçıların, məsələn, dünya ədəbiyyatının görkəmli nümayəndələri Jül Vern, Aleksandr Düma, Rafael Sabatini, Robert Lüis Stivenson, Yakov Svet, Daniel Defonun... ruhları var.

Ramiz Dəniz bir yazıçı kimi milli kökə, doğma dəyərlərə, tariximizə, incəsənət və mədəniyyətimizə bağlı bir söz adamıdır. Şərqin böyük dühası Nəsirəddin Tusi

ilə bağlı çox dəyərli tədqiqatları var; desək ki, Nəsirəddin Tusi barədə yazdıqları və hələlik yazmadıqları ***"Ramiz Dənizin şah əsəri Nəsirəddin Tusidir"*** deməyə bizə imkan verir. Və son nəticədə bu tədqiqatları bədii-elmi fikrimizi zənginləşdirən əsərə çevirə bilməsi onun zəhmət və istedadı ilə çulğalaşan milli təəssübkeşlik hissinin göstəricisi kimi qiymətləndirilə bilər.

Yaradıcılıq üçün adətən istedadla zəhməti əsas şərt hesab edirlər. Və zəhmətlə istedadı uğurla öz fəaliyyətində birləşdirən R.Dənizin əlavə bir üstünlüyü də ondadır ki, o möhkəm bir yaddaşa malikdir. Özünün dediyi kimi hələ orta məktəbdə oxuyarkən 1500-dən çox tarixi hadisəni bütün təfsilatı ilə əzbərdən söyləyə bilirmiş. Ən əsas məsələ orasındadır ki, yazıçını yaradıcılıq aləminə qorxusuz, hürküsüz bir qüvvə ilə çəkən şöhrətlənmək, tanınmaq, qiymətləndirilmək və s. arzular, istəklər deyil, sadəcə onun təbiətidir, içindəki axtarışlar yanğısıdır.

Yeri gəlmişkən qeyd edək ki, Ramiz Dənizi bunlarla bərabər bir də insanın, eləcə də insan qarışıq bütün təbiətin, ümumiyyətlə varlığın taleyini düşünmək, bu xətt üzrə düşüncə, amal onu hər zaman yazmağa ruhlandırır. Lakin çılpaq tarixçələr, xronologiya, nə də əsərlərindəki tarixi həqiqətlərin keşiyində dayanmaqla bərabər, həm də

daim insan mənliyini, mənəviyyatı qorumaq, onu hər şeydən, bütün mövzulardan üstdə tutmaq Ramiz Dənizin xidmət etdiyi əsas dəyərlərdən biridir.

Bu günlərdə tamamladığı **"Aqibət"** romanı da Azərbaycan mənəvi mühitinin güzgüsü kimi oxunur. Romanda çağdaş dövrün ziyalısının, deyək ki, jurnalistinin, aliminin, şairinin, müğənnisinin, həkiminin və s-nin obrazı canlandırılır. **"Aqibət"** romanında yazıçı müasir çağımızın, lap son illərin bütöv bir obrazlar silsiləsini yaradır. Mənəviyyatı aşağı olan və özlərini sənət adamı kimi gözə soxan ayrı-ayrı şəxslər ifşa olunur, yazıçının tənqid obyektinə çevrilir. Böyük mənəviyyat və formalaşmış yetkin zövq tərbiyə etməli olan bir sıra sənətkarların sənətə təhlükə törədən mənbəyə çevrilməsi bir çox hallarda yazıçını özündən çıxarır, onu bəlkə də normadan artıq qəzəbləndirir.

"Ulduz" xəstəliyinə tutulmuş, özünü müğənni, hətta az qala fövqəlbəşər hesab edənləri əslində səsin, sözün, sənətin nə demək olduğunu bilməyənləri müəllif **"Aqibət**" romanında necə var tənbeh və tənqid edir. Onların iç üzünü, əsas mahiyyətini bizə göstərməklə **"Aqibət"**in hədəfini daha da işıqlandırır. **"Aqibət"** romanında obrazlar müxtəlif olsa da əsas məqsəd mənəviyyat məsələləri üzərində dayanmaqdadır. Bax, buna görə də romanın

gələcək oxucularının əsərin sonunu, bu müxtəlif tip və obrazların “aqibətini” bilməyə, öyrənməyə can atacaqları şübhəsizdir. Yazıçı əsərdə hər kəsi öz cildində, öz mənəvi düşüncəsində, təqdim edir və bu təsvir az qala öz təbiiliyinə görə naturalist səciyyəsi alacaqdır. Bu “natural” yanaşma üzündəndir ki, az qala ideal hesab etdiyimiz sənət adamlarının da adlarını bir-bir xatırladır.

Peşəkar jurnalistlərin, televiziya müxbirlərinin, incəsənət xadimlərinin, Azərbaycan musiqi mədəniyyətində xüsusi rolu olan sənətçilərin adlarını çəkməklə demək istəyir ki, kim nə qədər var-dövlət dalınca qaçır qaçsın son nəticədə maddiyyat bir yanadır, mənəviyyat bir yana. Dəyərli, mənəvi sərvətlər qazanmış hər kəs hər hansı mülk sahibindən qat-qat dəyərlidir. Televiziya kanallarında evlərini, villalarını, maşınlarını, geyimlərini reklam edən dırnaqarası sənətçilərin qeyri-etik, düşük hərəkətləri, “görməmiş” davranışları, sağlam mənəviyyatdan çox-çox uzaq həyat tərzləri yazıçının **“Aqibət”** romanındakı ən böyük qınaq yeridir.

Romanda mənfi obrazlarla yanaşı əlbəttə, müsbət obrazlar da var. Adlarını çəkməsəm də oxucu yazıçının təqdim etdiyi bu obrazların cəmiyyətin hansı qütbündə dayanmasının fərqindədir. Çünki müəllif obrazın mənfi-müsbət çalarlarını üzə çıxarmaqda ciddi həyat müşahi-

dələrinə əsaslanmaqla bu gün bu məsələlərin mədəniyyətimiz üçün necə ağrılı problemlərə çevrildiyinin yaxşı bilir; elə oxucu da bir çox çatışmazlıqların və əttökən çirkinliklərin şahididir.

Ucuz şöhrət dalınca qaçan "sənət ulduzları"na sponsorluq edən işbazlar, bir çox hallarda məmurlar kimə xeyriyyəçilik etdiklərinin görəsən fərqindədirlərmi? Oxucunu bu sual ətrafında düşünməyə vadar etmək R. Dənizin **"Aqibət"**dəki başlıca ideyasıdır. Daha doğrusu, əsərin nüvəsində bu məsələ dayanır: müasir Azərbaycan cəmiyyətində kimlərə daha çox qayğı göstərilir. Müasir dillə desək, sponsorlar kimə işləyir? Xalqın taleyini, tarixini, mədəniyyətini düşünənlərə, torpaqları yağı düşməndən qoruyan əsgərlərə, şəhid ailələrinə, kimsəsiz və tənha qalmışlara, atasız-anasız böyüyən, xülasə sinəsi qəm yuvalı soydaşlarımıza, yoxsa yazıçının əsas mənfi qəhrəmanlarından biri Zemfira kimi "müğənni"lərə?! Müəllif bilərəkdən xalqa, onun musiqisinə, başlıcası, saf, qızıldan qiymətli xalq mənəviyyatına yad olan "qəhrəmanına" beləcə yad və hətta bir qədər bayağı ad verir. Bu xanımın və onun dəstəkçilərinin xalqa, bu doğma mühitimizə heç bir aidiyyəti yoxdur. Amma onlar aramızdadırlar, həm də sayca heç də az deyillər. Düşünürsən ki, yazıçı bu mövzuda yox, bəlkə başqa bir

mövzuda nəsə yazsa daha məqsədə müvafiq olardı. Həm də bu məsələnin cəmiyyət üçün doğrudanmı elə böyük əhəmiyyəti var? Əlbəttə elə təkcə onu fikirləşsək ki, belə sənətin təsirilə böyüyən, hər dəfəsində bu eybəcərliklə, yamaq-yumaqlı örnəklərlə qarşılaşan gəncimiz "bizim musiqimiz elə budur!" kimi zərərli hökmlər verəcəkdir. Yeni nəsli isə bu bayağılıqla üzbəüz qoymaq heç vəchlə mümkün deyil.

Yazıçını hiddətə gətirən digər cəhət isə millətin ruhundakı kömək etmək, darda qalana əl uzatmaq kimi qiymətli vərdişlərin unudulması, əxlaqsızlığa rəvac verilməsi, bununla bu zərərli göstəricilərin bir çox milli ənənələrin, adətlərin ortadan qaldırılması təhlükəsi yaratması və s.dir ki, bunu da alqışlamamaq mümkün deyil.

Düşünürəm ki, yazıçının digər əsərləri kimi **"Aqibət"**i də maraqla oxunacaq. Doğrudur, yazıçının üslubunda, yazı tərzində zəif nöqtələr də var. Əlbəttə, bunlar romana o qədər də xələllik gətirmir və mütaliə zamanı ciddi narahatlığa səbəb olmur. Bu onunla bağlıdır ki, bəzən yazıçı hisslərini cilovlaya bilmir, beləliklə bədiiyyat arxa plana keçir, hətta dilin bir növ cazibəsi zəifləyir. Publisistika hadisələrin təsvirində önə çıxır. Hesab edirəm ki, bu da sözü birbaşa demək istəyinin nəticəsidir

ki, bir çox hallarda müəllif bu vasitədən əlavə bir təsir qüvvəsi kimi istifadə edir.

Mənim nəyi deyib, nəyisə deməməyimdən asılı olmayaraq Ramiz Dənizin öz sağlam əqidəsi və qələmi var. Bu səbəbdən də o, respublikanın bir çox elm, sənət ocaqlarında hörmətlə qarşılanır. Daim onun əsərlərinə coğrafiya, tarix institutu, müəyyən ədəbi birliklər, tanınmış elm və incəsənət alimləri münasibət bildirməyi özlərinə borc hesab edirlər. Çünki Ramiz Dənizin qələmində sənət eşqi, həqiqət yanğısı görürlər. Böyük zəhmətin, gərgin tədqiqatın bəhrəsi olan kitabları Ramiz Dənizi həm yazıçı, həm də bir şəxsiyyət kimi hər yerdə təqdim edir...

... Yazdıqca insan beyni işığa, nura qərq olur. Nə qədər çox yazsan o qədər də müdrik olursan. Yeri gəlmişkən, Ramiz Dəniz yaşından gənc görünsə də daxilən qocaman və müdrik düşüncələrin daşıyıcısıdır. Bu yolun nəqşəsini ona qələmi çəkib.

Minəxanım Təkləli
Professor-türkoloq, filologiya elmləri doktoru,
Qafqaz Universitetinin müəllimi

# I hissə:

## Əqidəsini nümayiş etdirən insanlar

## I fəsil. Haqsızlığa tab gətirməyən ziyalı ailə

Yayın axırıncı ayı olsa da, günlərin əksəriyyəti küləklə müşayiət olunur və havalar qızmar iyul ayına nisbətən çox sərin keçirdi. Havada bu cür dönüşün yaranması istirahət edənləri dəniz kənarından uzaqlaşdırırdı, Novxanı çimərliyinə də gələnlərin sayı bu günlərdə kəskin surətdə azalmışdı. Havaların sərinləşməsinə baxmayaraq Əliyusif anası ilə birlikdə həyətdəki üzüm çardağının altında oturub çay içirdi. O, çay içə-içə təzəcə dərc olunan yazılarını da nəzərdən keçirirdi. Xədicənin isə başı qarşısındakı kitaba qarışmışdı; kitab maraqlı kitaba oxşayırdı.

Gülnarə ilə nişanlandıqdan sonra Əliyusif çox hallarda qapalı həyata üstünlük verirdi. Çünki hansı bir işlə məşğul olurdusa, daim gözünün qabağına istədiyi qızın surəti gəlirdi. O, qızın xəyalən belə, baxdığı gözəl çöhrəsinə tamaşa etməkdən doymurdu. Hətta özünü daha səbirli və çox dözümlü bilən müxbir oğlan sevgilisi ilə olan müvəqqəti ayrılığa da dözə bilməyib, sinəsinin başında Gülnarənin şəklini gəzdirirdi. Nişanlısı da istədiyi oğlanla bağlı olan ayrılığa gücbəla ilə tab gətirirdi. Əliyusifin xasiyyəti ona o qədər şirin gəlirdi ki, Gülnarə daim onunla birlikdə olmaq, deyib-danışmaq arzusunda olurdu. Məsələ belə idi ki, onlar ailə həyatı qurmaq üçün hələ bir il də

gözləməli idilər. Razılaşmışdılar ki, Gülnarə universiteti bitirməli, yalnız ondan sonra isə gəlinlik duvağına bürünməli idi.

Əliyusif Novxanıda yaşadığı üçün hər gün şəhərə gedə bilmirdi. Təkcə hər hansı bir məqaləsini çap etdirmək üçün "Azərnəşriyyat"a gedəndə o, sevgilisi ilə görüşməyə imkan tapırdı. Lakin elə bu da onların dərhal hər hansısa bir parkda və ya bağda əyləşib ürək dolusu söhbət etmələrinə kifayət edirdi. Bir də Əliyusif qonorar alan kimi qızı da götürüb bulvarda açıq kafelərin birinə çay və ya kofe içməyə yollanırdı.

Lakin hər şey də elə gözlənildiyi kimi yaxşı getmirdi. Özündən zəiflərə xox gəlməkdən, onları ələ salmaqdan doymayan, daim başqalarının yanında öyünməyi xoşlayan Natiq hələ də Gülnarəni rahat buraxmaq istəmirdi. Bəzi hallarda o, yenə də istər onun işlədiyi idarənin, istərsə də oxuduğu universitetin qarşısında qızın qabağına çıxır və onu danışdırmağa çalışırdı. Gülnarə ona nə qədər izah etsə ki, artıq o, nişanlanıbdır və onunla görüşüb danışmaq niyyətində deyil, lakin Natiq yenə də ondan əl çəkmir, daha da sırtıqcasına hərəkətlərə keçirdi. Amma qız nişanlısını narahat etməmək üçün bu barədə ona heç nə söyləmirdi. Bellikə, aralarında ziddiyyət, münaqişə yaranmasın deyə, bu ağıllı qız susmağa üstünlük vermişdi.

Yay vaxtı Xədicə günün əksər hissəsini bağdakı talvarın altında keçirirdi. Əvvəlki günlərdəki kimi o, bu gün də oğlanları ilə birlikdə oturub, söhbətlə məşğul idi.

Qonşuda hay-küy olanda burada rahat eşidilirdi. Nədənsə bu gün orada sakitlik idi. Deyəsən, arsız qonşu qadın gizlincə görüşdüyü oynaşını içəri otaqlara aparmış olduğundan həyətdə səs-səmirləri gəlmirdi. Bu gün Natiq vacib iş olduğu üçün səhər tezdən qonşunun - aktrisa Zemfiranın qapısını kəsdirmişdi. O, nə olmuşdusa da indi sevgilisindən kömək istəyirdi.

- Zema, mən İrandan iki vaqon mal gətizdirmişəm, - deyə Natiq ciddi halda sözə başladı. – Amma bilirsən, bu malı almaq üçün mənim pulum çatmır.

- Nə qədər çatmır? - deyə Zemfira bu gözlənilməz xahişdən özünü itirib kallaşmış səsi ilə soruşdu.

- 40 min manat. Keçən dəfə sən mənə kömək etmişdim, əminəm ki, bu dəfə də sən mənə "yox" deməzsən.

- Axı, indiki vaxtda məndə o qədər pul yoxdur.

- Bilirəm. Mən qiymətli zinət əşyasını lombarda qoyub, həmin məbləği oradan götürə bilərəm. Səndə olan brilliant kolye dadıma çata bilər. Etiraz etməsən, mən həmin kolyeni üç həftəlik səndən borc götürərdim.

- Natiq, sən bilirsən ki, kolye Məzinin hədiyyəsidir. – deyə müğənni başını bulayaraq narahat halda dilləndi. -

Birdən sənin işin alınmadı, onda bilirsən də Məzi mənim başıma hansı oyunlar açar?

- Buna görə narahat olma. Birincisi, mən heç vaxt gətizdirdiyim mallarda ziyana düşməmişəm, ikincisi, mənim kifayət qədər obyektlərim var və qəti imkan verməərəm ki, sənin özün kimi qiymətli mal lombardda itib batsın, - deyə ona yarındı.

Qadın canına sarı yağ kimi yayılan onun bu şit komplimenti qabağında əriyə-əriyə:

- Nə deyirəm ki… Sabah gəlib kolyeni apararsan. Çünki bir neçə saatdan sonra Məzi bura gələcək və istərdim ki, o, bu gün verdiyi bəxşişi boynumda görsün.

Aşnasından razılığı alan Natiq sevincək halda müğənnidən ayrıldı. Onun həyətə çıxıb oradan ev yiyəsinin ünvanına məmnun-məmnun şirin sözlər söyləməsi, əlbəttə qonşu həyətdə olanların qulaqlarına çatdı. Artıq dəqiq bəlli idi ki, havadarı evdə olmayanda Zemfira Natiqi yanına çağırıb, onunla təklikdə görüşür. Xədicə həmin qonağın kimliyindən bixəbər olsa da, Əliyusif yaxşı bilirdi ki, həmin adam kimdir.

Xədicə utandığından uşaqların fikrini qonşudan yayındırmaq üçün onları söhbətə tutmuşdu. Lakin bir az keçmişdi ki, həyətin qapısı döyüldü. Elşən qardaşını qabaqlayaraq qapını açdı və orada işıqpulu yığanla üzləşdi.

Verilən qəbzdə göstərilirdi ki, bu evin işığa görə 17 manat borcu var. Elşən də başa salır ki, indi pul olmadığı üçün ertəsi günü o, pulu işıq idarəsinə köçürəcək. Gələn adam isə qətiyyətlə bildirir ki, hazırda pul köçürülməsə, işıq dərhal kəsiləcək. Elşən nə qədər dil töksə də, xahiş etsə də, hətta bildirsə də ki, evin sahiblərindən biri elmi əməkdaş, o birisi isə mətbuat işçisidir və onlar işıq olmadan heç bir iş görə bilməyəcəklər, yenə də həmin adam öz dediyindən dönmədi. Onda çıxılmaz vəziyyətdə qalan Elşən qonşuları Arifgilə gedib, ondan həmin məbləği götürdü və gətirib deyinə-deyinə qapıda onu gözləyən işıqçıya verdi.

Həyətin üzümlüyü Zemfiranın qaldığı həyətin çəpərinə bitişik idi. Yuxarıda qeyd edildiyi kimi orada olan balaca bir səs-küy burada eşidilirdi. İndi asanlıqla eşitmək olardı ki, işıqpulu yığan Zemfiranın qapısını döyüb ondan işıqpulunu tələb edir. Əliyusif istər-istəməz qonşudan gələn danışığı eşitməli oldu. Zemfira selektorla danışırdı.

- Nə olar ki, 478 manat borcum var. – Zemfira həmin adamın üstünə qışqırdı. - Buna görə adamı narahat edərlər?

- Mən öz işimi icra edirəm. Xanım, heç olmasa borcun üstündən bir az pul silin də.

- Tutalım silmədim, onda nə edəcəksən?

- Əks təqdirdə işığınız kəsiləcək.

- Sən deyəsən, kimin qapısını döydüyündən bixəbərsən?

- Vacib deyil axı, siz kimsiniz, əsas odur ki, borcunuz var və siz başqalarına nisbətən həmin borcu ödəmək imkanına maliksiniz.

- Bu fikir sənin ağlına haradan gəldi?

- İş ondadır ki, hər dəfə mən buradan keçəndə sizin həyətdən ağ balıq və quzu kababının iyi gəlir. – deyə işıqçı istehza ilə dilləndi. - Kasıb adamın evindən belə iylər gəlmir.

- Axmağın biri axmaq, - deyə qəzəbini boğa bilməyən müğənni bərkdən qışqırdı. - mənim nə yediyimi güdürsən? Sənin başına elə oyun açaram ki, adın yadından çıxar. Tez ol buradan rədd ol, uzaqlaş.

- Xahiş edirəm, məni təhqir etməyin. Yoxsa, mən də sizi acılamalı olacağam. Heç olmasa, 100 manat verin ondan sonra buradan uzaqlaşım. Mən idarəyə pul aparmasam, səriştəsizliyə görə mütləq işdən çıxarılacağam.

- Sənə dedim axı, qapıdan uzaqlaş, əks təqdirdə həyətdəki iti üstünə buraxacam.

- Nə istəyirsiniz onu da edin. Amma pul almamış mən buradan getməyəcəm.

- Adə, sən nə həyasız adamsan? Görürəm, yaxşılıqla başa düşmürsən? Eybi yoxdur, səni başa salan tapılar.

Heç yarım dəqiqə keçməmiş Zemfiranın səsi daha da bərkdən eşidilməyə başladı. Çox güman ki, o, Məzahir ilə

telefon əlaqəsi yaradıb bu sözləri işlətdi: “İşıq idarəsindən hansısa bir avara qapımın ağzında dayanıb, əsəblərimlə oynayır. O, həyətdən əl çəkmir. Tez ol, onu buradan uzaqlaşdır”.

Bir dəqiqə ərzində həmin adama zəng çalındı və o, “baş üstə” deyərək, oranı tərk etmək istədi. Lakin həmin an selektor ilə Zemfiranın səsi eşidildi: “Qulaq as gör nə deyirəm, birdəfəlik bu ünvanı yaddan çıxart, yoxsa əvvəlki inspektor kimi səni də işdən qovduraram”.

Həmin oğlan arxasına baxmadan öz daxilində deyinərək, peşman halda buradan uzaqlaşdı.

Gör nələr baş verir? - deyə söhbətdən hali olan Xədicə ikrah hissi ilə dilləndi. – Mən elmlər namizədi ola-ola, işıq-pulu yığan 17 manata görə işığımı kəsir, amma səviyyəsi olmayan, ismətini itirmiş, ləyaqətini tapdaq altına atmış bir müğənninin 478 manat borcu ola-ola, ona gözün üstə qaşın var deyən yoxdur. Hələ bir “baş üstə” deyərək, həmin qapı-dan qorxub qaçırlar. Bu dəhşətdir! Heç kim qayda-qanuna riyaət etmək istəmir. Biz bu yol ilə hara gedirik?

Elşən dedi:

- Ana, nə qədər belə bir haqsızlığa göz yumacayıq, bir o qədər belə özbaşınalıqlar baş verəcək. Kim güclüdürsə o, da həyasızlıqla bəyan edir ki, tətbiq olunan qayda-qanunlar mənim tərəfimdədir. Halbuki qayda-qanuna riyaət edən

aşağı təbəqənin adamları, yəni, kasıb-küsubların hüquqları daim pozulur və yeri gəlsə, onlar hegemon adamlar tərəfindən təhqir olunurlar.

- Maraqlı odur ki, qaza, suya, elektrik enerjisinə 5-6 manat borc olan kimi həmin idarələrin işçiləri bizi həmin suyu, qazı, işığı kəsirlər. Halbuki külli-miqdarda borcu olan vəzifə sahiblərin bir çoxu nəinki həmin borcu qaytarmaq fikrində olmur, hətta qapılarına gələn adamları təhqir edirlər, işdən çıxarılmaqla hədələyirlər.

- Yaxşıdır ki, Azərbaycanda kasıbların sayı çoxdur, əks təqdirdə kommunal ödənişlər ümumiyyətlə, baş tutmaz. Hər il kommunal xərclər artanda elə bizim kimilərin maddi rifahına mənfi təsir göstərir.

İstər-istəməz əsəbiləşib kefi pozulan Xədicə:

- Başa düşmürəm, belə adamlar bizim cəmiyyətdə necə yaşayır? Mən elmlər namizədi aldığım maaş ilə özümü dolandıra bilmir, amma bütün kommunal borcları ödəmək məcburiyyətində oluram. Zemfira isə külli miqdarda pul qazanır, amma kommunal borcları ödəməkdən boyun qaçırır. Hələ bir üstəlik qapısına gələn adama hədə-qorxu gəlir. Mən elmi işlərimi davam etdirmək üçün işıqpulu az yazsın deyə, zəif lampadan istifadə edir, amma nə dövlətə, nə cəmiyyətə xeyri dəyməyən bir əldəqayırma bayağı müğənni isə evində və həyətində, sanki şadlıq saraylarında

olduğu kimi yüksək vattlı lampalar, projektorlar yandırır, əvəzində isə o, istifadə etdiyi elektrik enerjisinin işıqpulusunu ödəmək fikrində olmur.

- İnanıram ki, yaxın zamanda bu ədalətsizlik aradan qalxacaq. Çünki heç vaxt yalan, iftira, böhtan, ədalətsizlik uzun ömürlü olmur., - deyə Elşən artıq otura bilməyib ayağa qalxdı.

Dərslərinə baxmağın vaxtı olduğunu fikirləşən Elşən kitab-dəftərlərini masanın üstünə yığdı. Lakin çox keçməmiş, yəni, günorta yeməyinə az qalmış Məzahir ona zəng edib, kabab hazırlamaq üçün onu qonşularının, yəni, saxladığı müğənninin evinə göndərdi. Artıq gün kimi aydın idi ki, bu bərkgedən havadar axşam burada olacaq.

Dərsə hazırlaşan tələbə oğlan həm dərs hazırlığını buraxmalı, həm də ac qalmalı idi. Çünki Elşənin təcili olaraq günorta yeməyini yemədən ora çağırılması, yenə də onun ac qalmasına səbəb olacaqdı. İş ondadır ki, o, müğənninin evində kabab hazırlasa da, çox vaxt həmin təamdan dadmırdı. Hətta Əliyusif evdən yemək götürüb qardaşına verirdi. Bu dəfə də elə oldu. Günorta yeməyindən sonra o, qardaşına evdəki hazır yeməkdən çəkib apardı.

Elşənə verilən təlimata əsasən, bağın sahibi orada olmayan zaman, qarovulçudan başqa heç kim həmin həyətə ayaq basmamalıydı. Lakin indiki məqamda Zemfira evdə

idi və karaoke musiqisi ilə məşğul idi. Fürsətdən istifadə edən qardaşlar qapının ağzında görüşməli oldular. Əliyusif yeməyi verib geri qayıtmaq istəyirdi ki, birdən qardaşı onu saxlayıb yavaş səslə dedi:

- Deyirəm, dünya elə bil dağılır. Artıq insanlar Allahın buyurduqlarından qorxmayıb, nə istəyirlər onu da edirlər. Daha doğrusu onlar küfr işlərə əl atırlar.

- İndi, yenə də nə baş veribdir?

- Desəm inanmayacaqsan. – deyə Elşən əvvəlki tərzdə sakitcə dilləndi. – Amma sənə deyəcəyim sözlər aramızda qalsın. Dünən qonşularımız yenə də bir yerdə idilər. Sən demə Zemfira qonşu ölkədən Bakıya İncəsənət universitetinə daxil olmağa gəlmiş və təsadüf nəticəsində Məzahir ilə tanış olubdur. Ondan sonra o, yağlı vədlərə aldanaraq hegemon kişi ilə bir tavan altında yaşamağa qərar veribir. Məhz buna görə də qızın ailəsi bütünlüklə ondan üz döndəribdir.

- Ola bilməz? – deyə təəccübdən Əliyusifin gözləri bərələ qaldı. – Bu məlumat sənə haradan?

- Dünən onların arasında güclü mübahisə düşdü. Zemfiranın dedikləri belə idi: “Bakıya gələndə, mən müğənni olmaq üçün “Yeni ulduz” müsabiqəsinə qoşulmaq istəyirdim. Səninlə rastlaşanda mənə söz vermişdin ki, mənim mahnılarıma klip çəkdirəcək və həmin kliplər televiziya

kanallarında efirə veriləcək. Mən də həmin müsabiqədən imtina etdim". Məzahir müəllim isə dedi ki, "birincisi, mən səni zor gücünə öz yanımda saxlamamışam. Sən, məndə olan imkanı görən kimi könüllü olaraq, yanımda qalmağa öz razılığını bildirmişdin. İkincisi isə, hər şey hazırdır və təxminən iki həftə ərzində tamaşaçılar televiziya ekranında yeni ulduz görəcəklər".

- Deməli, Zemfira pula görə öz əzizlərindən üz döndəribdir? - deyə Əliyusif qardaşının dediklərindən vəcdə gəldi. - Allah-təala belə nankor insanları, yer üzündə necə saxlayır? Belə bir pozğuntuluğun qarşısı alınmasa, cəmiyyətimiz uçuruma yuvarlanacaq.

- Maraqlı odur ki, Məzahir söz verib ki, o, Zemfiranı Azərbaycan estradasının ulduzu kimi tanıtdıra-caq. Mən isə onun hansı səsə malik olduğunun şahidiyəm. Səs tembri yox, musiqi duyumu yox, müğənnilik istedadı isə elə bil anadangəlmə olmayıbdır.

- İstedadı olmayan bir adamı estrada ulduzu etmək üçün Məzahir 30-40 min manat xərcə düşəcək. Beş il keçəndən sonra kişi məşuqəsini əməkdar, on ildən sonra isə xalq artisti edər. Onsuz da bu adları almaq üçün istedaddan çox bacarıq lazımdır.

- Belə olan halda bizim istedadlar kölgədə qalacaqlar.

- Ölkə yiyəsiz deyil ki, həmin ünsürlər özlərinin iyrənc görkəmi, ətürpədici səsləri ilə Azərbaycan teleməkanında millətin ürəyini bulandırsınlar. Vaxt gələcək, mədəniyyətimizin əsl cəfakeşləri sayəsində həmin ünsürlər Azərbaycanın mədəniyyət səhnəsindən silinib, zibilliyə atılacaqlar.

- Yaxşı, qayıt evə. – deyə Elşən qapının ağzından ətrafa boylanaraq, narahat halda dilləndi. – Bir azdan, Məzahir müəllim Zemfiranın yanına gələcək. O, səni burada görsə, mənim üçün pis olacaq.

- Deyirəm axı, həyətdən kabab iyi gəlir. – deyə Əliyusif başını təqdiredici tərzdə tərpədərək rişxəndlə dilləndi. - Zemfira sadiq olduğu məşuqunun gəlişinə yaman möhkəm hazırlaşır.

## II fəsil. Xəyanətə aludə olan qadın

Bir çoxları yayı yola salıb yır-yığış edir, bağa göz gəzdirir, bir də növbəti mövsümdə gəlməli olacağı bağlarında bütün əyər-əskiki doldurmağa çalışırdılar. Digər sakinlərindən fərqli olaraq Zemfira belə etmirdi; o, hər

mövsümdə, ona lazım olanda buraya gəlirdi. Hamı bilirdi ki, bu bağ ona məşuqu ilə görüşməyə lazımdır. Müğənni bu evdə əsas havadarı Məzahirlə mütəmadi görüşdüyü halda, Natiq ilə ayda bir-iki dəfə, o da ki, yalnız hegemon kişi Bakıdan uzaqlaşdığı zaman, baş verirdi. Danışıldığı kimi bu gecə o, öz havadarı Məzahirlə görüşməli idi. Halbuki Zemfira gündüz vaxtını Natiqlə keçirmişdi. Şıltaq müğənni cavan məşuqu ilə görüşəndə bütün ehtiyat tədbirlərini bir daha nəzərdən keçirirdi. Hazırda onun ən çox ehtiyat etdiyi adam Əliyusif idi. Ona görə ki, məhz o, müğənninin Məzahirdən gizlin "Relax"da oynaşı ilə bir yerdə vaxt keçirdiyinin şahidi olmuşdu. Lakin həmin vaxt müxbirə böhtan atılmış və o, Zemfira ilə Natiqdən asılı vəziyyətə düşmüşdü.

Ən çox Əliyusifi təəccübləndirən o idi ki, nə əcəb həyasız müğənni Elşəni öz bağında qarovulçu kimi saxlayır. Axı, necə olsa Elşən onun görmək istəmədiyi müxbirin qardaşı idi və Zemfira inadkar müxbirdən acıq çıxmaq üçün onu işdən azad edə bilərdi. Düzdür, indiki məqamda müğənni Elşəni işdən çıxarmasa da, amma yeri gəldi-gəlmədi onunla pis rəftar edirdi. Zemfira istəyirdi ki, təbiətən sakit olan qarovulçusu onun təhqirləri və həyasız təzyiqləri qarşısında tab gətirməyib, nəhayət ona kobud cavab qaytarsın və bununla da onu işdən çıxartsın.

Zemfiranın yaşadığı o qədər də böyük olmayan ikimərtəbəli bağ evi altı otaqdan ibarət idi və evin ikinci mərtəbəsində böyük, geniş aynabənd vardı. Yay vaxtı hər hansı bir məclis olanda, hamı məhz aynabənddə toplaşırdı.

Havadarının gəlişinə hazırlıq görən müğənni vanna qəbul edən kimi, qonaq zalında süfrə hazırlamağa başladı. İndi süfrəyə ağ balıq qızartması, Elşənin bişirdiyi quzu ətindən kabab, qırmızı və qara kürü, mer-meyvə, göy-göyərti, şoraba, şirələr, ləbləbi, şotland viskisi, fransız konyakı düzülmüşdü.

Məzahirin göstərişinə əsasən, Zemfira öz iti ilə evdə olarkən, Elşən evə girməməli, həyətdə qalmalı idi. İti saxla-yan dayə isə artıq evinə göndərilmişdi. Evin qarovulçusu, manqalda ağ balıq bişirdiyi vaxt darvazanın arxasından maşın siqnalının səsi eşidildi.

Saat 11 tamam olmuşdu. Bu, bağın əsl sahibi Məzahir idi. Elşən dərhal darvazanı açıb, qara rəngli “BMV”-745 markalı maşını içəri buraxdı. Maşın Zemfiranın maşını ilə yanbayan dayananda, oradan kök, yekəqarın, kobud deyiləcək qədər yekə, yaraşıqsız sifətli, 55-60 yaşlı bir kişi düşdü. Görkəmcə çox zəhmli görünən bu kişinin kül rəngli saçı dağıldığından o, əlindəki daraq ilə başını daraya-daraya, Elşənə salam vermədən tələsik evə daxil oldu.

Məzahir içəri daxil olanda Zemfira jurnal masasının üstündə itinə kabab yedizdirirdi. Müğənninin əynində, dizdən yuxarı açıq yaşıl rəngli pünyar xalat vardı. Xalatın altında olan mini alt paltarlar aydın şəkildə sezilirdi və o, bu geyimindən azacıq olsa belə utanmırdı. Zemfira yerindən qalxıb, yorğun halda məşuqunun üzündən öpərək boynuna sarıldı. Onlar bir neçə dəqiqə mazaqlaşandan sonra, şam etmək üçün masa arxasına keçdilər.

Yaşlı kişi ağ balıq tikəsindən yeyən kimi masanın üstündə nəyinsə çatışmadığını gördü və o, qalın qaşlarının altından müğənniyə nəzər salaraq, bikef halda soruşdu:

- Başa düşmədim, yenə də araq yoxdur? Dünəndən tək qaldığım üçün, mən darıxdığımdan arağı içməli oldum. – deyə çaşqınlıq içərisində olan müğənni incik səslə dilləndi.

- Sən, haçandan bir şüşə arağı təkbaşına içməyə başlamısan? – Məzahir şübhə ilə dilləndi. – Yaxşı yadımdadır ki, spirtli içkilər arasında, sənin məhz arağdan zəhlən gedirdi. İçdiyin isə viski olubdur.

- Nədənsə, ağzımın dadını dəyişməyi qərara aldım. Sən demə, araq stressdən çıxmaq üçün ən yaxşı vasitə sayılır, - deyə aktrisa artıq söhbəti zarafata çevirmək istədi.

- Yaxşı, bəs qırmızı kürü hanı? – deyə Məzahir, daha onu dinləməyərək təəccüblə süfrəni nəzərdən keçirdi.

- Yediyimi yedim, qalanını isə Sisiyə vermişdim. – deyə havadarının halının dəyişməsinə əhəmiyyət verməyən Zemfira soyuqqanlıqla dilləndi.

- Sənə dedim axı, o köpəyə delikates mallar vermə. – deyə Məzahir bir qədər səsini ucaltdı. - Mən onun üçün bir torba it yemi - pediqripal almışam.

- Əzizim, son zamanlar sən, elə bil xəsisləşmisən. – müğənni ağız-burnunu büzərək narazılığını bildirdi. – Neyləyim ki, Sisinin nəfsi kabab, qırmızı kürü istəyir? İndi mən onun istədiyinə qadağa qoymalıyam?

- Heç kim deyə bilməz ki, Məzahir müəllim xəsisdir. Xəsis adam öz sevgilisinə bu qədər şey almaz. Mən sənə kifayət qədər pul xərcləyirəm. Evdə iki adam işlədirsən, hər birinə ayda 250 manat maaş verirəm. Gündəlik sənə 300 manat cib xərcliyi verirəm, bundan əlavə gözəllik salonlarına getmək və paltar almaq üçün ayda 3000 manat pul ödəyirəm. Evinə gələn ərzaqı heç saymıram. Bütün bunların qabağında sən deyirsən ki, mən xəsisəm?

- Acığın tutmasın, mən o mənada demədim. - deyə müğənni söhbətin belə şəkil aldığından ürkdü, tez ona yaltaqlandı. - Sisinin yeməyinə danışdığın üçün, əsəbiləşib belə dedim. Sən bilirsən də mən, onu necə əzizləyirəm?

- Mənim dediyim odur ki, itin öz yeməyi olmalıdır. Əsl qırmızı kürünü almağa bir çox ailələrin maddi imkanı

çatmır. Mən həmin delikatesləri məhz sənin üçün alıram ki, yemək barəsində narazılığın olmasın. Bəlkə, sən həmin delikatesləri Elşənlə Ninaya da (itin dayəsi) verirsən?

- Sən nə danışırsan? Birincisi mənim Elşəndən zəhləmim gedir, ikincisi isə Nina özü-özünə yemək bişirir. Səhv etmirəmsə, bu gün o, makaron bişiribdir. Bişirdiyi makarondan qazanda da qalıbdır.

- Əlbəttə ki, sənin itin həmin makarondan yemir. – deyə Məzahir rişxəndlə dilləndi.

- Ağ balıq, kabab, kürü olan yerdə Sisi durub makaron yeyəcək? – deyə müğənni siqaretini yandıraraq narazı halda xoşagəlməz söhbəti bitirmək istədi.

Yalan danışmaqda mahir usta olan Zemfira, əlbəttə ki, arağı, qırmızı kürünü o biri məşuquna, Məzahirdən qat-qat gənc olan aşnasına yedirtmişdi.

- Sən iti qudurdub başına dırmaşdıracaqsan, – deyə Məzahir birtəhər əsəblərini cilovlayaraq sakitcə dilləndi. – Sənə xəbərdarlıq edirəm, bundan sonra sən itə delikates mallar vermə, əks təqdirdə mən delikatesin bu evə göndərilməsini dayandıracağam.

Məzahirin hirsini soyutmaqda heç vaxt çətinlik çəkməyən müğənni, xalatının qabağını açıb, süzülə-süzülə havadarının qucağında əyləşdi və onun boynuna sarılaraq, incə səslə:

- Sən məni ac qoymaq istəyirsən? Axı, yaxşı bilirsən ki, sən evdə olmayanda, mən Sisinin yanımda olması ilə təsəlli tapıram. Bundan əlavə, sən şəhərdə tikdirdiyin binaların birində, mənə üçotaqlı mənzil verəcəyinə söz vermişdin.

- Mən sözümün ağasıyam və altı ay ərzində sən həmin hədiyyəni məndən alacaqsan. – Məzahir zərif qadını nəhəng ağusunda sıxaraq, təqdiredici tərzdə dilləndi. – İstəmərəm ki, mənim göyərçinim o biri sənət adamlarının yanında başıaşağı olsun.

- Əzizim, sən "ATV" telekanalının həyətinə görsən necə maşınlar gəlir, elə zənn edərsən ki, bura Bakı yox, London və ya Parisdir. Müğənnilərimizin sürdükləri maşınların qiyməti 50 min manatdan yuxarıdır. İnanırsan, hamısı da həmin qazancı toylardan əldə edirlər.

- Toylardan yox, sponsorlardan. – deyə zəhmli kişi düzəliş verdi.

- Elə hamı da öz sponsorları ilə öyünür və həmin sponsorların sayəsində onlar bahalı toylar əldə edirlər. Sənin imkanlı adamlardan ibarət çoxlu dost-tanışların var. Sən elə edə bilərsən ki, mən həmin milyonçuların övladlarının toyunu aparım?

- Həmin milyonçuların öz tanış müğənniləri olduğundan, mən bu məsələdə heç bir şey edə bilmərəm.

- Məzi, sənin səxavətin hamıya bəllidir və sən istəmərsən ki, - deyə məşuquna banan uzadan Zemfira nazı-qəmzə ilə dilləndi. - səni hədsiz dərəcədə sevən bir adamın könlünə soğan doğrayasan. Nə olar, bəlkə mənim bir ildən yuxarı sürdüyüm maşını dəyişəsən?

- Göyərçinim, “Xundau Tucson” əsl qadın maşınıdır. Həm də həmin maşın sənə yaman yaraşır.

- Əzizim, indi xanımların əksəriyyəti, son zamanlar dəbdə olan “Xundau Sonata” 6-cı sinif, maşını sürürlər. İnanırsan, nə dərəcədə rahat maşındır?

- Bilirəm. Bəs, sən haradan bilirsən?

- Bu yaxında bir rəqqasə də həmin maşından alıbdır. Mən onu studiyanın ağzında görmüşəm. İnanırsan, mən maşının yanından ayrıla bilmirdim.

- İnşaallah sən böyük ekranda özün üçün layiqli yer tut, ondan sonra sən istədiyin maşınla, həm də şəhərin mərkəzində bir mənzil ilə təmin olunacaqsan.

- O da qeydiyyat yolu ilə olacaq?

- Hələlik başqa variant yoxdur. Narahat olma, bir müddət keçəndən sonra həm bağ evinin, həm də alacağın mənzilin çıxarışlarını əldə edib, sənə bağışlayacağam.

- Həmin müddət nə qədər olmalıdır? – deyə Zemfira acgöz gözlərini havadarına tərəf zillədi.

- Gələn ilin Novruz bayramında. Amma bunun üçün sən çoxlu zəhmət çəkməlisən.

- Məgər, sənin zəhmətini çəkmirəm? – deyə Zemfira incimiş halda ondan ayrılaraq, öz yerinə keçdi və viski dolu badəni başına çəkərək, həmin tərzdə sözünə davam etdi. – Mən, hərəmxanada olan qadın kimi sənin qabağında pər-pər fırlanıram. Gecə saat 3-də də, 5-də də sən gələndə, mən sənin hüzurunda dayanıram, mənə mahnı oxutdurursan, lazım gələndə istəyini nəzərə alaraq, sənin üçün göbək rəqsi də oynayıram.

- Məhz bunun müqabilində, mən sənin bütün arzularını həyata keçirirəm – maşın, bağ evi, bahalı mebel, brend markalı paltarlar almışam və bundan sonra da alacağam. Mənim dediyim başqa şeydir. Görürsən də, son illər peyda olan müğənnilər telekanalları necə zəbt ediblər? Onlar mahnı oxumaqla, peşəkar sənət göstərməklə yox, şou göstərməklə, tez-tez studiyalara dəvət olunurlar.

- Sən bu barədə narahat olma, çətini iki-üç dəfə televiziyaya çıxım, ondan sonra görəcəksən ki, mən studiyalarda, mavi ekranda daimi görünən bir çox müğənnilərdən az, görünməyəcəyəm. Zemfira adı bütün xalqın dilində əzbər olacaq.

- Əgər, sən öz işinin ardınca, bu cür həvəslə gedirsənsə, deməli qısa müddət ərzində sən öz istəyinə nail olacaqsan.

- Ondan sonra hamı mənim qapımın ağzında növbəyə durub, məndən orijinal disk, avtoqraf istəyəcəklər. – deyə müğənni təkəbbürlə dilləndi.

Məzahir müğənnini bir qədər şübhəli halda süzərək, mövzunu dəyişmək üçün ciddi halda soruşdu. – Qarovulçu ilə necəsən? Sən evdə olan zaman o, səni durub kənardan süzmür ki?

- Sən, yenə də kolxozu mənə qısqanırsan? – Zemfira sir-sifətini turşudaraq, incimiş halda dilləndi. – Narahat olma, mən evə gələn kimi o, dərhal öz daxmasına yollanır.

Bu vaxt otaqdakı havanı dəyişmək istəyən Məzahir ayağa qalxıb evin qapısını açdı və iti baxışlarını məşuqəsinə yönəldərək, ciddiyyətlə dedi:

- Bax, dəfələrlə demişəm, buradakı qonşuların heç birisi ilə ünsiyyət qurma. Camaata üz verəndə astar istəyirlər.

- Bu haqda məsləhət verməyin artıqdır. Sən yaxşı bilirsən ki, mən buradakı adamları görəndə ürəyim bulanır. İndiki zamanda başımı qaşımağa belə vaxtım olmur. Sən bilirsən ki, mən yeni mahnı üzərində işləyirəm. Bir müddətdən sonra mən, ilk dəfə televiziya ekranına çıxacağam. Hər şey sənin tapşırığından asılı olacaq.

- Mən sənin pulunu ödəmişəm. Debütdən sonra çox güman ki, səni həmin studiyanın tok-şou proqramlarının

birinə dəvət edəcəklər. Sponsor haqqında suala isə cavabın bir olmalıdır, sponsor - Rusiyada yaşayan iş adamıdır.

- Əzizim, mənim məşhurlaşmağım tez bir zamanda baş versə, söz ver ki, qısa müddət ərzində gəlib mənim evimdə çəkiliş aparacaq və hansısa bir verilişdə nümayiş etdirəcəklər.

- Bircə o qalıbdır ki, gəlib sevgilimin alt paltarlarını dolabdan çıxartsınlar, sonra isə onları camaata göstərsinlər. Sən elə bilirsən ki, ekrana çıxanda, orada, evdəki kimi açıq-saçıq paltarlarda çıxış edəcəksən?

Elə bu an müğənninin iti həyətə qaçaraq, Elşənin bişiridiyi kababın ətrafında quyruq bulamağa başladı. Delikates yeməklərə öyrəşən küçük, içi kababla dolu olan qazanın qapağını açıb, oradan ət götürmək istəyəndə Elşən onu qovmaq üçün üstünə qışqırdı. İtinin üstündə yarpaq kimi əsən Zemfira, cəld çölə çıxıb, pünyar xalatda qarovulçunun üzərinə yeridi və gözlərini bərəldərək, əsəbi halda qışqırdı:

- Sənə kim ixtiyar verib ki, mənim itimin üstünə qışqırasan? Sənin başına elə oyun açaram ki, adın yadından çıxar.

- Zemfira xanım, sizin it qazana soxulduğu üçün, mən onu buradan qovmağa məcbur oldum. – deyə Elşən qarşısındakı adamın açıq qiyafədə görüb, çaşqınlıq

içərisində dilləndi. – İti qovmasaydım, qazandakı ətlər murdarlanacaqdı.

- Murdar özünsən. – vəcdə gələn müğənni iti qucağına alaraq, qarovulçunun üstünə qışqırdı. – Sən bir buna bax, Sisiyə kabab vermək istəmir.

- Xahiş edirəm, məni təhqir etməyin, əks təqdirdə, mən birdəfəlik çıxıb buradan gedəcəm. – deyə Elşən mərifətli tərpənib, qarşısındakı əxlaqsız qadının çöldə qalan əndamına baxmamaq üçün, üzünü manqala tərəf çevirdi.

- Ac qalmaq istəyirsənsə, çıxıb gedə bilərsən. – arsız müğənni hirsli halda fikrini bildirərək, evə qalxdı.

Öz ətrafındakılarına qarşı hədsiz dərəcədə sərt olan Məzahir məşuqəsinin belə bir erotik geyimdə qarovulçunun yanına getdiyinə görə iradını bildirsə də, son məqamda o, məşuqəsini sakitləşdirərək, qadını yataq otağına apardı. Şəhvət hissində olan məşuqlar yalnız bir saat müddətinə qonaq zalına qayıtdılar.

Evdə qoyulan qaydaya görə, Elşən öz işini bitirəndən sonra ev yiyəsinin razılığı ilə evinə getməliydi. Lakin həmin icazə verilmədiyindən o, ac qarnına həyətdə qalmışdı. Halbuki bir saat bundan əvvəl o, içəridəki adamlar üçün kabab bişirmiş və ondan bir tikə olsun belə, dadmamışdı. Vaxt-vədə çatanda, Məzahirin yadına düşdü ki, Elşən həyətdədir. O, yekə bir qaba kabab, meyvə-

tərəvəz qoymaq istəyəndə, Zemfira sinəsini qabağa verərək, qəzəblənmiş halda dedi:

- O, yaramaz mənim yazıq itimi manqalın yanından qovdu, sən isə ona kabab vermək istəyirsən? Həmin kobudun payı mətbəxdədir. Orada makaron var. Zəhmət çək, ona makaron ver.

- İtə kabab, insana makaron, bu maraqlıdır? – deyə Məzahir məşuqəsinə qəribə nəzər saldı. – Sən o, bədbəxti buradan didərgin salacaqsan.

- Bakıda qarovulçu azdır? – Zemfira təkəbbürlə dilləndi. – Bir elan verən kimi yüz nəfər hambal mənim qapımda növbəyə duracaq. Həm də mənim o qoyundan xoşum gəlmir. Bilirsən, o, mənə həyətdə nə dedi? Mən çıxıb birdəfəlik evimə gedərəm.

Xarakter etibarilə despot sayılan Məzahir, uşaqlıqdan xoşlamırdı ki, kimsə, onun qabağına şərt qoysun və yaxud da hansısa bir məsələdə, ona dəyərli məsləhət versin. Əslində, belə bir ara qızışdırmanın arxasında, Zemfiranın məkrli niyyəti vardı. O, hər vəchlə Elşəni buradan uşaqlaşdırıb, əvəzinə isə Natiqin sürücüsü Akifi evinə gətirmək istəyirdi. Müğənni sponsoruna qarşı etdiyi xəyanəti sığortalamaq üçün, evinə Natiqin bütün sirlərinə yiyələnən bir adamı gətirməyi planlaşdırmışdı.

- Nə olar, mən yaxın günlərdə onun yerinə adam taparam.

- Buna ehtiyac yoxdur, - deyə Zemfira tələsik dilləndi. – Studiyanın həyətində bir bağban oğlan var. Onu bura gətirsək, evimiz və həyətimiz səliqə-sahman içərisində olacaq. Sadəcə olaraq, maaşını 400 manat edərik.

Zemfira ifadəsini bitirən kimi masanın üstündən bir tikə kabab götürüb, itinə verdi. Əxlaqsız qadının bu hərəkətini alqışlayan Məzahir, mətbəxə gedib, oradan bir qab makaron götürdü və qapını açıb qabı qarovulçuya ötürdü.

Evin sahibinin belə bir alçaldıcı hərəkətini özünə təhqir hesab edən Elşən, ac olsa belə, tox olduğunu bəhanə gətirərək, makarondan imtina etdi. Onsuz da o, beş-altı saat bundan əvvəl qardaşının gətirdiyi kartofu yemişdi. Qarovulçunun incidiyinə heç bir əhəmiyyət verməyən Məzahir sərt sifət göstərərək, istirahət etmək üçün onu evinə göndərdi.

## III fəsil. Samovar çayı arxasında maraqlı söhbət

Ertəsi günü sübh tezdən oyanan Əliyusif boksla məşğul olmaq üçün bağa çıxdı. Lakin yetişmiş sarı əncirləri görüb fikrini dəyişdi, əvvəlcə o, əncir ağacına çıxıb əncir yemək istədi. Ağaca çıxıb buradan əl içi kimi görünən qonşu həyətə - Zemfiranın həyətinə nəzər saldı. Sübh tezdən olduğu üçün həyətdə heç kim yox idi. Geçə vaxtı müğənni maşınını necə saxlamışdısa, elə də qalmışdı.

Hava çox isti, lakin küləkli idi. Müxbir tut ağacının yoğun budağından asılan qumla dolu kisəyə zərbələr endirməklə, yumruq zərbələrinin kəsərini artırırdı. O, məşqləri elə tempdə aparırdı ki, sanki hansısa bir ciddi yarışa hazırlaşırdı. Havaların belə isti keçməsinə baxmayaraq, Əliyusif ən azı gündə bir saat bağda idmanla məşğul olurdu.

Məşqdən sonra o, zehnini itiləşdirmək üçün mütaliəyə keçirdi.

Elə həmin gün Əliyusif günorta vaxtı internetə çıxaraq, şou-bizneslə bağlı bütün saytları nəzərdən keçırməyə başladı. Hal-hazırda o, Azərbaycanda mənəviyyatın şou-biznes aləmi tərəfindən pozulmasına dair silsilə məqalələr hazırladığından, bu məsələ ilə bağlı bütün materiallar ona

maraqlı gəlirdi. Materiallar o qədər çox idi ki, aludəliklə oxuduqlarına başı qarışan müxbir zöhr namazı vaxtını xəbər verən azanı eşidəndə, günorta yeməyini yemək üçün fasilə verməli oldu.

Bir yandan Xədicə də evdə qonaqların gəlişinə hazırlıq işləri görürdü. Onun dəvəti ilə bu gün Qənirə hər iki qızı ilə birlikdə təşrif buyurmalı idi. Hamıdan çox həmin gəlişi Əliyusif səbirsizliklə gözləyirdi.

Yemək tam hazır olana qədər Əliyusif, qəzet köşkündən özünə lazım olan qəzetləri almağı qərara aldı. Bu məqsədlə o, evindən çıxıb kəndin mərkəzinə doğru yollandı.

Qardaşı Elşən bir qədər qaradinməz olduğundan o, dünən başına gələn təhqiramiz hadisəni heç kimə ərz etmədi. Çünki onun fikrincə, Əliyusif həmin hadisədən hali olsa, onda o, dərhal yanlış addımlar atmalı olacaq, özünü saxlamayıb qəti, lakin xoşagəlməz nəticələr verə biləşək tədbirlər görəcəkdir.

Müxbir öz evindən bir neçə addım aralanmışdı ki, birdən Arifin maşını onun yanında dayandı. Əliyusif tez ayaq saxladı. Qonşusu Arif yaşlı olmasına baxmayaraq, cəld addımlarla Əliyusifə yaxınlaşıb onunla salamlaşdı. Jurnalist onu görən kimi təəccübünü gizlətmədi.

- Arif müəllim, sizi şux vəziyyətdə gördüyümə çox şadam. – deyə Əliyusif hərarətlə dilləndi. - Görünür, cərrahiyyə əməliyyatının böyük xeyiri olubdur.

- Əlbəttə! – deyə cavabinda öz sevincini gizlətməyən Arif yüksək əhval-ruhiyyə ilə dilləndi. – Hal-hazırda ürəyim saat kimi işləyir. İndi bax, bir aya yaxındır ki, mən özümü sanki bir qədər cavan adam kimi hiss edirəm.

- Allah özü sizə yar olsun. Arif müəllim, qonşu ilə necə yola gedirsiniz?

Bir anda üzü tutqunlaşan Arif acı bir şey dadmış kimi üz-gözünü büzüşdürüb:

- Zemfira və onun havadarı Məzahir kimi axmaq adamları heç vaxt görməmişdim. Elə infarkt miokardı onlara görə tutdum. Haqq-nahaqq onlar məzlum qadını şərləmişdilər. Əsəbləri tab gətirməyən qadın son nəticədə əsəb gərginliyi diaqnozu ilə xəstəxanaya düşdü, - deyə kal səslə dilləndi.

- Bunu hamı bilir. – deyə Əliyusif təqdiredici tərzdə dilləndi. – Heç olmasa, onlar xəstəxananın xərcini ödədilər, ya yox?

- Onların pulları ancaq eyş-işrət işlərinə xərclənir. Adamı yandıran odur ki, həmin həyasız müğənni, Qumru xanımın, səhhətinə zərər yetirdiyinə görə xəstə qadına pul vermək əvəzinə, ondan pul almağa cəhd göstərmişdi.

Müstəntiqin dediyinə görə Zemfira, itin müalicəsinə 500 dollar pul xərcləmişdir. Həmin pulu Qumrudan almaq üçün pozğun qadın, cürbəcür şantajlara əl atmış, o cümlədən, məzlum qadının oğlu Nicatı da polislərə tutdurmaq istəmişdir. İndi həmin hadisə təzədən yadıma düşəndə əsəbdən bədənim tir-tir əsir.

Arifin dərdini başa düşmək olardı. "Relax"dan qayıdandan bir neçə gün sonra Zemfira həyət qapısının ağzında itinə camış südü alanda, küçük gözlənilmədən yola qaçır. Bu vaxt Nicat velosipedi ilə müğənninin qapısının yanından keçirdi. Yağışdan sonra yolda balaca gölməçə olduğundan su itin üstünə sıçrayır və heyvanın əynindəki ipək jilet çirklənir. İtinin palçıqlı olduğunu görən Zemfira qışqır-bağır salaraq, əlindəki camış südünü yeniyetmə oğlanın üstünə tökür, onu əlindəki plastmas butulka ilə vurur və anasını söyməyə başlayır. Həmin məqamda səs-küyə yetişən Qumru coşmuş müğənninin qollarından tutub, onu oğlundan uzaqlaşdırmışdı. Bunu əsas tutan Zemfira, tanımadığı qadının ona qarşı zor işlətməsi ilə bağlı polisə şikayət edir. Belə bir haqsızlığa tab gətirməyən Arif qonşusu olan, məzlum qadını müdafiə etmək üçün polis məntəqəsinə gedir və orada pozğun müğənninin həyasızlığını görəndə onu infarkt tutur və kişini dərhal xəstəxanaya çatdırmışdılar. Elə həmin günü Qumru da əsəb gərginliyi ilə xəstəxanaya düşür.

- Arif müəllim, sizin qulluğunuzda hazıram. Gedək bizə çay içməyə.

- Çox sağ ol, başqa vaxt. Əli, bilirsən, cəmiyyətdə yaranan təzadları, insanlar arasında baş verən biganəliyi, ölkədə baş verən haqsızlığı görəndən sonra mən hikmətli sözlər yazmağa başladım. İstəyirəm həmin toplunu kitab şəkilində çap edib dost-tanışlara paylayım. Bu işdə mənə kömək etsən, sənə minnətdar olaram.

- Narahat olmayın, mən nəşriyyat ilə danışıb, lazımi köməkliyi sizə göstərərəm.

- Kitabın çapına nə qədər pul lazım olsa, mənə bir həftə əvvəl deyərsən. – Arif sözünü bitirəndən sonra maşının qapısını açdı və bu an, əks tərəfdəki qapını həmsöhbətinə göstərərək, ehtiramla sözünə əlavə etdi. – Əli, xahiş edirəm, otur maşına gedək bizə. Dəmiri isti-isti döymək lazımdır. Sən kitabı indidən nəzərdən keçirsən, mən xətircam olaram.

Müxbir başqa bir vaxt gələcəyini bildirsə də, Arif ona təkidlə bildirdi ki, aforizmlərlə bağlı olan **"Hikmətli kəlamlar"** adlı kitabı nəzərdən keçirmək üçün, Əliyusif bütün işlərini kənara qoyub, mütləq onunla evinə yollanmalıdır. Müxbir etika xatirinə yolda rastlaşdığı bu insanpərvər kişinin sözündən çıxmaq istəmədi, lakin son məqamda Qənirəgilin onlara gələcəyi yadına düşdü və Arif müəllimə

qonaq gözlədiklərini çatdırdı. Qənirənin gəlişini eşidən Arif sevindi və təkidlə dedi ki, qonaqlardan heç olmasa biri onlara keçsin. Onlar Qənirəgilə elçi gedəndən sonra Ofeliya israrla bildirmişdi ki, işdir, Qənirə uşaqları ilə birlikdə Novxanıya gəlsə, onda mütləq onun da qapısını açsın. Əliyusif də söz verir ki, həmin dəvəti qonaqların yadına salacaq.

Günortaya az qalmış qonaqlar gəlib çıxdılar. Evdəkilər hamılıqla əl-ayağa düşüb, əziz qonaqların qulluğunda durmağa başladılar. Müxbir isə hamıdan icazə alıb, nişanlısını yazdığı yeni məqalələri ilə tanış etmək üçün öz otağına apardı. Əslinə baxanda Gülnarə ilə ürək dolusu söhbət etmək üçün bu bir bəhanə idi. Lakin heç beş dəqiqə keçməmiş Xədicə Əliyusifə çatdırdı ki, Arif ilə Ofeliya onların hamısını evlərinə dəvət edir. Qənirə ailəlikcə çoxdan burada olmadığından, bu gün o, Arifgilə qonaq gedə bilməyəcəyini dedisə də  buna rəğmən ana Gülnarəyə nişanlısı ilə birlikdə Ofeliyaya dəyməyə icazə verdi. Böyüklərin sözündən çıxmağa öyrəşməyən müxbir, nişanlısını götürüb tez, ən yaxın qonşuları sandığı Arifgilə getdi.

Arifin bağ evi yolun o biri tərəfində, təxminən 60-70 addım solda, yerləşirdi. Onlar darvazadan içəri girən kimi qarşılarında üç mərtəbəli mansardalı mülk göründü. Bu qonşu Arifin evi idi; darvazadan evə qədər uzanan yola

qırmızı tava daşları düzülmüş və həmin yolun üstünü örtən üzüm talvarı burada sıx kölgə yaratmışdı. Mülkdən sol tərəfdə sıx yaşıllığa qərq olan bağça meyvə ağaclarından ibarət idi. Arif onları qarşılayıb birbaşa evə apardı.

Professor Fikrət Zeynalov da ertədən orada idi və vaxtın asudəliyindən istifadə edərək, qohumunun yazdığı kitabı nəzərdən keçirirdi. Peşəkar səhiyyə işçisinin özünəməxsus bir xarakteri vardı; sözü üzə deyər, xoşladığı adamı tərifləyər, acığı gəldiyi şəxsin isə əməllərini tənqid etməkdən çəkinmirdi. O, Əliyusiflə istirahət mərkəzində tanış olan zaman xasiyyətindən xoşu gəlmiş və onunla hər hansı bir mövzuda olursa-olsun, söhbət etməkdən böyük həzz alırdı. Həmin tanışlıqdan sonra Fikrət nə vaxt Arifin yanına gəlirdi elə hey istəyirdi ki, o orada olan zaman Əliyusif də ora gəlsin.

Son günlər Ofeliya özünü nasaz hiss etdiyindən indi o, divanda yarıoturmuş vəziyyətdə dincəlirdi. Gözlənilmədən xəstəliyə düşən qadının anası Səkinə də orada idi və yaşının səksəndən yuxarı olmasına baxmayaraq o, qızının qulluğunda durur, bütün günü ayaqüstə o yan bu yana fırlanmaqdan yorulmurdu. Onun bu cəfakeş hərəkəti, fədakar, qayğıkeş davranışı ən çox Gülnarənin təəccübünə səbəb olmuşdu. Səkinə nənə kimi yaşlı olan qadının özünə qulluq lazım olduğu halda o, özü başqasının qulluğunda

durmuşdu. Ümumiyyətlə, bu qadının özü də ziyalı idi və yaşının bu çağında dara düşmüş hər bir adama lazımlı və dəyərli məsləhətlər veririrdi. İş ondadır ki, Səkinə nənə ağıllı məsləhətləri ilə həmin adamları dardan çıxmasına nail olurdu.

- Əli, balam, Allah hər ikinizi xoşbəxt eləsin. – deyə Səkinə nənə qonşusunun alnından öpdü və eyni qaydada rəssam qızın üzündən öpərək, onun bənizini diqqətlə nəzərdən keçirə-keçirə heyranlıqla sözünə əlavə etdi. – Əli, sən qız yox, əsl ay parçası tapmısan. Təki, xasiyyəti də bənizi kimi gözəl olsun.

- Xala, tam əmin ola bilərsən, - deyə Arif müxbirin yerinə cavab verdi. – qızın xasiyyəti onun bənizindən qat-qat gözəldir.

- Yaxşıdır ki, sən qız ilə birlikdə bura gəlmisən. – deyə Səkinə nənə nəzərlərini qızdan çəkmədən nəvazişlə dilləndi. – Nişan münasibətilə mən sizə hədiyyə hazırlamışam. Xahiş edirəm gedəndə, həmin hədiyyəni buradan aparasan.

- Zəhmət çəkdiyinizə görə sizə əvvəlcədən öz minnətdarlığımı bildirirəm. – deyə belə bir vəziyyətdə utanan müxbir sıxıla-sıxıla dilləndi.

- Allah ömür versə, mən sizin toyunuzda iştirak edəcəm. – deyə Səkinə nənə təşəxxüslə dilləndi.

Əliyusif bir qədər söhbət edəndən sonra Gülnarəni xəstə qadının yanında qoyub, özü Arif ilə aşağı düşdü. Onlar söhbət etmək üçün birbaşa bağçaya yollandılar.

Sabiq terminal rəisinin davamlı olaraq bağda yaşadığından o, həqiqətən də burada cürbəcür ağaclardan ibarət gözəl mənzərəli bir bağça yarada bilmişdi. Yazın sonundan ta qışın əvvəlinə qədər, buradakı meyvə ağacları yaxşı bar verirdi. Hazırda əncir və şaftalı meyvələri, bar verdikləri ağaclara xüsusi gözəllik verirdi. Yay fəsli yenicə girsə də, hava əsən mehin sayəsində sərin idi.

Arifgil cığırla gedib, hündür qoz ağacının altında düzəldilmiş talvarda, samovarın yanında əyləşdi. Fikrət artıq orada idi və ətrafdakı mənzərəni seyr edirdi. Talvarın bütün ətrafı qızılgül, bənövşə, payızgülü və digər gül kolları ilə bəzədilmişdi.

Samovarın bacasında od közərdiyindən və yaxınlıqda olan manqala kömür düzüldüyündən müxbir həmin an başa düşdü ki, qonaqların gəlişi üçün ev sahibi əvvəlcədən hazırlıq işi görübdür. Dəm çayniki samovarın başına qoyulmuşdu. Çaynik dəm alana qədər Arif, içərisi kağız ilə dolu olan bir qovluq gətirib, masanın üstündə açdı. Əliyusif böyük həvəslə kağızlarda yazılan bəzi aforizmləri oxumağa başladı. O, beş-on dəqiqə aforizmləri nəzərdən keçirəndən sonra, diqqətini kağızdan ayırmadan aludəliklə dedi:

- Arif müəllim, fransız astronomu Jozef Delil yaxşı deyibdir: *"Bir yerə toplanmış ən gözəl və müdrik fikirlər düynanın ən qiymətli xəzinəsi olardı".* Bu kəlamlar yalnız insanın daxili aləminə deyil, həm də insanın baxdığı, əlaqədar olduğu məkanı, fəzanı, zamanı da aydınlığa qovuşdurur. Hər kəlamın öz məqamı, öz zamanı var və hər mənalı kəlam milyonlarla insanın cismində dillər əzbəri olur.

- Əli, demək istəyirəm ki, 42 illik mənalı bir ömür həm də bir həyat məktəbidir. Bu məktəbdən bəhrələnmək, ondan faydalı, lazımi nə varsa götürmək, bu gün xüsusilə, cavanlarıımıza da çox vacibdir. Çünki bəzən həyatda elə insani münasibətlər yaranır ki, onlar heç bir qanunla tənzimlənə bilmir.

- Bu münasibətlərdən konkret nəticələr çıxarmaq yeniyetmə və gənclər üçün həyati əhəmiyyətə malikdir. – deyə müxbir dilləndi.

- Kitabda verilən hikmətli sözlər konkretlik və yığcamlığına görə fərqlənir. – deyə kitabın müəllifi bu məsələyə dair ayrıca fikir bildirdi. - Onları oxuyarkən, hansısa kəlamın nə vaxtsa eşitdiyinin şahidi ola bilərsən. Lakin oxuyarkən onların üzərində düşünmək lazımdır. Bu zəruriyyət gələcəkdə düşdüyün vəziyyətdən çıxmağın düzgün yolunu sizə göstərə bilər. Ona görə də bu kəlamların gənc nəslin əqidəsində özünəməxsus yer tutacağına

şübhəm yoxdur. Düşüncə ən böyük ibadətdir, çünki onun köməkliyi ilə daxilimizdəki həqiqələri aşkar edirik.

- Gerçək aləmin zahiri görünüşünə aldanmaq lazım deyil, - həkim Bakı paxlavasından bir dilim qabına qoyub aludəliklə dilləndi. - orada baş verən əsrarəngiz proseslərə aludə olmaq istəyəndə, onda zahiri görünüşündən çox, onun daxilinə dərindən varmaq lazımdır. Bu isiqamətdə adama, müəyyən mənada kitabda yazılan hikməli sözlər havadar ola bilər. Düşüncələrə qərq edən həmin kəlamlar, həm keçmişi, həm də gələcəyi adamın gözləri önünə gətirir.

Daim əsrlər boyu Azərbaycan vətəndaşı sözün gücünə, sözün qüdrətinə, sözün mənasına xüsusi diqqət yetiribdir və bunun sayəsində bizim məmləkətdə xüsusi məna kəsb edən hər bir kəlama xüsusi diqqət yetirilibdir. Sözün qüdrəti onun hikmətli mənasındadır.

- Həqiqətən də bu kəlamlar nadanlığa üstünlük verən bəzi üzdəniraq cavanlarımıza, - Arif dilləndi. - xüsusən də, şou aləmində özünü nümayiş etdirən mənəviyyatdan kasıb olan müğənnilərə ibrət dərsi olmalıdır.

- Təəssüflər olsun ki, həmin adamlar belə kitabların heç üzünə belə baxmaq istəmirlər. – müxbir ürəkyanğısı ilə dilləndi. - İndiki müğənnilərimiz göylə gedirlər. Arif müəllim, kitab çapa getməzdən əvvəl, mütləq redaktə olunmalıdır.

- Bu işdə sən mənə yardımçı olmalısan. – deyə yaşlı ziyalı ümidlə dilləndi. - Xərci nədir, hamısını ödəyəcəm.

Nəhayət fikrini  başa çatdıran Arif həmin an yerindən qalxıb, çayniki samovardan götürdü və stəkanları çayla doldurmaq istəyəndə cavan oğlan onu qabaqladı. Adəti üzrə Arif həmişə evinə qonaq gələndə çay süzməyi özü xoşlayırdı. Lakin bu dəfə Əliyusif bu işi öz boynuna götürdü. Bağ sahibi özü şəkər xəstəliyindən əziyyət çəksə də, o, əvvəlcədən masanın üstünə şəkərbura, paxlava, kətə və iki-üç cürə mürəbbə qoydurmuşdu. Bu onun qonaqpərvər olmasından xəbər verirdi.

## IV fəsil. Televiziya proqramlarnın seçimində tamaşaçıların rəyi nəzərə alınmalıdır

Gözlənilmədən gül kollarının arasından dörd-beş yaşında olan bir qız uşağı çıxdı və o, əlində balaca qutu evin sahibinə yaxınlaşaraq şirin səslə dedi:

- Baba, ala, şəkər qəndi ilə iç.

Əliyusif o dəqiqə Aydanı tanıdı. Babası çay içərkən, daim diabetlər üçün nəzərdə tutulan qənddən istifadə

etdiyindən, uşaq həmin qutunu yadda saxlamış və çay dəsgahı zamanı, o, həmişə həmin qutunu babasına gətirirdi. Babası şəkərburanın birini nəvəsinə uzadaraq onun üzündən öpdü. Aydan gözütox uşaq kimi ona verilən neməti masanın üstünə qoyaraq gəldiyi kimi də qəfildən gül kolluqlarının arasında yoxa oldu.

- Maşallah, Aydan çox şirin uşaqdır. – deyə Arif təbəssüm hissilə dilləndi və əli ilə həmin gül kolluqlarını göstərərək, həmin tərzdə sözünə əlavə etdi. – bu gül kolluqlarını görürsən, Aydan mənimlə birlikdə həmin çiçəkləri sulayaraq bəsləyibdir.

İsti çay içməyə vərdiş edən Arif, buxarı çıxan çaydan bir neçə qurtum içərək, Əliyusifə masadakı təamlardan dadmağı buyurdu. Jurnalist Bakı paxlavasından yeyərək, öz fikrini bildirməyə çalışdı: “Həmişəki kimi Ofeliya xalanın paxlavası mağazalarda satılanlardan dadlıdır”.

- Əfsuslar olsun ki, Ofeliya xalan səhhəti ilə bağlı son aylar şirniyyat bişirə bilmir. – deyə ziyalı təəssüflə dilləndi.
- Həmin şirniyyat Nurlanın həyat yoldaşı Günayın məhsuludur.

Elə bu an ev sahibinin mobil telefonu səsləndi. O, qulaq asandan sonra başını təəssüflə yellədə-yellədə oğlu Elçinə zəng edərək dedi:

- Mənim iş yoldaşımın maşınını yol polisi saxlayıbdır. Onun dediyinə görə o, yol qaydasını qətiyyən pozmayıbdır. Elçin, çalış polislər onun xətrinə dəyməsinlər. Onun işinin qaydasına salınmasına çalış kömək et.

Arif telefonu söndürəndən sonra, beynində nəsə götür-qoy edərək təşəxxüslə dedi:

- Əli, sonuncu məqalən bir çoxlarının xoşuna gəlməyəcəkdir. Xüsusən də, yerli telekanalların rəhbərləri həmin məqaləni qərəzli hesab edərək, onun sifariş olduğunu iddia edəcəklər.

- Əslində həqiqət heç kimi qıcıqlandırmamalıdır. – deyə jurnalist tərəddüd etmədən dilləndi. – Yazılar qərəzlidirsə, məni məhkəməyə versinlər.

- İndiki zamanda ən çətin iş həqiqəti üzə söyləməkdir. – deyə yaşlı həkim dilləndi. - Lakin buna baxmayaraq, haqsız adam cəmiyyətdə nüfuz sahibidirsə, o, istədiyi şəkildə hər bir şeyə təsir edə bilər.

- Haramçılıqla pul qazanan insan o qədər özünə və özünə bənzər insanlara güvənir ki, - Əliyusif dilləndi. - o, istər-istəməz özünü yüksəklikdə hiss edir və ayağının altını görmür. O, bir növ özünü hegemon kimi aparmağa vərdiş edir. Məhz elə insanlar cəmiyyət arasında tarazlığı pozmağa çalışır.

- Elə insanlar cəmiyyət arasında tarazlığı pozurlarsa, - Fikrət dilləndi. - biz də elə ünsürlərə qarşı mübarizə aparmalıyıq. Susmaq bizim hamımızı fəlakətə sürükləyəcək.

- Bircə şeyi başa düş ki, azlıq çoxluğa tabedir. – deyə ev sahibi məyus halda dilləndi. - Belə olan təqdirdə, qeyri-ixtiyari olaraq biz, onların hərəkətləri ilə barışmalıyıq. Əlbəttə ki, bu müvəqqəti xarakter daşıyır. Amma vaxt gələcək hər şey öz qaydasında cərəyan etməyə başlayacaq.

Araya müəyyən sükut çökən kimi darvazanın qapısı döyüldü və Nurlan qapını açan zaman Xədicə, Mədinə və onların qonaqları içəri daxil oldular. Onlar həyətdə dayanmadan Ofeliyanın dəvətilə yuxarı qalxdılar.

Arif evin sahibi kimi gələn qonaqları salamlayandan sonra geri qayıtdı və talvarın yaxınlığında olan manqalın yanına bir neçə odun parçası düzüb, öz yerinə keçdi. Mövzudan kənara çıxmaq istəməyən neft mütəxəssisi yerini rahatlayıb təmkinlə dedi:

- Bir müddət əvvəl bizim müğənnilər hansısa bir veriliş aparmaqla, televiziya məkanında yeni bir format yaratmağa və həmin formata uyğun tamaşaçı kütləsini ekran qarşısına toplamağa çalışdılar.

- Lakin bəzən elə də olur ki, aparıcılıq qabiliyyəti olmayan, hərəkətlərini tənzimləyə bilməyən bir adama veriliş aparmaq həvalə olunur və belə bir namizəd ziyalı

təbəqəni, yaşlı nəsli, ümumiyyətlə, ciddi adamları həmin verilişlərə baxmaqdan məhrum etdi. – bu məsələyə aydınlıq gətirmək istəyən səhiyyə işçisi həvəslə dilləndi. - Düzdür, onlar həmin proqramlarda redaktorların istəyi ilə veriliş aparsalar da, mövzu məsələsinə diqqətlə yanaşmaq lazım idi. İş ondadır ki, açıq-saçıq geyinən, saxta pafosla danışan, millətdən həya-abır etmədən sənət dostları ilə dava edəndə ağızlarına gələn sözləri söyləyən həmin naşı aparıcılar mədəniyyət, tərbiyə, əxlaq, etika ilə bağlı məsələlərə toxunmamalıydılar. Amma Azərbaycan səhnəsində öz sözünü deyən hər hansı bir sənətkar televiziya kanalında veriliş aparanda, həmin tamaşaçı kütləsinin bir hissəsi yenidən ekran qarşısına qayıtmalı olur. Bu bir növ həmin sənətkarın ictimai fəaliyyətinin uğuru sayılır. Lakin bütün bu müvəffəqiyyətə baxmayaraq, bir də görürsən həmin veriliş bağlanır və istəkli tamaşaçılar intizarda qalırlar.

- Yaxşı ki, bir müddətdən sonra "Lider" kanalında, - deyə neft mütəxəssisi əlavə etdi. - tanınmış müğənnimiz, bənzərsiz sənəti ilə yüz minlərlə fanatını öz ətrafında birləşdirən Könül Kərimovaya aparıcılıq missiyası həvalə olunaraq, "Bir könüldən min könülə" proqramı yaradıldı və yenə də zövqlü tamaşaçıları ekran qarşısına qaytardı. Bu əsasən, onun yaradıcılığını izləyən, onun sənətinə aşiq olan, onun heyranedici səsinə mat-məəttəl qalan fanatlardan

ibarətdir. Həmin kanal aparıcı seçimində hədəfi düzgün nişan almışdı, ona görə ki, Könül xanım özünün mədəniyyəti, qabiliyyəti, ifaçılıq tərzi və qeyri-adi səs tembri ilə ətrafına cavandan tutmuş qocaya kimi xeyli sayda fanatlar dəstəsi toplaya bilibdir. Fərəhləndirici hal odur ki, studiyada olan ansambla şəxsən tanınmış bəstəkar Cabbar Musayevin özü rəhbərlik edir və hərdənbir Könül xanımla duet oxuyarkən, televiziya ekranları qarşısında olan tamaşaçıları sevindirir.

- Format fərqli olasa da, Könül Kərimova peşəkar aparıcılara xas olan bir tərzdə məşhurluq qazana bildi və qısa vaxt ərzində müğənni ilə aparıcı sənətini simbiozlaşdırmağa nail oldu. – Fikrət aludəliklə dilləndi. - Birincisi o, bir sənətkar kimi uzun illər özünü xalq arasında kifayət qədər tanıtdırıbdır, ikincisi Könül xanım bir çox müğənnilərə nisbətən intellektual potensiala malik olan adam olduğu üçün, o, qısa müddət ərzində qabiliyyəti, bacarığı və çoxillik təcrübəsi ilə tamaşaçıların rəğbətini qazana bildi.

Şəxsən mənim Könül xanıma əsl sənətkar kimi böyük hörmətim var. İş ondadır ki, o, qəlbən çox ürəyiaçıq, xoşxasiyyətli, təmkinli və təvazökar bir insandır. Könül Kərimova öz verilişində müğənniliyə ürəklə yiyələnən istedadlı adamlara yer verir ki, onlar öz porensiallarını

nümayiş etdirməyə imkan tapsınlar. Ən əsas isə odur ki, o, verilişinə dəvət etdiyi adamı səbrlə dinləməyi bacarır, onların verdikləri səmərəli təklifləri məmnuniyyətlə qəbul edir. Bir sözlə, Könül Kərimova həmin verilişi çox təbii şəkildə aparmaqla, qısa müddət ərzində öz ətrafında çoxsaylı tamaşaçı auditoriyası toplaya bilibdir, həmin tamaşaçılardan biri də mənəm.

- Müğənnilər arasında şən və baxımlı veriliş aparmaqda elə artist var ki, o, veriliş zamanı müəyyən bir bacarıq nümayiş etdirir. – deyə Əliyusif üzrxahlıqla əlavə etdi. – Bəzi proqramlar həqiqətən də əyləncəli veriliş sayılır və ora dəvət olunan şou-əhli elə suallarla rastlaşırlar ki, bu onların eyiblərinin açılmasında mühüm rol oynayır.

- Amma elə aparıcı da olur ki, onun hərəkətləri unikallığına görə hamıdan fərqlənir, yerişi, duruşu, sanki avtomobil qəzasından çıxan xəstə adamın hərəkətlərinə bənzəyir. – deyə ağbəniz ziyalı həmsöhbəti ilə razılaşmadığını bildirdi. – Bilmək olmur, həmin adam radikulitdir, yoxsa ayaqları birdəfəlik deformasiyaya uğrayıbdır.

İndiki məqamda məni başqa bir şey maraqlandırır; nəyə görə müasir dövrün bəzi müğənniləri və aparıcıları səhnəyə çıxmamışdan əvvəl güzgüyə baxmırlar? Həmin səhnə nümayəndələrinin paltarlarının seçimi isə lap gülməlidir. Sanki onlar həmin paltarları zirzəmilərdə gecələyən

bomjlardan, vokzal ətrafında çörək pulu qazanmağa çıxan dilənçilərdən borc alaraq, səhnəyə çıxır. Həmin adamlar sirkdə işləsələr, daha effektli olar.

- Yadınıza salmaq istəyirəm ki, ATV kanalında yayımlanan *"Tanıdım səni"* adlı yeni proqram fəaliyyət göstərməyə başlayır. – Fikrət sanki yadına düşmüş bir şey kimi dilləndi. - Həmin layihənin rəhbəri Azərbaycanın cürbəcür bölgələrində yaşayan və öz potensiallarını nümayiş etdirə bilməyən əsl istedadların üzə çıxarılmasında mühüm işlər görür. Təsəvvür etsək ki, həmin proqramın komissiya üzvləri əzab-əziyyətə qatlaşaraq, ölkəmizin ən ucqar yerlərinə gedib orada istedadlar arayır və bacarıqlarını nümayiş etdirmək üçün həmin yaradıcı insanlara mavi ekranda şərait yaradırlar, bu onların həmin verilişə olan böyük məhəbbətindən və həmin insanların bacarıqlarına biganə qalmamalarından xəbər verir. Bu məsələdə mən həmin layihə üzvlərini alqışlayıram. Dediyim odur ki, belə bir proqram olmasaydı, biz yarışmanın qalibi olan Lalə Hüseyzadənin sənətkarlığından, istedadından geniş şəkildə məlumatlı olmayacaydıq.

- Fikrət müəllim, həqiqətən də layihədə iştirak edənlərin bacarıq və qabiliyyətləri hamımızın təəccübünə səbəb olmuşdu. – deyə Arif əlavə etdi. - Lakin məni ən çox təəccübləndirən istedadlar yox, komissiyada yer tutmuş, hər

həftə başında saçından cürbəcür əcaib fiqurlar düzəltdirən müğənnidir. Mənim fikrimcə, insan gərək özünü bu dərəcədə qeyri-adi vəziyyətə salmamalıdır. Ona görə ki, onlar bölgələrə səfər edərək, əsasən uşaqlar arasında istedadlar axtarırlar. Elə görkəm uşaqlarda və rayon əhlində xoş təəssüratlar yaratmır. Komissiyanın tərkib hissəsi ədəb-ərkana, etikaya, davranış qaydalarına diqqət yetirən sırf peşəkarlardan ibarət adamlar olmalıdır. Xüsusən də, aparıcılar veriliş zamanı özlərini tamaşaçılara istətməyi bacarmalıdırlar.

Televiziya rəhbərləri yadda saxlamalıdırlar ki, hər hansı bir verilişi aparmaq üçün peşəkar səviyyəli, nümunəvi davranışa malik olan aparıcı lazımdır ki, böyük bir kütləni ekran qarşısına toplaya bilsin. Tamaşaçılar səviyyəsiz verilişlərə baxmağa, səviyyəsiz müğənnilərin ifalarını dinləməyə, səviyyəsiz aparıcıların qeyri-ciddi çıxışlarına qulaq asmağa, bizə zövqsüz stilistlərin normal insanın xoşlamadığı geyimlərini sırımaqdan beziblər.

- Proqramların tərtibatında böyük bir səriştəsizlik hökm sürür. – deyə həkim təşəxxüslə dilləndi. - Elə bil rejissorluq sənətindən bixəbər kadrlar kanalların əksəriyyətində peyda oldu və mənəviyyata zidd olan, baxımsız, lazımsız verilişlər ekrana yol tapdı. Zövqü olmayan rejissorlar və proqram tərtibatçıları heç bir məna kəsb etməyən kadrları mavi ekra-

na çıxarmaqla, yeniyetmə tamaşaçıların zövqünü korlayaraq, onların dünyagörüşündə başqa təsəvvürlər yaradırlar. Mənəviyyatımızı qoruyub saxlamaq istəyiriksə, televiziya kanallarında mütləq təmizləmə işləri aparmaq lazımdır.

- Əlbəttə! – deyə Arif hiddətlə dilləndi və bir qədər ara verəndən sonra həvəslə sözünə davam etdi. - Hayıf ki, kanalların əksəriyyəti dövlət nəzarətindən çıxdı. Məhz ondan sonra mənəviyyat pozğuntuluğu baş verdi. Əvvəllər biz belə şeylər görməmişdik. SSRİ dövründə bütün proqramlar ciddi nəzarət altında idi. Xüsusən də, Mərkəzi Komitə mənəviyyatla bağlı olan verilişlərin hamısını nəzarətə götürmüş və həmin verilişlərin aparıcıları yüksək əxlaqi keyfiyyətlərə, etikaya, mədəniyyətə malik olan adamlar olmalı idi ki, tamaşaçılar ekrana baxanda oradan ən gözəl təəssüratlarla ayrıla bilsinlər.

- İndi isə televiziya proqramlarının formatı tamamilə dəyişibdir. – başını təəssüflə yellədən professor ikrah hissilə dilləndi. - Kim hansı qiyafədə, hansı paltarda, hansı ləhcədə, hansı səsdə istəyirsə, elə də ekrana çıxır və tamaşaçıların ürəyini bulandırır. Dəhşətlisi odur ki, ərdə olmayan aparıcı studiyada toplaşan ağsaqqal və ağbirçək tamaşaçılara hörmət qoymayaraq, onların qarşısına şortıda, az qala ombasına qədər kəsiyi olan yubkada və ya paltarda, həddindən artıq dar, qısa yubkada, sinəsi və beli yarısına

qədər açıq paltarda çıxır və bununla da o, yaşlı nəsil tərəfindən özünə nifrət qazandırır.

Bir çox aparıcılar makiyajı elə zövqsüz və kobud vururlar ki, elə bil həmin məqamda hamı kosmetikadan istifadə edir, ancaq sanki həmin maldan ona çatmır. Səsləri isə elə bərk çıxır ki, adam qulaqlarını tutub, studiyadan qaçmaq istəyir. Bəzən xəyallara dalanda adam özünü studiyada yox, bazarda hiss edir. Maraqlı hal odur ki, həmin tamaşaçılar çıxılmaz vəziyyətdə qalıb, baykot əlaməti olaraq veriliş qurtarana qədər həmin studiyanı tərk edə bilmirlər.

- Hələ bu harasıdır? – deyə Əliyusif səbirsizliklə dilləndi. - Bir kanalda əcaib proqram gedir və onun qadın aparıcısının açıq-saçıq geyimini, əyninə saldığı vulqar paltarları, nazı-qəmzəli hərəkətlərini görəndə şəkərim lap kəllə-çarxa qalxır. Başa düşə bilmirəm, həmin proqramın rəhbəri görmür ki, verilişin aparıcısı hansı kökdədir? Bəlkə o, azərbaycanlı olduğunu və Azərbaycanda yaşadığını unudubdur? Arvad-uşaq həmin verilişə baxmaqdan birdəfəlik məhrumdur.

Bəzi aparıcılardan söz düşmüşkən, onu deməliyəm ki, elə proqramlar var ki, onun kişi aparıcıları özlərini arvad kimi aparırlar. Dəqiq ayırd etmək olmur həmin adam kişidir, yoxsa arvad? Kişidirsə, niyə qadınlara xas olan

hərəkətlər edir, nəyə görə qadınların paltarlarına oxşar geyimləri əyninə geyir, nə üçün qadınlar kimi qaşlarını aldırır və gözlərinin üstünə rəng vurdurur? Belə adamlar təcili halda ekranlardan uzaqlaşdırılmalıdırlar.

## V fəsil. İradlarla dolu olan fikirlər

İfadəmə görə üzr istəyirəm, - dərindən köksünü ötürən Arif narahatlıqla dilləndi. - etiraf etmək lazımdır ki, kanallarda pozğuntuluğu, studiyalara yol tapmış əxlaqsız, tərbiyəsiz müğənnilər yaratdılar. Qısa müddət ərzində soyunmaqda, küçə söhbətlərinin yayılmasında, vulqar hərəkətlərin nümayiş etdirilməsində onlar bir-biriləri ilə yarışa başladılar. Mahnı oxumaq, əsl sənət göstərmək demək olar ki, yaddan çıxmışdı. Hərçənd ki, onları həmin sənətdən uzaq olan adam hesab etmək olar.

- Bu da ondan xəbər verir ki, - deyə həkim əlavə etdi. - Azərbaycanda Sovetlər ölkəsində olduğu kimi mütləq Bədii Şura olmalı və hər şeyi nəzarət altına götürməlidir. Bu haqda söhbətin çoxdan getməsinə baxmayaraq, hələ də bütün

millətin sağlam gələcəyi üçün vacib olan həmin məsələ həyata keçirilməyibdir. Anlaya bilmirəm həmin şuranın yaradılmasında kim müqavimət göstərir? Mədəniyyətimiz və incəsənətimiz həmin əxlaqsızların əlindən qurtulsun deyə, Mədəniyyət nazirliyi və Bədii Şuranın yaradılması ilə səlahiyyəti olan müvafiq idarələr əməli fəaliyyətə keçməli-dirlər.

- Bədii Şura yaranana qədər həmin müğənnilərin ifşa olunması üçün xalqımıza hava-su kimi lazım olan verilişlər təşkil olunmalıdır. – deyə hirsindən boğulan ağbəniz ziyalı həqarətlə dilləndi. - Gözləmək, gecikmək, qulaq ardına vurmaq, bütün mənəvi eybəcərliklərə göz yummaq fəlakətə bərabər olan bir şeydir. Düzdür, hər hansısa bir şey əvəzedilməz olmur. Sonradan bir çox eybəcərliklərə tənqidlə yanaşan, ədəbiyyatda, mədəniyyətdə, incəsənətdə, təhsildə əmələ gələn qüsurları aşkarlayan, xüsusilə də, özündən müştəbeh halda razı olan bir çox cavan müğənnilərin daxilində kök salmış mənfi xüsusiyyətləri üzə çıxaran, bir sözlə, cəmiyyətdə baş verən əyri-əskikləri, naqislikləri, neqativ halları, mənfi cəhətləri pisləyən insanların zövqünə uyğun olaraq, Emin Musəvi, İradə İsaq, Sevinc Osmanqızının peşəkar səviyyədə apardıqları proqramlar ekranda canlanır.

- Arif müəllim, hər dəfə mən onların apardıqları verilişləri izləmək üçün, bütün işlərimi atıb ekran qarşısında əyləşirəm. – deyə müxbir dilləndi. - Onlarn intellektual potensiala malik olması və peşəkar aparıcılıq səviyyəsi məni sanki məftun edibdir.

Hələ bu harasıdır, heyrətləndirici haldır ki, bir müddət keçəndən sonra kasıb-küsubların marağında olan, haqqı tapdalanmış insanların intizarla izlədiyi, vəzifə başında əyləşən bəzi müftəxor vəzifə başçılarının haqsız əməllərini top atəşinə tutan, cəmiyyətdə baş verən eybəcərlikləri üzə çıxarmağa çalışan proqramlar və dispetçer rolunu oynayan cəsarətli, mərd, öz peşəsinə məsuliyyətlə yanaşan aparıcılar fəaliyyətə başladı. Lakin təəssüf ki, qısa müddət ərzində həmin aparıcılar efirdən kənarlaşdırıldılar və həmin kanallar yüz minlərlə tamaşaçısını itirdi.

- Bir ara yaşından asılı olmayan bir çox insanları ekran qarşısına toplayan ***"Zəif bənd", "Milyonçu"*** kimi intellektual verilişlər gedirdi, lakin həmin proqramlar mavi ekranlardan yığışdırıldı. – bu məsələ ilə bağlı fikir bildirməyə tələsən professor həvəslə dilləndi. - Yaxşıdır ki, hazırda ***"Ağıl dəryası", "Mən azərbaycanlıyam", "LG Bilik Akademiyası", "Xəmsə", "1001 sual"*** kimi intellektual verilişlər gedir və həmin proqramları cavanlar, tələbələrlə yanaşı, yaşlı nəslin nümayəndələri də tamaşa edirlər.

Yuxarıda qeyd etdiyim kimi, heç nə əvəzedilməz olmur. Hal-hazırda ANS kanalında ***“Bazar səhəri”*** proqramı gedir, onu Rövşanə Bektaşi adlı çox peşəkar bir jurnalist aparır. Onun prinsipiallığı, intellekti, dünyagörüşü, hazırcavablığı müəyyən mənada Elçin Əlibəylini xatırladır və o, mənim qəlbimdə öz bacarığı, peşəkarlığı ilə dərin izlər buraxır. Məhz elə jurnalistlər ekranlara dəvət olunsalar, onda daha çox sağlam düşüncəli tamaşaçılar milli proqramlara üstünlük verəcək.

Cəmiyyətimizə pis təsir göstərən vizual görüntülərdən sonra mənim də həmin verilişlərə marağım öldü və mən də əsas diqqətimi ***“Günə baxan”, “22-ci saat”, “İç xəbər”, “Elgizli axşamlar”, “Səni axtarıram”*** və hərdənbir ***“Qulp”***a, müasir tarixlə, tarixi, siyasi şəxsiyyətlərlə bağlı bütün proqramlara, xüsusən də SSRİ dağılandan sonra özünü peşəkar jurnalist kimi tanıtdıran, öz intellekti ilə bir çox həmkarlarından xeyli dərəcədə fərqlənən, gözəl diksiyaya malik olan Mir Şahinin apardığı ***“Ən yeni tarix”*** proqramına yönəltdim. Lakin etiraf etməliyəm ki, hər hansı bir kanalda muğamatla bağlı veriliş gedəndə, mən mütləq həmin kanala keçid alıram. Ümumilikdə analiz edəndə televizorda maraqlı verilişlər həddindən artıq azdır. Bəzi kanallar olmasa, mən bütünlüklə Rusiya kanallarına keçid alaram. Bildirmək istəirəm ki, ANS kanalı, Azərbaycanın

bir çox siyasi, dövlət, ictimai, elm, təhsil, mədəniyyət xadimlərinin təbirincə desək, yeganə televiziya məkanlarından biridir ki, orada, cavanların vətənpərvər ruhda böyüməsində önəmli rol oynayan verilişlər gedir.

- Ən əsas ekranlara savadlı jurnalistlər dəvət olunmalıdır. – Arif hökmlə dilləndi.

- Əlbəttə! – professor tərəddüd etmədən dilləndi. - Mir Şahin, Elçin Əlibəyli, İradə İsaq, Sevinc Osmanqızı, Emin Musəvi, Rövşanə Bektaşı, Orxan Fikrətoğlu, Mehriban Ələkbərzadə, Anar Nəcəfoğlu, İlqar Mikayıloğlu, İbrahim Məmmədov, Turan İbrahimov, Mübariz, Elgiz Əkbər, Aytən Səfərova, kimi intellektual potensiala malik olan jurnalistlər lazımdır ki, ziyalılardan, yaşlılardan əlavə, ekran qarşısına zövqü korlanmış, düşüncələrində mənəviyyatla bağlı yanlışlıq yaranmış gəncləri də toplaya bilsinlər. Çünki yeniyetmə, gənc tamaşaçılar ekranlarda canlanan əxlaqsız, tərbiyəsiz, mənəviyyata zidd olan zövqsüz verilişlərə baxır və məhz buna görə də belə formatlı verilişləri, həmin verilişləri aparan qeyri-peşəkar, səriştəsiz dırnaqarası aparıcılardan təmizləmək lazımdır.

Arifin həyəcanlı olduğunu görən müxbir, stəkanları yaxalayaraq, bu dəfə də çay süzdü. O, söhbətin məcrasını başqa istiqamətə yönəltmək istəsə də, öz ürəyi ilə bacarmadı. Çünki burada müzakirə olunan mövzu aktual

sayıldığından, onu axıra qədər davam etdirmək lazım idi. Əliyusif qonşusunun çayına limon atıb, səsini yavaşıdaraq aludəliklə dedi:

- Aparıcılarla bağlı redaksiya rəhbərləri bir qədər diqqətli olsalar, onda proqramın reytinqi də arta bilər. Məsələn, Turan İbrahimovdan sonra verilişi aparmaq üçün, İlqar Mikayıloğlu studiyaya dəvət olunur. Halbuki o, idman və vətənpərvərlik ruhunda olan verilişlərdə daha yaxşı bacarıq göstərə bilər. İlqarla yanaşı mən Kamran Həsənlinin adını hallandırmaq istəyirəm. Ona hər hansı bir kanalda vətənpərvərlik ruhunda gedən verilişlərin birini həvalə etmək lazımdır ki, öz vüqarlı çıxışları ilə cavanları riqqətə gətirsin. Çünki Azərbaycan televiziyasında 5-6 peşəkar aparıcı varsa, onlardan biri Kamran Həsənlidir. O, həqiqətən də özünün çıxışları ilə Qarabağ məsələsinə biganəlik göstərməyən gənclərin təlim-tərbiyəsində mühüm rol oynaya bilər və onları öz arxası ilə aparmaq qüdrətinə malikdir.

- Hər şənbə günü ANS kanalında ***"Kök altı"*** verilişi gedir. – deyə neft mütəxəssisi təmkinlə dilləndi. - Mən o verilişə onun aparıcısı Aytən Səfərovaya görə baxıram. O, studiyaya dəvət etdiyi qonaqlara elə suallar verir ki, adam lap məəttəl qalır. Veriliş ərzində Aytən zarafata salaraq sosial məsələlərə toxunur, sosial ədalətsizliyi üzə çıxarır,

cəmiyyətdə baş verən bir çox əyrintiliklərdən söz açır, vəzifəsinin öhdəsindən gələ bilməyən bir çox səhlənkar məmurları tənqid atəşinə tutur.

- Mənə elə gəlir, - professor qarşısındakı çaydan bir neçə qurtum içərək, ciddi halda dilləndi. - aparıcılara, qabiliyyətlərinə və bacarıqlarına görə səviyyələrinə uyğun olmayan proqram aparmağı həvalə olunur. Bəzi aparıcılarda təkəbbür hissi və mənəm-mənəmlik olmasaydı, onda məsləhət verərdim ki, onlar peşəkar jurnalistikaya yiyələnmək üçün mütləq Mir Şahin, Emin Musəvi, Mehriban Ələkbərzadə, İradə İsaqın hərəkətlərini, aparıcılıq qabiliyyətini, danışıq tərzini mənimsəsinlər. Onların diksiyası, həmsöhbəti ilə olan davranışı, manerası, səbirliliyi, təmkinliliyi, intellekti, zəngin mənəviyyatları, səhnə mədəniyyəti jurnalistikaya can atan adamlar üçün örnək olmalıdır.

Adları çəkilən aparıcılar geyimlərinə xüsusi diqqət yetirirlər. Emin Musəvinin geyimi adamın lap ürəyindən olur. Mən o, adamı cins şalvarda və yaxud şlyagerlərə uyğun olan qiyafədə təsəvvür edə bilmərəm. Çünki o, həmin qiyafədə öz görkəmini tamamilə itirəcək.

- Bəzən gənc müğənnilərin ərköyünləşməsində studiya aparıcılarının da rolu az olmur. – Arif hüznlə dilləndi. - Onların normal adamlara yaraşmayan geyimi, etikadan kənar davranışı, tərbiyəsiz hərəkətləri, üzlərinə çəkdikləri

zövqsüz makiyajları, saçlarının bərbad forması milləti qıcıqlandırmaya bilməz. Bir də görürsən, hansısa bir tamaşaçı zəng edərək, onların qiyafəsi ilə bağlı öz iradlarını bildirəndə, aparıcı “adamın şəxsiyyətinə toxunmaq lazım deyil” deyərək, cəld telefonu kəsir. Məhz bu səbəbdən həmin müğənnilər istədikləri kimi studiyada at oynadırlar. Sivil qaydada olaraq, ziyalılar əl-ələ verib öz narazılıqlarını həmin kanalların rəhbərlərinə bildirməlidirlər. Necə ki, vaxtilə, cəmiyyətdə nifrət hissi oyadan, birbaşa milli-mənəvi dəyərlərimizə, mentalitetimizə, azərbaycançılıq əxlaqımıza zidd olan ***“Qəfəs”*** proqramının bağlanmasına nail olduq. Sanki biz mənəviyyatın, əxlaqın olmadığı bir ölkədə yaşayırdıq. Lakin ***“Qəfəs”***in bağlanması ilə bağlı elə bil əsl inqilab baş verdi. Dediyim odur ki, səlahiyyətli rəhbər vəzifəli adamlar istəsələr, mənəviyyata zidd olan bütün proqramları bağlaya bilər və özünü əxlaqsız aparan hər bir adamı televiziya ekranlarından didərgin salarlar.

- Arif müəllim, etiraf etməliyəm ki, mən öz işim ilə əlaqədar olaraq, şou aləmində baş verən bir çox hadisələri analiz etmək üçün, bütün əyləncəli və tok-şou proqramları izləmək məcburiyyətindəyəm. – deyə müxbir fəhmlə dilləndi. - Deməli, istəsələr, həm mənəviyyata zidd olan verilişləri, həmin verilişlərin yaranmasına rəvac verən

insanları, həm də özünü vulqarcasına aparan üzdəniraq ünsürləri televiziya kanallarından silə bilərlər.

Bu vaxt Arifin böyük oğlu Nurlan evdən çıxıb, əlində yekə bir qazanla bağçaya yaxınlaşdı. Əliyusif onu görəndə bir qədər təəccübləndi. İş ondadır ki, ev sahibinin hər iki oğlu Azərbaycan Daxili İşlər Nazirliyinin Polis Akademiyasını bitirərək, polis orqanında işlədiklərindən, onlar günün əksər hissəsini işdə olurdular və demək olar ki, qonşularla ünsiyyət qurmağa imkan tapmırdılar. Düzdür, onlar yalnız yazın sonu, yay və payızın əvvəlində Novxanıda olurdular, qalan günlərini isə şəhərdəki evdə keçirirdilər.

Nurlan qonşusu Əliyusiflə salamlaşan kimi manqala düzülmüş odunları yandırdı. Sonra qazanı açıb oradakı basdırılmış ətləri şişə çəkdi. Nurlanın təkbaşına əziyyət çəkməsi ilə barışmayan Əliyusif, özü də həmin işlə məşğul olmağa başladı. Salat, göy-göyərti masaya düzüldü, təmiz rus arağı və mineral sular qoyuldu. Quzu ətindən çəkilən kabab hazır olandan sonra Arifin oğlu işi olduğunu bəhanə gətirərək, onları tək qoydu. Maraqlı o idi ki, Nurlan xətir naminə ağzına yalnız bir tikə ət qoydu. Bu hərəkət onun yüksək tərbiyə görməsindən xəbər verirdi. İş ondadır ki, Nurlan özünə aid olmayan söhbətə qulaq asmamaq üçün onları tək buraxmalı oldu. Onlar çörək yeyə-yeyə söhbətlərini davam etdirməyə başladılar.

- Qardaş, sənin məqsədin ülvidir, - deyə Arif, yalnız salat və göy-göyərti yeyə-yeyə rahatlıqla dilləndi. - bəlkə də sən artistlərin eyiblərini üzə çıxarmaqla, onlar özləri xəcalət çəkib kənara çəkiləcəklər. Amma bəzən, mənə elə gəlir ki, onlar tənqidlərdən nəticə çıxarmaq əvəzinə, elə bil həmin tənqidlərdən həzz alırlar. Bir çoxları isə deyirlər ki, həmin müğənnilər gündəmdə qalmaq üçün adlarının neqativ şəkildə hallanmasını arzulayırlar.

- Müəyyən mənada mən sizinlə razlaşıram. – deyə müxbir tibb sahəsinin mütəxəssisinə xidmət göstərə-göstərə təmkinlə dilləndi. - Lakin mən yazını dərc edəndən sonra, yenə də öyrədilmiş insanlar mənə zəng edərək, öz narazılıqlarını bildirməyə başladılar. Buna baxmayaraq, mən axıra qədər öz sözümün üstündə duracağam. Məsələn, Könül xanımın, aparıcılıq qabiliyyəti keyfiyyət baxımdan, o biri müğənni aparıcıların iş üslubundan, aparıcılıq qabiliyyətindən xeyli fərqlənir. Etiraf etmək lazımdır ki, onların hər birinin öz auditoriyası var, bu da ki, əsasən fanatlardan ibarət tamaşaçı kontingentidir. Mənim dediyim tamamilə başqa məsələdir. Bineyi qədimdən bəllidir ki, hər bir sahənin öz mütəxəssisi olur. Bu belə olsa, onda həmin sahədə keyfiyyət sezilər. Amma bizdə nə baş verir? Sanki müğənni oxumaqdan bezib aparıcılıq etməyə başlayır, aparıcı şəxs səsi oldu-olmadı, musiqi təhsili oldu-olmadı

ona verilən səlahiyyətdən istifadə edərək, studiyada mahnı oxuyaraq orada əyləşən adamları əl çalmağa vadar edir, ən acınacaqlı hal isə odur ki, peşəkar və təcrübəli gənc aktyorlarımız ola-ola həm müğənni, həm də aparıcı aktyor kimi bədii filmlərə çəkilərək, həmin kinoları bərbad hala salır və qısa müddət ərzində ərsəyə gətirilən mənasız filmləri televiziya kanallarına çıxarırlar.

- Artıq jurnalistlər də mahnı oxumağa başlayıblar. – deyə Arif istehza ilə dilləndi.

- İndi Azərbaycanda istehsal olunan elə seriallar peyda olub ki, - professor yeməyini yarımçıq qoyaraq səbirsizliklə dilləndi. - həmin seriallar efirdə boş-boşuna vaxt aparmaqdan başqa heç bir şey əldə etmir. Çünki həmin seriallarda nə məna, nə keyfiyyət, nə də düşündürmə var. İş ondadır ki, tamaşaçılar eyni sifətləri, həm proqram verilişində aparıcı, həm müğənni, həm də aktyor qismində gördükləri üçün zinhara gəlirlər. Çünki bütün hallarda onlar auditoriya qarşısında öz peşəkarlıqlarını nümayiş etdirə bilmirlər.

- Əli, mənim sənə qibtəm artır, çünki sən qlobal məsələlərə toxunaraq, həmin şou aləminın bəzi ram edilməz nümayəndələrinin iş üslubunu ifşa etməyə çalışırsan. – deyə dərindən nəfəs alan Arif iftixarla dilləndi. - Həqiqətən televiziya studiyalarında aparıcı kimi fəaliyyət göstərən bir çox aparıcılar ixtiyarlarında olan proqramlarda mahnı

oxuyaraq, başlayırlar həmin zövqsüz ifalara görə bir-birilərini təriflməyə. Daha anlamırlar ki, onların həmin naşı ifaları, efir vaxtını almaqla yanaşı, əksər tamaşaçılarda ikrah hissi doğurur.

Ümumiyyətlə, aparıcılar, artıq tamaşaçı rəyinə heç bir əhəmiyyət vermədən süni şəkildə həm özünü, həm də işlədiyi telekanalı təriflətdirməyə başlayırlar.

## VI fəsil. Televiziyadakı qüsurlara birdəfəlik son qoyulmalıdır

- Yaxşıdır ki, siz belə şeylərə diqqət yetirirsiniz. – deyə Əliyusif fürsətdən istifadə edərək, həqarətlə dilləndi. - Veriliş aparan bir çox aparıcılar hər dəfə efirə çıxanda, günbəgün qüsurlarını uzaqlaşdırıb, özünün peşəkarlıq səviyyəsini artırmaqdansa, kamilləşməkdənsə, daha da cahilləşirlər. Studiyalar arasında rəqabət güclü olsa da, proqram redaktorları əhali arasında tanınmış aparıcıların iş üslubuna, peşə keyfiyyətinə əhəmiyyət vermək istəmirlər.

Arif müəllim, hal-hazırda eyni vaxtda müxtəlif studiyalarda evlilik proqramı gedir.

Onlardan birində qadın aparıcısının çox hallarda mentalitetimizə uyğun olmayan fikir yürütməsi, şəxsən məni qıcıqlandırır. Sonra isə deyir ki, bərabərlik olduğu üçün kişi nə edirsə, arvad da onu etməlidir. Yəni sözündən belə çıxır ki, - müxbir əlini sinəsinə qoyub hər ikisinin qarşısında təzim etdi. - üzr istəyirəm sizdən, kişi yolunu azıb arvad yanına gedəndə, arvad da eyni günahı işlətməlidir. Kişi araq içir, siqaret çəkir, pivəxanalarda oturur, həyətdə kişilərlə nərd oynayır. Bərabərlikdir deyə, arvad da həmin hərəkətləri təkrarlamalıdır?

- Verilişin birində Vasif Məhərrəmli qonaq kimi orada iştirak edir. – deyə ağbəniz ziyalı təqdiredici tərzdə dilləndi. - Birdən söhbət ər-arvad arasında olan münasibətdən getməyə başlayır və orada belə bir müzakirə gedir ki, ailədə baş verən münaqişə zamanı ər hirslənərək arvada bir sillə vurar. Arvad ərndən boşanar, ya yox?

Vasif Məhərrəmli və studiyada olan qadın tamaşaçıların əksəriyyəti birmənalı şəkildə bildirirlər ki, bir silləyə görə arvad ərindən boşanmaz. Yenə də ictimai rəyə əks reaksiya verən həmin aparıcı öz xarakterinə uyğun olaraq deyir ki, "arvad bir dəfə silləyə məruz qalsa, onda həmin qadın ərindən boşanmalıdır".

Televiziya məkanında aparıcı kimi fəaliyyət göstərən bir jurnalist anlamalıdır ki, ailə müddəti ərzində hər bir ailədə söz-söhbət, qalmaqal baş verir və həmin münaqişə zamanı əsəblərini qoruya bilməyən kişi həyat yoldaşına ən azı bir sillə vurur. Əgər, özünü peşəkar müxbir sayan həmin aparıcının prinsipləri bütün insanların xarakterində kök salıbsa, onda Yer kürəsində yaşayan hər bir ailə boşanar. Yəni, dediyim odur ki, geniş dünyagörüşünə malik olan Vasif Məhərrəmli insan xarakterini nəzərə alıb, bildirir ki, "bir silləyə görə uzaqgörən xanım ərindən boşanmaz", aparıcı isə bu məsələdə qeyri-ciddi, mən deyərdim ki, absurd bir fikir yürüdərək öz inadkarlığını nümayiş etdirir. Hələ bu harasıdır, o, hamının qarşısında deyir ki, "mətbəxə gedib, yemək bişirəndə elə bilirəm ki, məni söyürlər. Kişi işdən gələndə görsə ki, arvad paltar ütüləyir, o, da mətbəxə gedib qabları yumalıdır". Belə bir qeyri-adi fikir azərbaycanlı qadınına yaraşmaz.

Elə həmin verilişdə kişi aparıcı deyir ki, özünə hörmət edən qız xeylağı bərkdən danışmamalı, qışqırmamalıdır, mənim belə adamlardan xoşum gəlmir. Qadın həmkarı isə bu məsələyə müdaxilə edərək bildirir ki, qızlar nəyə görə bərkdən danışmamalıdır? Məhz bu yerdə qeyd etməliyəm ki, İradə İsaq, Sevinc Osmanqızı, Günel Qələndərovanın özünü əsl azərbaycanlı xanımı kimi sakit və təmkinli

aparmaları, nəinki mənim, hətta yüz minlərlə insanların xoşuna gəlir.

- Əli, sənə nisbətən mən kifayət qədər yaşlıyam və bir çox ailələrdə hökm sürən ənənələrə yaxından bələdəm. – deyə professor təşəxxüslə dilləndi. - Həmin verilişə mən də baxmışam və nəticə etibarı ilə demək istəyirəm ki, bizim mentalitetə zidd olan fikirlərlə yaşayan həmin qadın aparıcı, nə qədər ailə həyatı qursa, o, aldığı tərbiyədən çox, daxilində cərəyan edən xarakterinə görə hər dəfə həyat yoldaşından boşanmalı olacaq. Belə bir xasiyyətli, adam uzun müddət efir məkanında işləyə bilməyəcək. Çünki o, özünün absurd fikirləri ilə bütün zövqlü tamaşaçıları aparıcı kimi işlədiyi verilişdən uzaqlaşdıracaq.

- İş ondadır ki, elə ki, hansısa bir sənətkar və ya mütəxəssis onların bütün eyiblərinin üstünü açır, həmin adamlar bir anda, efir məkanından istifadə edərək, tənqidçinin ünvanına olmazın sözlər söyləməklə, onu az qala vətən xaini adlandırırlar. – ağbəniz ziyalı aludəliklə dilləndi. - Bariz nümunə tanınmış sənətkarımız, vaxtilə ***"Dan ulduzu"*** ansamblının solisti olmuş, əməkdar artist Əli Mirəliyevdir. Musiqi sahəsində böyük ekspert sayıldığı üçün o, musiqi duyumu olmayan, naşı, səhnə mədəniyyətindən kasıb olan dırnaqarası müğənniləri, bir qədər emosional tərzdə tənqid atəşinə tutanda, həmin

adamlar Əli Mirəliyevə qarşı, sanki səlib yürüşünə başlayaraq, az qala onu çarmıxa çəksinlər. Bütün televiziya efirlərinə sərbəst giriş-çıxışları olan həmin, mədəniyyətdən kənar müğənnilər onun ünvanına olmazın kəlmələr işlədərək, rüsvay edirlər. Hələlik bu biabırçılığın sonu görünmür. Çünki həmin müğənnilər əllərində olan pulların sayəsində istədikləri telekanalın studiyasına daxil olur, özlərini necə gəldi aparır, ustad korifeylərin sənətkarlığına rişxəndlə yanaşır, istədiyi adamı istədiyi formada təhqir edir, geyimlərinə nəzarət etmir, yəni, bizim mentalitetə uyğun olmayan tərzdə, açıq-saçıq geyimdə tamaşaçılar qarşısına çıxır, halbuki həmin tamaşaçıların arasında yeniyetmə uşaqların da sayı az deyil. Belə bir gedişatla biz mənəviyyatımızı itirmək üzrəyik.

Tanrı hər bir insanı Özü bildiyi qiyafədə yaradıbdır və hər kəs ki, həmin qiyafəni dəyişməyə cəhd göstərsə, deməli həmin kəs günaha batmış olur. Plastik cərrahiyyə əməliyyatı edən adamlar hələ də başa düşmürlər ki, onlar Allahın buyurduqlarına qarşı çıxıraq, günah işlədirlər. Qitara musiqi alətinin mahir ifaçısı olan tanınmış incəsənət xadimi Rəmiş belə bir məsələyə toxunanda yaxşı fikir söyləmişdir: kişi artist olsa belə, qaşlarını aldırmamalı, qulağına sırqa taxmamalı, dodağına pomada sürtməməli və səhnədə tullanaraq ora-bura qaçmamalıdır.

- Bu məsələdə mən, sizinlə tamamilə şərikəm. – deyə Arif həvəsləndi. - Cəmiyyət arasında heç bir mövqeyi olmayan, əvvəllər heç vaxt cəmiyyət arasına çıxmayan həmin cavan müğənnilər, birdən-birə efirə çıxanda elə zənn etdilər ki, bütün dünya onlarındır. İstədikləri şəkildə, daha doğrusu evdə aldıqları tərbiyəyə uyğun şəkildə özlərini auditoriya qarşısında aparır, heç kimin məsləhətlərinə qulaq asmır, tənqidi yanaşmaları özlərinə təhqir sayır, korifey sənətkarlara isə barmaqarası baxırlar. Qız müğənnilər sinəsi açıq köynəkdə, qısa yubkada, oğlanlar isə dar şalvar geyib, qarşısında əyləşən adama heç bir əhəmiyyət vermədən, ayaqlarını hamilə qadınlar kimi aralayıb, kresloda əyləşirlər. Qızların işi lap oyundur, onlar guya studiyadakı adamlardan utanıb, kresloda oturarkən, yubkasının ətəyini dartır və yaxud ayaqlarının üstünə hər hansı bir əşya qoyurlar ki, alt tumanı görünməsin. Əslində isə bir neçə dəqiqə əyləşəndən sonra ayaqlarını bir-birinin üstünə qoymaqla baldırlarını çöldə qoyurlar.

Elə bu yaxınlarda ***"Günə baxan"***da bir veriliş gedirdi; studiyaya sənət adamlarından Ağacəbrayıl müəllim, Süleyman Zamanov, İncəsənət universitetinin müəllimi Sevda xanım və cavanlardan üzü saqqallı bir oğlan və iki qız müğənni dəvət olunmuşdu. İki qızın arasında özünə yer ayırmış həmin oğlan müğənni, qabağında əyləşən

korifeylərə qarşı hörmətsizlik edərək, ayaqlarını ayırmış vəziyyətdə divana yayxanıb oturdu. Elə verilişin birinci dəqiqələrində iki qız müğənninin arasında münaqişə baş verdi. Təzyiqə tab gətirməyən qızlardan biri ayağa qalxıb, iştirakçılara qarşı hörmətsizlik edərək, studiyanı tərk etdi. Saymamazlıqla bağlı olan belə hallar onlarla, müğənnilər arasındakı qalmaqal isə yüzlərlədir. Dediyim odur ki, belə bir özbaşınalığı müğənnilərdə telekanalların rəhbərləri yaradıbdır. Çünki belə hərəkətlərə qarşı sərt addımlar atılsa, yəni həmin müğənnilər studiyalara dəvət olunmasalar, onda belə bir özbaşınalıqlar, tamaşaçılara qarşı hörmətsizlik aradan qaldırılmış olar.

- Ümumiyyətlə, cavan müğənnilərlə bağlı telekanallarda karantin yaratmaq lazımdır ki, əxlaqsız, tərbiyəsiz, mədəniyyətsiz elementlər ekranlardan süpürülərək, yox edilsin. – deyə Fikrət bir qədər götür-qoy edəndən sonra həqarətlə dilləndi. - Məhz bundan sonra cavan tamaşaçılar anlayacaqlar ki, tərbiyəsizliyə qadağa qoyulduğu üçün əvvəlki meydanda at oynadan müğənnilər ekranlardan uzaqlaşdırılıblar. Belə olan tərzdə, sonradan yetişən gənc müğənnilər abırlı geyinərək, çalışacaqlar ki, özlərini səhnədə mədəni aparsınlar.

İlk növbədə mənəviyyata xüsusi diqqət yetirmək lazımdır. Əxlaqa zidd olan hərəkətlər televiziya ekranlarından

yığışdırılmalıdır. Studiyaya gələn iştirakçı özü yüksək əxlaq sahibi olmalıdır ki, veriliş zamanı öz hərəkətlərini nəzarət altında saxlasın. Bir dəfə ***"Günə baxan"*** verilişinə bodibildinqlə məşğul olan dicey Nərimanı dəvət edərkən, bədənindəki əzələləri nümayiş etdirmək üçün aparıcı ondan köynəyinin çıxarmasını xahiş edir. Lakin həmin məqamda, evində əsl azərbaycanlı ailələrinə xas olan bir tərbiyədə böyüyən həmin oğlan, baxmayaraq ki, televiziya kanalına dəvət olunubdur, gözlənilmədən həmin xahişi yerə vurur. O, deyir ki, "mən başqa yerdə soyuna bilərəm, amma televiziya qarşısında bunu edə bilməyəcəm, ona görə ki, televizora mənim atam, mənim millətim baxır." Şəxsən mənim, Nərimanın mədəniyyətinə və əxlaqına böyük hörmətim artdı və onun valideynləri nəinki öz dost-tanışları, hətta bütün cəmiyyət qarşısında şax qamətlə alnıaçıq gəzə bilər və mən televiziya kanallarının rəhbərlərinin yerinə olsam, məhz belə adamları ekrana çıxararam.

- Bilirsiniz, elə bil uzun müddət mən, qış yuxusunda olmuşam. – Arif təəssüflə dilləndi. - Bayırda olarkən insanlara, onların bənizinə, geyiminə, saç düzümünə, davranışına, bir-birilərinə olan münasibətlərinə mən lazımi diqqət yetirməmişəm. SSRİ dağılandan bəri bizim cəmiyyətimizdə xeyli dərəcədə dəyişiklik baş veribdir. Qızlar süni gözəllik əldə etmək üçün sifətlərini dartdıraraq ağızlarını qulaqla-

rının ardına qədər uzatmış, qaşlarının altını, dodaqlarını silikonla elə həcmdə şişirdiblər ki, onlar belə bir görkəmdə adi insandan çox klounlara bənzəyirlər. Ola bilsin ki, silikon vurmaq zamanın tələbidir, onda bunu qədərində etmək lazımdır ki, bənizində olan gözəllik itməsin. Ağızları sanki cırılıbdır. Klouna oxşamaqda makiyaj və zövqsüz geyimlər xüsusi rol oynayır; kosmetikadan elə istifadə edirlər ki, Rafaelin sözü olmasın, "elə bil şpaklyovka zavodudur". Qızlarımız və qadınlarımız gözəlləşməkdən çox, eybəcərləşiblər. Onlara gözəllik verən saçlar daranmır, cürbəcür rənglərə boyanır, hətta kişi başı kimi saçlar dibindən də qırxılır.

Küçədə oğlanlar aşkar şəkildə qızlara sataşır, cavanlar arsızlıq edərək, qocalara hörmət etmək istəmir, kafe-restoranlar 18 yaşından 25 yaşa qədər olan cavan qızları işə götürür, öz biliyi ilə ali təhsil ocağını bitirən tələbələr ixtisaslarına uyğun iş tapmadıqlarından, bazarlarda meyvə-tərəvəz satmaq məcburiyyətində qalır, tədrisdən kifayət qədər anlayışı olmayan adamlar orta məktəbə direktor təyin edilir, bir çox fənnlərdə bilik kasıblığını nümayiş etdirən başqa bir qism tələbələr daydaylarının sayəsində ən yaxşı şirkətlərdə iqtasadtçı, mühasib və mühəndis vəzifələrinə yiyələnirlər.

Həya, ismət, namus, qeyrəti ayaq altına atırlar. Mənim aləmimdə qeyrət təcəssümü olan bir qadın millət vəkili bu məsələ ilə bağlı yaxşı fikir söyləmişdi: kişilər tək qalmış qadınlara arxa durmaqdansa, onlar ərini itirmiş cavan dul gəlinləri, atasını itirmiş cavan qızları yoldan çıxararaq, həmin xanımların adını ləkələyirlər.

- Həyatda tək qalan qadınların bəziləri, bazar iqtisadiyyatının ölkədə doğurduğu ağır sosial duruma tab gətirməyərək, müftəxor, qaba kişilərin alətlərinə çevrilir. – deyə qohumunun sözlərindən hiddətlənən Fikrət bir qədər emosional tərzdə dilləndi. - Ərindən, qardaşından, valideynindən məhrum olan Azərbaycan qadını, hələ belə bir biabırçılıqla üzləşməmişdi. Bəzi ailə tərbiyəsi görməyən xanımlar isə onlara verilən azadlığı başqa cür başa düşərək, asan qazanc əldə etmək üçün namuslarını tapdaq altına atdılar.

Ən acınacaqlı hal isə odur ki, qızlarımız, o cümlədən də ərdə olan qadınlarımız bədənlərində, boyunlarında, baldırlarında, qollarında və çiyninlərində döymələr vururdurlar. Məlundur ki, SSRİ dövründə həbsxanalarda yataraq dustaq həyatı sürən adamlar bədənlərinə döymə vurdururdular. Onda da bizə bəlli olurdu ki, həmin adamlar mühakimə olunublar. İndi isə adi insanla məhkumluq həyatı sürmüş insanları ayırd etmək mümkün deyil. Mən bədənlərinə döymə vurdurmuş qadınlarımızı uşaqların, gənclərin

toplaşdığı tədbirlərdə iştirak etmələrini, xüsusən də, toyda mahnı oxumalarını qadağan edərdim.

Bəzi oğlanlar, xüsusilə də, incəsənətə qədəm qoyanlar, qulaqlarına sırqa taxır, qaşlarını aldırır, dodaqlarına pomada çəkir, dodaqlarına silikon vurdurur, başlarına daraq vurmur, paltarlar isə elə seçilir ki, ayırd edə bilmirəm, onlar zibilliklərdə butulka axtaran bomjdurlar, yoxsa bazarda araba daşıyan fəhlə. Kişi stilistlərimizin bir çoxunu arvadlardan ayıra bilmirəm. Başa düşmürəm, bizim cəmiyyətdə nə baş verir? Hələ bir üstəgəl həmin əcaib insanları çox vaxt televiziya ekranlarına dəvət edirlər. Belə ünsürləri televiziya ekranlarından təmizləmək lazımdır. Həmin adamlar Azərbaycanı Avropa ölkələri ilə səhv salmamalıdılar.

- Elə mənim yazılarımın da özəyini belə neqativ hallar təşkil edir. Yazılar dərc olandan sonra başlayırlar bir ağızdan deməyə ki, mən onlara qarşı şər və böhtan atıram.

- Əsas odur ki, sən bu işdə tək deyilsən. – deyə ağbəniz ziyalı arxayınlıqla dilləndi. - Mətbuatda bir neçə müxbir var ki, onlar həmin, özündən razı olan müğənnilərin naqis hərəkətlərini ifşa edirlər. Tahirə, Vüqar Vüqarlı, Tünzalə, Zülfiyyənin yazıları hamımızın ürəyindən olur. Öz aramızdır, onlar mərdi-mərdanə öz yazıları ilə həmin o arxalı müğənnilərin iç üzünü açırlar. Məhz buna görə də həmin müxbirlər tez-tez müğənnilərlə bağlı müəyyən verilişlərə

dəvət olunurlar. Deyirlər bəzi müxbirlər, artıq müğənnilərlə yaxından dostluq edirlər. Axı, bu jurnalistika prinsiplərinə ziddir?

- Əlbəttə, vəzifə borcuna görə jurnalistin cəmiyyətdə tanınan adamlar arasında heç bir dostu olmamalıdır. – deyə Əliyusif təqdiredici tərzdə dilləndi. – Adları çəkilənlər çox prinsipial, bacarıqlı, qabiliyyətli, savadlı bir müxbirdilər və səviyyəli yazılarına görə onlar öz ətraflarında xeyli sayda oxucu kütləsi toplaya biliblər. Şəxsən mən onlarla fəxr edirəm.

- Mən deyərdim, nə yaxşı ki, realist fikirli müxbirlərimiz var. – deyə həkim hərarətlə dilləndi. - Əvvəlki illərə nisbətən, hazırki dövrdə müğənnilər onlarla mülayimcəsinə davranmağa çalışırlar. Bu məsələdə hüquq-mühafizə və prokurorluq əməkdaşlarının fəaliyyətini önə çəkmək lazımdır. Bəzi müğənnilər müxbirlərə əl qaldırandan sonra, onlar adları çəkilən orqanlar tərəfindən ram edildilər.

Əli, sən çox prinsipial müxbirsən və mən sənin tutduğun istiqamətlərdəki fəaliyyətini tam şəkildə alqışlayır və uğurlar diləyirəm.

Onlar samovar çayı içə-içə söhbət etdilər. Mövzu hər üçünü maraqlandırdığından onlar Günəşin necə qürub etməsindən bixəbər oldular. Axşamın düşməsi onların söhbətini yarımçıq qoydu.

## VII fəsil. Zemfira öz sənətini təbliğ etmək üçün müəyyən yollar arayır

Bakının ımkanlı adamları yay mövsümü gələn kimi mütəmadi olaraq şəhər kənarındakı bağ evlərində görünməyə başladılar. Sənət sahəsində çalışan insanların əksəriyyəti Novxanı kəndində məskunlaşdığından, həmin kəndin yolları gecənin ortasına qədər istifadəli olurdu. Bir-birindən bahalı avtomobillər yolda sürət həddini aşır, cürbəcür səsli siqnallar verir, yüksək səslə bayağı mahnılar oxutdurur, sirenaları işə salır, hallogen faralarla camaatın gözünü kor edir və yerli sakinlərin necə deyərlər, təhlükəsizliyini nəzərə almayaraq əsas yolda və dəniz qırağında ora-bura şütüyürdülər. Bu vaxt sahil kənarındakı səs-küylü kafe, bar və restoranlarda qonaqların sayı o qədər çox olurdu ki, orada boş yer tapmaq mümkün olmurdu.

Zemfira da başqa müğənnilər kimi boş vaxtını bağda keçirərək, qonşuların rahat istirahətinə böyük maneəçilik törədirdi. O, heç bir qonşunu nəzərə almadan, yüksək vattlı maqnitofon kolonkaları evin verandasına qoyaraq, hamının ürəyini bulandıran özünün ifa etdiyi mahnıları səsləndirirdi.

Həddindən artıq kinli olan Zemfira nəyin bahasına olursa-olsun, yenə də inadkar müxbirdən qisas almaq və

onu el içində, xüsusən də mətbuat işçiləri arasında biabır etmək üçün yaxşıca fürsət axtarırdı. Çünki Əliyusif ona verilən yalan təklifdən imtina etdiyindən şıltaq qadın özünü təhqir edilmiş hesab edirdi. Hətta iş o yerə çatmışdı ki, Zemfira hər dəfə hirsini soyutmaq üçün müxbirin qəddar-casına döyülməsi səhnəsinə baxırdı. Həmin məqamda qadın oynaşına zəng edərək, bu cür tənbehə görə öz minnətdar-lığını bildirirdi.

Lakin belə bir görüntülərdən həzz alsa da, müxbirə olan nifrəti tam soyumayan müğənni Elşəni bağdan uzaqlaşdır-maq üçün bir bəhanə axtarmağa başladı. Günlər ötsə belə o, nə qədər qarovulçunu sıxışdırsa da, təbiətən sakit olan oğlanda böyük nöqsan tuta bilmirdi.

Müğənni Əliyusifə acıq vermək üçün hər həftə evinə qeyri-peşəkar olan, jurnalistikadan başı çıxmayan, vəzifə sahiblərinin qarşısında ləyaqətini tapdaq altına atan, vicdanını heçə endirən, öz peşəsinə hörmət etməyən, pul naminə nəslini söydürməyə hazır olan, ictimaiyyətin diqqətində olmayan mətbu orqanlarında  xərac toplayanlar kimi fəaliyyət göstərən oyuncaq "müxbir"lər dəvət edib, onlara müsahibə verirdi. Zemfira müxbirləri əsasən, həyə-tində qəbul edir və müsahibə verərkən bərkdən danışırdı ki, onun sözləri qonşuluqda olan Əliyusifin qulaqlarına çatsın. Lakin bunların hamısı peşəkar müxbir üçün qeyri-ciddi

məsələ sayıldığından onun reaksiyası sıfır həddində idi. Əliyusif əldəqayırma müxbirlərlə nəinki fikir mübadiləsi aparır, hətta onlarla heç bir məclislərdə iştirak etmirdi.

Bütün qonşuların əsəbləri ilə oynayan müğənni hər on gündən bir evində və bağında fotosessiyalar təşkil edirdi. Bu sessiyalarda o, vulqar geyimlərdə şəkil çəkdirərək, həmin görüntüləri internet səhifələrində canlandırırdı ki, hamı onun kimliyi ilə dərindən maraqlansın və problem olmadan televiziya kanallarında olan "maqazin" verilişlərinə çıxa bilsin.

Xədicə elm adamı idi və o, səs-küydən rahat şəkildə öz işi ilə məşğul ola bilmirdi. Onların həyətini bir çəpər ayırdığından, Zemfiranın evindən gələn nəinki yüksək diapazonlu maqnitofon səsi, hətta bərkdən söylənilən danışıq söhbətləri Xədicənin qulağına gəlib çatırdı. Elm xadimi yalnız təngə gələndən sonra, abırsız müğənnini qapısının ağzına gedib, öz iradını bildirirdi. Lakin Zemfira həyasızlığına salıb, tam əksinə hərəkət edirdi – o, işlətdiyi maqnitofonun səsini daha da artırırdı. Bundan sonra ona baş qoşmaq istəməyən Xədicə, məcburiyyət qarşısında qalaraq, öz kabinetinə qapanıb qapıları mökəm bağlayırdı.

Bu zaman kəsiyində Zemfira xeyli dərəcədə məşhurlaşmışdı, onun bir klipi televiziya kanalının birində nümayiş edilir, özü isə tok-şou verilişlərinə dəvət olunurdu. Artıq

yavaş-yavaş onun fanatları peyda olur və avtoqraf almaq üçün o, həmin fanatları tərəfindən təqib olunurdu. Məzahirin buraxdığı pullar öz bəhrəsini verməyə başlayırdı. O, müəyyən imkanlı dostlarının, əlamətdar günlərlə bağlı təşkil etdikləri tədbirlərdə, mahnı oxutdurmaq üçün məşuqəsini həmin məclislərə aparırdı. Həddindən artıq təkəbbürlü olan bu, əslində əldəqayırma müğənni, həmin tədbirlərdən sonra daha qarşısına çıxan hər bir adama yuxarıdan aşağı baxmağa başlayırdı. Bəzən də elə olurdu, söhbət zamanı o, öz həmsöhbətini acılayırdı.

Məzahirin əlaqələrini və imkanlarını nəzərə alan Zemfira, o biri məşuqu ilə bir qədər ehtiyatlı davranmağa başladı. İctimai yerlərdəki aşkar görüşlər tamamilə aradan qaldırılır, telefon zəngləri məhdudlaşdırılırdı. Lakin Natiq heç cürə bu qadağalara tab gətirə bilmirdi. Onda onlar yeni bir fənd işlədərək, Məzahirə növbəti dəfə fırıldaq gəlməyi qərara aldılar. Zemfira Natiqlə olan görüşləri leqallaşdırmaq üçün, havadarına onu prodüsser kimi təqdim etməli oldu. Məhz bu səbəbdən Natiq müğənninin qaldığı bağ evində həm gündüz, həm də axşam görünə bilərdi. Odur ki, tezliklə həmin fırıldağı həyata keçirməyi planlaşdırdılar. Artıq bu ondan xəbər verirdi ki, Zemfira açıq-aşkar, məşuqunun ona bağışladığı bir evdə, başqa bir adamla eyş-işrət işləri ilə məşğul olaraq, Məzahirə qarşı xəyanət etməkdən daha

çəkinməyəcəkdi. Əvvəlcədən onsuz da ərköyün olan Zemfirada indi əsil azğınlaşma baş verirdi.

Məşqlərdən evinə qayıdan Zemfira yorğunluğunu çıxarmaq üçün, həftədə bir dəfə yolüstü İbrahimin restoranına dəyirdi. Həmin məkan müğənninin cavan məşuqu ilə məxfi surətdə görüşdüyü bir yer sayılırdı. Elə təşriflərin birində restoranın inzibatçısı İbrahimi yeni parlayan bu müğənnicik ilə tanış etdi. Bu tanışlıq Natiqın ürəyindən olmasa da, o, müvəqqəti olaraq, Zemfiranın belə bir istəyi ilə barışmalı oldu. İbrahim Natiqə nisbətən ürəyiaçıq, səxavətli oğlan idi və o, yeni tanışlarını daim şəhərdən kənarda yerləşən istirahət mərkəzinə aparmağı xoşlayırdı.

Lakin bütün bu sərbəstliyə və vaxtının əksər hissəsini rəfiqələrinin yanında keçirməsinə baxmayaraq, Zemfira yeni mahnılar barəsində düşünür və bu məsələ ilə bağlı tanınmış bəstəkarlara müraciət etməyə başladı. Şöhrət arzusu ilə yaşayan yeni müğənninin şou-aləmində irəli getməsi üçün daha çox sərmayə tələb olunduğundan Məzahirin işi bir qədər ağırlaşırdı. Onun əlavə xərcləri təxminən 50 faiz artmışdı. Ambisioz iş adamı üçün əsas məqsəd Zemfiranı, Rusiyada və başqa postsovet məkanında yaşayan imkanlı iş adamlarının şirkətlərindəki iclas salonlarında, mehmanxanalarda, restoranlarda, gecə klublarında, istirahət mərkəzlərində konsert proqramları ilə çıxış etməsindən ibarət idi.

Məzahirin fikrincə, bu məsələdə müğənninin prodüsseri fəal olmalı və Zemfiranın region ölkələri arasında qısa müddət ərzində məşhurlaşması üçün bütün mümkün variantlardan istifadə etməliydi. Natiq isə prodüsser adını doğrultmaq üçün Bakıda, Moskvada, Sankt-Peterburqda və başqa şəhərlərdə yaşayan dost-tanışlarına, o cümlədən, İbrahimə də, tanınmış, nüfuzlu salonlarda konsert verilməsi üçün şərait yaradılmasına dair müraciət etdi.

İbrahim azdan-çoxdan Zemfiranın oxuculuq qabiliyyətinə bələd idi və o, istəməzdi ki, qadını hər hansı bir nüfuzlu ocağa göndərib, orada özünü biabır etsin. Məhz buna görə o, sırtıq müğənnini öz başından rədd etmək üçün İslamı onun yanına göndərdi. Necə olsa da İslam çox peşəkar poeziya ustadı idi və onun şeirləri bəlkə də Zemfiranı bataqlıqdan çıxara bilərdi. Onun fikrincə, indiki zamanda qadının oxuduğu mahnılara məzmunlu, yaxşı sözlər gərək idi və həmin köməyi yalnız, hamının sevimlisi sayılan şair ona verə bilərdi.

Zemfira İslamı elə həyətdəki bağçada qarşıladı. Onlar söhbətə başlamamışdan əvvəl Elşən samovar çayı hazırlayıb, masanın üzərinə qoydu, zərif çay piyalələrini Zemfira oturan tərəfinə düzdü. Müğənninin məsləhətə böyük ehtiyacı olduğundan şair öyüdlə dedi:

- Zemfira xanım, artıq siz televiziya ekranlarına çıxmısınız və bundan sonra elə etməlisiniz ki, tamaşaçılar sizi məhz mavi ekranlarda axtarsınlar. Bunun üçün mütləq növbəti klipinizi hazırlayıb efirə verməlisiniz.

Zemfira narahatlıqla onun sözünü kəsib:

- İslam, ekranda görünmək üçün yalnız klip çəkdirmək lazımdır? – deyə müğənni razılaşmadığını ona bildirdi. – İndiki müğənnilər bir klip çəkdirən kimi o dəqiqə başlayırlar evlərini, maşınlarını və başqa şeylərini reklam etməyə. Hansısa bir tədbirdə və ya tok-şouda iştirak edirlər. Bayramla əlaqədar uşaqlar və ya qocalar evlərində xeyriyyə konsertləri keçirirlər. Mən də elə bir xeyriyyə konserti təşkil edə bilərərm.

- Bunun üçün hər hansısa bir televiziya kanalının rəhbərliyi ilə əlaqə yaratmalısınız. Həm də elə bilməyin ki, bu asan məsələdir. Xeyriyyə konsertlərni verənlər təşəkkürdən çox, tənqidlərə məruz qalırlar. Bunu bilmək axı, çətin deyil, siz də yaxşı bilirsiniz.

- Bunu jurnalistlərin paxıllığı da, qısqanclığı da adlandırmaq olar. Bu elə məncə belədir.

- Lakin buna baxmayaraq siz ictimaiyyət arasında geniş tanınmaq istəyirsinizsə, həqiqətən də uşaqlar evində xeyriyyə konserti təşkil etməlisiniz. Qoy camaat elə bilsin ki, siz kimsəsizlərin taleyinə biganə qalmırsınız.

- Mənə elə gəlir bundan yaxşı reklam olmaz. Mən uşaqlar evində elə konsert verəcəm ki, onun səsi-sorağı bütün respublikaya yayılsın.

- Konsert canlı olacaq, yoxsa fanoqramdan istifadə olunacaq? – deyə İslam maraqlandı.

Zemfira əlüstü narazılığını bildirdi:

- İndiki zamanda, hansısa bir tədbirdə iştirak edəndə kim canlı oxuyur? Mənim onlardan nəyim əskikdir? Əlbəttə, mən də fanoqramdan istifadə edəcəm.

- Zemfira xanım, mən elə tədbirlərdə çox iştirak etmişəm və bilirəm ki, elə tədbirlər yüksək səviyyədə təşkil olunur. Konsert vaxtı uşaqlara nə yardım edəcəksiniz?

- Bundan artıq nə etməliyəm ki? Ansmblı işindən-gücündən ayırıb, orada xeyriyyə konserti verəcəm və uşaqlar da bundan feyziyab olacaqlar. Bir də oradakılar ac qalmasınlar deyə, 100 dollarlıq şirin süfrə təşkil edərik.

- Bu məsələyə daha ciddi yanaşmaq lazımdır. Ona görə ki, televiziya çəkilişi olacaqsa, onda media nümayəndələri mütləq həmin yerə təşrif buyuracaqlar. Şirniyyatla yanaşı, masada isti və soyuq yeməklər də olmalıdır. Unutmayın ki, internatlarda olan uşaqların əksəriyyəti kimsəsizdirlər və onlar yardım gətirən hər bir adama ümidlə yanaşırlar.

- Mən tanınmış müğənnilərin uşaq və ya qocalar evində keçirdikləri xeyriyyə konsertlərinə baxanda, masanın

üstündə şirniyyatdan başqa heç bir şey görmürəm. Amma bunu reklam edəndə özlərini elə aparırlar ki, sanki bütün dünyanın malını yığıb oraya aparıblar.

- Belə hərəkət media işçiləri arasında pis əks-reaksiya verə bilər.

- Media nümayəndələrinə mən orada şirni verəcək və onlar həmin tədbiri qəzet səhifələrində yüksək səviyyədə işıqlandıracaqlar.

- Zemfira xanım, birincisi hər media işçisi şirniyə aldanmır, ikincisi adi bir xeyriyyəçi internatlarda elə görüşlər təşkil edirlər ki, orada olan adamlar öz heyranlıqlarını gizlətmirlər. Bir nümunə deyim; Etibar adlı cavan bir xeyriyyəçi Abşeron yarımadasında yerləşən körpə, uşaq, qocalar evlərinə dəfələrlə yardım aparır. O, ansambl gətirməklə yanaşı onlara ərzaq, pal-paltar, dərslik ləvazimatları və s. mallar aparır. Maraqlı odur ki, o irilikdə tədbir keçirilir, amma Etibar heç vaxt əlavə pul verib, kimsəsiz bəndələri sevindirdiyi məqamları televizorda yaymaq məqsədi güdməyibdir.

İndi isə siz istəyirsiniz ki, boş konsert verib bunu televizorda işıqlandırasınız? Bu sizə hörmət gətirməz.

- Başqalarına hörmət gətirər, mənə isə yox? – deyə müğənni narazı halda dilləndi. - Sən heç bilirsən, həmin tədbiri televizorda işıqlandırmaq üçün nə qədər pul

xərcləmək lazımdır? Təxminən 3-4 min manat pul sərf olunacaq. Onsuz da bir neçə iri fondlar, o cümlədən, özəl xeyriyyə fondları onlara nə qədər istəsən yeyib-içmək, paltar-pultar gətirirlər. Mən pulu yalnız reklam işləri üçün xərcləyirəm.

- Nə deyirəm ki, ixtiyar sahibi özünüzsünüz. Amma camaat bunu alqışlamayacaq.

- Elə ki, xeyriyyə konserti başa çatdı, ondan təxminən bir ay sonra, mən itimi də çəkdirib televiziya ekranlarında nümayiş etdirəcəm.

- İtin çəkilişinə prodüsserlər çoxlu pul alırlar. Onun əvəzinə siz daha sərfəli proyekti həyata keçirə bilərsiniz. Zemfira xanım, inciməyin məndən, amma mən sizə səmimi deməliyəm ki, itin çəkilişlərinə pul xərcləməkdənsə, həmin pulları yetim uşaqların yolunda xərcləsəniz daha savab iş olar.

- Şair, sən hələ bilmirsən, mən itimi nə dərəcədə çox istəyirəm. – deyə vəcdə gələn müğənni hərarətlə dilləndi. - Onun yolunda mən bütün varidatımı qurban verməyə hazıram.

- İti özəl şirkətə məxsus olan mavi ekranda nümayiş etdirmək, özünü güldürməkdən başqa bir şey deyil.

- O biri müğənnilər itlərini televiziyada reklam edəndə gülüş obyekti sayılmır, amma mən Sisini reklam etsəm,

gülünc obyekti olacam? Bilirsən İslam, mən öz fikirimdən dönməyəcəm, bizim tamaşaçılar mütləq Sisini televiziya məkanında görməlidir.

- Bu məsələdə mən neytral mövqedə duracağam. – deyə şair qarşıda baş verəcək biabırçılıqdan yaxasını kənara çəkdi.

İslam qarşısındakı qadının nə dərəcədə dar düşüncəli insan olduğunu dərk etdi. Zemfira özünü camaat arasında tanıtdırmaq üçün sənəti ilə yox, itini reklam etməklə səy göstərir.

## VIII fəsil. Pula görə özünü alçaltmaq istəməyən qarovulçu

Artıq payız fəsli girmiş və soyuqlar istiləri əvəz etməyə başlamışdı. Günlərin bir günü Zemfira zəng edərək Elşənə bildirir ki, kabab çəkmək üçün manqal hazır vəziyyətə gətirilsin. O, bir saatdan sonra rəfiqələri ilə bağa istirahətə gələcək.

Payız fəslinin ortası olsa da, belə bir gündə bağda rahat istirahət etmək çox qəribə görünürdü. Çünki hər an hava soyuqlaşa, külək əsə, yağış yağa bilərdi. Həm də bu gün noyabrın 20-i idi və bu tarixdə, yəni, 1991-ci il noyabrın 20-də Azərbaycanın, Rusiyanın və Qazaxstanın siyasi, dövlət, ictimai və elm xadimlərindən ibarət olan sülhməramlı missiyası helikopterlə Qarabağa uçarkən, orada yerləşən Qarakənd kəndi yaxınlığında erməni quldurları tərəfindən məhv edilmişdilər. Belə bir anım günündə əksər yerlərdə əyləncəli məclislər təşkil olunmurdu. Başa düşmək olardı ki, bu səbəbdən Zemfira öz dost-tanışları ilə bağda toplaşmağı qərara almışdı. Elşən əmin idi ki, tez-tez ictimai yerlərdə olan müğənni belə bir gündə musiqi oxutdurarkən yüksək vattlı kolonkalardan istifadə etməyəcək.

Bu haqda əvvəlcədən Məzahir məlumatlandırılmışdı və xüsusilə bildirilmişdi ki, quzu, ağ balıq ətini və digər ərzaq məhsullarını Natiq alıb gətirəcək.

Bu gün Zemfira öz işçilərinə maaş verməli idi və Elşən səbirsizliklə məvacibin alması məqamını gözləyirdi. O, ilk növbədə kommunal xərclərini və mağazaya olan borcu ödəməliydi ki, artıq problemlərlə üzləşməsin. Əks təqdirdə həm qaz, həm də işıq kəsiləcəkdi. Xoşbəxtlikdən hava isti idi və Elşən açıq havada kabab hazırlamaqda çətinlik çəkməyəcəkdi. Ət gətirilən kimi qarovulçu tələm-tələsik

basdırma edib iki qazana yerləşdirdi. Müğənninin itinə baxan dayə isə salat, mer-meyvə və şirniyyat hazırlamağa başladı.

Gələndən əlini ağdan-qaraya vurmayan, həyətdəki bağçada oturub viski içən Natiq işləyən oğlanın bütün hərəkətlərini izləyirdi. Bağdakı çəmənlikdə olan təmizliyə, səliqə-səhmana əhəmiyyət verməyən bu emosional oğlan çəkdiyi siqaretin kötüyünü qarşısında külqabı ola-ola bir tərəfə atdı, sonra isə bununla ürəyi soyumayıb soyduğu mandarın qabığını da çəmənliyə tulladı. Onun bu mədəniyyətsiz hərəkətindən təngə gələn Elşən əsəblərini birtəhər cilovlayaraq təmkinlə dedi:

- İncimə qardaş, Zemfira xanım çəmənlikdə zibil atılmasını  xoşlamır.

Natiq qulaqlarına inanmadı, qarovulçunun iradları sanki bir sillə kimi üzünü qarsdı. Hikkə ilə dedi:

- Birincisi, bir daha mənə qardaş desən özündən küs, qarovulçunun qardaşı elə özü kimi qarovulçu olur – deyə Elşənin müraciətindən hiddətləndiyini bildirərək həmin tərzdə də sözünə davam etdi – İkincisi, bəs sən burada nə işlə məşğulsan? Burada olan zibillərin təmizlənməsi birbaşa sənin işindir. Ona görə də zəhmət çək, yerdəki tullantıları təmizlə.

Natiqin onun üstünə qışqırdığını və üz-gözünün bozardığını görən və əslində başıaşağı, üzüyola bir gənc olan Elşən hər şeydən əvvəl sakit həyat tərzi sürməyi xoşlayan olduğundan indi şərə düşməmək üçün bir daha ona tərəf nəzər salmadı və vaxt itirmədən hazır kömürü manqala düzüb ora od vurdu. Bir az keçəndən sonra o, qazanları gətirib əvvəl quzu, sonra isə balıq ətlərini şişə taxdı. Şişlər manqala düzülən kimi bir anlığa ətrafı kabab iyi bürüdü. Kabab iyindən məst olan Natiq nəfsini saxlaya bilməyib dərhal manqala yaxınlaşdı və hansı şişin tez hazır olacağını səbirsizliklə gözləməyə başladı. Elə ilkin şiş hazır olan kimi həyasız oğlan şişi əlinə alıb, isti-isti quzu ətini ağzına atdı. Elşən isə ac olsa da, hər zamankı kimi həmin tikədən bir dənə də olsun dadmadı. Natiq isə əti yeyə-yeyə, yaxınlıqda zibil qabının olmasına baxmayaraq, kababın sümükləri elə manqalın ağzına atırdı. Onun belə bir mədəniyyətsiz hərəkətindən təngə gələn Elşən bu dəfə ciddi halda dedi:

- Yoldaş, görürsünüz ki, yaxınlığda qab var. Heç olmasa, sümükləri yanındakı zibil qutusuna at.

- Nə vaxtdan biz yoldaş olmuşuq? – deyə Natiq quzu kababını ağzında çeynəyə-çeynəyə istehza ilə dilləndi və həmin an növbəti sümüyü yerə tullayaraq ikrah hissi ilə sözünə əlavə etdi. – Bircə şeyi yadda saxla, heç vaxt

qarovulçudan mənə yoldaş olmaz. Bu mənim axırıncı xəbərdarlığımdır.

- Nə deyirəm ki, - deyə hirsini daxilində boğan qarovulçu hüznlə dilləndi. – səndən artıq dərəcədə xahiş edirəm, sümüyü yerə atma. Belə bir hərəkət heç kimə yaraşmaz.

- Görürəm, sən artıq-əskik danışmağa başlayırsan. Deyəsən, belə bir cənnəti-məkanda işləməklə, artıq qudurmusan.

Özündən hədsiz dərəcədə razı olan oğlana baş qoşmaq istəməyən Elşən, sifətini bozardaraq ona tərs nəzər salmaqla kifayətləndi. Lakin bu baxış bəs edirdi ki, Natiq coşub-daşsın. O, qarovulçunun üzərinə yeriyərək əsəbi halda dedi:

- Bu necə baxışdır, məni süzürsən? Bir daha mənə belə baxsan, sənin gözlərini qaraldacam.

- Mən yazıq nə etdim ki, xətrinə dəydi? Bura gələndən məni təhqir edirsən, alçaldırsan, amma mən dilimi qarnıma salmışam.

- Sən hələ mənimlə söz güləşdirmək istəyirsən?

- Mən də özümə görə adamam və hər an özümü müdafiə edə bilərəm. ona görə çalış məndən uzaq ol.

Bu sözləri özünə təhqir kimi hesab edən Natiq həmsöhbətinin yaxasından tutub, onu vurmaq istədi, lakin elə bu vaxt darvazanın arxasında dayanan maşının siqnal səsləri

eşidildi və Elşən onun əlindən qurtularaq cəld darvazaya tərəf getdi.

Həyətə daxil olan maşından Zemfiradan əlavə dörd nəfər açıq-saçıq geyinmiş cavan qızlar düşərək, cəld manqalın yanına qaçdılar. Onlar bir ağızdan elə buradaca, manqalın yanında kabab yeyəcəklərini bildirdilər. Natiq tələsik halda üst-başını səliqə-sahmana salıb onlara qulluq etməyə başladı. Elə bu an Zemfira yerdəki sümükləri görüb, heç bir şey ayırd etmədən fağır qarovulçunun üstünə düşdü.

- Bu nə pintilikdir? Ayağının altını təmizləyə bilmirsən? Buranı lap donuzxanaya döndərmisən ki?

- Zemfira xanım, narahat olmayın bu dəqiqə buranı təmizləyərəm. – deyə Elşən utancaq halda aşağı əyilib sümükləri salafan torbaya doldurmağa başladı.

- Səninlə hələ mən sonra danışacağam. – deyə arsız müğənni hökmlə dilləndi və ürəyini boşaltmaq üçün sözünə əlavə etdi. – Sən məndən icazəsiz qonaqlarımın kababını yemisən? Utanım yerinə.

- Zemfira xanım, əsəbiləşməyə dəyməz, - Elşən sümükləri zibil qutusuna atıb, yenə də Natiqə tərəf tərs nəzər saldı. - mən bir tikə olsun belə, manqalın yanında kabab yeməmişəm.

Zemfiranın işçisi ilə necə davrandığını görən qonaqlar xeyli təəccübləndilər. Hava bir qədər soyuq olduğundan

qonaqlar həyətdə oturmaqdan daşındılar və hamı evin içərisinə keçdilər.

Elşən kababı hazırladıqca, itə dayəlik edən Nina şişləri evə daşıyırdı. Bir az keçmişdi ki, evdən şair Mikayıl Müşfiqin **"Kaş o bağ olaydı"** sözlərinə, qadın müğənni tərəfindən bərbad şəkildə bəstələnən və elə özü tərəfindən ətürpərdici şəkildə ifa olunan mahnısı eşidilməyə başladı. Məhz bu musiqidən sonra təbiətən sakit olan Elşən vəcdə gəldi. İnsanların bu dərəcədə biganə olmasını o, təsəvvürünə gətirə bilmirdi.

Təxminən yarım saat ərzində Elşən öz işini başa çatdıraraq manqalı yığışdırmağa başladı. Elə bu vaxt Zemfira maşınından disk götürmək üçün çölə çıxdı. Maaş almaq üçün bundan əlverişli məqam gözləmədiyindən, qarovulçu dərhal ona yaxınlaşıb zəhmət haqqını istədi. Bir qədər kefli görünən müğənni ona tərs nəzər salaraq məzəmmətlə dedi:

- Mərifətin, qanacağın olsun. Görmürsən, mənim evimdə qonaqlarım var?

- Zemfira xanım, bu gün təcili olaraq kommunal borclarımızı ödəməliyik. – deyə Elşən məzlum şəkildə dilləndi və ondan əl çəkməyərək həmin tərzdə sözünə davam etdi. – Əks təqdirdə işığımızı və qazımızı kəsəcəklər.

Bu məqamda müğənni daha da coşdu və üzünü turşudaraq ciddi halda dedi:

- Sən özünün pintiliyin ilə məni rəfiqələrimin yanında biabır etdin. İndi isə maaş tələb edirsən? Mən biləni, sən kabab bişirən zaman ən azı iki şişi özün üçün mənimsəmisən. Sən yaxşı bilirsən ki, mən belə şeyləri xoşlamıram. Buna görə sənə 200 manat pul verəcəm.

Belə bir böhtandan hiddətlənən Elşən yerindəcə donub qaldı. Onu yandıran o idi ki, Zemfiranın yediyi qara kürünün 250 qramı dəyərində olan məvacibə, bir ay gecə-gündüz yorulmadan bir evdə çalışır, həmin pulun üstündən isə 50 manat kəsmək istəyirlər. Bu haqsızlığa dözə bilməyən Elşən əsəblərini güclə cilovlayaraq həqarətlə dedi:

- Xanım, bir Allah şahiddir ki, mən burada kabab bişirən zaman heç vaxt ağzıma bir tikə olsun belə qoymamışam, halbuki çox vaxt mən ac olmuşam. O ki, qaldı buranın zibilləməsinə, bütün bunları sizin prodüsseriniz edibdir. Xahiş edirəm, mənim pulumu kəsməyin. Həmin pula mənim böyük ehtiyacım var.

- Sən mənim prodüsserimi şərləyirsən, ondan sonra isə deyirsən ki, sənin pulunu kəsməyim.

- Xanım, mənim halalca qazandığım pulumu verin gedim borclarımı ödəyim.

Elə bu vaxt həddindən artıq içki içdiyi bəlli olan Natiq ləngər vura-vura həyətə çıxdı. O, Elşəni Zemfiranın

yanında görüb cəld onlara yaxınlaşdı və əlini qarovulçunun çiyninə qoyub rişxəndlə dedi:

- Zema, sən bu vasvası adamı haradan tapıb gətirmisən? Bu ki, lap adam biabır edəndir.

- Düz deyirsən, mən onu özüm üçün başıma bəla gətirmişəm. Elə gün olmyıb ki, mən bu kolxoza irad bildirməyim.

- Mən elə bir qəbahət iş görməmişəm ki, başınıza bəla olam. Bir də xahiş edirəm məni təhqir etməyin.

Elşəni alçaltmağa çalışan hər iki oynaş əlləri ilə onu göstərərk istehza ilə bərkdən gülüşməyə başladılar. Bir neçə saniyə keçmişdi ki, birdən həyətin qapısı döyüldü və qarovulçu həmin an qapıya tərəf addımladı. Lakin qapının ağzında bir neçə qonşunu görəndə mat-məəttəl qaldı. Onlar tələb edirdilər ki, şəhidlərin əziz xatirəsi naminə işlədilən maqnitofonun səsi azaldılsın. O, da öz növbəsində həmin iradları evin yiyəsinə bildirdi.

- Hansı şəhidlərdən söhbət gedir? – deyə Zemfira coşdu. – 20-si yanvarla, Xocalı soyqırımını başa düşdüm, bəs, bu gün nə günüdür?

- Məlumat üçün bildirməliyəm ki, iyirmi il bundan əvvəl erməni quldurları Xocavənd rayonunun Qarakənd kəndində bizim helikopteri vurublar.

- Hə, nə olsun buna görə mən yas saxlamalıyam? – deyə müğənni hiddətləndi.

- Necə yəni nə olsun? – deyə Elşən vəcdə gəldi. - Azərbaycanın ləyaqət, şərafət, qeyrət rəmzi olan bir neçə görkəmli siyasi, dövlət, ictimai xadimi ermənilər tərəfindən qəddarcasına öldürülübdür.

- Orada kimlər olubdur ki, sən özünü belə həyəcanlı aparırsan? – Zemfira maraqlandı.

- Respublikanın Baş prokuroru İsmət Qayıbov, Dövlət katibi Tofiq İsmayılov, keçmiş Daxili İşlər naziri Məhəmməd Əsədov, Osman Mirzəyev, Vəli Məmmədov, Alı Mustafayev və başqaları. Onlar həmin dövdə Azərbaycanın ən ləyaqətli övladları sayılır və öz missiyaları ilə Qarabağda başlanan müharibəyə son qoymaq istəyirdilər.

- Sadalanan adamların heç birisini mən tanımıram, bəs sən tanıyırsan? – deyə müğənni oynaşına giley-güzarla nəzər yetirib istehza ilə üzünü turşutdu və Natiqdən inkar cavabını eşidən kimi həmin tərzdə sözünə davam etdi. – Başa düşmürəm, bir ildə neçə dənə qara gün ola bilər? 20-si yanvarda, Xocalı soyqırımında şənlənməyə qadağan qoyduqları az deyil, indi də deyirsən ki, biz noyabrın 20-də də yas saxlayaq? Ramazan ayı ilə Məhərrəmliyi üst-üstə gələndə üç ay toylardan məhrum oluruq. Mən tanımadığım

və eşitmədiyim bir şey üçün özümü qara günə salmaq istəmirəm.

- Xanım, bağışlayın məni, axı, qeyd etdim ki, həmin günü biz Azərbaycanın ən ləyaqətli övladlarını itirmişik və belə bir gündə əylənmək və şənlənmək heç kimə baş ucalığı gətirməz. Buna görə camaatın nifrətini qazanmaq olar.

- Başqalarını bilmirəm, amma belə bir gündə mən kefimi pozmaq istəmirəm. – deyə Natiq rişxəndlə dilləndi.

- Onda heç olmasa, musiqinin səsini azaldın ki, yoldan keçən adamlar əsəbləşməsinlər.

- Musiqisiz əylənmək olar? – deyə Natiq istehza ilə dillənərək gülümsəməyə başladı və əlini Elşənin çiyninə qoyub əda ilə sözünə davam etdi. – Tez ol get evə, oradan həyətə bir masa çıxart və üzərinə şampan, viski, konyak və cürbəcür təamlar düz. Biz camaatın acığına həyətdə diskoteka təşkil edəcəyik.

- Verilən tapşırığa əhəmiyyət verməyən qarovulçu yerindən tərpənmədi. Ondan sonra Zemfira "karsan" deyərək, onun üstünə qışqırdı. Elşən əlacsız qalaraq ciddi halda dedi:

- Sizdən artıq dərəcədə xahiş edirəm, həyətdə əyləncə təşkil etməyin. Həqiqətən də belə bir gündə biz hamımız yas saxlamalıyıq. Necə olsa da, erməni quldurları tərəfindən öldürülən şəhidlər, Azərbaycanın ən tanınmış adlı-sanlı şəxsləri idilər.

- Əgər, sən verilən tapşırığa məhəl qoymasan, onda səni iti qovan kimi işdən çıxardacam. – deyə Zemfira əsəblərini cilovlaya bilmədi.

- Mən vicdanımı itirməmişəm ki, pula görə hər deyilən sözə əməl edim.

- Sən bir bu yekəbaşın sözünə bax ha. – Natiq qarovulçunun üzərinə yeridi. – Vicdansızın yekəsi elə özünsən. Pula görə Zemfiranın qabağında dizin-dizin sürünməyə hazırsan, amma ləyaqətdən danışırsan.

- Məndən pul istəyir, amma danışığına bax. – vəcdə gələn müğənni əlindəki mobil telefonunun arxası ilə qarovulçunun sinəsinə vura-vura dilləndi. – Natiq düz deyir, mən elə edərəm ki, pula görə səni dizin-dizin süründürərəm. İşlətdiyin sözlərə görə, istəsəm sənin maaşını vermərəm.

- Təqsir səndədir. – deyə Natiq üzünü müğənniyə tutub ikrah hissilə dilləndi. - Ona pul verə-verə artıq başına çıxartmısan.

- Mən zəhmət çəkdiyim üçün halalca maaşımı alıram. – deyə həmsöhbətləri ilə razılaşmayan qarovulçu qətiyyətlə dilləndi.

- İş ondadır ki, sən verilən tapşırığı yerinə yetirmədiyin üçün mən sənin maaşından kəsməli olacağam. – deyə özünü təkəbbürlü aparan müğənni narazı halda dilləndi. – Ən əsas, mənim rəfiqələrim ilə birlikdə musiqi sədaları

altında istirahət edən zaman narazı olduğuma görə mən bu addımı atacam. Amma maaşını bütöv almaq üçün mənim bir şərtim var; sən səslənən musiqi sədaları altında hamımızın qarşısında rəqs edəcəksən.

Elşən gördü ki, xalqın matəm saxladığı bir gündə qarşısındakı çirkin fikirli insanlar, xüsusən də, Zemfira qarovulçunu halalca qazandığı pulu ona ödəməklə alçaltmaq istəyirlər. Onlar açıq-aydın təhqirə keçmişdilər. Belə bir alçaldıcı şərtin qarşısında aciz qalmaq istəməyən qarovulçu öz fikrini yeritmək üçün ciddi halda dedi:

- Mən belə bir gündə nəinki qol açıb oynamaq fikrində deyil, hətta xalqımızın, Qarabağda həlak olan şanlı övladlarının əziz xatirəsinə ehtiram olaraq, yas saxladığı bir gündə, hər bir şeyi qulaqardına vuran insanlara xidmət etmək istəmirəm. Allaha şükür ki, mən hələ də öz vicdanımı itirməmişəm. Belə bir gündə şənlənmək şərəfsizlik sayılır.

- Ax, səni dilənçi, sən bizi yaramaz adlandırırsan? – deyə Natiq qəzəblənərək Elşənin sinəsinə yumruq zərbəsi endirdi.

- Nə qədər sir-sifətin dağılmayıbsa, dur, rədd ol buradan. – deyə eşitdiyi sözlərdən dəhşətə gələn müğənni elə qışqırdı ki, hətta evdə olan qonaqlar da həyətə tökülüşdülər.

Özünü kefli oğlandan müdafiə etməyə çalışan Elşən bir neçə addım geriyə çəkilərək sakit səslə pulunu tələb etdi və maaşının verilmədiyini görüb, "əziyyətlə qazandığım pulumu mənə vermədiyinizə görə zəhmətimi sizə halal etmirəm" deyərək, buradan uzaqlaşdı. Natiq cəzalandırmaq üçün onun ardınca getmək istəsə də, bərk kefli olduğundan bunu edə bilmədi.

## IX fəsil. Sponsorun prodüsser qarşısında qoyduğu tələb

Elşənin hərəkətlərini və təsirli sözlərini özü üçün təhqir hesab edən Zemfira həmin günü özünü rahat hiss edə bilmədi. Tarıma çəkilən əsəbləri onu emosional həddə çatdırmışdı. Bir sözlə, qarovulçu onun kefinə soğan doğramışdı.

Bütün məsələlərdə qızışdırıcı mövqedə duran müğənni havadarı gələn kimi Elşənin yekəxanalığından xəbər verdi. Çox fikirləşmədən onun yerinə Natiqin sürücüsü Akifin işləməsi təklif olundu. Lakin Zemfira Məzahiri aldadaraq ona bildirdi ki, həmin adam bağban işləyir.

Heç iki gün keçməmiş Elşənin yerini həmin bağda Akif tutdu və o, əvvəlki qarovulçuya nisbətən həyətdəki təmizlik işlərinə önəm vermədi. Hər şeydə həyasızlığını nümayiş etdirən müğənni hələlik Natiqə görə, ona kəskin iradlarını bidirmirdi. Həm də onun fikirincə, Elşənə nisbətən yeni qarovulçu ağzıbütöv olmalı və Natiqlə olan görüşləri məxfilikdə saxlamalı idi. Sadəcə olaraq o, əsəblərini birtəhər daxilində boğaraq, Akifdən uzaq olmağa çalışırdı. Amma əsl ev sahibinin həddindən artıq ciddi adam olmasına əhəmiyyət verməyən qarovulçu, imkan tapan kimi uzaqdan-uzağa arsız qadının müəyyən hərəkətlərini izləyir və onun telefon danışıqlarına qulaq asırdı. Belə bir hərəkətlərlə Akif müəyyən mənada Natiqin tapşırığını yerinə yetirir və hər vəchlə ərköyün müğənniyə qarşı kampromat materiallar toplamağa çalışırdı.

Elşənin həmin evdən uzaqlaşmasının üstündən bir ay keçirdi.

Zemfiranın məşhurlaşması fonunda, Məzahir onu yavaş-yavaş qısqanmağa başladı. Hətta iş elə gətirdi ki, o, məşuqəsi ilə bağlı Akifə gizlincə tapşırıq verdi. Evin qarovulçusu nəyin bahasına olursa-olsun, Zemfiranın evə kiminlə gəldiyini və hansı qonaqları qəbul etdiyini ona məruzə etməli idi. Müğənninin kənar bir şəxslə yaxın

əlaqədə olması sübut olunsa, onda həmin məlumata görə, Akif Məzahir tərəfindən mükafatlandırılacaqdı.

Akif dostunun sayəsində öz məqsədinə nail olmuşdu. O, burada bağbanlıq edə-edə öz məkrli niyyətini həyata keçirirdi. Hətta Natiqin özü də, keçmiş sürücüsünün belə bir çirkin niyyətindən xəbərsiz idi.

Zemfiranın klipinin iki aya yaxın çıxmasına baxmayaraq, onu hələ də nüfuzlu və dövlət əhəmiyyətli konsert tədbirlərinə dəvət etmirdilər. İş ondadır ki, o, böyük səhnəyə çıxandan sonra, anladı ki, o biri cavan müğənnilər onun fəaliyyətinə qısqanclıqla yanaşır və hər vəchlə qarşısına sipər çəkməyə çalışırdılar. Müğənninin klipi çıxan ərəfədə bir çox müğənnilər və media nümayəndələri onu təbrik edir, üstündən bir müddət keçəndən sonra isə, şou-əhli ona rəqib kimi, yad bir adam kimi münasibət bəsləməyə başladılar. Bir sözlə, Zemfira yeni, naşı müğənni kimi onlarla, yəni, bir neçə illik oxumaq stajı olan müğənnilərlə yanyanaşı mötəbər məclislərdə iştirak etməməliydi. Bu, özündən müştəbeh halda razı olan müğənninin prestijinə böyük zərbə endirirdi. Lakin o, öz məqsədindən geri dönmək fikrində deyildi.

Onun problemini aradan qaldırmağa çalışan Məzahir, bu məsələ ətrafında baş sındırırdı. O, bunu öz məşuqu və məşuqunun dırnaqarası prodüsseri ilə müzakirə etmək üçün

Novxanıya yollandı. Qanı qaralmış Zemfira onu evdə, Natiq isə darvazanın ağzında öz maşınında gözləyirdi. Masa arxasında spirtli içki ilə meyvədən başqa heç bir şey yox idi. Şübhə yox ki, müğənni stressdən çıxmaq üçün bir neçə badə viski içmiş və mobil telefonunun vasitəsilə Natiqlə kəskin tonda nəyi isə müzakirə edirdi.

Məzahir Natiqlə qapının ağzında görüşüb onunla birlikdə həyətə daxil oldu. Onlar içəri girəndə hegemon kişi ilk növbədə məşuqəsinin geyiminə diqqət yetirdi. Mavi rəngli bricit şalvar və ətəyi ombasından bir qədər aşağı olan sarı rəngli köynək onun bütün əndamını örtmüşdü. Bu qiyafədə Zemfira zəhimli kişinin gözündə daha da füsünkar görünürdü. Bikef olan müğənni onu qarşılayan kimi masa arxasında yanbayan əyləşdi.

Belə bir vəziyyətdə zəhmli görünən Məzahir də bir qədər yüngülləşmək üçün, özünə bir badə araq süzüb içdi. O, üzünü məşuquna tutub nigarançılıqla dedi:

- Mən elə bildim, televiziya ekranına çıxandan sonra, restoranlarda, şadlıq saraylarında, oxumaq üçün müdirlər növbəyə duracaqlar. Amma elə bil birdən-birə hamının fikri döndü. İş ondadır ki, hamının öz müştərisi var. – sonra o, üzünü Natiqə tutub, kinayə ilə sözünə davam etdi. - Bu yönümdə bizim prodüssüerimiz əməli dönüş yaratmalıdır.

- Köhnə ulduzların əlindən, hələlik heç nə etmək mümkün deyil. – deyə Natiq təəssüf hissilə dilləndi. - Onlar hərtərəfli olaraq, mətbuatın bəzi hissəsini əllərində saxlayır və televiziya kanallarından çıxmaq istəmirlər. Yeni ulduz peyda olan kimi onlar hər vəchlə həmin adamda qüsur axtarmağa başlayır, jurnalistləri həmin ulduzun üzərinə yönəldirlər ki, eyiblərini üzə çıxarıb ictimaiyyət qarşısında biabır etsinlər.

- Mən kimin bostanına daş atmışam ki, yaradıcılıq sahəmdə bu cür maneələr yaranır? – Zemfira narazı halda dilləndi. – O birilər sanki televizora yapışıb, oradan qopmaq istəmirlər.

- Mən biləni, müəyyən bir vaxt keçməlidir ki, ətrafına çoxsaylı fanatlar toplaşsın. – deyə Natiq dilləndi. – Reklamdan çox şey asılıdır.

- Bəs, yeni peyda olan müğənnilər necə məşhur oldular? – deyə Zemfira narazı halda soruşdu. – Axı, onlar da bir-iki mahnı oxumaqla, qısa müddət ərzində səhnəyə daxil olmuş və böyük sənətkarların arasında özlərinə yer elədilər.

- Onlar qısa müddət ərzində yox, bir neçə il ərzində səhnədə təşəkkül tapdılar. – Natiq aludəliklə dilləndi. – Unutmaq lazım deyil ki, şou-aləminə daxil olan bəzi müğənnilər, hətta onların adları dəfələrlə televiziya ekranlarında çəkilibdir, daha tez məşhurlaşmaq üçün

internetdə yayımlanan əxlaqsız görüntülərə görə daim öz həmkarları, mətbuat nümayəndələri, tamaşaçıların qınaq obyektinə çevirilmiş və hər bir tok-şou verilişlərində onlara olmazın sözlər deyilirdi. Buna sən məşhurluq deyirsən?

- Camaata yaxşı musiqi və şou lazımdır. – deyə Məzahir qaşlarını gözlərinin üstünə sıxaraq, təşəxxüslə dilləndi. - Yaxşı, musiqini isə peşəkar, özü də şou-aləmində tanınmış bəstəkardan almaq olar.

- Bu, ikinci dərəcəli olan bir məsələdir. – deyə Natiq təkzib verməyə başladı. – Səhnəyə gəlmək üçün, cavan müğənnilərdə, xüsusən də qız müğənnilərdə təsəvvür başqa cürdür. İndi səhnəyə çıxmaq üçün mütləq açıq-saçıq paltar-dan istifadə etməli, özünü vulqarcasına aparmalı, səhnədə ağzına gələni danışmalı və xüsusən də, tamaşaçılara qarşı saymamazlıq etməlidir. Ondan sonra həmin müğənni camaat arasında ildırım sürətilə tanınmağa başlayır.

- Demək istəyirsən ki, Zemfira camaat qarşısında lüt soyunub oxumalıdır? – deyə Məzahir əsəbi halda dilləndi. – Mən onun yolunda kifayət qədər pul xərcləyirəm və istəyirəm ki, o, başqa abırlı müğənnilər kimi səhnədə öz istedadını nümayiş etdirsin. Əlbəttə ki, bu işdə sənin fəaliyyətin öz bəhrəsini verməlidir. Mən sənə Zemfiraya görə maaş verirəm. Sən bu sahədə peşəkarsansa, onda o, da

başqa tanınmış sənətkarlar kimi səhnədə soyunmadan, camaat arasında məşhur olmalıdır.

- Məzahir müəllim, bu istiqamətdə mən böyük iş görürəm. Hazırda Zemfira xanımın klipi bir kanalda yayımlanır, qısa müddət ərzində mən, elə edəcəyəm ki, onun klipi bütün kanallarda yayımlansın.

- Mənim səhnəyə çıxmağım, bir çoxlarının paxıllığına səbəb olubdur. – deyə sir-sifətini turşudan  Zemfira narazı halda dilləndi. – Səhnəni zəbt edən müğənnilər özlərini elə aparırlar ki, sanki mən onların malına, puluna yiyə durmuşam. Onlarla rəqabətə girmək çox müşkül bir işdir. Həmin dırnaqarası müğənnilər bir qədər məşhurlaşan kimi başlayırlar Türkiyə səhnələrini işğal etməyə. Artıq məlumdur ki, şöhrət ardınca gedən bir çox tanınmış müğənnilərimiz bir neçə il Türkiyədə fəaliyyət göstərərək, orada tamaşaçılar arasında özlərini tanıtdırıblar. Türkiyəyə can atan bəzi naşı müğənnilər isə, indi onlar kimi ulduz olmağa çalışırlar. Görünür onların sponsorları həddindən artıq nüfuzlu və imkanlı şəxslərdir, - deyə Zemfira söhbəti mənalı-mənalı yekunlaşdırdı.

Məzahiri elə bil ilan çaldı.

- Sənə mən kifayət qədər pul xərcləyirəm və sən bir çox gənc müğənnilərdən yaxşı yaşayırsan. – deyə Məzahirin zəhrimar yağan üzü daha da codlaşdı. – Sən istəyirsən ki,

birdən-birə dünya şöhrətli müğənni olasan? Bu sənin qabiliyyətindən və mənə olan münasibətindən və hörmətindən asılıdır. Əgər, hər şey mən istədiyim kimi olsa, onda sən Azərbaycanın tanınmış və sayılıb-seçilən müğənnilərindən biri olarsan. – sonra o, yenə də üzünü Natiqə tutub həmin tərzdə sözünə davam etdi. – Natiq, təxminən on günə mən öz işimlə əlaqədar, Türkiyəyə ezamiyyətə gedəcəm və on-on beş günə oradan qayıdacağam. Mən burada olmayan müddətdə, sən bu evə ayaq basmırsan və daim öz işinlə məşğul olmalısan. Sənə ay yarım vaxt verirəm, Zemfiranı lazımi qaydada təbliğ edib, ona başqa kanallarda da iştirak etməsinə şərait yaratmalısan. Əks təqdirdə bizim xanım müğənninin prodüsseri dəyişəcək.

- Məzahir müəllim, siz elə bilməyin ki, mən boş-boşuna otururam. – deyə zəhmli kişinin sözlərindən bir qədər pərt olan Natiq aludəliklə dilləndi. – Sadəcə olaraq rəqabət güclüdür.

- Peşəkar adam üçün rəqabət əhəmiyyət kəsb etmir. – üzünə sərt ifadə verən biznesmen hökmlə dilləndi. – Bəs, televizora çıxan o biri prodüsserlər necə fəaliyyət göstərirlər? İşlərini həmin prodüsserlərə həvalə edən müğənnilər hər vaxt onların fəaliyyətindən razıdırlar.

- Nəzərə almaq lazımdır ki, onlar uzun müddətdən bəri şou-biznesdədirlər, – deyə Natiq düzəliş verdi. – Onların müəyyən etdikləri qonorar həddindən artıq yüksəkdir.

- Sənin zəhmət haqqın da az deyil. Üstünə bir qədər də artırsaydım, elə qadın prodüsserləri işə cəlb edərdim. Onlar həm peşəkar prodüsser, həm də səndən fərqli olaraq qadındırlar.

Özünü həmişə təkəbbürlü aparan oğlan bu sözlərdən sonra bərk hiddətləndi və söz altında qalmamaq üçün dedi:

- Məzahir müəllim, siz Zemfira xanımın işini qadın prodüsserə tapşırmaq istəyirsiniz? Onların bir neçəsi ağır problemlə üzləşibdir. Hətta iş o yerə gəlib çatıbdır ki, prodüsserlə müğənni bir-birilərini məhkəməyə verirlər.

- Məlumdur söhbət kimdən gedir, - deyə Zemfira istehza ilə dilləndi. - Onların arasında yaranan ədavət əsasən, maşına olan borca görə baş veribdir.

- Mən hələ də özlərini müştəbeh halda aparan müğənniləri başa düşə bilmirəm. – deyə Məzahir qadının sözlərinə əhəmiyyət vermədən sakitcə dilləndi. – Bir-biriləri ilə rəqabət apararaq, yüksək faizli kreditlər müqabilində bahalı-bahalı villalar, maşınlar, qiymətli zinyət əşyaları alır və özlərini sonu görünməyən borca salırlar. İndi də bir çox müğənnilər həmin probremlə üzləşiblər. Məgər, mütləqdir ki, 100 minlik maşın alasan? Müğənnilər gərək ayaqlarını

yorğanına görə uzatsınlar. Yəni, onlar 100 minlik yox, 25 minlik maşın alsalar, onda ağır problemlə üzləşməzlər.

Natiq, sənə axırıncı dəfə xəbərdarlıq edirəm, bütün imkan kanallarından istifadə edib Zemfiranı qısa müddət ərzində ulduz etməlisən. Əks təqdirdə səni başqa prodüsser ilə əvəzləyəcəm. İş ilə bağlı Zemfira ilə görüşməmişdən əvvəl mənə zəng etməlisən.

Məzahirin bu ultimatumu həm Natiq, həm də Zemfira üçün gözlənilməz oldu, onlar bir-birilərinə təəccüblü nəzər salaraq, çaş-baş qaldılar. Ona görə yox ki, həmin ərəfədə oğlan üçün bu evin qapıları bağlı olacaq. Akif hər iki cavan üçün inanmış, etibarlı adam olduğundan onlar haçan istəsələr, o zaman da görüşəcəklər. Sponsorun Zemfiranın səhnə fəaliyyəti ilə bağlı olan qoyduğu tələb, mürəkkəb sayıldığından, onun qısa müddət ərzində hasil olunması qeyri-mümkün idi. Lakin buna baxmayaraq, Natiq qeyri-ixtiyari həmin tələbi qəbul edərək, suyu süzülə-süzülə evdən çıxıb getdi.

## X fəsil. Dost və tanışların görüşü

Müxbir kimi fəaliyyət göstərən Əliyusif özünə başqa bir iş də axtarmağa başladı. Çünki 250 manatlıq məvaciblə o, nə özünü, nə də ki, ailəsini saxlaya biləcəkdi. O, bir çox təşkilatlara və şirkətlərə müraciət etsə də, hər yerdə ona mənfi cavab verilirdi. Məhz buna görə də Əliyusif dostu İbrahimdən kömək istəməyi məsləhət bildi.

Bu vaxt müxbir nişanlısı ilə şəhərdə görüşüb, onunla birlikdə "Torqovıy" adlanan yerdə rəssamların əl işlərinin təqdim olunduğu səyyar köşklərə getdi. Onlar xeyli əsərləri nəzərdən keçirəndən sonra metro stansiyası istiqamətində yola düzəldilər. Əliyusif bu gün İslam ilə vacib işlə bağlı görüşdüyü üçün o, nişanlısını evinə kimi ötürə bilməyəcəkdi. Məhz buna görə də o, Gülnarəni "Gənclik" metro stansiyasına kimi ötürməli oldu. İslam bir saata kimi "Tofiq Bəhramov" adına Respublika stadionunun qarşısında olmalı idi. Asudə vaxtının olduğunu nəzərə alan müxbir dostu İbrahimin harada olduğunu soruşdu. Əliyusif dostunun yerini bilən kimi vaxt itirmədən həmin yerə yollandı.

İbrahim "Çanaqqala" restoranında əyləşmiş və ağır xəyallara dalaraq çay içirdi. Onlar masa arxasında üzbəüz əyləşən kimi birinci sükutu Əliyusif pozdu.

- Qardaş, sənə nə olubdur? Burada nə edirsən?

- Heç bir şey olmayıbdır, sadəcə olaraq burada oturub təmiz hava alıram. – deyə İbrahim təşəxxüslə dilləndi. – İçərişəhərdə nəfəsim lap daralmışdı.

İbrahimin restoranı ola-ola burada çay içməsi müxbir üçün qəribə göründü. Onun qanı qara idi. Şübhə yox ki, o, burada kiminləsə görüşmüş və söhbəti xoş məcrada keçməmişdi. Çünki qabağında olan külqabıda siqaret kötükləri qalaqlanmışdı və müxbirin fikirincə, həmin siqaretlər qadınlar tərəfindən çəkilirdi. Əliyusif Lerikdə olan zaman belə bir siqareti Zemfiranın çəkdiyini görmüşdü.

Əliyusifdə olan məlumata görə, Zemfira son vaxtlar onun restoranına gəlir, hətta Ibrahim ilə bir neçə dəfə bir masada əyləşib, şirin söhbətlər də etmişdi. Müxbir qorxurdu ki, pula aludə olan pozğun müğənni dostunu da yoldan çıxaracaq. O, üzünə ciddi ifadə verərək narazı halda dedi:

- İbrahim, görürəm son günlər ətrafın yeni adamlarla əhatə olunubdur. Bu məni bir qədər narahat edir.

- Nəyə görə belə fikirləşirsən? – deyə restoran müdiri dostuna tərəf sualedici nəzər saldı.

- Qorxuram illər boyu qazandığın hörməti birdəfəlik itirəsən.

- Anlaya bilmirəm, sən nəyi nəzərdə tutursan?

- İbrahim, sən mənim xasiyyətimə bələdsən və bilirsən ki, mən arif adamam. Mənə məlumdur ki, Zemfira sənin restoranına gedib özünü sənə şirin göstərməyə çalışır.

- Zemfira müğənnidir və açığını desəm o, mənimlə işbirliyi yaratmaq istəyir.

- Onun kimi müğənnilər sənin restoranında qonaqları əyləndirmir. Bir çoxlarına, o cümlədən, sənə də bəllidir ki, Zemfira əxlaqsız bir qadındır. Pula görə o, bədənini kimə istəsə satın verə bilər. Sənin kifayət qədər pulun var və o, səni çox asanlıqla ələ keçirəcək.

- Məgər, Zemfira mənim məşuqəmdir? – deyə İbrahim təəccübdən çiyinlərini çəkdi. – Onu saxlayan adamın kifayət qədər pulu var və çətin ki, o, pula görə öz məşuqunu kiməsə dəyişsin. Zemfira istəyir ki, mənim tanışlarımın vasitəsilə televiziya kanallarının birinə yol tapsın.

- Kişiləri əlcək kimi dəyişməyə vərdiş edən həmin pozğun, nə vaxt istəsə, səni də ram edə bilər. O, öz gözəlliyi ilə hər bir adamın diqqətini özünə cəlb edir. Lakin əxlaqsız hərəkətləri üzə çıxanda kamil düşüncəli insanlar aradan çıxır, cahillər isə meydanda qalır. Yəni, həmin cahil insanlar onun toruna düşür.

- Mənim üçün çox qəribədir, necə oldu ki, sən səviyyənə uyğun olmayan belə bir lovğa insanlarla ünsiyyət qura bilmisən? Onlar adamı biabır edən, bizim cəmiyyətə yad

olan bir ünsürlərdir. Şəxsən mən, belə bir insanlarla bir addım olsun belə yol getmərəm.

- Bildiyin kimi, Zemfira ilə Natiq bir neçə dəfə mənim restoranımda olublar. Açığını desəm, onlar əksər hallarda ayrıca kabinetlərdə olublar və heç vaxt mən həmin cütlükdən artıq-əskik hərəkətlər görməmişəm. Düzdür, Zemfira bir çox yeni müğənnilər kimi şıltaq bir qadındır. O, nə qədər özünü ciddi aparmağa çalışsa da, çox hallarda sərbəstliyini gizlədə bilmir. Amma bahalı toylarda məclis aparmasa da, o, özündə çoxlu pul gəzdirir və elə çoxlu pullar da xərcləyir. Görəsən, həmin pulları ona yalnız Məzahir verir, yoxsa başqa adam da?

- Məzahirdən başqa hansı axmaq ona pul verər. – deyə Əliyusif sirri açıqlamağa çalışdı. – Desəm inanmarsan, o, kişi qızın dərdindən dəli-divanə olubdur. Məzahir çox əzazil adam olsa da o, Zemfiranın əlində oyuncağa çevrilibdir. Zəhmli kişi onun şıltaq hərəkətlərinə göz yumaraq, uşaq kimi Zemfiranın ətrafında fırlanır.

- İş ondadır ki, Natiq ondan istifadə edir və demək olar ki, onlar bəzən hallarda bir yerdə olurlar. Zemfiranın nə qədər pulu olsa da, onlar restoranda olanda bütün hesabı yalnız Natiq özü ödəyir. Mənə elə gəlir o, bəzən hallarda Zemfiranı Məzahir kişiyə qısqanır.

- Bu haqda mən heç nə deyə bilmərəm. Deyirəm, bəlkə Natiq həqiqətən də ona pul xərcləyir? Necə olsa o, imkanlı ailədən çıxıbdır.

- Amma sən fikirləşdiyin kimi Natiq o qədər də imkanlı adam deyil, təbiətən isə o, qənaətcil sayılır. Çox hallarda Zemfira özü ona pul xərcləyir.

- Bəlkə o, Natiqdən də başqa bir adamla görüşür? – deyə İbrahim dostuna sualedici nəzər salaraq, veridiyi suala cavab gözlədi.

- Bilmirəm. Mən onu Məzahirdən başqa yalnız Natiqlə bir yerdə görürəm. Lakin buna baxmayaraq Natiq heç bir şeydən ehtiyat etmədən, cürbəcür xanımlarla əlaqə qurmağa can atır. İş ondadır ki, o, bunu istirahətə gəldiyi Zemfiradan bir neçə metr aralıda edir.

- Belə bir məlumat səndə haradan? – deyə İbrahim təəccübünü gizlətmədi. – Zemfira bundan xəbər tutsa, həmin an Natiqdən üz döndərər.

Sonra Əliyusif **"Relax"**da Gülnaryə görə Natiqlə pələmədə baş verən qalmaqalı dostuna ərz etdi. İbrahim bu hadisəni eşidəndə həqiqətən də təəccübünü gizlətmədi. O, bir qədər fikirə gedərək, sakit tərzdə dedi:

- Zemfira həqiqətən də belə bir hərəkətə görə ondan üz döndərə bilər, hətta ondan qisas da alar. Vaxt gələcək, Zemfira ilə görüşdüyünə görə Natiqin başı bəlalar çəkəcək.

- Nəyə görə belə deyirsən?

- Sənə dedim axı, Məzahir çox əzazil və qəddar adamdır. O, qarşısında sipər kimi duran hər bir adamı fiziki cəhətcə məhv edə bilər.

- Bunu dəqiq bilirsən?

- Azdan-çoxdan mən qardaşımın vasitəsilə onun xasiyyətinə bələdəm. Qardaşım onun bağında qarovulçu işləməklə, onun nəyə qadir olduğuna bələddir. Təsəvvür edirsən, o, xoşu gəlmədiyi adama arxa çevirər, ac saxlayar, amma eyni vaxtda oynaşının itinə kabab da yedizdirər.

- Necə yəni itinə kabab yedizdirər? – deyə İbrahim təəccüblə dostuna nəzər saldı.

Ondan sonra Əliyusif qardaşı ilə bağlı Məzahirin bağında baş verən hadisəni dostuna ərz etdi. Bununla da o, həmin naqis qadının nəyə qadir olduğundan xəbərdar oldu.

- İndi mənə aydın oldu: Zemfira başını hansı məngənəyə salıbdır, – deyə İbrahim başını təqdiredici tərzdə yellədərək, fikirli halda dilləndi. - Belə getsə o, havadarının qəzəbinə tuş gələcək. Külli-miqdarda pula malik olan adamlar isə xəyanəti xoşlamırlar. Onlar hətta xəyanət edən adamı, fiziki cəhətcə məhv etməkdən belə çəkinməzlər.

- İbrahim, insan nəfisi ev yıxandır. İnsan öz nəfisi ilə mübarizə aparmaqda acizdir. Zemfira çox təhlükəli və abırsız bir qadındır. Bax, yenə də deyirəm, o, özünün

murdar əndamı ilə səni şiniklendirib, yoldan çıxara bilər. Ondan sonra sənin başın qalmaqallara qarışacaq. Özün deyirsən ki, imkanlı adamlar xəyanətə görə heç kimə aman vermirlər. Belə olan təqdirdə, sən də həmin xəyanətin qurbanı ola bilərsən.

- Qardaş, indiki zamanda mən yox, o, mənə yapışır. – deyə İbrahim bir qədər götür-qoy edəndən sonra tərəddüdlə dilləndi. – Zemfira istəyir ki, mahnı oxumaq üçün mən ona öz restoranımda şərait yaradım. Sən çox yaxşı bilirsən ki, mən elə mənfi əxlaqlı müğənniyə, həmin restoranda mahnı oxumağa icazə verə bilmərəm.

- Bir sözlə, ondan uzaq ol. – müxbir nəsihətlə son ifadəsini işlədəndən sonra İbrahimin mobil telefonu zəng çaldı və zəng edən adama harada olduğunu deyərək, diqqətini dostuna yönəltdi. - Müxbir davam etdi. - İbrahim, bir dəfə restoranda olanda Zemfiranın sənə necə baxdığını gördüm. Yalnız adamın məşuqəsi ona belə nəzər sala bilər. Natiq yanında olmasa o, heç kimə əhəmiyyət vermədən özünü sənə sürtüşdürər. Məhz belə görüntülərdən sonra məndə, səninlə bağlı, bu cür qaranlıq fikir yarandı.

Bu sözlərdən sonra İbrahim dostuna çəpəki nəzər salıb, süni olaraq dodaqlarında təbəssüm yaratdı. Müəyyən mənada o, özünü mənəvi zərbə altında hiss etdi. Restoran müdiri dostunun ittihamlarına tuş gəlməsin deyə, mövzunu

dəyişməyi qərara aldı. O, çayniki götürüb, qarşısındakı stəkanlara çay süzə-süzə dedi:

- Qardaş, səni iki unikal adamla tanış edəcəm, onlar qeyri-adi üsulla böyük pullar qazanırlar. Bir neçə il bundan əvvəl, onlar çox kasıb uşaqlar idilər, indi isə yaratdıqları bizneslə, özlərinə yaxşı ev-eşik qurublar.

- İbrahim, bağışla məni, bizim dövrdə dələduzluğa əl atmasan, böyük pul qazanmaq qeyri-mümkündür. – deyə jurnalist subyektiv fikrini bildirərək, qızıl gül mürəbbəsi ilə çayını içməyə başladı.

- Mən, müəyyən mənada səninlə razılaşa bilərəm. - deyə İbrahim həvəslə dilləndi. – mənim atam böyük tikinti sektorunun müdiridir və öz zəhməti bahasına yaxşı pullar qazanırdı. Lakin biznesdəki qeyri-sağlam rəqabət sayəsində onun işləri yaxşı getmədi. Tikinti sektorunda kimin dəstəyi güclüdürsə, həmin adam öz gəlirini vergidən gizlətməklə istədiyi pulu qazanır.

- Elə adamlar təkcə tikinti sektorunda deyil, bütün sahələrdə peyda olublar. Böyük sərmayə qoyub halal qazanmaq çox müşkül bir işdir. Məhz buna görə arxalı biznesmenlərin övladları Avropa və Amerikanın ən tanınmış ali təhsil ocaqlarında təhsil alaraq, güclü diplomlara yiyələnirlər.

- Amma iş ondadır ki, bəzən elə biznesmenlər də var, onlar o qədər haram pullar qazanrlar ki, övladları, arvadları

və yaxud da məşuqələri, bilmirlər həmin pulları hara xərcləsin. Bax, indi bura gələcək tanışlarım, elə imkanlı adamlardan necə pul qazanmağının yollarını sənə izah edəcəklər.

- Onların peşəsi nədir?

- Hər ikisi xod gedən gözəllik salonların birində saç ustası, stilist və massaj ustası kimi işləyirlər. Mən ustaları Zemfira ilə tanış etdim ki, müğənni onların xidmətindən istifadə etsin. İş ondadır ki, sənin qonşun Siyəzən yolunun üstündə yeni mahnısına klip çəkdirir. Çəkilişlər səhər tezdən keçirildiyindən o, həmin ustaları özü ilə həmin yerə aparmışdı.

- Onlar bir pozğun müğənniyə görə, müştərilərini atıb ora gediblər? – deyə Əliyusif vəcdə gəldi. – Bu, nəsə inandırıcı görünmür.

- Sən deyəsən, belə şeylərdən uzaqsan. Gedişləri ilə əlaqədar Zemfira hər ustaya 1000 manata yaxın pul veribdir.

- Gör, Məzahirin pulları nəyə xərclənir, – deyə Əliyusif hiddətdən əlləri ilə başını tutdu. - Belə də israfçılıq olar? Allah belə şeylərə necə yol verir? Qardaşım gecə-gündüz Məzahirin evində qarovulçuluq edir və bunun müqabilində o, ayda 250 manat pul alır, mənim məvacibim də heç 250 manatı keçmir.

- Qardaş, nə etməli, görürsən ki, hər şey fərasətdən asılıdır.

- İş yoxdursa, fərasət ətalət təsiri altında olur, – deyə müxbir bikef halda filosofcasına qeyd etdi və bir qədər ara verəndən sonra xüsusi bir şövqlə üzünü dostuna tutub: - İbrahim, nə gizlədim, mən artıq borc içərisində boğuluram. Sənin dost-tanışların həddindən artıq çoxdur. İmkanın varsa, məni yaxşı bir işə düzəlt. Bu vəziyyətdən yaxamı qurtar.

Dostuna diqqətlə qulaq asan restoran müdiri bir qədər fikirə gedib daxilində nəsə götür-qoy etdi. Bir az keçəndən sonra o dedi:

- Öz restoranımda sənə görə münasib iş yoxdur. Amma şadlıq sarayına sahiblik edən bir dostum var. Mən ona deyərəm, səni dörd zaldan birinə administrator təyin edər. İlk aylarda maaşın təxminən 450-500 manat olacaq, ondan sonra isə məvacibin artacaq.

- Buna görə əvvəlcədən sənə öz minnətdarlığımı bildirirəm. – deyə Əliyusif dostunun əlini sıxaraq sevincək halda dilləndi. – Yaxın günlərdə mən səndən şad xəbər gözləyəcəm.

Əliyusifin ümidverici xəbər eşitməsinin üstündən heç on dəqiqə keçməmiş, onların ümumi dostu şair İslam zəng edib deyilən yerdə olduğunu bildirdi. İbrahim bu xəbərdən

hali olan kimi həmin an bildirdi ki, onlar işlərini başa çatdıranda, mütləq əyləşdiyi restoranda hər ikisini gözləyəcək.

Müxbir cəld gedib İslamı həmin yerdə tapdı və onunla birlikdə, 1 saylı Körpələr evinə yollandı. İslam Etibar adlı bir xeyriyyəçi ilə bura gəlməyi planlaşdırdığından, Körpələr evinin baş həkimindən uşaqlara əsasən, nə lazım olduğunu öyrənib siyahı tutdu. İşlərini başa çatdıran kimi onlar İbrahimin gözlədiyi məkana yollandılar.

Restoran müdiri dərhal ayağa qalxıb, etiket qaydalarına əsasən, dostu olan şairə masa arxasında ən yaxşı yeri göstərdi. Müxbir isə İslamdan sol tərəfdə özünə yer tutdu.

Qabiliyyətini nümayiş etdirməyə çalışan İbrahim ilk növbədə bu müxbir nə yeyəcəyini soruşdu. Nəzakət göstərən restoran müdiri nə qədər etsə də, İslam yeməkdən imtina etdi. Onda o, ofisianta çay, kofe, şirə və tort dilimlərindən ibarət şirniyyat gətizdirdi. Onlar çay içə-içə televiziya kanallarında gedən dəyərli və dəyərsiz, lazımlı və lazımsız proqramlar barəsində söhbət aparmağa başladılar.

Elə bir az keçmişdi ki, Əliyusifin gözü qonşusu Arifə sataşdı. Arifsə bayaqdan bəri bir neçə masa aralıda dost-tanışları ilə bir yerdə olmuşdu və kənardan Əliyusifi dostları ilə birlikdə burada görsə də, onlara maneəçilik törətməmək üçün yaxınlaşmamışdı.

Arif restorandan getməyə hazırlaşarkən, onların hamısı ilə uzaqdan salamlaşdı və qapıya tərəf yollandı. Əliyusif onun kimliyini dostuna ərz edən kimi, İbrahim əlbəttə ki, onunla yaxından tanış olmaq istəyini gizlətmədi. Müxbir tərəddüd etmədən Arifin yanına gedib onu oturduğu masaya dəvət etdi. Dəvəti məmnuniyyətlə qəbul edən ziyalı İbrahimin əyləşdiyi masaya yaxınlaşdı. Əliyusif dərhal onu dostu ilə tanış etdi. İbrahim qanacaqlı bir insan kimi əyləşmək üçün yaşlı ziyalıya masa arxasındakı oturacağı göstərdi.

- Bəlkə, sizin məxsusi söhbətiniz vardı? – deyə ziyalı onlardan ayrılmaq istədi. – Mən başqa yerdə də çay içə bilərəm.

- Arif müəllim, siz nə danışırsınız, sizin mübarək iştirakınız bizim ürəyimizdən olacaq, – deyə Əliyusif qonşusunun qolundan tutaraq, onu İbrahim göstərdiyi yerdə otuzdurdu. – Onsuz da mövzudan asılı olmayaraq, bizim daim ziyalı məsləhətinə böyük ehtiyacımız olur.

- Arif müəllim, Əliyusif sizin haqqınızda mənə çox şey danışıbdır. – deyə İbrahim iltifatla dilləndi. - O, dəqiq vurğuladı ki, bizim hər zaman ziyalı məsləhətinə böyük ehtiyacımız olur. Xahiş edirəm, bizimlə əyləşin.

Məhz həmin təklifdən sonra Arif onların arasında əyləşərək, arada yaranan dialoqun iştirakçısına çevirildi.

## XI fəsil. Cürbəcür fikirli insanların bir yerə toplaşması

Əliyusif qonşusuna çay süzə-süzə ağzını açıb söz demək istəyirdi ki, birdən İbrahimin mobil telefonu səsləndi. O, cavab verərkən, danışdığı şəxsə harada olduğunu bildirdi, sonra üzünü yanındakı adamlara tutub ehtiramla dedi:

- Hörmətli dostlar, artıq bu haqda mən Əliyə xəbər vermişəm və istərdim ki, icazənizlə bura iki unikal adamı dəvət edim. Onlar geyimləri, davranışları, dünyaya baxışları ilə hamıdan seçilir və yürütdükləri fikirləri ilə bir çox insanları qıcıqlandırırlar. Əli, peşəkar müxbir olduğu üçün istərdim ki, onlar bir yerdə oturub fikir mübadiləsi aparsın və o, həmin saç ustalarından özü üçün dəyərli məlumatlar ala bilsin.

- Şəxsən, mənim etirazım yoxdur, - deyə ziyalı kişi təmkinlə dilləndi. – Əvvəlcədən bildirirəm ki, qonşum Əli öz fikirində müstəqil olduğu üçün, onların söyləyəcəyi absurd fikirləri ilə razılaşmayacaq.

- İcazənizlə, mən sizin hamınızı başqa bir mini-zala dəvət edərdim. – deyə İbrahim gözlənilməz bir təklif irəli sürdü. – İstəməzdim ki, yanıma gələn adamlar buradakı adamları özlərinə cəlb etsinlər.

Ətrafındakıların etirazı ilə üzləşməyən restoran müdiri onları əvvəlcədən sifariş etdiyi mini-zala apardı. Onlardan başqa orada iki masada cəmi dörd nəfər (iki qız və iki oğlan) əyləşmiş və öz aralarında şirin söhbət aparırdılar.

Bir neçə dəqiqə keçəndən sonra onların yanına, 27-30 yaş arasında olan iki nəfər oğlan yaxınlaşdı. Onlardan biri Sabir adında arıq, hündürboy, saçları çiyninə tökülmüş, uzunsifət, o birisi isə Əmir adında ortaboylu, orta bədənli, qıvrım saçlı, sönük sifətli yaraşıqsız oğlan idi. Nəinki Arif, hətta Əliyusif ilə İslam da onların xarici görünüşünü görəndə hiddətə gəldilər. Belə adamlarla bir masada əyləşməyə öyrəşməyən yaşlı ziyalının halı bir anlığa dəyişdi və o, utandığından ətrafına nəzər salmağa başladı. İş ondadır ki, Sabirin sifətinə və dodağına selikon vurulmuşdu və geyimi, oriyentasiyasını dəyişmiş kişilərin geyiminə oxşayırdı, Əmir isə qadınlar kimi həm gözlərinə sürmə, həm də dodaqlarına azacıq boya çəkmişdi, saçının forması isə elə idi ki, sanki o, uzun müddət başını daramırdı. Hər iki qonaq şou aləmində fəaliyyət göstərən incəsənət nümayəndələri kimi geyinmiş və istər-istəməz ətrafdakı insanların diqqətini özlərinə cəlb edirdilər.

İlk növbədə burada işləyən ofisiantlar stilistləri belə bir görkəmdə görüb mat-məəttəl qaldılar. Elələri var idi ki, hətta kənara çəkilib gizlincə gülməyə başlayırdı. Sabir həm

saç ustası, həm də stilist, Əmir isə həm saç, həm də massaj ustası idi.

İslam bir çox məclislərdə, o cümlədən, şou-biznesə daxil olan müğənnilərin iştirak etdiyi məclislərdə aparıcı kimi çıxış etsə də, axırda masa arxasına keçən adamların həm hərəkətləri, həm də qiyafələri onda ikrah hissi oyatdı. Yəni, insan bu dərəcədə özünü belə bir biabırçı hala salmamalıdır.

İbrahim əvvəlcədən öz dostlarına izah etdi ki, söhbət maraqlı alınsın deyə, sonradan gələn qonaqları mütləq içizdirəcək. Həmin adamlar içəndən sonra həddindən artıq səmimi olurdular.

Onlar tanış olan kimi dərhal söhbətə başladılar.

Ofisiantlar qısa müddət ərzində layiqli bir süfrə açdılar.

Süfrədə "paytaxt", vineqret, mimoza salatları, xiyar, pomidor, bildirçin və balıq kababları, xarici şirə və italyan çaxırları vardı. Belə hallarda diqqətli olan Əliyusif, qonşusu Arif üçün ofisianta araq gətizdirdi. İslam namaz qıldığı üçün masanın künc tərəfində əyləşmiş və qabağına şaftalı şirəsi qoyaraq içirdi. Sabirin ağzı söhbətə elə qarışmışdı ki, badələrə süzülən çaxırların sayı artır və bununla da onun hərəkətlərində qüsurlar yaranmağa başlayırdı. Saç ustası belə bir vəziyyətdə olanda, ondan hansı suallara cavab istəyəndə tapmaq mümkün idi. Məhz buna görə də İbrahim

vaxt itirmədən hücuma keçdi. O, növbəti badəni doldurandan sonra dərhal sorğu-suala başladı.

- Səba, sənin əl qabiliyyətinə mənim şübhəm yoxdur. Amma maraqlıdır, mən elə adamlar tanıyıram ki, onların çoxu pis görkəmdə sənin yanından ayrıldığını görmüşəm. Kim olsa, həmin görkəmə düşməkdə hay-həşir qopardı. Lakin onlar minnətdarlıqlarını bildirə-bildirə, səndən razı halda ayrılırlar. Bunu nə ilə izah edə bilərsən?

- Mən bilirəm, sən nəyə işarə edirsən. – deyə Sabir istehza ilə dilləndi. – Yenə də müğənnilər ilə bağlı sərgüzəştlər səni maraqlandırır? Onların öz dünyası var. Sən çox yaxşı bilirsən ki, onlar abır-həya bilmədən, ar etmədən, hansı görkəmdə istəsələr, cəmiyyət qarşısına çıxırlar.

- Yəni, sən demək istəyirsən ki, normal adam həmin vəziyyətdə cəmiyyət qarşısına çıxmaz? – deyə İbrahim Əliyusifə göz vuraraq stilisti qızışdırmağa başladı. – Səba, gəl açıq danışaq, səni tanıyandan, bilirəm ki, sən heç bir kursa getmədən, “peşəkar” səviyyəli saç ustası oldun. Bəs, necə oldu ki, sən öz ətrafına çoxsaylı müğənnilər toplaya bildin?

- Deyəsən, sənin yaddaşın yoxdur. Bu sözü, artıq bir neçə dəfə məndən soruşursan. Elə bir qeyri-adi auditoriyanı

toplamaq üçün, əvvəlcə öz imicimdə böyük dəyişiklik etdim, sonra isə öz qulluğumu müştərilərə təklif etdim.

- Sən elə danışırsan, guya səndən başqa stilist yoxdur ki, hamı sənə müraciət etməyə başladı? – deyə Əliyusif Sabirin səmimiyyətinə şübhə ilə yanaşdı. – Axı, hər müştərinin, xüsusən də, pullu müştərinin öz ustası olur, onlar isə mütləq şəkildə həmin ustaların qulluğundan istifadə edirlər.

- İş ondadır ki, pullu müştəriləri aldatmaq çox asandır. – deyə kefli həddinə çatan Əmir özündən razı halda dilləndi. – Onlarda, əsasən də, müğənnilərdə pul o qədər çoxdur ki, onlar həmin pulların hara xərclədiklərini bilmirlər.

- Əmir, məni başqa bir şey maraqlandırır, - deyə İbrahim massaj ustasından söz qoparmaq üçün onun qabına bildirçin kababı qoydu. – bax, necə oldu ki, sən massaj ustası peşəsinə yiyələndin? Bu, çox maraqlı bir həyat yoludur.

- İbrahim, sən guya bilmirsən, mən necə bu peşəni seçmişəm? – deyə masa arxasında əzilib-büzülən Əmir giley-güzarla dilləndi.

- Bəlkə, mənim dostum saç ustası, stilist və ya massajçı olmaq istəyir? – deyə İbrahim əli ilə Əliyusifi göstərdi.

- Ola bilsin, bu sənətdə biz inhisarçı sayılmırıq. – deyə Əmir istehza ilə dilləndi və əlini kababa vurmaq istəyəndə, Arifin ona iti baxışlarla süzdüyünü gördü – Olmaya, bu yaşlı əmi də saç ustası olmaq istəyir?

- Arif müəllim bizim hörmətli ziyalımızdır və onunla zarafat etməyə heç kimə imkan vermərəm. – deyə restoran müdiri ciddi tərzdə dilləndi.

Xoşlamadığı insanın ona söz atmasından pərt olan Arif, emosional tərzdə cavab vermək istəyəndə, Əliyusif masanın altından qonşusunun əlini sıxaraq, onu susmağa vadar etdi.

- Həqiqətən də, bizim həmin sənətə yiyələnməyimizin gözəl tarixçəsi var. – deyə Sabir söhbətə qarışdı. – Hələ 11-ci sinifdə oxuyan zaman, biz bir türk stilisti ilə tanış olduq. Əsasən, onun əcaib görkəmi və xarici görünüşü bizim diqqətimizi özünə cəlb etdi. O, qısa bir müddət ərzində şou-biznes aləminin adamlarını öz ətrafına toplayıb, onlardan yaxşıca pul qazandı. Həmin müştərilər onun xarici görkəminə görə, işlədiyi gözəllik salonunda növbə yaradırdılar. Onda mən başa düşdüm ki, bizim müğənnilərimiz harada əcaib şəkilli stilistlər var, onların xidmətindən istifadə edirlər. Bu, bir növ onlar üçün şan-şöhrət sayılır. Hansı stilist, hətta öz işinin mahir ustası olsa belə, ədəb-ərkanlı geyimdə olarsa və başının saç düzümünü səliqə-sahmana salarsa, onda heç bir tanınmış müğənni həmin adamın yanına getmir. Sonra isə televizorda gedən verilişlərdə gördüm ki, bizim müğənnilərimiz heç də peşəkar olmayan stilistlərin yanına gedib, onların qulluqlarından istifadə edirlər. Hətta belə bir şaiyə gəzməyə başladı ki, müğənnilər,

özlərini qadına oxşadan həmin stilistlərin əlindən əcaib halda çıxandan sonra, öz məmnunluqlarını gizlətməyiblər.

- Səba, bəs müştəriləri öz ətrafına necə toplaya bildin? – deyə İbrahim istədiyi cavabı ondan almaq istədi.

- Bayaq dediyim kimi, ilk növbədə mən Əmir ilə birlikdə, heç kimdən utanmadan, öz imicimizə böyük dəyişiklik gətirdik, sonra isə müştəriləri cəlb etmək üçün küçələrdə reklam lövhələri asdıq. Əlbəttə ki, belə bir görkəmdə bütün məhəllə uşaqları bizi dolamağa başladılar. Lakin nə etmək olar, çörək qazanmaq xətrinə biz, ətürpədici təzyiqlərə, təhqirlərə tab gətirirdik.

- Onda belə çıxır ki, siz belə bir görkəmdə məhəllədə gəzməyə cəsarət etməmisiniz? – deyə şair maraqlandı.

- Açığıngı ilkin vaxtlar bizi söyüb təhqir etmələri bir yana qalsın, qapımızın üstündə ən murdar sözlər yazırdılar. – deyə Əmir əda ilə dilləndi. – Guya biz, oriyentasiyasını dəyişən kişilərik. Hətta qapılardakı yazılarda bizə ölümlə hədə-qorxu da gəlirdilər. Hamı məcbur edirdi ki, biz evimizi satıb, başqa ünvana köçək. Polisə şikayət etməkdən dabanlarımız qabar bağlamışdı.

- Yaxşı, deyə bilərsiniz, siz hansı ustanın yanında təcrübə topladınız? – deyə İbrahim zarafatla Əliyusifə göz vuraraq sual verdi.

- Bizim heç bir ustamız olmayıbdır, - deyə Sabir həvəslə dilləndi. – təcrübəni isə məhəllə uşaqlarının başlarında qazanmışıq. Sən qonşu məhəllədə yaşasanda, guya yadında deyil, biz balaca uşaqların başını hansı kökə salırdıq?

- Demək istəyirsiniz ki, uşaqların başını necə gəldi qırxmaqla, ümumiyyətlə usta yanında olmadan, siz bu sənətə yiyələnmisiniz? – Arifin gözləri təəccübdən bərələ qaldı. – İndi də müştərilərinizin əksəriyyəti imkanlı adamlardır?

- Burada qəribə nə var ki? – deyə Sabir çiyinlərini çəkdi. – Guya o biri, tanınmış stilistlər bizdən yaxşı baş düzəldirlər? Onlar da bizim kimi müğənnilərimizin başına min-bir oyun açaraq, cəmiyyət arasına buraxırlar.

- Nəticədə isə camaat qarşısına çıxan müğənnilər bir-biriləri ilə gözəllikdən çox, simalarında yaranan eybəcərlikləri ilə müqayisə apara bilərlər. – yaşlı ziyalı eşitdiklərindən vəcdə gəldi.

- Həqiqətən də elədir. – deyə Əmir istehza ilə gülümsəməyə başladı. – Şəxsən mən elə müğənnilər tanıyıram ki, onlar imic xatirinə hər şeylərini qurban verməyə hazır olurlar. Biri mənim yanıma massaja gələn kimi o birisi də bəhəs-bəhəsə girərək, bəyan edir ki, mən də kişi massaj ustasının yanında olmalıyam. Bu hələ harasıdır? Mən elə müğənni tanıyıram ki, o, şou-aləmə qatılmamışdan qabaq mən onun gözəlliyi qarşısında əriyirdim. Lakin bir-iki ay

keçəndən sonra Sabir onu elə hala salır ki, mən onu görəndə iyrənir və hətta massaj etmək belə istəmirdim.

## XII fəsil. Kefli olan saç ustalarının səmimi açıqlamaları

İbrahimin sifarişi ilə ofisiantlar daha üç şüşə çaxır və üç şiş bildirçin kababı gətirdilər. Ofisiantlar qulluq etdikcə qəribə baxışlarını əcaib insanlardan ayıra bilmirdilər. Onlar anlaya bilmirdilər, arvadsayağı geyinmiş həmin adamlar qadındır, yoxsa kişi. Sanki cavan uşaqlar, həmin iki nəfərin hərəkətindən və geyimindən iyrənirdilər.

- Yaxşı, bəs, necə məşhur oldunuz? – deyə İbrahim saç ustalarının stəkanlarını çaxırla dolduraraq, onların daxilində olan bütün sirlərə yiyələnməyə çalışdı. – Axı, necə olsa da, siz qısa müddətə, səhnəyə can atan, restoran və kafelərdə oxuyan cavan müğənniləri özünüzə cəlb edə bildiniz?

- Sadəcə olaraq, biz onları pis kökə salıb, televizor ekranlarına göndərdik. – deyə Sabir gülümsəyərək rişxəndlə dilləndi. - Açığını desəm, əlimdən heç nə gəlmirdi. Qayçı ilə saçlarını əyri-üyri kəsir, normadan artıq saç boyası

vurur, fen ilə tükləri yandırırdım. Hələ bu harasıdır? Saçın rəngini kimyəvi məhlullarla işləyəndə, tüklər nazik elektrik naqilləri kimi codlaşır və daraq üçün yararsız hala düşürdü. Sanki onların başı bizim üçün laboratoriya funksiyasını yerinə yetirirdi. Bir saat ərzində yaraşıqlı qadın eybəcərləşirdi və qəribə də olsa, belə bir saç düzümü onların xoşuna gəlirdi. İş ondadır ki, onlar "mənim imicim hamıdan fərqlənir" deyərək, yüksək əhval-ruhiyyə ilə salonu tərk edirdilər. Şəxsən mən, işimi başa çadırandan sonra, özüm onların görkəmindən qorxuya düşürdüm. Onda özümə belə sual verirdim: görəsən, yaxınları onların belə görkəminə necə reaksiya verir? Həmin adamlar onların xarici görkəmindən iyrənərək vahiməyə düşmürlər?

- Belə olan təqdirdə hər bir adam məsuliyyət hissi keçirmədən gedib, saç ustası işləyə bilər. – deyə Əliyusif istehza ilə dilləndi. – Sadəcə olaraq, həmin işin həyata keçməsi üçün yaxşı reklamdan istifadə etməlisən.

- Səba, gəl etiraf edək ki, bizim işimizi elə müğənnilərin özləri xeyli asanlaşdırdılar. – deyə, müxbirin sözlərinə heç bir əhəmiyyət verməyən Əmir, gülə-gülə düzəliş verməyə başladı. – İlk dəfə mən tanınmış bir müğənnini yararsız hala salanda, elə başa düşdüm ki, həmin adam məni təhqir edib məhkəməyə verəcək. Lakin onun qəribə hərəkəti mənim təəccübümə səbəb oldu. O, görkəmindən heyrətə

gəlib, dönə-dönə mənə öz təşəkkürünü bildirdi. Bunun müqabilində mən 200 dollar pul qazandım. Açığını desəm, incəsənət sahəsinə aid olmayan başqa müştərilərim də olubdur, onlar mənim əl qabiliyyətimi görəndən sonra, məni söyüb-batıraraq, bir daha həmin salona ayaq basmadılar.

- Burada qəribə paradoks yaranır, - deyə Sabir daxilində olan sirləri açmaqda davam etdi. – iş ondadır ki, həmin müğənnilərin saç düzümünü səliqə-sahmana salanda, onların kəskin iradı ilə üzləşirsən, amma yarasız hala salanda həm pul, həm təşəkkür, həm də hörmət qazanırsan.

Elə bu an Sabirin mobil telefonunda Samir Bağırovun ifa etdiyi "Sevgilim" mahnısı səsləndi. Saç ustası xanımların gəzdirdiyi qırmızı rəngli mobil telefonunu əlinə alıb, "alo" deyərək, hamının qarşısında büzüldü. O, əks tərəfi dinlə-yəndən sonra dedi:

- Sən, Tina Törnerin "kaktus kolu" adlı saç düzümünü istəyirsənsə, iki gün başını darama, ondan sonra yanıma gələrsən.

- Belə saç düzümünə salonda "merinos" deyirlər. – deyə Əmir əlavə etdi.

- Başa düşmürəm, - deyə İslam daxilində peşmançılıq hissi keçirərək, hiddətlə dilləndi. - onlar güzgüyə baxanda

anlamırlar ki, hansı kökə salınıblar və yaxud da ki, həmin görkəm ilə başqalarının ürəyini bulandırırlar?

İslamın sözlərində böyük həqiqət vardı. İnsanlar get-gedə, istər-istəməz özlərində bir dəyişiklik əmələ gətirmək üşün, gözəllik salonlarına üz tuturlar. Hətta öz xarici görüşündən tamamilə razı olan insanlar, başqalarının təhriki ilə gözəllik salonlarına gedib, özlərini eybəcər hala salırlar.

Bir dəfə bir evliliklə bağlı bir verilişdə orta yaşlı bir xanımı, ona süni gözəllik vermək üçün, tanınmış gözəllik salonların birinə yollayırlar. Onu, orada reklam etdikləri saç ustası elə kökə salır ki, hətta o, özü-özündən qorxur. Sonra aparıcı ona deməyə başladı ki, "həmin saç düzümü sənə yaraşır". Xanım isə bildirir ki, "saç düzümü nəinki mənim, hətta bütün dost-tanışlarımın xoşüna gəlməyibdir". Başqa nümunə elə həmin verilişlə bağlıdır: Aparıcı özü saç ustasının yanından gələndə saçını Tina Törnerin saç düzümü kimi "kaktus kolu" düzəltdirmiş və bununla da özünün xarici görkəmində yaraşıqsız surət yaratmışdı. Orada iştirakçı olan yaşlı bir qadın təəccüblə baxaraq ona deyir ki, "Xanım yolda gələndə bir hadisə baş verməyibdir ki?" O, isə cavabında belə deyir: "Heç bir şey baş verməyibdir. Necə bəyəm?"

– Saçınızın formasından mən elə bildim, sizi elektrik cərəyanı vurubdur. – deyə iştirakçı xanım dillənir.

Şübhə yox ki, həmin söz aparıcının xətrinə dəyir. Lakin saç ustasının yanına gedəndə o elə etməlidir ki, həmin saç düzümü ona həddindən artıq yaraşıq versin.

- Həmin hadisələr ondan xəbər verir ki, - deyə İslam əlavə etdi. - gözəllik salonlarının əksəriyyətində çalışan bir çox saç ustaları, Sabir ilə Əmir kimi naşı adamlar, yanlarına gələn müştəriləri eybəcər hala salıb, onları cəmiyyət qarşısında gülünc vəziyyətdə qoyurlar.

Sabir içkili olsa da, şairin nə dediyini yaxşı anlayırdı və buna görə də öz bildiyini həmsöhbətinin beyninə yeritmək üçün sakit tərzdə dedi:

- Onları həmin görkəm qane edir. Dostlar, yadda saxlayın ki, şou aləminə daxil olan adamlar, xarici görünüşdə və davranışları ilə başqa adamlardan seçilməlidirlər. Məsələn, hamıdan tez-tez fərqlənməyi xoşlayan bir müğənnimiz qeyri-adi saç düzümlərinə yiyələnir. Məhz həmin düzümlərə görə ona xalq arasında "başında rəsm qalereyası gəzdirən müğənni" deyirlər. Ondan sonra bir neçə yaşlı müğənni var ki, onlar tez-tez öz imiclərində dəyişikliklər edərək, tamaşaçıların diqqətini özlərinə cəlb edirlər. İndi də, imkanlı sponsorlara malik olan bir çox cavan müğənnilər özlərini onlara oxşatmaq üçün bizim kimi saç ustalarına müraciət edirlər.

- Tamaşaçılar qeyri-adi bir səhnə arzusunda olduğundan, - deyə Əmir fors verərək, naz-qəmzə ilə dilləndi. -

yaddaqalan perfomans görmək istədiklərindən, rəngarəngliyə öyrəşdiklərindən müğənnilər bizə yad olan bir qrimdə və ya qiyafələrdə mahnı oxumağa üstünlük verirlər.

- Hər halda məni başqa bir şey maraqlandırır, – deyə Arif acı hisslə dilləndi. - Görəsən, onların havadarları həmin müğənniləri saxlamaqla başa düşmürlər ki, onlar ən ortabab xanımdan eybəcər görünürlər? Açığını desəm, həmin müğənnilər ilk dəfə səhnəyə daxil olanda, sonrakı günlərə nisbətən daha yaraşıqlı və gözəl olurlar. Mənim sözümü hər bir adam təsdiq edə bilər. Lakin sonrakı mərhələdə, onlar gözəllik salonlarına gedəndə özlərini pis vəziyyətə salırlar. Sanki eybəcər və yaraşıqsız görünməkdə həmin müğənnilər bir-birilərilə yarışma keçirirlər.

- Sənəti, səsi və istedadı ilə öz ətrafına kifayət qədər pərəstişkar toplamış gözəl, göyçək, bir müğənni, öz imicində dəyişiklik edəndə, mən lap əsəbləşirəm. – deyə İslam dərindən nəfəs alaraq həqarətlə dilləndi. – Elə müğənni var ki, hamı onu xarici görünüşünə görə çox yaraşıqlı və gözəl, cəzbedici bir qadın kimi görməyə alışıb, amma bir də görürsən həmin sənət adamı sir-sifətini qaraldaraq, saçını elə yararsız hala salır ki, əvvəlki surətindən heç bir şey qalmır. Halbuki gözəl sifət quruluşuna malik olan həmin müğənni makiyajdan az istifadə edəndə, saçı düz, kürəyinə sarı darananda və yaxud da yığılanda o, səhnədə və həyatda

bir çox həmkarlarından həddindən artıq gözəl, yaraşıqlı və cəzbedici görünür. Dediyim odur ki, səhnəyə çıxan hər bir adam, Tanrının bəxş etdiyi gözəlliyi imic naminə, pis görkəmə salmamalıdır.

- Əmir, sən saç ustası olmaqla yanaşı, həm də massaj ustası kimi fəaliyyət göstərirsən. – deyə İbrahim fürsətdən istifadə edərək, həzin halda dilləndi. – Sənin müştərilərinin əksəriyyəti kişilərdir, yoxsa qadınlar?

- Mən kişilərə qulluq etmirəm. – deyə gözləri axan Əmir qətiyyətlə dilləndi. – Sən çox yaxşı bilirsən ki, mən şou aləminə daxil olan incəsənət xadimlərinə xidmət göstərirəm.

- Əmir, bildiyimə görə sənin yanına düşmək üçün salonda böyük növbələr yaranır. – deyə İbrahim təəccübünü gizlətmədi. – Deyə bilərsən, xidmət haqqı neçəyə başa gəlir?

- 100 manatdan 500 manata qədər. – deyə Əmir tərəddüd etmədən dilləndi. – Bəzən elə olur, növbədən kənar düşmək istəyənlər, həmin məbləği 700-800 manata qədər qaldırırlar.

- Sən lap kefdəsən ki, – deyə Əmirin sözlərinə mat-məəttəl qalan İbrahim heyrətlə dilləndi və heç kimə aman vermədən həmin tərzdə sözünə davam etdi. – Arif müəllim bağışlasın məni, bir tərəfdən xanımları massaj edirsən, o biri tərəfdən onların pullarını alırsan. Həqiqətən də bəzi adamlar bilmir pullarını hara xərcləsin.

- İbrahim, sən lap uşaq kimi danışırsan. – deyə Əmir ağız-burnunu büzdü. – Bilmirsən ki, bir qadını massaj etmək üçün nə qədər zəhmət tələb olunur. Adam yarım saat ərzində o qədər fiziki qüvvə sərf edir ki, belə bir qüvvəni yalnız kənd təsərrüfatında işləyən adamlar sərf edə bilərlər.

- Elə adam olub ki, sənin salonundan narazı getsin? – müxbir maraqlandı.

- Mən elə adam tanımıram.

- Bax, mənim restoranıma gələn cavan müğənni Zemfira necə, - deyə restoran müdiri ona lazım olan məlumatı əldə etmək üçün hiylə ilə soruşdu- o, sənin xidmətini bəyənir, ya yox? Çünki o, vasvası bir xanımdır və onun hər şeydən xoşu gəlmir.

- Zema narazı olsaydı, növbəti dəfə mənim salonuma ayaq basmazdı.

- Gələn xanımların hamısı subaydır, yoxsa onların arasında ərli qadınlar da var? – deyə İslam maraqlandı.

- Ərli qadınların sayı subaylardan az deyil. – deyə massaj ustası qətiyyətlə dilləndi. – Burada qəribə nə var ki? Bütün sivil ölkələrdə qadınlar yalnız kişi massaj ustalarının xidmətindən istifadə edirlər. Çünki qadını kişidən başqa heç kəs yaxşı massaj edə bilmir. Onu da qeyd etmək istəyirəm ki, bəzi qadınlar mənim yanıma gələndə, məndən xahiş edirlər ki, salona gəlişi məxfi saxlanılsın. Əlbəttə ki,

mən onların xahişlərini qeyd-şərtsiz yerinə yetirirəm. Yenə də deyirəm, sivil ölkələrdə yaşayan qadınların əksəriyyəti biz kişilərin xidmətindən istifadə edirlər.

- Sivil ölkələrdə yox, mənəviyyatı tapdaq altına atan ölkələrdə. – deyə Arif başını əlləri ilə tutaraq, vəcdə gəldi. – Aman Allah, belə də dəhşət olar? Bizim millət hara gedir? Doğrudanmı, biz əxlaqda və mədəniyyətdə rusların, hollandların, fransızların, almanların səviyyəsinə enmişik?

- Dayday, sən lap fil yuxusunda yatıb qalmısan. - Əmir gülümsəyərək sərbəst şəkildə dilləndi. – Sən elə danışırsan ki, guya biz orada başqa bir işlə məşğul oluruq. İndi XIX yox, XXI əsrdir. Köhnə fikirlər artıq İçərişəhərin divarları altında qalıbdır, üstünü isə daş plitə ilə örtüblər. Artıq bizim millət tərəqqi yolundadır. Biz özümüzü sivil xalq kimi göstərmək üçün Avropa ilə ayaqlaşmalıyıq. Avropalılar kimi mədəni olmaq istəyirsinizsə, köhnə fikirlərdən uzaq olmaq lazımdır. Mənim işim, müştəriyə lazımi şəkildə xidmət göstərib, onu razı halda evinə yola salmaqdan ibarətdir.

Bir anlığa Arifin halı dəyişdi. O, dərhal cibində gəzdirdiyi ürək dərmanı qəbul edib, bir qədər əsəbi halda sual verdi:

- Mənim üçün maraqlıdır, bax belə bir görkəmdə şəhərdə gəzərkən, sizə heç bir söz demirlər?

- Nə deməlidirlər ki? – deyə Sabir həmkarının yerinə dilləndi. – Desələr də, biz həmin səviyyəsiz adamlara heç bir əhəmiyyət verməyib, öz yolumuzla gedirik.

- Dəqiq yadımda deyil, hansı müğənninin klipinin təqdimatı keçirilirdi. – deyə Əliyusif üzrxahlıqla dilləndi. – Həmin təqdimata stilist Samir də dəvət olunmuşdu. Gözlənilməz olmasa da, binanın yanından keçən cavan oğlanlar arvad qiyafədə olan stilistin ünvanına kişiyə yaraşmayan ifadələr söləyirlər. Belə biabırçılığı görən Samir yenə də öz imicindən əl çəkməyərək, Azərbaycan kişisinə xas olmayan bir geyimdə cəmiyyət qarşısına çıxaraq, hamının əsəbləri ilə oynayır.

Özünü arsızlığa vuran Samir gör nə deyir: "Mənim geyimim və imicim diqqət mərkəzindədirsə, deməli mən nəsə bacarıram". Bu adam matişkə, kloun kimi geyinərək özünü meymun halına qoyursa, bu onun üçün bacarıq kimi başa düşülür. – deə İslam səbirsizliklə dilləndi. - Hələ bu harasıdır, öz geyimi, davranışı, səhnə mədəniyyəti, paltar seçimi ilə bir çox müğənnilərdən kəskin surətdə fərqlənən əməkdar artist Ruhəngiz Allahverdiyeva həmin stilist ilə bir verilişdə iştirak edən zaman, Samir utanmadan ona necə geyinməyi, hansı makiyajdan istifadə etməyi məsləhət verirdi. O, anlaya bilmir ki, mənim aləmimdə peşəkar modelyer sayılan Ruhəngiz xanım hazırladığı paltarlar ilə

istənilən sənət adamını geyindirər. Söz yox ki, onun şəxsi istehsalı olan həmin paltarların gözəlliyi hamını heyran edibdir.

- Şəxsən mənim, Samirdən tanınmış bir müğənniyə qarşı xoşagəlməyən fikir söylədiyinə görə acığım tutmuşdu. – deyə Əmir incimiş halda dilləndi. - Samir demişdir ki, “o, eybəcər və qara olsa da, onu bəzəyib Bionza oxşatmaq olar”.

- Maraqlısı odur ki, geyimi ilə arvadlardan seçilməyən həmin stilisti, hərəkətinə və davranışına görə Azərbaycanda kişilik etalonlarından biri sayılan tanınmış müğənni Möhəbbət Kazımovla birlikdə bir verilişə dəvət edirlər. – deyə İslam ciddi halda dilləndi. - Verilişdə qəzəbdən özünü gücbəla ilə saxlayan Möhəbbət Kazımov birmənalı şəkildə deyir ki, kişi arvad kimi yox, əsl kişi kimi geyinməlidir və öz geyimi ilə qadınlardan seçilməlidir. Özünü arsızlığa qoyan Samir özünə bəraət qazandırmaqla yanaşı, studiyaya zəng edən bir tamaşaçıya deyir ki, sən Azərbaycana nə xeyir vermisən? Azərbaycanlı kişisinin adını batıran, mentalitetimizə qarşı çıxan, milli mədəniyyətimizdən uzaq olan, ümumiyyətlə öz geyimi, davranışı və hərəkəti ilə milli-mənəvi dəyərlərimizi dəyişməyə cəhd göstərən bir adamın nəinki belə bir sual verməyə, hətta milli studiyada əyləşməyə mənəvi haqqı yoxdur. İndiyənə kimi anlaya

bilmirəm, nəyə görə Samir kimi stilistləri televiziya ekranlarına dəvət edirlər?

- Elə həmin verilişdə, stilist və vizajist kimi fəaliyyət göstərən ədəb-ərkanla geyinən Tünzalə xanım, - deyə Əliyusif əlavə etdi. - gözəl, heyranedici görkəmi ilə bütün suallara aydınlıq gətirdi. Sənətindən və vəzifəsindən asılı olmayaraq, özünə və başqalarına hörmətlə yanaşan hər bir adam ədəb-ərkanla geyinərək, bütün ətrafdakılara azərbaycanlı mədəniyyətini, mədəni qabiliyyətini nümayiş etdirir. Şəxsən onda olan əxlaq, etika və estetika mənim qibtəmə səbəb olubdur. Dediyim odur ki, Tünzalə xanım stilist olduğu üçün, kloun kimi geyinib özünü təlxək halına salmalıdır?

- Elə adamlar ictimai qınağa məruz qalsalar, - deyə bu məsələ ilə bağlı fikrini bitirmək istəyən Arif hövsələsiz halda dilləndi. - onda bir daha arvad paltarı geyib cəmiyyət arasına çıxmazlar. Bizim dövrümüzdə sizə oxşar adamlar bizim küçələrdə peyda olsaydı, biz, ən yaxşı halda başınıza qapaz vura-vura, sizləri həmin yerdən didərgin salardıq.

- Dayday, sən “zastoy” dövrdə yaşamısan. – Sabir həyasızcasına dilləndi. – Belə bir hal baş versə, şəxsən mən həmin adamı polislə tutduraram. Allaha şükür, bizim hər yerdə hörmətimiz var.

Bu sözlərdən sonra ara bir qədər soyuqlaşdı, həm də vaxt gec olduğundan saç ustaları dincəlməyi qərara aldılar. Onlar ayaq üstə güclə dayandıqları üşün İbrahim qonaqların qoluna girib, onları taksiyə qədər ötürdü və sürücünün pulunu verib həmin adamları evlərinə çatdırmağı tapşırdı.

## XIII fəsil. Qarovulçular dəyişilməklə evdəki qayda-qanunlar da dəyişdi

Hadisələrin özünə xoş olmayan bir məcrada cərəyan etməsinə əhəmiyyət verməyən müxbir, işlərini davam etdirmək üçün əxlaq və mənəviyyatla bağlı məqalələr tərtib etməyə başladı. İndiki zamanda belə yazılara böyük ehtiyac duyulurdu. Çünki Azərbaycanın bəzi televiziya kanallarında müğənnilərin göstərdikləri şoularda Azərbaycan adətlərinə, mənəviyyata zidd olan hərəkətlər baş alıb gedir və əlbəttə ki, həmin görüntülər gənc nəslin təlim-tərbiyəsinə mənfi təsir göstərirdi. Şou-aləminə daxil olan bir çox müğənnilər həmin yazılara kəskin etiraz bildirsələr

də, ziyalıların böyük bir kontingenti cürbəcür formalarda öz təşəkkürlərini ifadə edərək Əliyusifi alqışlayırdılar.

O, özünün peşəkar fəaliyyəti ilə məşğul olaraq, bu istiqamətdə müəyyən işlər görürdü. Əliyusif yazdığı məqalələrlə bağlı fikir öyrənmək üçün **"Azərnəşriyyat"**a gedib, orada Əlirza bəy Xələfli, Bariz Əsədov, Elçin Kamal, Fariz Çobanoğlu, Firəngiz Xancanbəyova kimi peşəkar jurnalistlərlə görüşlər keçirirdi.

Yeni il yenicə qədəm qoyduğundan hamı bayram əhval-ruhiyəsi ilə yaşayırdı. Müğənnilər kifayət qədər istirahət etmədən şadlıq saraylarında keçirilən bayram tədbirləri ilə bağlı, oradakı zalları işğal etmişdilər. Maraqlısı isə odur ki, Yeni il axşamı eyni müğənnini ən azı beş-altı şadlıq sarayında görmək olurdu. Məhz buna görə də həmin müğənniləri xalq arasında "yarımsaatlıq" və yaxud da "karusel" ifaçılar adlandırmağa başladılar.

Müğənnilər ilə bağlı olan məqalələri hər redaktor öz qəzetində çap etmək istəmirdi. Ona görə ki, həmin redaktorlar sözü gedən müğənnilərin havadarlarından çəkinirdilər.

Əliyusif hazırladığı məqalələri qəzet səhifələrinə çıxardıqdan sonra, ona qarşı təzyiqlər artmağa başladı. Təzyiq əsasən, Zemfiranın havadarı tərəfindən gəlirdi. Onun həqiqət adlı silahı başına bəla olmuşdu. Əks tərəfdən

hücum o dərəcədə kəskin idi ki, belə bir vəziyyətdə Əliyusifi şər və böhtançı adlandırırdılar. Guya o, yazıları ilə tanınmış müğənnilərə şər ataraq, onları şantaj edir. Hətta belə bir məqamda onun üzünə duranlar da vardı. Həmin məqalələrin işıq üzü görməsindən üç gün keçmişdi ki, təzyiq göstərənlərin havadarları öz nüfuzlarından istifadə edərək, Əliyusifin ailəsinə də təzyiq göstərməyə başladılar. Belə bir üsul jurnalisti hiddətləndirməyə bilməzdi. Hazırda tətbiq olunan təzyiq forması həmin adamların özlərinə qarşı işlənə bilərdi. Prinsipiallığı ilə bir çox jurnalistlərdən fərqlənən Əliyusif özünə söz vermişdi ki, cəmiyyətdə tanınan hər hansı bir konkret şəxsin əli bu, şər kompaniyasında varsa, həmin adam dərhal qəzet səhifələrinin köməyi ilə ictimaiyyət qarşısında ifşa olunacaq.

Lakin hər şey müxbirin təsəvvür etdiyi kimi getmədi. O, elə zənn etdi ki, bəzi müğənnilər ərköyün, şıltaq, həyasız, azğın, özbaşına hərəkətlərini yerə qoyacaqlar ki, nə özlərini, nə də havadarlarını pis vəziyyətdə qoysunlar. Müxbirin əsas arqumenti ondan ibarət idi ki, bütün yazılanların əksəriyyəti televiziya kanallarında yayımlanan görüntülərdən götürülübdür. Müğənnilər özlərini ictimaiyyət qarşısında necə aparırlarsa, onlar qəzet səhifələrində elə də təsəvvür ediliblər. Sadəcə olaraq məfkurələrdə dərc olunan məqlələrin məqsədi ondan ibarət idi ki, məhz həmin

yazılardan sonra adları hallanan müğənnilər azərbaycanlıların tərbiyəsinə uyğun olaraq özlərini millət qarşısında ədəb-ərkanlı aparsınlar.

Yuxarıda qeyd edildiyi kimi ən kəskin hücumlar, müxbirin yaşadığı həyətin o biri tayında məskunlaşan həyasız müğənnidən gəlirdi. Zemfira əlverişli bir məqam axtarırdı ki, Əliyusifi şərləyib polis orqanlarına təhvil versin. Lakin indiki məqamda onun dilini qısa edən, öz havadarına xəbər vermədən, Natiqlə birlikdə **"Relax"**da olması idi. İş ondadır ki, Zemfira orada hansı hoqqalardan çıxmışdır, Əliyusif həmin olayların canlı şahidi sayılırdı və o, hər zaman bu haqda Məzahiri məlumatlandıra bilərdi. Deməli elə etmək lazım idi ki, həmin zərbə oxuyan qadından yox, başqa bir adamdan gəlsin. Belə bir adam Əliyusifin yaxın dostu İbrahim sayılırdı. Hansısa bir yolla restoran müdiri onu susmağa məcbur etməliydi. Yoxsa, müğənninin bütün eyibləri üzə çıxacaqdı.

Zemfiranın yaradıcılıq fəaliyyəti ilə bağlı külli-miqdarda pul xərcləyən Məzahir Natiqin gördüyü işlərdən narazı idi və məhz buna görə də o, emosional oğlanı tutduğu vəzifədən azad etdi. Müəyyən mənada belə bir qərar müğənninin ürəyindən oldu. Çünki Zemfira qorxurdu ki, onun Natiqlə olan intim əlaqəsinin üstü açılacaq.

Sanki biz üstündə oturan müğənni vəziyyətdən çıxış yolunu tapmaq üçün Natiqlə bu barədə məsləhətləşmə aparır və oynaşına bildirir ki, Əliyusifi birtəhər susdurmaq lazımdır. Əks təqdirdə onların hər ikisi Məzahizin qəzəbinə tuş gələcəklər. Natiq qolu-qüvvətli olan yaxın dostlarından ikisini götürüb, inadkar müxbiri evlərinə yaxın avtobus dayanacağında gözləməyə başlayır. Axşama yaxın Əliyusif şəhərdən Novxanıya gələn avtobusdan düşəndə, emosional oğlan onu qarşılayıb vacib söhbət olduğu üçün bir qədər kənara çəkməli olur. Rəqib qarşısında özünü qorxaq kimi göstərmək istəməyən müxbir özünü soyuqqanlı apararaq sakit tərzdə nə olduğunu soruşur. Söhbəti uzatmaq iqtidarında olmayan Natiq birbaşa mətləbə keçərək ciddi halda dedi:

- Bilirəm ki, sən Zema ilə məni baqaja qoymaq üçün əlverişli məqam axtarırsan. İşdir, sən dilini dinc qoymasan və bizim haqda olan şaiyələr gedib sənin pəzəvəng qonşunun qulağına çatsa, onda özündən küsmüş ol.

- Sən mənə yenə də hədə-qorxu gəlirsən? – deyə müxbir arabir Natiqin arxasında dayanan iki cüssəli adama nəzər sala-sala narazı halda dilləndi. – Vaxt gələcək Məzahir özü həqiqəti biləcək. Çünki belə hərəkətlər heç vaxt gizlin qalmır.

- Deyəsən, sən məni başa düşmək istəmirsən. – deyə Natiq sir-sifətini turşutdu. – Mən sənə ciddi xəbərdarlıq edirəm, mənimlə Zema arasındakı xəbər sənin qonşunun qulağına çatsa, özümü nəzarət altında saxlaya bilməyəcəm.

- Tutalım, xəbər Məzahirə çatdı, onda sən mənə nə edə bilərsən?

- Səhv etmirəmsə, sənin evdə bacın var. Elə etmə ki, sənə görə bacının namusu əlindən alınsın.

Bu sözlərin qarşısında tab gətirməyən Əliyusif həmsöhbətinin yaxasından tutub, onu vermaq istədi. Lakin Natiqin yanında olan cüssəli oğlanlar bir anın içərisində müxbirin qollarını belinin arxasında burub, onu zəiflətdilər. Emosional oğlan yarıəyilmiş müxbirin saçından tutub, əsəbi halda dedi:

- Ay qoyun, sən hələ də bilmirsən kiminlə söz güləşdirirsən? İstəsəm, elə buradaca səni Lerikdəkindən pis vəziyyətə qoyaram. Amma mən bu dəfə humanistlik edəcəm. – sonra o, Əliyusifdən sol tərəfdə dayanan qarayanız, kobud sifətli, hündürboylu oğlanı göstərib nifrət hissilə sözünə əlavə etdi. – Bax, bu oğlanı görürsən? Mən tapşırıq versəm, gedər sənin bacını və ya nişanlını götürüb naməlum istiqamətdə qaçırar, ondan sonra isə gizlin pritonların birində fahişə kimi işlədər. Mənə elə gəlir, ailə təəssübkeşi üçün bundan böyük biabırçılıq olmaz. Ona görə

ki, hər şey sənin dilindən asılıdır. Diliniənginə mıxlasan bu, sənin üçün yaxşı olar.

- Qorxmursan ki, mən bu haqda polisə xəbər verərəm? – deyə sərt ifadələr işlətməkdən birtəhər özünü saxlayan müxbir soyuqqanlıqla dilləndi.

- Ayə, insan nə dərəcədə qanmaz olar. – deyə Natiq təngə gəldi. – O, bu işi görəndən sonra şəxsən özü gedib polisə təslim olacaq və törətdiyi əməli etiraf etdiyinə görə hakim ona yüngül cəza verəcək. Əvəzində isə mən pul gücünə onu amnistiyaya saldırıb, vaxtından tez azadlığa buraxdıracam.

- Müstəntiqə izah edəcəm ki, zərərçəkən qız öz xoşu ilə mənimlə qaçıbdır. – deyə həmin oğlan müxbirin qolunu daha da möhkəm sıxaraq giley-güzarla dilləndi. - Bəlkə də bu etirafa görə mənə şərti cəza verərlər.

- Narahat olmayın, mən ağzıbütöv adamam. - Əliyusif ona qarşı tətbiq edilən zordan çəkinərək bir qədər yumşaq tərzdə dilləndi. – Kiməsə pislik etmək istəsəydim, mən bu haqda çoxdan Məzahirə xəbər verərdim. İndi isə əl çəkin məndən.

Natiq bir daha müxbiri xəbərdar edəndən sonra dərhal onu evinə buraxdı.

Yuxarıda qeyd edildiyi kimi Natiq Məzahirin etimadını doğrultmadığı üçün Zemfiradan uzaqlaşdırılmışdı. Həddin-

dən artıq ambisioz adam olan Natiq bunu özü üçün alçaldıcı hərəkət hesab etdi və buna görə o, özünə söz verdi ki, vaxt gələcək Məzahir bu işə görə peşmançılıq çəkəcək. Yəni, o, hegemon kişidən elə qisas alacaq ki, bir daha Zemfiranı bağlı qapılar arxasında saxlamağa cürət etməyəcək. Lakin Natiq bircə şeyi anlamırdı, Məzahirin özü çox əzazil, qəddar adam idi və heç kimə imkan verməzdi ki, kimsə onun qabağında at oynatsın.

Son zamanlar zəhmli kişi saxladığı müğənninin ümumi fəaliyyətindən və həddindən artıq sərbəst olan hərəkətlərindən narazı idi. Məhz buna görə də o, şıltaq qızı ram etmək üçün onun qarşısına bir çox qadağa xarakterli tələblər qoydu. Bundan sonra Zemfira asudə vaxtlarında şəhərə getməyəcək, işdir çəkiliş və ya hansısa bir tədbirdə iştirak etdi, oradan birbaşa evə qayıtmalı, səbəb göstərilmədən restoranlara getməməli idi. Əsas şərtlərdən biri də o idi ki, o, heç vaxt Natiq ilə rastlaşmamalı, təsadüf olsa belə, onunla ünsiyyət qurmamalıydı.

Bu dəfə hegemon şirkət müdiri öz məşuqəsi üçün qadın prodüsseri axtarmağa başladı.

İndiki şəraitdə Zemfira üçün əlverişli şərait lazım idi ki, o, rahat şəkildə öz yaradıcılığı ilə məşğul ola bilsin. Adi hallarda ona əsəbiləşmək olmazdı. Lakin Akifin burada peyda olması ilə müğənninin qara günləri başlamışdı.

Zemfiranın ifaçılıq sənəti və şəxsi həyatında yaranan boşluqlar qəzet səhifələrində ifşa olunsa da, o, əsl zərbənin məhz Əliyusifdən aldığını zənn edirdi. Müğənni etdiyi hərəkətlərə görə Əliyusifin yanında xəcalətli olsa da, buna baxmayaraq müxbir onunla üzləşməkdən çəkinirdi.

Elşən isə əksinə məqam axtarırdı ki, həyasız qonşusu ilə üzləşsin və verilməyən əmək haqqını ondan tələb etsin. Lakin hər dəfə Zemfira evinə maşında gəlir və maşınından düşmədən həyətinə daxil olurdu.

Köhnə qarovulçu işdən azad olunandan sonra burada bir çox dəyişikliklər baş vermişdi. Demək olar ki, əvvəlki qayda-qanunlardan heç bir əsər-əlamət qalmamışdı. Qarovulçuluq funksiyasini yerinə yetirən Akif işləməkdən çox, istirahətə üstünlük verirdi. Qışın girməsi ilə ağacların tam əksəriyyəti çılpaq idi, yarpaqlar isə xəzələ dönərək, küləyin vasitəsilə bütün ətrafa səpələnmişdi. Akif burada təmizlik yaratmaq üçün o qədər də özünü əziyyətə verməmədiyindən, itə dayəlik edən Nina məcburiyyət qarşısında qalaraq xəzəlləri bir yerə topalayıb, onları yandırırdı. İş o yerə çatmışdı ki, Akif bir çox hallarda hamamda çimir, trenajorda məşq edir, günün tam əksəriyyətini qonaq otağında televizor arxasında keçirirdi. Bu azmış kimi o, mavi ekranı seyr edən zaman qabağına fransız konyakı, italyan şokoladı və mer-meyvə qoyub, həmin təamlardan

yeyib-içərək, sadəcə olaraq kef çəkirdi. Bundan əlavə müğənninin gəlişi axşama qədər uzananda Akif soyuducuda olan asetrin, beluqa, qorbuşa və lasos balığlarından kabab bişirir, könlünə hansı kürü – qırmızı və ya qara - düşəndə yeyir.

Məsələ ondadır ki, Zemfira evinə gələn zaman həmin ərzaqın azaldığını hiss edəndə, ona deyirlər ki, çatışmayan ərzaqı Sisi yeyib. Hiyləgər hərəkətlərlə pərgar olan Akif əvvəlcədən Ninanı öz tərəfinə çəkərək, bildirmişdi ki, onların sözü bir olsun, onsuz da bütün ərzaqı Məzahir alır, Zemfira isə onların hamısını israfcasına dağıdır.

Elşən isə burada işləyəndə müğənninin icazəsi olmadan nəinki evə girərdi, hətta bir dilim olsun belə çörək yeməzdi. O, vaxtının əksər hissəsini orada olanda ona yeməyi evdən gətirirdilər.

Milliyyətcə rus olan 48 yaşlı Nina görəndə ki, evin sahibi Elşən kimi əsl zəhmətkeş olan bir adamı səbəb göstərilmədən, həm də maaşı ödənilmədən işdən azad edibdirsə, onun Zemfiraya olan bütün hörmət və izzəti itib batmışdı. Həmin hərəkətdən sonra həm Zemfira, həm də Məzahir onun gözündə qəddar adam kimi görünürdülər.

Ali təhsil ocaqlarının birinin tələbəsi olan Elşən özünü dolandırmaq üçün Nəsimi bazarında salafan paket satmaqla məşğul idi. Qış fəslində açıq havada alver etmək çətin olsa

da, məcburiyyət qarşısında qalan tələbə həmin işin öhdəsindən gəlməliydi.

Günlərin bir günü o, Ninanı meyvə alan zaman bazarda gördü və kef-əhval soruşmaq üçün həmin qadına yaxınlaşdı. Elşən elə bildi ki, ortayaşlı qadın özünə meyvə alır, amma onun hansı piştaxta arxasında dayandığını görəndə o dəqiqə anladı ki, bütün bunlar Zemfira üçündür. Nina artıq 1 kq-mı 160 manata olan gilas, 140 manata alça, 120 manata gavalı, 100 manata çiyələk və 70 manata qara üzüm almışdı. Elşən səbətdəki meyvələrə nəzər yetirib nifrətlə dedi:

- Anlaya bilmirəm, belə bir harınlıq, bəzi insanlarda haradandır? Axı, belə bir vəziyyətdə israfçılığa necə yol vermək olar? Mənim maaşımı verməyə qarnı ağradı, amma astronomik qiymətlərə meyvə aldırır. Bunu Allah götürər?

- Bizim maaşımız kiloyarımlıq gilasın pulu edir. – deyə Azərbaycan dilində mükəmməl danışan qadın təəssüflə dilləndi və səsini bir qədər aşağı salaraq ehtiyatla sözünə əlavə etdi. – Hər dəfə bu bazara qədm qoyanda ürəyimi yeyirəm. Bazarlıq edən zaman qorxuram ki, kimsə əlimdən meyvə dolu setkanı götürüb qaçacaq, ondan sonra gəl bunun altından çıx da. Bu mənim təxminən üç aylıq maaşımdır.

- Ayda neçə dəfə bura gəlirsiniz?

- Ən azı üç dəfə. Elşən, desəm inanmayacaqsan, alınan meyvələrin, elə delikates ətlərin yarısını sənin yerinə təyin

olunmuş qarovulçu yeyir. Hələlik Zemfiranın bundan xəbəri yoxdur, biləndə isə böyük biabırçılıq olacaq. Həmin qarovulçu hər ay ən azı ona 1500 manat ziyan vurur.

- Atalar düz deyibdir, yeməyənin payını yeyərlər. Nina xala, gör nə deyirəm, Zemfira mənim pulumu mənimsədiyinə görə başı müsibətlər çəkəcək. O, mənim kimi təmiz oğlanı oradan uzaqlaşdırmaqla yaman peşman olacaq.

- Təzə gələn oğlan özünü orada”xozeyin” kimi aparır. – deyə Nina ətrafına nəzər yetirə-yetirə ehtiyatla dilləndi. – O, hamamda çimir, bahalı spirtli içkilərdən içir və ümumiyyətlə, gününü qonaq otağında keçirir. İnanırsan, bağdakı təmizlik işlərinə demək olar ki, mən baxıram.

- Dinsizin öhdəsindən imansız gələr. – belə bir xəbərdən rahatlanan tələbə həvəslə dilləndi. – Əminəm ki, hayhayla gələn pullar vayvayla gedəcək. Belə getsə, həmin oğlan Zemfiraya böyük ziyan vuracaq.

Sonra Elşən bir qədər ara verib həmsöhbətinə qəribə nəzər saldı və ürəkdən gülməyə başladı. Təəccüb içərisində qalan qadın onun hərəkətinə mat-məəttəl qaldı və nə baş verdiyini soruşdu. Elşən sakitləşərək istehza ilə dedi:

- Nina xala, mən yaxşı qurtarmışam, amma sizin işiniz lap çətindir. İş ondadır ki, onun itinə bir şey olsa o, heç bir xahiş-minnətə əhəmiyyət vermədən sizi tutduracaq. Çünki

Zemfira itini dədəsindən də çox istəyir. Bu yerdə Seyid Əzim Şirvaninin misraları yadıma düşür:

*"İt deyil, o da bizim birimiz,*
*Belə ölmüşlərə fəda dirimiz"*

- Elə mən də bundan qorxuram. Elşən, inanırsan gecə-gündüz dua edirəm ki, həmin itə heç bir şey olmasın. Mən Sisini balalarımdan da yaxşı saxlayıram.

Onlar bir az da dərdləşəndən sonra bazardan çıxdılar. Elşən qadını avtobusa mindirib, öz işini icra etmək üçün geri qayıtdı.

# II hissə:

## *Etimaddan sui-istifadə edən əqidəsiz insanlar*

## I fəsil. Şantajdan istifadə edən qarovulçu müğənnini öz itaəti altına alır

Yeni ilin qədəm qoymasının üstündən bir neçə gün keçəndən sonra Məzahir Türkiyəyə dörd günlük ezamiyyətə yollandı. Lakin buna baxmayaraq son vaxtlar ehtiyatlı olmağa çalışan Zemfira, Məzahir Bakıda olmadan evində heç bir qonağı dəvət etməyəcəyini qərara almışdı.

Elə həmin gün Natiq Zemfiraya zəng edib bildirdi ki, Səlyanda yaxın dostlarından biri toy edir və o, orada 1500 manat müqabilində üç mahnı oxumalıdır. Müğənninin etirazına baxmayaraq emosional oğlan onu Səlyana getməyə razılığını ala bilir. Zemfira bir şərtlə razılıq bildirir ki, o, mahnı oxuyandan sonra birbaşa Bakıya qayıdacaq.

Müğənni yorulmasın deyə, avtomobilinin sükanını evinin qarovulçusuna həvalə edir. Yolboyu özünü narahat hiss edən Zemfira deyilən yerə gedib çıxanda dəhşətə gəlir. Natiq onu Səlyan şəhərinin girəcəyində yerləşən restoranların birində qarşılayır. Natiq həşiş çəkdiyindən yarıbihuş halda idi və o, Zemfiranı öpüb qucaqlayanda asılqan kimi qadının boynundan sallandı. Ayaq üstə dayanmağa taqəti qalmayan emosional oğlan az qala öz ağırlığı ilə müğənnini yerə sərəcəkdi. Lakin son məqamda

tarazlığını qoruyub saxlayan qadın burada nə baş verdiyini anlamağa çalışdı.

Bir qədər özünü ələ alan Natiq məşuqəsi ilə görüşən kimi qəbul etdiyi həmin maddədən ona da təklif etdi. Amma əvvəlcədən onlar süfrə açılmış qapalı bir otağa daxil oldular. İçəridə olan ab-havadan məlum olur ki, oğlan bir neçə saat idi ki, buradadır və o, otaqda tək olmayıbdır. Təəccüb içərisində olan müğənni onun təklifinə heç bir əhəmiyyət verməyib toyun harada olduğunu soruşduqda Natiq kefli adamlar kimi cavab verdi:

- Gözəlim, toy burada olacaq. Darıxdığım üçün səni bura çağırdım.

- Sənin ağlın çaşıb, - deyə müğənni çiyinlərini çəkərək yerində mat-məəttəl qaldı. – yaxşıdır ki, məni Qazaxa dəvət etməmisən.

- Lazım gəlsə, səni lap Qazaxa da dəvət edərəm. – deyə Natiq yenə də Zemfiranı qucaqlayıb öpmək istədi, amma həmin an qadının müqaviməti ilə üzləşdi. – Bu nədir, məni özündən rədd edirsən?

- Natiq, məni barmağına dolamısan? – deyə əsəblərini cilovlaya bilməyən müğənni coşdu. – Məni toy adı ilə Bakıdan çağırmısan, sonda isə məlum olur ki, bu yalandır. Yaxşıdır ki, Məzahir evdə yoxdur.

- Sənin həmin qoyun sponsorunun başı bu yaxınlarda əziləcək. O, hələ bilmir kimə ilişibdir.

Əzizim, sən bilirsən ki, mən səni necə sevirəm? Bizi heç bir qüvvə ayıra bilməyəcək. O ki, qaldı yol gəlməyinə, elə bil ki, toya gəlmisən və buna görə sən 1500 manatını alacaqsan.

- Mən sənin pullarına qalmamışam. – deyə hirsdən partlayan müğənni bir balaca səsini qaldırdı. - Sən yaxşı bilirsən ki, mən nə dərəcədə yorğun oluram.

- Gözəl, gəl qanımızı qaraltmayaq. Sənin üçün yaxşı bir heroin təşkil etmişəm.

- Mənə heç nə lazım deyil.

- Bilirəm hədiyyəm ürəyincədir. Yaxınlıqda bir motel var. Bir nömrə götürüb orada səhərə qədər kef çəkək.

- Sənin ağlın işləmir? Bilmirsən ki, mən saunası, hovuzu, barı, diskotekası olmayan yerlərə ayaq basmaram?

- Mən isə səninlə əylənib kef çəkmək istəyirəm.

- Natiq, yadda saxla, mən sənin üçün küçə qadını deyiləm ki, harada gəldi mənimlə əylənib kef çəkəsən. Əylənmək üçün gedərsən saunalara və oradan özünə fahişə taparsan. Axırıncı dəfə olsun ki, məni xəbərdar etmədən belə bir yerə dəvət edirsən.

- Yaxşı, az danış, gəl qucağıma məni feyziyab et.

- Mən sənin üçün fahişə deyiləm. – deyə bu təklifdən mat-məəttəl qalan müğənni hiddətləndi. – Sənin bu dərəcədə ağılsız olduğunu mən bilməzdim.

- Mənə deyirsən ağılsız? – deyə Natiq sanki yuxudan ayıldı və gözlərini bərəldərək qəzəblə sözünə əlavə etdi. – Belə bir sözə görə sənin başını əzə bilərəm. – sonra o, bir qədər yumşalıb ciddi halda sözünə əlavə etdi. – Son zamanlar özünü yaman naza qoyursan. Tez ol, pal-paltarını soyun yanımda əyləş.

- Sənə dedim axı, bunun üçün özünə bir fahişə sifariş edə bilərdin. – Zemfira bezikmiş halda dilləndi və ondan ayrılmaq istədi.

- Sən guya ismətli qadınsan? Bir qadın eyni vaxtda iki kişi ilə görüşürsə, ona nə ad vermək olar? Əlbəttə ki, fahişə!

- Natiq, danışığına fikir ver, fahişə bilirsən kimdir? – deyə müğənni ikrah hissilə dilləndi. - Sənin gələcək arvadın.

Artıq Zemfiraya məlum oldu ki, sadəcə olaraq Natiq onunla bir yerdə bir neçə saat vaxt keçirmək üçün buraya dəvət edibdir. Lakin onun söylədiyi son sözlər oğlanı cin atına mindirdi və o, tərəddüd etmədən müğənninin sifətinə sillə vurdu. Zemfira oynaşından belə bir hərəkət gözləmirdi və özünü müdafiə etmək üçün bir-iki addım geri çəkildi.

Lakin Natiq yenə də qadına hədə-qorxu gələrək, özünə bir badə araq süzüb içdi.

Özünün təhqir olunmasını görən müğənni əsəblərini cilovlaya bilməyib, ağzına gələn hər bir təhqiramiz sözləri oynaşının ünvanına döşəyərək, tərəddüd etmədən öz maşınına tərəf yollandı. Zemfira elə tərzdə qışqır-bağır salmışdı ki, restoranın bütün personalı həmin yerə gəlib, onları sakitliyə dəvət etmək məcburiyyətində oldular. Müğənninin belə bir emosional hərəkətinə əsəbi şəkildə etiraz bildirən oğlan əyləşdiyi otaqdan bayıra çıxmadan, elə oradan "Sən, nə tez qudurdun? Tez ol geri qayıt, yoxsa səninlə birdəfəlik qurtaracam" deyərək, Zemfiranı hədələdi.

Ərköyün qadın isə onu təhqir edə-edə, küsmüş halda avtomobilinə minib, dərhal buranı tərk edəcəyini bəyan etdi. Sürücülük funksiyasını yerinə yetirən Akif isə tərəddüd etmədən mühərriki işə salıb həmin yerdən uzaqlaşdı.

Sürücü maşının sürətini qaldıraraq, Zemfiranın tapşırığı ilə saat yarım müddətinə Bakıya çatmağı planlaşdırırdı. Hava qaralmışdı və yolun tam əksər hissəsi işıq sistemindən məhrum idi. Əks tərəfdən gələn maşınların işıqları gözü kor etdiyindən sürücü sükanı çətinliklə idarə edirdi. Yolboyu əsəblərini cilovlaya bilməyən Zemfira, maşının yüksək surətdə hərəkət etməsinə heç bir əhəmiyyət vermədən, Akifə elə hey tapşırırdı ki, sürəti artırsın. Yolun

bəzi hissəsinin nahamar olması böyük təhlükə yaratsa da, sürücü maşını kifayət qədər yüksək sürətlə idarə edirdi. Psixoloji gərginlik içərisində olan Zemfira yolboyu gah Natiqi, gah da özünü söyür, öz-özünə qışqırır və hərdənbir hirsini sükan arxasında əyləşən Natiqdən də az məkrli olmayan bu oğlanın üzərinə tökməyi də unutmurdu. Birtəhər hirsini daxilində boğan sürücü, ərköyün müğənnini ram etmək üçün əlverişli məqam axtarırdı.

Maraqlı idi ki, onlar on beş dəqiqəyə yaxın idi restorandan ayrılmışdılar, lakin hələ də Natiq Zemfiranın harada olduğunu ayırd etməmişdi.

İndi-indi müğənni yavaş-yavaş anlamağa başlayırdı ki, o, emosional oğlan üçün yalnız əyləncə və kef üçün lazım imiş.

Natiq ilə Zemfiranın arasında yaranan münaqişə Akif üçün göydən düşmə bir şey sayılırdı. Hal-hazırda Natiq Bakıda yox idi və müğənnini şantaj etməyin əsl vaxtı idi.

Onlar çöllü-biyabanda olmalarına baxmayaraq, Zemfira sürücüsünə təkidlə deməyə başladı ki, quzu ətindən kabab yeməyi və araq içmək istəyir. Akif isə yaxınlıqda hansısa bir restoranın olmadığını bildirərək, qadını sakitləşdirməyə çalışırdı. Ona görə ki, onlar Xələc yoluna çıxmışdılar, burada isə nəinki məişət-iaşə binası, heç yaşayış məntəqəsi də yox idi. Lakin həyasız müğənni öz inadkarlından əl

çəkmirdi. Onda Akif əsəbiləşərək hiddətlə yanında əyləşən müğənniyə dedi:

- Bir daha deyirəm, Ələtə qədər yolda heç bir kafe və restoran yoxdur. Çörək yemək istəyirsənsə, maşında kolbasa var. Bundan əlavə mən sənə heç nə ilə kömək edə bilmərəm.

- Sənə kim ixtiyar veribdir ki, mənə "sən" deyib müraciət edirsən? Sənin başına elə oyun açaram ki, adın da yadından çıxar.

- Sənə dedim axı, maşında kolbasa var. İstəsən, götürüb yeyə bilərsən.

- Tula, kolbasanı anana verərsən. Mənə isə kabab təşkil etməlisən. Dörd saatdır ki, yoldayam, ağzıma isə bir tikə də çörək dəyməyibdir.

Bundan sonra Zemfira qışqıraraq, sürücünü söyməyə başladı. Hazırda maşını hələ də Xələc şossesi ilə idarə edən Akif qərara aldı ki, özünü həddindən artıq kobud aparan Zemfiranı ram etməyinin vaxtı gəlib çatıbdır.

O, maşını Ələt qəsəbəsinin qəbristanlığına 1 km. çatmamış sağa burulan torpaq yoluna çıxarıb, oradan maşınların gediş-gəlişi olmayan bir məkana daxil oldu.

Zemfira maşının torpaq yolda çalxalandığını görüb, yenə də sürücünü söyməyə başladı. Onun söyüşlərindən təngə gələn Akif maşını, hansısa bir tikiliyə yarım kilometr çat-

mamış yolun kənarında saxladı və sir-sifətini bozardaraq, hiddətlə qışqırdı:

- Nə qışqır-bağır salmısan? Sənin ucbatından az qala maşını aşırdam. Biz düzənlik bir yerdəyik, burada kabab olmur. Sənə dedim axı, maşında kolbasa var. İstəsən, götürüb yeyərsən.

- Sən kimin üstünə qışqırırsan? – deyə hiddətdən Zemfiranın gözləri bərələ qaldı. – Mən kolbasa yeyənə oxşayıram? Kolbasanı aparıb anana verərsən. Maşını burada nəyə görə saxlamısan? Tez ol, maşını restorana sür.

- Sən kimi təhqir edirsən, qancıq? – deyə sürücü müğənninin boynundan tutub sıxdı. – Bir daha anamı təhqir etsən, səni eşşək kimi çırpacağam.

Akif maşının işıqlarını söndürsə də, salonda tutqun işıq yandırıb, yanındakı qadını vahiməyə salmağa çalışdı. Sürücünün məqsədi bəlli idi. O, həyatını risqə ataraq, ərköyün müğənnini cəzalandırmaq fikrində olsa da, bunun üçün əlverişli məkan seçməmişdi. Lakin belə bir vəziyyətdə soyuqqanlığını itirməyən Zemfira sol əli ilə sürücünün sinəsinə və ayaqlarına zərbələr endirə-endirə yenə də qışqırdı:

- Murdar əlini mənə vurursan? Səni dizin-dizin süründürmək mənə borc olsun.

- Özün murdarsan, amma başqalarını alçaldırsan. Adam sənə əl vuranda iyrənir.

- Bu sözlərə görə sənə qan qusduracağam. – deyə qəzəblənən Zemfiranın bədəni tir-tir əsməyə başladı. - Deyəsən, mənim havadarımımın kim olduğunu unutmusan? Məzahir, səni qarışqa kimi məhv edəcək.

- Sən hələ də mənə hədə-qorxu gəlirsən? – Akif yumruqlarını sıxaraq qadını vurmaq istədi. - Heç bilirsən, sənin kimi fahişələrin başına necə oyun açıram?

- Mənə fahişə deyirsən? Fahişə sənin anan...

Zemfiranın ifadəsini sona çatdırmağa imkan verməyən sürücü, onun saçından tutub başını oturacağın başlığına sıxdı və o biri əli ilə sifətinə iki dəfə sillə vurdu. Elə həmin an o, bardaçokdan "servelat" kolbasasını götürüb, müğənninin ağzına basaraq qışqırdı: "sənə dedim axı, burada kolbasadan başqa bir şey yoxdur". Belə bir münasibətdən hiddətlənən müğənni qışqıra-qışqıra Akifin üzünə cırmaq atmaq istədi. Lakin qoldan qüvvətli olan sürücü sol əli ilə onun ağzını tutub ikrah hissi ilə dedi:

- Bir daha əl-qol ataraq qışqırsan, səni burada zorlayacağam. Müqavimət göstərsən, dodaqlarını dişləyib cırıq-cırıq edəcəm.

- Mənə toxunsan Məzahir səni öldürəcək. – deyə hirsdən boğulan müğənni həmsöbətinin hədə-qorxusuna əhəmiyyət vermədən, onun üzünə tüpürərək, yenə də qışqırdı.

- Sənə dedim axı, sakit ol. – Akif onun üzünə yenə də sillə vuraraq, köynəyinin yaxasını cırdı. - İndi isə diqqətlə qulaq as gör nə deyirəm, məni öküzə oxşar oynaşınla hədələmə. Çünki o, kimin nahaq olduğunu bilsə, onda həmin adamı da məhv edəcək. Sənin evdə, istirahət mərkəzində və başqa yerlərdə hansı hoqqalardan çıxmağın video kassetlərə həkk olunubdur.

- Hansı hoqqalarım? – deyə müğənni təəccüblənərək səsini aşağı saldı. – Nə video kasset? Müxbirlərin əlindən mən istirahət edə bilməyəcəm?

- Mən sənin üçün Məzahir deyiləm ki, barmağına dolayasan. Sənin Natiqlə cinsi əlaqədə olmağın gizli kamera vasitəsilə videoya çəkilibdir.

Sürücü sözlərini bitirən kimi cibindəki mobil telefonu çıxarıb, onu hövsələdən çıxmış müğənniyə göstərdi. Qadının bütün xəyanəti vizual görüntüdə canlanırdı. Bundan sonra Zemfira bir qədər sakitləşdi, daha doğrusu o, matməəttəl yerində donub qalmışdı. Lakin buna baxmayaraq, onun Akifə olan nifrəti birə-beş artdı.

- Bu montajdır. – deyə müğənni göstərilən kadrlara inanmaq istəmədi.

- Qaraçılıq etmə, sən çox yaxşı bilirsən ki, bu orijinal kadrlardır. – deyə sürücü soyuqqanlıqla dilləndi. – Kim də inanmasa, Məzahir buna inanacaq.

- Natiq bundan xəbər tutsa, başa düşürsən, nələr baş verəcək? O, səni zəlil günə salar.

- Məntiqlə yanaşsaq, deyə bilərəm ki, Natiq bu haqda xəbər tutsa, onda məni yox, səni zəlil edəcək. Hələlik isə mən bu haqda ona xəbər vermək istəmirəm, amma bunun üçün sən özünü quzu kimi aparmalısan.

- Sən mənim karyerama son qoymaq istəyirsən? – Zemfira qəm-qüssə ilə dilləndi.

- İndi görürsən, mən nə dərəcədə rəhmli adamam? – deyə Akif də giley-güzarla səsləndi. – Mən bütün bu sənət əsərini sənin oynaşına təqdim edə bilərəm, amma sənin vəziyyətini və cəmiyyətdə tutduğun mövqeni nəzərə alaraq, bu sənədi hələlik özümdə saxlayacağam.

Bayaqdan qışqır-bağırtısı kəsilməyən müğənninin səsi kəsildi və araya sükut çökdü. Onun qol-qanadı kəsilərək, yanına düşdü. Zemfira sakit olsa da, o, hirsdən boğulurdu. Müğənni çantasından siqaret götürüb, tələsik yandırdı və siqareti çəkə-çəkə daxildə nə isə götür-qoy etməyə başladı.

- Sən çox qəddar insansan, mən səni işə götürdüm ki, əlin çörəyə çatsın, amma sən mənim şəxsi həyatıma müdaxilə etdin. – deyə başını pəncərədən çıxardan müğənni, göz yaşlarını axıtmağa başladı. – Bundan sonra insanlara necə inanasan?

- Gözəlçə, gör sənə nə deyirəm. – deyə Akif üzünə sərt ifadə verərək, əsəbi halda dilləndi. - İşdir yenə də məni təhqir etsən, onda səni cəzalandırmalı olacağam.

- Bütün bu hoqqalara görə səni alqışlamalıyam?

- Bundan sonra sən mənim başımın üstündə mələk kimi fırlanacaqsan. Bir sözümü iki etməyəcəksən. – deyə Akif bu sözlərdən sonra müğənninin yaxasından tutaraq bərkdən qışqırdı. - Oldu?

- Niyə üstümə qışqırırsan? – yenidən qəzəblənən qadın sürücünün hərəkətini özü üçün təhqir hesab edərək, hiddətlə qışqırdı. – Murdar əlini yaxamdan götür. Tez ol, mənim maşınımdan düş, bir daha səni maşınımın yanında görməyim.

Bu sözlər Akifi daha da qəzəbləndirdi və o, maşından düşüb müğənni oturan qapıya yaxınlaşdı. Zemfira elə başa düşdü ki, sürücü birdəfəlik maşını tərk edəcək və bu səbəbdən o, da sükan arxasına keçmək üçün yerə düşdü. Akif maşının sağ qapısı ağzında müğənni ilə üzləşən kimi aman vermədən onun üzünə möhkəm bir sillə endirdi. Növbəti silləni gözləməyən Zemfira arxası üstə yerə sərildi və “alçaq, kimi vurursan?” – deyərək qışqırdı.

Elə bu an Akif cibindən bıçaq çıxarıb qadının boğazına dirədi və sol əli ilə onun ağzına tutub əsəbi halda dedi:

- Sənə dedim axı, məni təhqir etmə. Bir daha ağzını açsan, sənin boğazını yırtacam. Yaxşı halda sənin gözəl sifətini eybəcər hala salacağam.

- Məni rahat burax, nəfəsim kəsilir. – deyə qadın çırpındı.

- Gördün də, biqeyrət müxbiri meşədə hansı kökə saldıq? Səni ondan pis kökə salaram.

Akifin altında çapalayan müğənni qorxuya düşərək, səsini udmağa məcbur oldu. O, elə zənn etdi ki, sürücü barmağında gəzdirən 50 min manatlıq brilliant üzüyə görə onu öldürmək istəyir. Məhz buna görə də həmişə çılğın və ədalı görünən Zemfira bir anın içərisində əl quzusuna döndü.

Ondan sonra Akif maşını ana yola çıxarıb, oradan birbaşa Bakıya sürdü. Ələt qəsəbəsində qarşısına kafe çıxsa da o, dayanmadan öz yoluna davam etdi.

Məlum şantajdan sonra Zemfira Elşəni buradan uzaqlaşdırmaqla necə böyük bir səhvə yol verdiyini başa düşdü. Axı, necə olsa da Elşən onun yerini tutan oğlana nisbətən, qat-qat mədəni, tərbiyəli, əxlaqlı, yerini bilən, sözə qulaq asan bir adam idi. Akif yaxından tanıdığı adamların necə günah işlətdiklərinin şahidi olmaqla yanaşı, həm də həmin hadisələri kamera vasitəsilə gizlin çəkərək, həmin kampromat materialları məxfi bir yerdə gizlətmişdi.

Zemfiranın Məzahir və Natiq ilə olan intim əlaqələri, gizlin sövdələşmələri həmin video kassetdə öz əksini tapmışdı.

Həmişə sərbəst görünən Zemfira demək olar ki, bir müddət təyin etdiyi qarovulçusunun əsirinə çevirilmişdir. Evdəki vəziyyət 180 dərəcə dəyişmişdi. Artıq müğənni yox, evin qarovulçusu özünü bu ocağın sahibi kimi aparırdı. İndi Akif yox, məhz Zemfira evin qulluğunda dururdu. Yalnız Məzahir bağda peyda olanda Akif ona həvalə olunmuş qarovulçu funksiyasını yerinə yetirirdi.

Həddindən artıq hiyləgər olan qarovulçunun əl-qolu açılmışdı. Çünki Natiq bu evə ayaq basa bilmir, Məzahir isə gəlməmişdən əvvəl ona xəbər verirdi ki, saat neçədə bağda peyda olacaq.

Həmişə çılğın, emosional görünən müğənni, bu dəfə stress vəziyyətində idi. O, otağına girib əlindən alınan azadlığın necə qaytarılması barəsində düşünürdü. Necə olsa da Akif onun mənliyinə toxunmuş və istədiyi hər bir ağılasığmaz şeyi qadının başına açа bilərdi. Zemfira qorxurdu ki, evdə tək olan zaman qarovulçu, şantaj vasitəsi ilə ona fiziki cəhətcə təcavüz edər. Çıxılmaz vəziyyətdə qalan müğənni sudan duru çıxmaq üçün özünə yollar aramağa başladı.

## II fəsil. Şıltaq müğənninin qara günləri

Hər il qış fəsli olanda ümumiyyətlə, soyuqlar düşən kimi Məzahir məşuqəsinin rahatlığını təmin etmək üçün, şəhər yerində dörd-beş aylıq mənzil tuturdu. Müğənni əksər günlərini həmin mənzildə keçirərdi. Lakin hər həftə mülayim havalar olan zaman o, bağına da gedib, orada bir-iki gün qalırdı. Bundan əlavə itə dayəlik edən və bağ evinin təmizlik işlərinə baxan Nina da həftədə iki dəfə orada görünürdü.

Akifin Zemfiranın bağında müvəqqəti də olsa köç salmasından sonra müğənninin həyatında qara günlər başlamışdı. Həmişə asudə vaxtını bağında keçirməyi xoşlayan şıltaq qadın, indiki zamanda evinə qayıtmağa bir elə də maraq göstərmirdi. O, yeni qarovulçusunun sifətini görməmək üçün Ninaya tapşırıq verirdi ki, Akif hansı gün orada peyda olan kimi, elə həmin gün gündüz saat dörd olan kimi onu evinə göndərsin. Lakin bu cür imkanın yaradılmasına baxmayaraq, qarovulçu belə tezlikdə iş yerini tərk etməkdən boyun qaçırırdı.

Həm də nəyə görə də tez getsin? O, burada özünü sanki kurortdakı kimi hiss edirdi; haçan istəyir işə gəlir, kefinə düşəndə yemək yeyir və yorğunluğunu çıxartmaq istədikdə, qonaq otağındakı divanda yatırdı. Havaların hələlik xoş keçməsinə baxmayaraq, Akif evin sobasını və istilik ava-

danlıqlarını işə salıb bütün otaqları kifayət qədər qızdırmağa müvəffəq olurdu. Bundan əlavə qarovulçu ev sahibəsinə qətiyyətlə bildirmişdi ki, o, nə vaxt evdə olsa, həmin vaxt uşaq kimi bəslənən it dəhlizdə və ya həyətdə olmalıdır.

Qarovulçunun belə bir özbaşına hərəkətləri müğənnini qıcıqlandırsa da, itə baxan dayənin təəccübünə səbəb olmuşdu. Mat-məəttəl qalan Nina bilmək istəyirdi ki, nəyə görə təkəbbürlü insan olan Zemfira ona öz iradlarını bildirmir və Akifin ərköyün hərəkətlərinə səbrlə yanaşır? Çox maraqlıdır ki, Məzahir burada olan kimi, müğənninin heç bir tapşırığını yerinə yetirməyən oğlan, həmin an qarovulçuluq funksiyalarının icrasına başlayırdı.

Akif hiss edirdi ki, evin sahibəsi onunla üz-üzə gəlməkdən boyun qaçırır. Halbuki bu onun planlarına daxil deyildi. O, çalışırdı Zemfira ilə görüş baş tutsun və öz şərtlərini onun qarşısına qoysun.

Bir gün elə olur ki, qarovulçu evinə getmir və müğənnini gözləməyə başlayır. Qaranlıq çökməsinə az qalmış, Nina bağ sahibəsini gözləmədən öz evinə yollanır. Lakin o, Akifin evdə qalması barəsində Zemfiraya xəbər verir. Qarovulçunun sırtıqlığını bilən müğənni heç bir tədbir görmədən evinə gəlir.

Bu vaxt Akif divanda oturub, ayaqlarını jurnal masasının üstünə qoymuş və televizorda əyləncəli proqrama baxırdı.

Həmişəki kimi o, qabağına şampan və ləbləbi qoyub, öz hərəkətilə ev yiyəsinə acıq verirdi.

Müğənni salam vermədən içəri keçdi və sir-sifətini turşudaraq ikrah hissi ilə soruşdu:

- De görüm, nəyə görə evdə qalmısan? Sənə nə lazımdır?

- Birincisi, adam içəri girəndə mütləq salam verməlidir. – deyə ev sahibəsinin gəlişinə əhəmiyyət verməyən qarovulçu soyuqqanlıqla dilləndi. – İkincisi, niyə evdə görünmürsən, yenə də kefdən gəlirsən?

- Birincisi, sənin nəyinə gərək, mən haradan gəlirəm. İkincisi isə mənimlə bu tərzdə danışmağa sənə kim haqq veribdir? Ayaqlarını masanın üstündən yığışdır, yoxsa birdəfəlik səni bu evə həsrət qoyaram.

- Sənin kimi əxlaqsız adamın evində mən nə istəsəm, onu da edəcəm. – deyə Akif əvvəlki kimi soyuqqanlıqla dilləndi. - Ona görə ki, sən buna layiqsən.

Bu söz müğənninin ürəyinə ox kimi sancıldı və o, əsəbidən bilmədi nə etsin. Çünki ona qarşı ədəbsiz davranan qarovulçu ilə söz güləşdirməyin heç bir mənası yox idi. O, birini deyəcək, həmsöhbəti isə iki tikanlı söz qaytaracaq. Lakin buna baxmayaraq müğənni ürəyində olan sözləri qarşısındakı qaba insana deməliydi ki, xeyli rahatlaşsın. Zemfira bütün iradəsini toplayıb, acıqlı halda dedi:

- Yaxşı, indi məndən nə istəyirsən? Akif, gəl belə danışaq, sən işə gəlmirsən, əvəzində isə maaşını bütöv şəkildə alacaqsan. Razısan?

- Əlbəttə ki, yox! – deyə qarovulçu tərəddüd etmədən dilləndi və üzünü əsəbləri tarıma çəkilmiş həmsöhbətinə tutub giley-güzarla sözünə davam etdi. – Mənim o qədər problemim var ki, onları yalnız maaşla həll etmək mümkün deyil. Gəl, burada otur söhbətimizi edək. – sonra Zemfiranı daha da qıcıqlandırmaq üçün həmin tərzdə əlavə etdi. - Özü də soyuducuya baxmışam, orada nə qara kürü, nə də ki, ağ balıq əti var. Bu mənim xoşuma gəlmədi. Deyəsən, sən delikates yeməkləri məndən gizlədirsən.

- Mən səni öhdəliyə götürmüşəm, yoxsa Məzahir sənin kimi müftəxorun qarnını doyuzdurmalıdır? – deyə müğənni hiddətləndi.

- Gələn dəfə dediyim şeylər soyuducuda olmalıdır, yoxsa mən qəzəblənə bilərəm. Həm də yadda saxla ki, sənə nisbətən, mən burada nə yesəm halaldır. Ona görə ki, mən Məzahir kişiyə sənin kimi xəyanət etmirəm.

Bu sözlərdən dəhşətə gələn Zemfira masanın üstündəki büllur vazanı götürüb, Akifin başına çırpmaq istədi. Lakin son məqamda qarovulçu müğənninin üzərinə şığıyaraq, vazanı onun əlindən aldı. O, coşmuş qadını ram etmək üçün

qadını divana yıxdı və həmin an sifətinə bir sillə vuraraq qəzəbli halda dedi:

- Sənin başına elə oyun açaram ki, dünyaya gəldiyinə peşman olarsan. Bir neçə adamı barmağına dolamısan, hələ bir məni vaza ilə vurmaq istəyirsən? Görürəm, sən yaxşılıqla söz qanmırsan. Şübhəsiz ki, qanmayanı qandırarlar.

- Burax məni. – deyə altda qalan müğənni çırpınmağa başladı.

- Buraxmağına buraxacayam, amma əvvəlcədən səninlə profilaktik iş aparmalıyam. – deyə müğənninin saçından tutub divana sıxan qarovulçu həyasızcasına hırıldadı və qızın cismani əzab çəkdiyindən həzz alaraq istehza ilə sözünə davam etdi. – Sən şəhərə gələndən bəri tərbiyən çox korlanıbdır, mütləq sənin tərbiyənlə məşğul olmalıyam. İndi deyəcəyim sözləri qulağında sırğa elə. Sən elə bilmə ki, mənim üçün burada yəni, sənin yanında qalmaq xoşdur. İmkanım olsa, sənin kimi pozğun adamı tikə-tikə doğrayıb, murdar ətini çaqqallara atardım.

- Sən əsl manyaksan ki. – deyə həmin an müğənninin canina vəlvələ düşdü, lakin son məqamda o, özündə güc tapıb cəsarətlə sözünə əlavə etdi. – Burax məni, səni polisə verərəm.

- Mən sənin üçün Elşən deyiləm ki, bir şey olan kimi hədə-qorxu gələsən. Çalış mənim əsəblrimlə oynama, əks

tәqdirdә mәn özümdәn çıxa bilәrәm, - hәyasızcasına qışqırdı.

- Axı, sәn mәndәn nә istәyirsәn? – deyә Zemfira onun әlindәn yaxa qurtarmağa çalışdı.

- Tez ol, get mәtbәxә mәnim üçün kofe hazırla. – bu anda Akif ev sahibәsini rahat buraxdı. - Ondan sonra sәninlә vacib söhbәtim olacaq…

- Mәn sәnin arvadın deyilәm ki, durub mәnә göstәriş verәsәn. – deyә müğәnni üz-gözünü bozardaraq, yataq otağına tәrәf getdi.

Onun bu hәrәkәtindәn hiddәtlәnәn qarovulçu öz hәyasız hәrәkәtlәrini tәnzimlәyә bilmәdi. Akif qәzәbli halda qadını geri çağırsa da, Zemfira geri qayıtmadı. Onda o, heç nәdәn çәkinmәdәn birbaşa hәmin otağa gedib, yenә dә ev sahibәsini sәslәdi. Müğәnni qarovulçunu otağında görәndә daha da әsib coşdu vә ondan dәrhal buradan uzaqlaşmasını tәlәb etdi. Zemfiranın üzündә yaranan nifrәt vә qәzәbә әhәmiyyәt vermәyәn Akif, qarşısındakı inadkar qadını ram etmәk üçün onun üstünә şığıdı vә ziyafәt paltarının yaxasından tutaraq hirsli halda qışqırdı:

- Sәnә demәdim kofe içmәk istәyirәm, tez ol mәtbәxә get.

Zemfira yaxasını ondan kənara çəkmək istəyəndə, paltarı sinəsindən göbəyinə kimi cırıldı və o, cirilmış paltar ilə açıq qalan sinəsini tutaraq hiddətlə qışqırdı:

- Nə edirsən, axmaq? Görmürsən, paltarım cırıldı?

- Cırılanda nə olar? – deyə qarşısındakı ev sahibəsini adam yerinə qoymayan qarovulçu soyuqqanlıqla dilləndi. - Ay bədbəxt, sən canının hayında ol.

- Necə yəni nə olar, mən bu paltara dörd min dollar pul vermişəm. Bədbəxt sənin özünsən. Paltarım cırılsa, sənə yenisini aldıracam.

Elə bu vaxt, müğənninin sözlərinə laqeydliklə yanaşan Akif daha da irəli yeriyib, onun paltarından tutub bütünlüklə cırdı. Sonra ara vermədən o, qadının sifətini əlləri ilə hər iki tərəfdən sıxıb ikrah hissi ilə dedi:

- Zema, bir də mənə dil qaytarsan, səni pis günə qoyacağam. Nəyə görə narahat olursan? Pulun varsa, yenə də həmin paltardan alarsan.

Alt paltarda qalan müğənni dolabın qapı güzgüsünə sıxılaraq, həqarətlə dedi:

- Tez ol, çıx buradan. Bilmirsən ki, bu otağa Məzahirdən başqa heç kim girmir?

- Yanılırsan əzizim, Natiq demək olar ki, bu otağın daimi sakini olmuşdu. Deyəsən, həmin macəralar sənin yadından çıxıbdır. Həm də sən kimdən belə utanırsan?

Özünü nəyə görə dartırsan? Sənin bədənini nə qədər istəsən lüt şəkilində görmüşəm. Əgər, mənim sifarişimi yerinə yetirməsən, onda mən də sənin murdar bədənindən istifadə edəcəm.

- Bu sözlərdən sonra Zemfira özünü ələ almağa çalışdı. Müğənni düşdüyü vəziyyətin nə qədər mürəkkəb olduğunu başa düşdü və artıq zorakılıqla üzləşməsin deyə, Akifin verdiyi tapşırıqları icra etməyi qərara aldı. Qorxudan hürküyə düşən qadın bir anlığa özünü ələ aldı və qarovulçudan xahiş etdi ki, paltarını dəyişmək üçün otaqdan çıxsın. Dodaqlarında acı təbəssüm sezilən Akif kin və nifrət dolu baxışlarla həmsöhbətinə nəzər sala-sala zala qayıtdı.

Zemfira çırılmış paltarını əlinə alıb sifətinə tutdu və çarpayıda oturaraq hönkür-hönkür ağlamağa başladı. Məzahir ilə yaşadığı dövrdən şirin həyata, problemsiz günlərə, ərköyünlüyə öyrəşən müğənni bu dəfə həm fiziki, həm də mənəvi sarsıntılara məruz qalmışdı.

Artıq bu məqamda o, bütün fikrini cəmləşdirərək nəyə görə belə bir fəsadlarla üzləşdiyini götür-qoy etməyə başladı: Mən kimin bostanına daş atmışam ki, başıma belə bir ağlasığmaz müsibətlər gəlir? Gör nə qədər axmaq adamam ki, Elşən kimi həmişə tapşırıqları artıqlaması ilə yerinə yetirən, quzu kimi sakit olan bir oğlanı evimdən uzaqlaşdırdım, əvəzinə isə əfi ilanı öz ocağıma gətirdim.

Öz günahımdır ki, indi mən həmin günahı zülümlərlə yuyuram. Ətrafda olan yaxşı insanları acılayır, acı xislətli, pis niyyətli ünsürləri isə yaxınlaşmağa imkan yaratdım. İndi elə bir vəziyyətə düşmüşəm ki, dərdimi söyləməyə yaxın adamım yoxdur. Natiq alçaqlıq, onun sürücüsü namərdlik etdi, Məzahir isə bütün bunlardan bixəbərdir. Bu işdə mənə yalnız İbrahim köməklik göstərə bilər. Mütləq onunla əlaqə yaradıb, dərdimi söyləməli və bu bəladan qurtulmalıyam.

Bəlkə, mən həmin əfi ilanı hansısa bir vasitə ilə məhv edim və onda olan dəhşətli sirr özü ilə birlikdə o dünyaya getsin? Yox, bu çox risqli işdir və onun yox olması ilə bağlı həmin an ya məndən, ya da ki, Məzahirdən şübhələnə bilərlər. Amma nə qədər o, buradadırsa, mənim rahatlığım, xoş günlərim olmayacaq. Bəlkə, onun özünü şərləyib polisə tutdurum? Deyərəm ki, o, məni zorlamaq istəyib və müqavimət göstərdiyim halda mənə ağır işgəncələr veribdir. Belə bir iş üçün şahid tapmaq da çətin deyil; o da ki, Nina xala. Mənə elə gəlir, bu ağıla batan bir plandır və bunu həyata keçirmək üçün o qədər də çətinliklə üzləşməyəcəm. Elə etməliyəm ki, Akifi qıcıqlandırım və o, mənə təcavüz edərək zorlasın. Hər şey baş ağrısız olsun deyə, mütləq həmin hadisə gizlin şəkildə quraşdırılmış

videokameraya çəkilməlidir. Bütün bunları həyata keçirmək üçün İbrahimlə məsləhətləşməliyəm.

Elə bu vaxt Akif kofe istədiyini bildirdi və bunun üçün müğənniyə tələsməyi məsləhət gördü. Zemfira əyninə gecə xalatı geyib birbaşa mətbəxə yollandı.

Bir neçə dəqiqədən sonra Zemfira əlində kofe qarovulçunun huzurunda dayandı. O, kofeni qoyub getmək istəyəndə, adamı incitməkdən böyük həzz alan oğlan qadından burada əyləşməyi təkid etdi. Daxilində hirsdən partlayan müğənni məcburi olaraq onunla üzbəüz əyləşdi.

- Zema, sənin işin əngəl olsa da, mən sənə öz köməyimi əsirgəmirəm. Lakin bunun müqabilində, sən də mənə kömək əlini uzatmalısan. Başa düşürsən, mən nə demək istəyirəm?

- Şantaja başlamısansa, aydındır ki, sən məndən pul istəyirsən.

- Bax, bu başqa məsələ. – deyə sevincini gizlətməyən qarovulçu təqdiredici tərzdə dilləndi. – Mənim böyük problemlərim yaranıbdır. Açığını desəm, bir adamdan faizlə 10 min manatdan çox pul götürmüşəm. İndi həmin adam pullarını geri istəyir.

- Məndə elə məbləğdə pul haradan? – deyə müğənninin gözləri bərələ qaldı. – Guya bilmirsən ki, mən Məzahirin hesabına yaşayıram?

- Bilirəm! – Akif kofeni içə-içə tərəddüd etmədən dilləndi və həmsöhbətinin üzündə yaranan etiraz dolu cizgilərə heç bir əhəmiyyət vermədən sakit tərzdə sözünə davam etdi. - Amma mən elə edə bilərəm ki, sən nəinki onun hesabına, ümumiyyətlə bu dünyada yaşaya bilməzsən.

Mən səndən çox pul istəmirəm. Sənə güc düşməsin deyə, ayda 3 min manat pul ödəməli olacaqsan. Faizlərlə birlikdə bu dörd ay edir. Ondan sonra maşın almaq üçün kreditlərin bağlanmasına köməklik edəcəksən. İşdir, pulları gecikdirsən, onda üstünə faiz gələcək.

- Əslinə baxanda, mənim qazancım elə 3 min manat pul edir. Həmin pulu da sən məndən almaq istəyirsən?

- Mən sənin üçün uşaq deyiləm ki, durub nağıl danışasan. Qara kürünün kilosu 2 min manatdır, delikates ərzaqlara da ayda ən azı 2 min manat pul verirsən. Yadda saxla ki, bir çox insanlara nisbətən, mən çox insaflıyam. Başqası olsa, dilini qarnına qoymaq üçün səndən ən azı 5 min manat pul tələb edər.

- Ortaya qoyulan tələblərdən başını itirən Zemfira fikirə getdi. O, ümumi məxrəcə gəlmək üçün daxilində götür-qoy edərək, ciddi halda dedi:

- Akif, işdir mən sənin tələbini yerinə yetirdim, onda mənim xahişimə əməl edərsən?

- Xahiş haqqında fikirləşərəm, amma mənim qarşıma heç bir şərt qoyma.

- Hər ayın axırında, mən sənə istədiyin məbləği ödəyəcəm, amma sən mənim evimə bir daha gəlmə.

- Hər gün yox, amma həftədə bir-iki dəfə gələcəyəm. Sənə o qədər öyrəşmişəm ki, uzun müddət görməsən darıxacağam.

- Zarafatı burax. – deyə müğənni ciddi halda dilləndi. – Mən səni bir daha evimdə görmək istəmirəm.

- Əfsuslar olsun ki, mən bunu edə bilməyəcəm. – deyə qarşısındakı qadını qıcıqlandıran və onun əsəbləri ilə oynayan qarovulçu, ayaqlarını jurnal masasının üstünə qoyaraq rişxəndlə dilləndi. - Həftədə heç olmasa bir dəfə sənin hazırladığın kofedən içməsəm, onda mən özümü pis hiss edərəm. Sən qaçıb canını məndən qurtarmaq istəyirsən?

- Əgər belədirsə, onda mən sənə dediyin məbləği verməyəcəm. – deyə həyasız oğlanın hərəkətlərindən bezən qadın ikrah hissilə dilləndi. – Həm də ayaqlarını sal aşağı. Biz masanın üstündə çörək yeyirik.

- Mənə kələk gəlmək istəyirsən? Birincisi, sən özün çox hallarda ayaqlarını masanın üstünə qoymusan, mən də sənə baxıb ibrət dərsi götürmüşəm. İkincisi də sən pulu verməsən, onda mən gündə burada olacaq və əlbəttə ki, gününü

qara edəcəm. Hələ bir ola bilsin, məbləği artırmaq üçün məcburiyyət qarşısında qalacağam. Onda isə gec olacaq.

- Yaxşı, mən təklifinlə razıyam. Amma sən buraya gələndə yalnız bağda olacaq və heç vaxt evə girməyəcəksən.

- Biz hələ buna baxarıq. – deyə Akif bundan sonra evi tərk etdi.

## III fəsil. Gərgin vəziyyətdən çıxmaq üçün lazımi məsləhətin alınması

Son aylar ehtiyatlı olmağa aludəli olan müxbir, Arifin bağ evinə gəldiyini bilən kimi dərdini bölüşmək üçün o, yaşlı ziyalının yanına getməyi qərara aldı.

Yeni il yenicə daxil olanda havalar mülayim keçmişdi. Məhz bu səbəbdən Arif demək olar ki, hər gün burada olurdu. Lakin fevral ayının girməsinə on gün qalmış havalar kəskin surətdə soyudu. Günəş qürub edən kimi gecələr şaxtalar hücuma keçərək, hər yeri dondururdu. Novxanı kəndi Abşeron yarımadasının şimalında yerləşdiyindən, Arktik siklonun gətirdiyi soyuq hava kütləsi ilk növbədə bu

ərazilər öz ağuşuna alırdı. Fevralın 2-də son 45 ildə görünməmiş bir soyuq kütləsi Bakıya və onun ətrafında yerləşən kəndlərə daxil olaraq, bütün küçə və məhəllələri iflic vəziyyətinə saldı. Şiddətli çovğun bir neçə saatın ərzində elektrik naqillərini, su borularını, yol qovşaqlarını sıradan çıxarmış, ümumiyyətlə bütün yollar və küçələr buz qabığı ilə örtülmüşdü. Saniyədə 33 metr sürətlə əsən küləyin müşayiəti ilə başlanan çovğun Arifin bağındakı "Krosnı" antennasını aşırmış, yay talvarının şiferini uçurmuş, işıq dirəklərini əymiş, aynabəndin şüşələrini isə sındirmışdı.

Bütün bu fəsadlara baxmayaraq, ev yiyəsi generatorun vasitəsilə evin işıq sistemini bərpa etmişdi. Əliyusif qonşusunun evinə gələndə o, qohumu Fikrət ilə birlikdə ikinci mərtəbədəki qonaq otağında oturub televizora baxırdı. Müxbir həkimi belə bir havada burada görəndə çox təəccübləndi. İş ondadır ki, Fikrət, dünəndən bəri burada olan Arifin səhhətinə görə narahat olduğundan günortaya az qalmış bura gəlmişdi.

İsti kaminin yanında əyləşmiş qohumlar "ANS" kanalında gedən "Xəbərçi" xəbərlər proqramına qulaq asırdılar. İndiki məqamda, çovğunun yaratdığı fəsadlarla bağlı bütün məlumatlar maraqlı sayıldığından, necə ki, bütün millət, o cümlədən də, evdəkilər televizorda gedən xəbərlərlə bol olan verilişləri diqqət mərkəzində saxlayırdı. Müxbirin

gəlişi onları həddindən artıq sevindirdi və gələn oğlana masa arxasında yer göstərdilər.

Arif Əliyusifə kofe süzmək istəyəndə, müxbir tərəddüd etmədən özü çaşkaları isti kofe ilə doldurdu. Ləbləbi və meyvələr əvvəlcədən masaya qoyulmuşdu. Əliyusifin gəlişi ziyalını sevindirsə də onun qanı qara idi. Müxbir zənn etdi ki, bir sutka davam edən çovğunun yaratdığı fəsadlar onun kefinə soğan doğrayıbdır. Lakin səbəb başqa idi.

- İnanırsan Əli, adam televizora baxmaq istəmir. – deyə Arif məyus halda dilləndi. – Bir neçə gün bundan əvvəl Beynəlxalq Gənclər günü idi və həmin münasibətlə, guya istedadlı gənclərdən bir neçəsini bir proqrama dəvət edirlər. Məni yandıran odur ki, bayırda qar dizdən olsa da, həmin müğənnilərdən biri heç kimə hörmət etmədən hamının qarşısına şortıda çıxır.

- Hələ bu harasıdır, ondan bir gün sonra qarın tüğyan etdiyi bir vaxtda başqa bir kanalda hava proqnozunu təqdim edən və tok-şou proqramının aparıcısı şortıda millətin hüzurunda dayanır. – deyə həkim əlavə etdi. - Başa düşə bilmirəm, biz bu geyimlə hara gedirik? Əvvəl deyirdim ki, televiziya rəhbərləri studiyaya açıq-saçıq gələn müğənnilərə qadağa qoysunlar. Lakin bütün bu iradlara baxmayaraq, proqram aparıcıları özləri şortıda ictimaiyyət qarşısına çıxır.

- Aparıcılar arasında mən elə başa düşürdüm ki, - Əliyusifin fikir bildirməsinə imkan verməyən neft mütəxəssisi hiddətlə dilləndi. – mədəniyyətdən, tərbiyədən, əxlaqdan dəm vuran bir aparıcı həmin kriteriyaları nəzərə alıb camaat qarşısına abırlı çıxar. Lakin hər şeyin əksi baş vevrirdi. İş ondadır ki, fevralın 15-də hansısa bir kanalda maraqlı bir veriliş gedirdi. Həmişəki kimi milli-mənəvi dəyərlərə üstünlük verən, aparıcıdan hörmət gözləyən tamaşaçıları əksinə öz geyimləri ilə qıcıqlandıran həmin xanım, bu dəfə lap biabırçı şəkildə auditoriya qarşısına çıxmışdı. O, əyninə kürəyi tamamilə, sinəsi isə qismən açıq hamam xalatına oxşar, topuğuna qədər sallanan paltar geyərək, studiyada o yan-bu yana gəzişərək veriliş aparırdı. İkrah hissi doğuran hal o idi ki, həmin paltar belindəki kəmərdən topuğuna kimi kəsik idi. Dediyim odur ki, həmin libasda qızın kürəyi, sinəsi və ayaqları bütünlüklə çöldə qalmışdı. Mən hələ indiyənə kimi hər hansısa bir aparıcını belə bir biabırçı libasda görməmişdim. Oraya toplaşan yeniyetmə və cavan uşaqlar yalnız onun əndamını süzürdülər.

Ədəb-ərkanını nəzarət altında saxlamaq istəməyən aparıcılar unutmamalıdırlar ki, televizor verilişlərinə onun valideynləri, əzizləri, yeniyetmə uşaqlar, qız-gəlinlər, ağsaqqal və ağbirçəklər baxırlar.

- Bir çox kişilərdən qat-qat qeyrətli olan bir qadın millət vəkili verilişlərin birində birmənalı şəkildə bildirir ki, - deyə professor həvəslənərək ciddi halda dilləndi. – televiziya məkanında baş verən bütün biabırçı səhnələrə görə ictimai qınaq olmalıdır. Şübhəsiz olaraq, millət vəkilinin mənəviyyatsızlığın məhv edilməsinə yönələn bu fikiri ilə hamı razılaşmalıdır. İlk növbədə belə bir nöqsanlara görə televiziya rəhbərləri məsuliyyət daşımalı və yüksək məbləğdə çərimə olunmalıdırlar. İctimai qınaq olmasa, onda bəzi aparıcılar veriliş aparmaq üçün studiyaya çimərlik paltarında çıxacaqlar.

Görürsünüz, bu məsələdə Azərbaycanın ictimai, siyası, mədəniyyət, ədəbiyyat xadimləri özlərinin etiraz səslərini ucaldırlar. Əlbəttə ki, böyük qeyrət sahibi olan, ən çox can yandıran, həmin millət vəkili polemikalara girir. O, da bildirir ki, mənəviyyata zidd olan, əxlaqa yaraşmayan bütün hərəkətlər ictimaiyyətin qınaq obyektinə çevirilməlidir. Müəyyən mənada bizim fikirlərimiz üst-üstə düşür. Adam həqiqəti deyəndə də pis olur.

- Başa düşmürəm, biz hansı ölkədə yaşayırıq? – deyə Arif dilləndi. - Kim nə istəyir onu da edir. Müğənni səhnəyə çıxanda, aparıcı veriliş aparanda, prodüsser fikir bildirəndə heç bir şeydən çəkinmədən səlahiyyətlərini aşaraq, qarşısındakı opponentlərini acılayırlar.

- Düz deyirsiniz, – deyə söhbətdən vəcdə gələn müxbir həqarətlə dilləndi. – bir tanınmış aparıcı verilişinə gənc yazarlarla yanaşı tanınmış qələm ustası Natiq Rəsulzadəni, Tofiq Abdini və Azər Abdullanı dəvət edir və müzakirə zamanı məlum olur ki, bütün postsovet məkanında kifayət qədər tanınan, Dövlət Mükafatı laureatı, "Şöhrət" ordeninə layiq görülən bir yazıçını tanımır. Halbuki Natiq Rəsulzadə bidirir ki, verilişə dəvət etməzdən əvvəl o, bir peşəkar aparıcı kimi onlar haqqında müəyyən məlumatları əldə etməli idi. Bu söz aparıcının xətirinə toxunduğundan o, studiyadan birbaşa bəyan edir ki, bundan sonra hər həftə studiyada gənc yazarlarla görüşlər keçirəcək. Belə bir saymamazlığa dözməyən yaşlı bədii ədəbiyyat nümayəndələri oranı tərk etməli olurlar. Ömrünü ədəbiyyata, mədəniyyətə həsr edən Azərbaycan yazıçılarina bu cür münasibət göstərmək biabırçılıqdır. Aparıcı bu hərəkəti ilə qabiliyyətinin hansı səviyyədə olduğunu nümayiş etdirdi.

- Belə bir hörmətsizliyə görə aparıcını yox, - deyə professor dilləndi. - ona əlavə səlahiyyətlər verən və həmin proqrama başı ilə cavabdeh olan redaktoru qınamaq lazımdır. Onlar yadda saxlamalıdırlar ki, ədəbiyyatda təmsil olunan hər bir ziyalıya hörmətlə yanaşılmalı və işlənən hər bir hikmətli sözə xüsusi diqqət yetirilməlidir.

Halbuki balaca bir irad tutulan kimi dərhal qışqır-bağır etməyə, hətta hədə-qorxu gəlməyə başlayırlar.

- İlk növbədə həyasızlığın qarşısı alınmalı, belə adamların özlərini iştirak etdikləri kanallarda ifşa etmək lazımdır. – deyə müxbir başını təəssüflə tərpədərək asta-asta dilləndi.

Arif Əliyusifin sözlü adam olduğunu görüb nə baş verdiyini soruşdu. Müxbir vaxt uzatmadan birbaşa mətləbə keçdi.

- Arif müəllim, dünən qonşumuz bizə gəlib mənə hədə-qorxu gəldi. Mən də adekvat addımlar atmaq üçün, mətbuatın nüfuzlu nümayəndələri ilə məsləhətləşmələr aparıram.

- Mən sənə əvvəlcədən demişəm ki, əgər abırını itirmiş qonşu tərəfindən sən təzyiqlərə məruz qalsan, onda mən lazımi yerlərə, daha doğrusu Daxili İşlər və Milli Təhlükəsizlik nazirliklərinə ərizə ilə müraciət edəcəm. Məhz bundan sonra görüm, Məzahir hansı addımlar atacaq. Özünü danqaz aparan axmaq kişi hələ də anlamır ki, sən Zemfiranı ifşa etməklə, onun gözlərini açmaq istəyirsən.

- Məndən çox, bu haqda başqa jurnalistlər əməli iş görüblər.

- Başa düşmədim? – deyə Arif baxışlarını ciddiləşdirdi.

- İş ondadır ki, tamamilə başqa müxbirlər tərəfindən həmin əxlaqsız müğənninin yaşlı bir kişi ilə yaşaması, qəzet səhifələrində işıqlandırılıb. Zemfira ilə Məzahir elə zənn edirlər ki, həmin informsiya mənim tərəfimdən həmkarıma ötürülübdür.

- Hörmətli müxbir, bunu sübuta yetirmək üçün sən dəridən-qabığdan çıxmalısan. – deyə həkim nəsihətlə dilləndi.

- İstəyirsən, mən Məzahir ilə görüşüb, ona hər şeyi ətraflı izah edim? – Arif təklif verdi.

- Guya o, başqasının fikri ilə razılaşacaq? O, adam kimdənsə məsləhət almağı və kiminsə sözünə qulaq asmağı özünə təhqir sayır. Arif müəllim, indiki məqamda həmin o atı bərkgedən adam, yalnız öz məşuqəsinin sözlərinə inanır. Televizorda gördüyünüz kimi Zemfira aparıcıya izah etdi ki, o, mənim qardaşımı öz bağından uzaqlaşdırdığı üçün mən belə bir şantaj xarakterli yazılar dərc etdirmişəm.

- Əgər elədirsə, onda sən həmin müxbiri tapıb ona bildirməlisən ki, - deyə həkim müxbirə yol göstərmək üçün ona məsləhət verməyə başladı. - o, həyasız müğənni ilə əlaqə yaradıb, yazının əsl müəllifinin kim olduğunu bəyan etsin. Onda hər şey səngiyər.

Səhiyyə işçisi ifadəsini sona çatdırmışdı ki, birdən onun mobil telefonuna zəng gəldi və o, nömərəyə baxan kimi

gedəcəyini izah etdi. Hər dəfə iltifatlı görünməyə adətkar olan Arif qonağının ardınca çıxaraq, onu maşına qədər ötürdü.

Evin sahibi otağa qayıdanda həmin an televizorda bir veriliş gedirdi və orada iki qrupa bölünmüş azərbaycanlı rəqqaslar hind rəqslərini nümayiş etdirirdilər. Rəqsdən dialoqa keçən zaman onlar bir-birilərini qeyri-peşəkar oyunlarına görə ittiham edirdilər. Adamı qıcıqlandıran o idi ki, bir sahəni təmsil edən bu rəqqaslar bir-birilərinə düşmən münasibətdə idilər. Məhz bu səhnənin canlanması zamanı Arif başını əsəbi halda yellədərək qəzəblə dedi:

- Sən bir bunlara bax da, onlar nə alıblar ki, bölüşdürə bilmirlər? Səhnə böyükdür, hind rəqsi oynayan rəqqaslarımız isə az.

- Əslində onlardan biri milli oyunların peşəkar rəqqasəsidir, o birisi isə hind rəqslərinin. Ekrandakı kadrlara diqqət yetirsəniz, görəcəksiniz ki, uzunboğaz çəkmədə oynayan rəqqasə hind rəqsi oynaya-oynaya Azərbaycan milli rəqsinin elementlərindən tez-tez istifadə edir. Həm də o, peşəkar rəqqas kimi bilməlidir ki, hind rəqsini, palçıqda gəzmək üçün nəzərdə tutulan uzunboğaz çəkmədə oynamırlar. Etiraf etməliyəm ki, o birisini hind rəqslərinin ustası adlandırmaq olar. Çünki onda olan plastika və texniki fəndlərin sirlərinə heç bir rəqqas yiyələnməyibdir.

- Yadıma düşdü, bir neçə gün bundan əvvəl televiziya kanalların birində yeni proqram peyda olub. – deyə Arif mövzunu dəyişməyi qərara aldı. - Yenə də müğənnilərimiz dar və qısa yubkada, sinəsi yarıya qədər açılmiş paltarda, ümumiyyətlə xoşagəlməyən pozalarda şəkil çəkdirib ictimaiyyətə çatdırırlar. Biabırçılığın qarşısı alınmaqdansa, həmin biabırçılıqlar ekranlarda daha da geniş vüsət alır. Deməli, bütün bu tənqidlərin, ictimai qınağın, emosional fikirlərin heç bir əhəmiyyəti yoxdur. Başa düşə bilmirəm, nə vaxta qədər televiziya rəhbərləri camaatın əsəbi ilə oynayacaq?

- Elə dərd də bundadır. – deyə mənəviyyatsızlığa qarşı əsl inqilabçı kimi sinə gərən Əliyusif başını təəssüflə yellədərək hüznlə dilləndi. – Mən də yazılarımı dərc etdirirəm ki, bəlkə həmin müğənnilər həya-abıra gəlib, öz davranışlarında müəyyən dəyişikliklərə yol verərlər. Onlar müvəqqəti olaraq yaxşı yaşayış naminə, cavan talelərinə damğa vurduraraq, gələcək həyatlarını korlamış olurlar. Mənim yazılarıma kəskin reaksiya verənlər hələ də anlamırlar ki, mən onları əxlaqsızlıq xəstəliyindən müalicə edir və onları ağ günə çıxarmaq istəyirəm. Təəssüflər olsun ki, həmin adamlar bu hikməti anlamırlar.

- Bilirsən nəyə görə? Ona görə ki, tənqidi çıxışlar üzə çıxandan sonra da həmin müğənnilərin havadarları onlara

yenidən dəstək verir və həmin müğənniləri əxlaq kodeksinə dəvət etmədən telestudiya rəhbərləri tərəfindən yenidən ekrana çıxarmasıdır. Sanki onların neqativ fəaliyyəti ictimai qınağla üzləşmir.

Məhz buna görə cəmiyyət arasında belə bir söz-söhbət gəzir ki, - deyə Arif dərindən ah çəkərək səbirsizliklə dilləndi. - müğənnilər pul verərək, efirə daxil olur və həmin pulun müqabilində mavi ekranda istədikləri hoqqalardan çıxırlar. Adamı isə yandıran odur ki, mədəniyyətdən uzaq olan bir çox müğənnilər efir vaxtının əksəriyyətini zəbt edərək, əsl sənətkarların, xüsusən də əxlaq qaydalarına tam riayət edən istedadların ekrana çıxmağa imkan vermirlər.

Cəmiyyətimiz ekranda baş verən naqislikləri birmənalı şəkildə qəbul etmir. İş ondadır ki, sözlərinə məhdudiyyət qoymayan, açıq geyimli paltarlarda çıxış edən müğənnilər biz ziyalıları televizora baxmağa imkan vermirlər. Efir məkanının rəhbərləri bir şeyi anlamalıdırlar ki, camaat evdə televizora ailəliklə baxır. Adam öz qızı, gəlini, arvadı, nəvələri ilə sərbəst halda ekrana baxa bilmir. Məhz bu səbəbdən yaxşıdır ki, mənəviyyata, mədəniyyətə, tərbiyəyə xüsusi önəm verən Az.TV kanalı fəaliyyət göstərir. Şəxsən mən tam arxayınlıqla ailəmi həmin kanalın qarşısında qoyub öz işlərimin ardınca gedə bilərəm. Qətiyyətlə demək olar ki, abırsız geyimdə çıxış edən, özünü əsl azərbaycanlı

kimi apara bilməyən müğənnilərə həmin kanala daxil olmaq qadağan olunubdur.

- Az.TV ilə yanaşı, mən ANS kanalına da etibar edirəm. Çünki orada vətənpərvər verilişlər böyük üstünlük təşkil edir. Müəyyən mənada Azərbaycanın ilk özəl televiziya kanalı bütün millət üçün doğma kanal sayılır, ona görə ki, oradakı verilişlər, proqramlardakı meyarlar, aparıcıların səviyyəsi, təqdimetmə bacarığı millətin istək və tələblərinə uyğun gəlir.

- Nəzərə almaq lazımdır ki, - ziyalı təəssüflə dilləndi. – elə ANS-ə də xalqımızda ikrah hissi doğuran müğənnilər dəvət olunur.

- Vaxt gələcək, televiziya rəhbərləri yol verdikləri bütün nöqsanlara görə peşman olacaqlar. Çünki əminəm ki, yaxın gələcəkdə Bədii Şura yaradılacaq və onun üzvləri mavi ekranı naşı müğənnilərdən təmizləyəcəklər. Bu baş versə, mən onları Azərbaycan mədəniyyətinin milli qəhrəmanları adlandıracağam.

## IV fəsil. Şantajdan məharətlə istifadə edən qarovulçu ev yiyəsinin namusuna təcavüz edir

Havaların soyuq keçməsi bir çox küçələrdə, məhəllələrdə, hətta qəsəbələrin böyük yaşayış məntəqələrində fəsadlar törətmişdi. Asan yaşayış tərzinə öyrəşən Akif, evində yaranan soyuqlara tab gətirməyib, başqa bir evdə qalmağı planlaşdırmışdı. Artıq harınlığa öyrəşmiş qarovulçu daha da irəli gedərək, özünün ağlasığmaz şərtlərini Zemfiraya diqtə etməyə başladı. Onun bu dəfəki tələbləri ev sahibəsini hiddətləndirməkdən çox, şok vəziyyətinə saldı. Günorta yeməyindən bir neçə saat sonra, gözlənimədən müğənninin bağ evində peyda olan Akif, ev sahibəsinin heç bir reaksiyasına əhəmiyyət vermədən bildirir ki, havalar bir qədər qızana qədər o, burada qalmalı olacaq. Bu xəbərdən dəhşətə gələn Zemfira gözlərini bərəldərək, hiddətlə qışqırır:

- Sən kimi axmaq yerinə qoymusan? Sən nə dediyini anlayırsan? Elə bu dəqiqə buranı tərk edib, xarabana get. Yoxsa, sənə pis olacaq.

Qarovulçu o dərəcədə özünü bu evdə sərbəst aparırdı ki, yanındakı adamın hansı həddə çatmasına azacıq olsun

reaksiya vermədən birbaşa kaminin yanına keçib, əllərini orada qızdıra-qızdıra narazılıqla soruşdu:

- Maraqlıdır, sən mənə hansı pislikləri edə bilərsən? Bilmirəm, dünya dəyişibdir, yoxsa insanlar? Mən səninlə humanistcəsinə davranıram, sən isə mənə qarşı aqressiv münasibət bəsləyirsən. Həm də çalış özünü qonşular arasında biabır etmə. Sənin bütün səsin kəndin o biri başında eşidilir.

Akifin belə bir atmaca, hissiyyata toxunan dolayıcı sözləri müğənnini daha da qəzəbləndirdi və o, əsəbdən yerindəcə donub qaldı. İmkanı olsaydı, həmin an o, qarşısındakı adamı boğub öldürərdi, lakin qüvvələr bərabər olmadığından Zemfira qıcıq kimi onun hərəkətlərini izləməyə məcbur oldu. Həmsöhbətinin əsəblərini daha da tarıma çəkməyə çalışan qarovulçu dodaqlarında acı təbəssüm yaradaraq, istehza ilə dedi:

- Sən özünü elə aparırsan ki, sanki mən sənin düşməninəm. Görmürsən, yoldan gəlmişəm? Tez ol, bir dənə isti kofe düzəlt. Bir az cəld ol, soyuqdan ölürəm.

- Akif, kofeni gedib evində içərsən. – deyə hirsindən boğulan müğənni bağırdı. - Yaxşılıqla buranı tərk et, yoxsa həqiqətən də sənin başın ağrıyacaq.

Bu sözlərdən sonra qadın ürəyində qarovulçunu söyə-söyə yataq otağına yollandı. Onun bu hərəkəti Akifin

xoşuna gəlmədi və o, verilən tapşırığın yerinə yetirilməsi üçün evin sahibəsinə beş dəqiqə vaxt verdi. Lakin həmin müddət başa çatandan sonra da Zemfiradan heç bir hərəkət olmadı. Məhz bundan sonra qəzəblənən qarovulçu ağzına bir siqaret qoyub, birbaşa müğənninin yataq otağına getdi və qapını döymədən içəri daxil oldu. Bu vaxt Zemfira elektrik istilik ventilyatorun yanında dayanıb, paltarını dəyişirdi. O, demək olar ki, çılpaq vəziyyətdə idi və cəld üstünə yastığı tutaraq, əsəbi halda qışqırdı:

- Ay alçaq, sən nə cürətlə mənim otağıma girmisən? Kor gözlərinlə görmürsən ki, mən çılpağam? Tez ol, çıx buradan, yoxsa polisə zəng edəcəm.

- Küçə itləri kimi burada qışqırıb, həyasızlıq etmə. – deyə ev sahibəsinin stress vəziyyətində olmasına heç bir əhəmiyyət verməyən Akif, tərəddüd etmədən irəli yeridi. – sənə demədim ki, mənə kofe gətir?

- İt sənsən, sənin əzizlərindir. İndi Məzi gəlib səni burada görsə, fikirləşmədən başını kəsib itlərə verəcək.

- Mənim əzizlərimi söyürsən? – deyə eşitdiyi sözlərdən hiddətlənən qarovulçu qadına yaxınlaşıb onun sifətinə sillə vurdu və qəzəblə qışqırdı. – Səndən bir də elə söz eşitsəm, sinənə fahişələrin gəzdirdiyi damğa vurduracağam ki, sənin kimliyin bütün millətə bəlli olsun.

Oğlanın hərəkətlərindən bezən qadın: – bu nədir, hər zaman məni silləliyirsən? – deyərək, termonun üstündə olan kosmetika qutusunu götürüb qarovulçunun üstünə atdı. Akif əlləri ilə sifətini tutaraq, yenə də Zemfiranın üzərinə yeridi. Qadın isə dayanmadan əlinə keçən dezodarantı onun başına vuraraq, arxası üstə çarpayısına yıxıldı.

Başına dəyən zərbədən qəzəblənən qarovulçu müğənninin üstünə hücum çəkib, onu silləməyə başladı. O, zərbələri elə tərzdə endirirdi ki, Zemfira üstündəki adamın nəzarətdən çıxdığını zənn edərək, qışqırmağa cəhd etdi. Lakin bir əli ilə ağzını tutan, o biri əli ilə silləyən oğlan əsəblərini cilovla bilməyib, qadının əynində olan alt paltarını da necə gəldi cırdı və hikkə ilə dedi:

- Məni vurdun, fahişə? Səni qanına qəltan edəcəm.

- Əl çək məndən, manyakın biri manyak. – deyə qadın imkan tapan kimi qışqırdı. – Yenə də mənə əl qaldırsan? Özümü öldürəcəm.

Lakin bütün bunlara baxmayaraq Akif kifayət qədər altındakı qadının sifətinə və bədəninə sillələr endirdi. Həmin zərbələrin təsirindən xeyli dərəcədə zəifləyən müğənni halsız halda qalaraq ağlamağa başladı. O, elə bir vəziyyətdə idi ki, hətta yarıçılpaq bədənini örtməyə imkanı tapmadı. Müğənni bütün təravətli bədəni ilə lüt-üryan halda bu həyasız oğlanın qaşısında tərpənməz halda idi.

Zemfiranın daha müqavəmət göstərə bilməyəcəyini görən qarovulçu qadının təbii gözəlliyi qarşısında daha tab gətirməyib, zərif qadını ehtirasla qucaqlaya-qucaqlaya onun üz-gözünü öpməyə başladı. Daim həyasız kimi özünü aparan, çılğınlığı ilə tanınan, bəyənmədiyi hər bir insanı acılamağı xoşlayan, ətrafında olan hər bir kəsə yuxarıdan aşağı baxmağa aludə olan qadın onun namusuna təcavüz edən oğlanın hərəkətlərinə yalnız ağlamaqla cavab verdi.

Yalnız bir saatdan sonra Akif otaqdan çıxıb, odun ardınca həyətə yollandı. O, burada qalmaq üçün qəti qərar verdiyindən, istəmirdi ki, gecə yatdığı zaman soyuqdan üşüsün. Buradakı vəziyyətdən hali olan qarovulçu yaxşı bilirdi ki, qışda sərt soyuqlar olanda qəsəbədəki bir çox kommunikasiyalar fəsadlara məruz qalır, yəni, elektrik və qaz enerjisi məhdudiyyətlərlə verilirdi. Məhz buna görə də o, hər ehtimala qarşı kaminin yanını odunlarla doldurdu. Paralel olaraq Akif Zemfiraya kofe və yemək-içmək hazırlanması tapşırığını verdi.

Artıq qəddar qarovulçunun xasiyyətinə tam olmasa da, bələd olan müğənni, həmin adamın zəhmini görən kimi dəhşətə gəlirdi. Qadın yanındakı bu həyasız oğlan tərəfindən bir də zorlanmaması üçün, qeyd-şərtsiz onun dediklərinə əməl etməliydi.

Zemfira tapşırıq verilən kimi mətbəxə yollandı və orada kofe hazırlamağa başladı.

Aldığı sillə zərbələrinin yeri sızıldasa da, o, soyuducudan kolbasa, holland pendiri, bişirilmiş balıq və ət kabablarını götürüb, qonaq otağındakı alçaq masanın üstünə düzdü. Havanın soyuqluğunu nəzərə alan qadın ən möhkəm spirtli içkilərdən – konyak, viski və araq qoymalı oldu və stressdən çıxmaq üçün dərhal bir badə konyak içib, öz-özünə düşünməyə başladı: Nəyə görə mən belə bir zülmlərə düçar oluram? Axı, insan nə qədər fikir etməlidir? Mən, hansı günahın sahibiyəm ki, belə bir işgəncələrə məruz qalıram? Bu, Elşənin qarğışıdır, məni tutubdur. İndi mən nə etməliyəm ki, düşdüyüm bəladan çıxım?

O, artıq bütün sərhədləri aşıbdır və murdar bədəni ilə mənim namusuma toxundu. Deməli, Akif nə istəsə mənimlə edə bilər. Bağımdan-bağçamdan, evimdən, ərzaqımdan, bahalı spirtli içkilərimdən, indi isə bədənimdən də istifadə edir, hələ bir hər dəfə rastlaşanda da o, məni vəhşicəsinə döyür. Bu, məgər yaşayışdır?

Məzi indiyənə qədər mənə heç vaxt əl qaldırmayıbdır, lakin buna baxmayaraq mən ona mütəmadi olaraq xəyanət etdim. Həqiqətən də mən onun qədrini bilməmişəm. Deyilən sözlərə, məsləhətlərə, böyüklərin öyüd-nəsihətlərinə heç vaxt fikir verməmişəm. Mən Məzinin qazandığını

başqalarına yedizdirmişəm. Artıq birmənalı şəkildə başa düşmək olar ki, Allah-təala etdiyim bütün naqis hərəkətlərə görə məni cəzalandırır. Məhz bunun müqabilində indi mənim başıma olmazın müsibətlər açılır. İndi isə Akif yeni şərtlər irəli sürməyə başlayıb. O, mənimlə birlikdə, ər-arvad kimi burada yaşamaq fikrindədir. Bu dərəcədə həyasızlıq olar? Mən onun əlindən hara qaçım?

Həmin bişərəf mütləq öz cəzasına çatmalıdır. Əks təqdirdə o, mənim axırıma çıxacaq. Axı, bu bəladan mən necə yaxa qurtarmalıyam? İbrahimə müraciət etdim o, isə bu məsələdə yaxasını kənara çəkdi. Bu haqda Məziyə bir şey söyləmək mümkün deyil, çünki onun acısını Akif yox, ancaq mən çəkəcəm. Qalır təkcə Natiq. O, yaramaz qarovulçunu sərt şəkildə cəzalandırmaq, bəlkə də məhv etmək üçün ancaq onun işi ola bilər. Akifin hərəkətlərini ona elə təqdim etmək lazımdır ki, Natiq dərhal onu cəzalandırsın. Bu işi belə qoymaq olmaz.

Elə bu vaxt Akif ev yiyəsini səslədi. Zemfira dərhal isti kofeni düzəldib, qarovulçunun hüzuruna yollandı. Onlar arxaları kaminə tərəf əyləşərək, şam edə-edə televizora baxmağa başladılar. Akifin kefi şux olduğundan o, qabağında olan təamları iştahla yeyir, ev sahibəsinin qanı qaraldığından o, yemədən bir badə konyak içib, zəhləsi gedən bu adamı ikrah hissi ilə süzməyə başladı. Qadının

baxışlarına heç bir əhəmiyyət verməyən qarovulçu nəzərini mavi ekrandan ayırmadan qarnını bərkidirdi.

Belə hallarda insanı incitməkdən həzz alan qarovulçu sükutu pozaraq istehza ilə dedi:

- Yaman acımışdım, gözlərimə elə indi işıq gəldi. Zema, inanırsan ağ balığın yerini heç nə verməz. Bu balığı yeyəndə həmişə özümü şux hiss edirəm. Maraqlıdır, bəs sən nə üçün yemirsən? Bəlkə məndən çəkinirsən və yaxud da utanırsan?

- Akif, sən bilirsən ki, mən Məzinin sevgilisiyəm və o, məni başqa kişilərdən göz bəbəyi kimi qoruyur. O, bilsə ki, sən məni zorlamısan, onda səni tikə-tikə doğrayacaq.

- Zema, sən bir neçə adamla ona xəyanət edirsən, indi isə deyirsən ki, Məzahir səni göz bəbəyi kimi qoruyur. Onda belə çıxır ki, o, səni qorumasaydı, sən də kimlə gəldi ona xəyanət edərdin?

- Sən yenə də ağzına gələni danışırsan? – deyə müğənni ikinci badəni başına çəkən kimi narazı halda dilləndi. – Nə vaxta qədər sən məni təhqir edəcəksən? Mən öz sevgilimə yalnız Natiqlə xəyanət etmiş və indiyənə qədər həmin hərəkətin peşmançılığını çəkirəm. İndi mən Məzini hamıdan çox sevir və ömrüm boyu ona sadiq qalacağam.

- Nağıl quraşdırmaqda Hans Xristian Andersen sənin yanında yalandır. – Akif əvvəlki qaydada həmsöbətinin

söylədiyi ifadələrinin ciddiliyinə əhəmiyyət vermədən rişxəndlə dilləndi. – Bundan sonra sən öz yatağını mənimlə də bölüşdürəcəksən. İnadkarlıq göstərməyə çalışsan, bu günkü kimi döyüləcəksən. İndidən sənə xəbərdarlıq edirəm, mənim sözlərimə təkzib verməyə başlasan, onda mən səni alt paltarda həyətə çıxarmalı olacağam. Yalnız ağlın başına gələndən sonra səni isti ocağın yanına buraxacam.

Mənim bir qonşum ailəsindən kənarda bir qız saxlayırdı və o, biləndə ki, qadın ona xəyanət edir, qış fəsli olmasına baxmayaraq, dərhal həmin fahişəni bayıra çıxarıb yarım saatdan çox onu orada saxlamışdı. Həmin cəzadan sonra fahişə sətəlcəm olaraq, vərəm xəstəliyinə tutuldu və indiyənə kimi müxtəlif vərəm dispanserlərinin qapısını döyərək, dərdinə əlac istəyir.

Əgər pulun olmasaydı, mən tərəddüd etmədən səni həmin üsul ilə cəzalandırardım. Ona görə ki, mənim ərlərini və sevgililərini aldadan fahişələri görən gözüm yoxdur.

- Mənə fiziki güc tətbiq edib zorlayırsan, ondan sonra isə üzümə fahişə deyirsən. – deyə kobub cavab verməkdən ehtiyat edən müğənni, daha bir badə konyak içib kinayə ilə dilləndi. – Əgər, mənim ünvanıma belə nalayiq sözlər işlətsən, bir daha mənim qapımda görünmə. Bu gündən sonra mənə əl qaldırıb vursan, səni öldürüb polisə təslim

olacağam. Əzab-əziyyət içərisində yaşamaqdansa, ölmək mənim üçün şərəfli olar.

- Sən elə-belə mənim yaxamdan qurtara bilməyəcəksən. – Akif müğənninin yavaş-yavaş kefləndiyini görüb əda ilə dillənib, qadına tərəf getdi və onun qolundan tutub sakitcə sözünə davam etdi. – Mənim xətrimə dəyməsən, onda səninlə mülayim dolanacağam. Sən mənim xoş sifətimi görəndən sonra, məndən uzaqlaşmağı heç vaxt arzulamayacaq, əksinə mən burada gec tapılanda, mənim üçün sənin burnunun ucu göynəyəcək.

Həmsöhbətinin belə bir atmaca sözlərindən daha da hiddətlənən müğənni sakitləşmək və stressdən çıxmaq üçün, ac qarnına daha bir badəni başına çəkərək, tamamilə nəzarətdən çıxdı. O, nəinki ayaq üstə qalxmağa, hətta yerində şax qamətlə otura bilmirdi. Zemfiranın əqli başından çıxmış, bədəni keyimiş, gözləri dumanlanmışdı. Qadının özünü belə hala salması qarovulçuya bəlli oldu. Müğənni daxilində yaranan qəzəbi, hirsi boğmaq üçün belə bir üsula əl atmış və qarşısındakı adamın əsəbləri ilə oynamaqla, özünü döydürməmək üçün gecəni bihuş halda keçirmək qərarını almışdı. Lakin belə bir vəziyyətin yaranmasından heç də peşman olmayan Akif, şam başa çatandan sonra Zemfiranı qucağına alıb onu yataq otağına apardı. Əvvəlki ultimatuma əsasən, Akif Məzahir olmadığı

halda, bütün günlərini burada keçirməli idi. Məhz buna görə də o, həyasızlığına salaraq, kefli müğənninin yanında uzanıb səhərə qədər vaxtını orada keçirdi.

## V fəsil. Mənəviyyat uğrunda mübarizə aparmaq şərafətli iş sayılır

Xocalı soyqırımı ilə bağlı fevralın 26-da "Nizami" və başqa kinoteatrlarda **"Xoca"** bədii filminin nümayişinə start verilmişdi. Əliyusif də filmə baxmaq üçün vəsait axtarırdı. Kommunal xərclərin kəllə-çarxa çıxması, ərzaq mallarının hər ay bahalaşması bu ailəni də müflis halına salmışdı. Aldığı 250 manatlıq məvacib, müxbirin yolpulunu və kargüzarlıq ləvazimatlarının alınmasına güclə çatırdı. Məhz bu səbəbdən Əliyusif bir neçə gün idi ki, bilet almağa 10 manat pul tapa bilmirdi. Nəhayət o, bir neçə məqaləsini qəzet səhifələrinə çıxardıqdan sonra qonorar alaraq, jurnalist həmkarı Fariz Çobanoğlu ilə birlikdə, **"Xoca"** filminə baxmaq üçün kinoteatra getdi.

Nümayişdən sonra o, məmnunluğunu gizlətmirdi. Əliyusifin qənaətinə görə "**Xoca**" Qarabağ müharibəsi ilə bağlı son illərin ən keyfiyyətli, təsirli, baxımlı filmi sayılır və bu kino hər hansı Beynəlxalq Kino festivalında Azərbaycanı uğurla təmsil edə bilər.

Müxbir ən xoş təəssurat altında hava qaralana yaxın evinə qayıtdı. O, evdəkilər ilə salamlaşıb şam da etmədən öz otağına yollandı. Artıq ikinci gün idi ki, Əliyusif müəyyən işlərini həyata keçirmək üçün yuxusuz qalmışdı. Məhz buna görə də o, başını yastığa qoyan kimi yuxuya getdi.

Daim fikir içində olan Əliyusif yorğun olsa da, yenə də şirin yuxular onun istirahətinə mane oldu. Bu dəfə, nədənsə Ədalət Şükürov onun yuxusuna girmişdi. Mövzu isə belə idi: onlar bir dost kimi Şəhidlər Xiyabanında gəzişə-gəzişə hərə öz problemləri və fəaliyyət göstərdikləri sahələrdə əldə etdikləri nailiyyətləri bir-birilərinə ərz edirdilər. Hər iki müsahib şəhidlərin baş daşına vurulmuş portretlərdə həkk olunmuş sifət cizgilərini süzə-süzə, yavaş addımlarla, əbədi məşələ doğru irəliləyirdilər. Şəhidlərin cəsədlərinin bu məzarlığa tapşırılan vaxtdan o qədər də çox müddət keçməmişdi, lakin bura gələnlərin sayı kəskin surətdə azalmışdı. Deməli, cəmiyyət arasında şəhidlərə qarşı unutqanlıq yaranırdı. Bu hala tab gətirməyən Əliyusif üzünü həmsöhbətinə

tərəf tutub irad bildirdi ki, "Qarabağ torpaqları düşmən tapdağından azad olunmayınca, şou-biznesdə fəaliyyət göstərən müğənnilərin əksəriyyəti, vətənpərvərlik ruhunda bəslənən mahnılara üstünlük verərək, bu unutqanlığı aradan qaldırsınlar".

- Bu haqda bəstəkarlar və şairlərin hamısı baş sındırmalıdırlar. – deyə Ədalətin solğun bənizi işıqlandı.

Həmin məqamda Əliyusifin Ədalət ilə Aygün Bəylərin birlikdə ifa etdikləri **"Unutdu dünya kimləri",** mahnısı yadına düşdü və o, ürək yanğısı ilə deyir: "Qardaş, sən deyirsən ki, *"Kimləri, kimləri, unutdu dünya kimləri... Nələri, nələri, unutdu dünya nələri"* mahnısı sanki aşiqlərdən yox, bax, bu Xiyabanda uyuyan qəhrəman övladlardan bəhs edir. Ölkə prezidentinin iştirak etdiyi dövlət tədbirləri burada təşkil olunmasa, həqiqətən də demək olar ki, illər ötdükcə, dünya, burada uyuyan şəhidləri və Qarabağın haqsız işğalını unudacaq".

Nədənsə, həmin an Əliyusifin qulağına Ədalət Şükürovun sözü gedən mahnısının sədası dəyir. Həmişə şən görünən müğənni isə bikef halda başını tərpədə-tərpədə gəldiyi yol ilə geri qayıdır və ifa etdiyi mahnının sədası yavaş-yavaş səngiməyə başlayır. Elə bu an Əliyusif gözlərini açanda səhərin açıldığını gördü.

Qonşu otaqdan həqiqətən də Ədalət Şükürovun sözü gedən mahnısı eşidilirdi. Səhər açılan kimi Mədinə audio maqnitofonu yandıraraq, ritmik musiqilərə qulaq asa-asa evin təmizlik işlərini görürdü.

Əliyusif əl-üzünü yuyub növbəti məqaləsini işləmək üçün ləvazimatlarını hazırladı. Bayırda şaxta güclü olduğundan otaqlar soyuq idi. Az təzyiqli qazın sayəsində "ceyran" sobası heç cürə mənzili qızdıra bilmirdi. İşıqpulu çox yazdığından evdə elektrik plitələrdən istifadə etmək mümkün olmurdu. Yalnız Xədicənin kabineti bir qədər istiləşdirilirdi. Məhz buna görə də hamı iş görmək üçün həmin otağa toplaşırdılar.

Nahar yeməyi üçün Əliyusif mağazadan çörək və pendir alanda yolda Zemfiranın maşını ilə rastlaşdı. Müğənni sürəti aşağı salıb müxbiri qıcıqlandırmaq üçün şit halda gülümsündü, ondan sonra qaza basıb buradan uzaqlaşdı. Yoldakı palçıqlı su Əliyusifin üstünü batırdı və o, şıltaq müğənninin bu hərəkətinə heç bir əhəmiyyət vermədən məyus halda evinə qayıtdı.

Ailə üzvləri hamılıqla nahar yeyəndən sonra Mədinə ilə Elşən universitetə yollandılar.

Artıq bu vaxt Xədicə evdə oturub video maqnitofon vasitəsilə muğamata qulaq asırdı. Hal-hazırda M. F. Axundov adına Azərbaycan Dövlət Opera və Balet Teatrının

solisti Gülüstan Əliyeva oxuyurdu. Onun məlahətli səsi nəinki musiqisevərləri, hətta musiqidən başı çıxmayan adamları da valeh edirdi.

Elmi əməkdaş olan evin sahibəsi hələ cavanlıq illərindən, 1982-ci ildə keçirilən respublika gənc istedadlar müsabiqəsinin qalibi olmuş Gülüstan Əliyevanın dövrü-fəaliyyəti ilə maraqlanırdı. Tanınmış sənətkar Bülbül adına musiqi məktəbinə daxil olmuş, orada təhsil aldığı müddətdə musiqinin təməl daşı, onun bünövrəsi və dayaq sütunları hesab olunan muğamın ilkin sirlərini, mərhum muğam ustadı İslam Rzayevdən öyrənir.

- Bir-iki gün əvvəl mənim, elə muğamatla bağlı tanınmış jurnalist Fariz Çobanoğlu ilə xeyli söhbətim oldu, – deyə Əliyusif anasının diqqətini özünə cəlb etdi. - Mən indi Azərbaycan muğamları ilə bağlı bir neçə məqalə hazırlayır və onları tərcümə etdirib xarici ölkələrin mətbu orqanlarında çapına səy göstərəcəyəm. Onu da qeyd edim ki, sənin hazırda dinlədiyin Gülüstan xanımla bağlı, Fariz böyük məqalə yazmışdı.

- Hə, Farizin yazıları ilə mən tanışam. O, əslində hər müğənnidən də müsahibə almır. Bu da onun peşəkarlığından xəbər verir. Fariz səhnədə qalacaq, fəxarətlə adı hallanacaq əsl sənətkarların fəaliyyəti ilə bağlı yazılar dərc elətdirir.

- Hazırda o, muğam üstaları barəsində silsilə məqalələr hazırlayır.

- Oğlum, Gülüstan başqa məşhur muğam ustalarına nisbətən cavan olmasına baxmayaraq, o, çox dəyərli sənətkar sayılır. Məlumat üçün bildirməliyəm ki, ecazkar gözəlliyə malik olan Gülüstan xanım 1985-ci ildə Bülbül adına musiqi məktəbini müvəffəqiyyətlə bitirən ildə Azərbaycan Dövlət Konservatoriyasına qəbul olur. Məhz həmin ildə Konservatoriyada ilk dəfə olaraq muğam şöbəsi açılır və adı çəkilən müğənninin bəxtinə həmin şöbənin ilk məzunu olmaq qisməti düşür. Gülüstan Əliyevanın ömrünün mənalı səhifələrindən biri də onun tələbəlik illərində Arif Babayev kimi qüdrətli muğam ustası, görkəmli opera aktyoru kimi tanınmış müəllimlərdən dərs aldığı illərdir.

- Bu haqda müəyyən qədər məlumatlıyam, məhz bu səbəbdən Arif Babayev səsinin sehrini yaşadan, onun muğam məktəbinin yetirməsi olan Gülüstan Əliyeva bir an da olsa, müəllimini xatırlamağı unutmur. Təəssüflər olsun ki, Qarabağ müharibəsi zamanı onun başına müsibətlər gəldi.

- Həmin vaxt o, bir qədər sənətdən ayrılır və yalnız 1996-cı ildə musiqi fəaliyyəti ilə məşğul olmağa başlayır. O, 1997-ci ildən M.F. Axundov adına Azərbaycan Dövlət

Opera və Balet teatrında çalışır. Teatrda o, **“Leyli və Məcnun”** operasında Leyli, **“Şah İsmayıl”** operasında Ərəbzəngi, **“Aşıq Qərib”** operasında Şahsənəm və **“Gəlin qayası”**nda Sənəm, **“Arşın mal alan”** operasında Əsgərin xalası və digər operalarda mühüm rollar oynamışdı. Xanəndənin kliplərini nəzərə almasaq, bir neçə audio kaseti və diskləri buraxılıb. Şəxsən mən onun sənəti qarşısında baş əyirəm.

Söhbətin xoş məcrada getdiyini görən Əliyusif mətbəxə gedib orada çay hazırladı və bir neçə dəqiqənin ərzində o, süfrəni çay dəstgahı ilə bəzədi.

Artıq qış fəslinin sonu olduğundan evdə mürəbbə qurtarmış, dadlı şirniyyatların alınmasına isə pul yox idi. Məhz buna görə də onlar çayı qəndlə içirdilər. Oğlunun belə bir xidmətini görən ana çay içə-içə qayğı ilə dedi:

- Əli, görürsən vaxtında evlənsəydin, indi çayı qabağıma gəlinim gətirərdi.

- Məgər, indi gecdir? – deyə müxbir sıxıla-sıxıla dilləndi, sonra dərindən köksünü ötürərək zarafatla sözünə əlavə etdi . – İnşallah, bu yaxında ürəyindən keçən qız evinə gəlin gələr.

- Amin! Qənirənin başı qızının cehizinə qarışıbdır. Hər şey hazır olandan sonra o, toy barəsində fikir bildirməlidir.

Əliyusif bu səpkidə söhbət edəndə utandığından rəng verib rəng alırdı. Ona görə də bu məsələnin üstündən yan ötməyə çalışırdı. Oğlunun susduğunu görən ana bir qədər tərəddüd edib səmimi şəkildə sözünə davam etdi. O, dedi:

- Əli, sənin şou aləmi ilə hazırladığın məqalələr qəzet səhifələrində haçan yer tapacaq? Fikir verirsən də, mahnılarımız hansı kökdə ifa olunur?

- Mənə ən çox təsir edən süniliyin təbiilikdən üstünlük qazanmasıdır. İnsanların həm xarakterində, həm sifət quruluşunda, həm qarşılıqlı münasibətlərdə sünilik qabarıq şəkildə özünü büruzə verir. Xarakterdəki sünilik riyakalığa, sifətdəki sünilik maskalanmağa, münasibətlərdəki sünilik isə paxıllığa dəlalət edir.

Hazırda şou-aləminə daxil olan müğənnilərin fəaliyyətini mən xaos adlandırardım. Ona görə ki, kim hansı geyimdə istəsə, hansı mahnını oxumaq istəsə, danışıqlarına məhdudiyyət qoymadan, ağızlarına nə gəldi danışaraq teleməkana çıxır. Bəzi dırnaqarası müğənnilər azacıq tanınandan sonra dərhal Türkiyə şou-biznesinə qatılmaq xülyasına düşərək özlərini gülünc vəziyyətdə qoyurlar. Maraqlısı odur ki, həmin ifaçılar belə bir körpünün yaradılması üçün türk müğənniləri arasında özlərinə "dayday" axtarırlar. Türkiyədə isə mənliyini pula satan, vicdan əzabı çəkməyən bəzi müğənnilər də bizim xalq və ya bəstəkar mahnıları erməni

dilində oxuyaraq, dünyanın ən mənfur millətinin qarşısında özlərinə dividend qazanırlar. Nə vaxta qədər türklərin çörəyi ilə böyüyən, lakin ermənilərin qarşısında quyruq bulayan bəzi müğənnilər sərbəst şəkildə fəaliyyət göstərəcəklər?

Mənliyini pula satan, Azərbaycan türklərinin mənəvi irsini oğurlayan, millətimizi təhqir edən simasız insanların hər bir təbliği bizim ölkədə dayandırılmalıdır. Onların satışda olan şəkilləri, diskləri, satışdan çıxarılıb tonqalda yandırılmalıdır. Həyasızcasına Azərbaycan xalq mahnısı **"Sarı gəlin"**i erməni dilində ifa edən və bundan sonra ifa etmək istəyən hər hansı bir müğənninin və ümumiyyətlə, bizim millətin heyssiyatına toxunan hər bir adamın çəkildiyi klipləri, konserti, kinofilmlərin nümayişi dayandırılmalı və həmin filmlər prokatdan çıxarılmalıdır.

Maraqlı cəhət odur ki, bu məsələ ilə bağlı ***"Günə baxan"*** verilişində bir neçə gün müzakirə aparılsa da, bir neçə sənətkarlardan başqa, yəni, televiziya ekranlarından düşməyən, özlərini ağızdolusu ulduz adlandıran, səsini yox, evini, bağını, maşınını, aksesuarlarını, qiymətli zinyət əşyalarını, yarıçılpaq bədənini reklam edən "müğənnilərdən" heç birisi etiraz səslərini ucaltmadılar. Nəyə görə də onlar etiraz səslərini ucaltmalıdırlar? Maddiyyatı hər şeydən üstün tutan həmin qışqırıqçılarda milli qürur, milli mənlik yoxdur. Axı, onların nəyinə lazımdır ki, ***"Sarı gəlin"***

ermәni dilindә oxunacaq, әsas odur ki, hәmin mahnını kölgәsindәn belә qorxduqları bir müğәnni oxuyacaq.

Etiraz sәslәrini ucaltsalar, onda hәmin naşılara Türkiyә şou-biznes alәminә daxil olmaq üçün mәkanın qapıları bağlanacaq. Onlar unudurlar ki, türklәr hәddindәn artıq millәtçidirlәr. Hәmin naşılar bilmәlidirlәr ki, azәrbaycanlıların vә türklәrin çörәyi, suyu ilә böyüyәn, adlarımızı, soyadlarımızı, torpaqlarımızı, mәdәniyyәt ocaqlarımızı, musiqi alәtlәrimizi, kulinariyamızı, mahnılarımızı oğurlayan ermәnilәrin, Xocalıda, Şuşada, Laçında vә Qarabağın digәr yaşayış mәskәnlәrindә qәtlә yetirdiklәri azәrbaycanlılardan qarәt etdiklәri pullara vicdanını tapdaq altına atana yox, elә ***"Sarı gәlin"***i oğurladığına görә ermәnini şil-küt edәn Cavidan Novruzov kimi qeyrәtli oğlanların adını uca tutacaqlar.

- Әli, bir ana kimi mәn sәninlә fәxr edirәm. – deyә ziyalı qadın fәxarәtlә dillәndi. – Artıq ayılmaq vaxtıdır. Biz "sayanın qulu, saymayanın ağası" prinsipi ilә yaşamalıyıq. Son zamanlar ermәnilәrin tәxribatçı, ekstremist, quldur әmәllәri dövlәt sәviyyәsindә ifşa olunur. Xaricdәki diasporlarımız bütün mәkanlarda hücuma keçәrәk, haqq-әdalәt uğrunda kәskin mübarizә aparırlar. Hücumların coğrafiyasını genişlәndirmәk lazımdır. Artıq elә bir tәbliğat

gedir ki, bir çox hegemon dövlətlər iqtisadi inkişafda olan Azərbaycanla hesablaşırlar.

- Belə bir hücum mədəniyyəti olmayan, – deyə Əliyusif fikirli halda dilləndi. – özlərini şöhrətli elita adlandıran mənəviyyatsız insanlara qarşı da baş versə, onda biz öz qürurumuz, mənliyimiz ilə fəxr edə bilərik. Gerçək aləmin zahiri görüşünə aldanmaq lazım deyil, onun daxilində baş verən bütün proseslərə aludə olmaq lazımdır. Hər şeyin zəngin olmasını maddiyyatla bağlayırlar. Yəni, maddiyyat olmasa həmin zənginliyi əldə etmək olmaz. Daha bilmirlər ki, hər bir zənginlik, inkişaf, təşəkkül mənəviyyatla bağlıdır.

## VI fəsil. Keçmişin müsbət keyfiyyətləri gələcəyə gətirilməldir

Xədicə elmi xadim kimi yaxşı dərk edirdi ki, indiki zamanda cavan nəsilə müsbət keyfiyyətli mədəniyyət aşılanmır. İlk növbədə təlim-tərbiyə, əxlaq prinsipləri

düzgün istiqamətləndirilmir. Lakin buna baxmayaraq o, bu yönümdə mübarizəsini davam etdirmək fikirində idi.

- Oğlum, sənin yazıların çox kəskin notlar üzərində yazılıbdır. – deyə daim prinsipial mövqedən çıxış edən ana ciddi halda maraqlandı. – Bunlara görə, hətta işdə də mənə təzyiq göstərmək istəyirlər. Rəhbərlik deyir ki, sənin oğlun ölkəmizin tanınmış müğənnilərini tənqid atəşinə tutduğu üçün camaat tərəfindən bizə iradlar bildirilir. Guya sənin fəaliyyətinə görə bizim rəhbərlik nigarançılıq hissi keçirir. Həmin yazılardan sonra sənə sual verə bilərlər ki, axı, sən nəyə nail olmaq istəyirsən?

- Mən, bu yazılarımla cəmiyyətimizi mənəviyyatsızlıq adlı taun xəstəliyindən qurtarmaq istəyirəm. Bəlkə bundan sonra səhnə mədəniyyəti olmayan, özünü ekran qarşısında tərbiyəsiz aparan, mənəviyyatını tapdaq altına atan, ismətini qoruya bilməyən, namusunu xırda pula çevirən, Azərbaycanlı qadınının adını ucuz tutan, üzdəniraq dırnaq-arası müğənnilər özlərində vicdan tapıb, Azərbaycan musiqi səhnəsindən uzaqlaşsınlar. Bu istiqamətdə əməli iş görmək üçün mütləq görkəmli incəsənət, mədəniyyət, ədəbiyyat nümayəndələrinin iştirakı ilə Bədii Şura yaradılmalıdır. Bədii Şuranın üzvləri incəsənətin və mədəniyyətin hamisi, cəngavər kimi ortaya çıxıb fəaliyyətə başlamalı və təmizləmə işlərində müstəsna rol oynamalıdırlar.

Televiziya ekranlarımız köhnə görkəmini alsa, onda gənc nəsil üçün unudulmaqda olan Təranə Vəlizadə, Qədir Qızılsəs, Yaqut Babayeva, Kəmalə Rəhimli, Şəbnəm Tapdıq kimi sənətkarlar yenidən həmin məkana dəvət olunar. Axı, onların kifayət qədər fanatları var.

- Bu gedişatla biz hara gedirik? Demokratiya fərdlərə şəxsi azadlıq verir, lakin uzun müddət başqa quruluşda yaşamış cəmiyyətə, avropalıların nəzarəti ilə demokratiya veriləndə, bu mənəvi pozuntuluğa gətirib çıxarır. Mən avropasayağı demokratiya istəmirəm.

Fariz Çobanoğlunun təbirincə desək, karvansarada müsafir əbədi qala bilmədiyi kimi, səhnəyə gələnlər də səhnədə daimi qala bilmirlər. Amma qalanlar da var. Bu xoşbəxtlik yalnız o kəslərə nəsib olur ki, onlar sənətiylə, sözüylə, ümumən bütün varlığıyla dünyanın mizan tərəzisini əyilməyə qoymayan, onun nizamını saxlayan sənət adamlarıdır. Dünyanın musiqi mədəniyyəti xəzinəsinə nadir incilər vermiş, onu yüksək mənəvi dəyərlərlə zənginləşdirmiş Azərbaycan musiqisinin tərəqqisində xalq musiqisi yaradıcılarının, eləcə də görkəmli müğənnilərin xidmətləri az olmamışdır. Xalqın ruhunu oxşayan, onun mənəvi aləminin, estetik zövqünün və arzu-istəyinin ifadəsi olan xalq musiqisini təbliğ edən, onu yaşadan və qoruyan müğənnilər də səhnədə əbədi qalan sənətkarlardandır.

- Azərbaycan musiqili səhnəsi əsl sənətkarlara, əxalaqına ciddi fikir verən, aldığı tərbiyəsi ilə öyünən, milli-mənəvi dəyərləri bütün meyarlardan üstün tutan, Azərbaycanın bənzərsiz mədəniyyəti ilə fəxr edən, milli adət-ənənələrimizə hörmətlə yanaşan Gülyaz və Gülyanaq Məmmədova bacıları, Azərin, Aybəniz Haşımova, Könül Kərimova, Tünzalə Ağayeva, Nüşabə Ələsgərli, Mənsum İbrahimov, Nəzakət Teymurova, Nazpəri Dostəliyeva və onlara bənzər əsl sənətkarlara verilməlidir ki, onlardan sonra gələn müğənnilər başa düşməlidirlər ki, səhnədə soyunub bir-birilərini söyüb təhqir etmək yox, səslərinə güç verərək, istedadları sayəsində əsl sənət göstərsinlər.

Canlı abidələrimiz sayılan yaşlı korifeylərdən başqa, adlarını Azərbaycanın ən möhtəşəm musiqi meydanlarında qızıl həriflərlə yazdırmış Zaur Rzayev, Baloğlan Əşrəfov, Ağadadaş Ağayev, Yusif Mustafayev, Məhəbbət Kazımov, Səkinə İsmayılova, Qəndab Quliyeva, Gülüstan Əliyeva, Aygün Bayramova, saysız-hesabsız konsertlər verərək, səhnə mədəniyyətinin, səhnədəki davranış qaydalarının necə olmasını bizim xalqa nümayiş etdirmiş və məhz buna görə də onlar indiyənə kimi xalqımızın sevilib seçilən sənətkarları sayılır.

Azərbaycan musiqi mədəniyyəti həddindən artıq zəngin və çoxşaxəlidir və həmin mədəniyyətin xarici ölkələrdə

təbliğ olunmasında müstəsna rol oynayan Fidan və Xuraman Qasımova bacıları, Fidan Hacıyeva, Alim Qasımov və qızı Fərqanə, Azər Rza, Zaur Əmiraslanov, Samir Cəfərov, Ülvi Qılınc öz sənətlərilə sübut edirlər ki, Azərbaycanın vokal ustaları dünyanın ən nüfuzlu konsert və teatr salonlarında oxuyaraq, milliyyətindən asılı olmayaraq hər bir musiqisevər insanın qəlbini fəth edə bilər. Beynəlxalq musiqi festivallarında uğur qazanmaq istedadlarına görə bizimkilər üçün su içmək kimi bir şey sayılır. Xüsusilə də qeyd etmək istəyirəm ki, Zaur Əmiraslanov ilə Ülvi Qılınc opera ilə estradanın sintezini yaradıb bənzərsiz mahnılar ifa etməklə, öz peşəkarlıqlarını daha da yüksək zirvəyə qaldırırlar.

Cavidan Novruzov kimi məğrur, qürurunu düşmən qarşısında sındırmayan, milli mənliyini ucuz şan-şöhrətdən üstün tutan müğənnilərin fəaliyyəti və musiqi sənəti nümayiş olunmalıdır ki, səhnəyə can atan gənc müğənnilər ona oxşamağa çalışsınlar.

Xocalı soyqırımının baş verməsi bütün dünyanın sağlam düşüncəli tərəqqipərvər insanlarda ikrah hissi doğurmaqla yanaşı, hamı etiraz səsini ucaldır və Beynəlxalq Məhkəmə Hüqüq sisteminin bu məsələyə dair siyasi qiymətin verilməsini tələb etdiyi bir vaxtda, hamı əl-ələ verib bu məsələdə həmrəylik bildirmək əvəzinə, yenə də biganəliklə

üzləşirik. Fevralın 26-na bir neçə gün qalmış heç də bütün kanallar ermənilərin azərbaycanlılara, türklərə qarşı törətdikləri cinayətlərinin tənqid olunması ilə bağlı silsilə verilişlərin yayılmasına səy göstərmirdilər. Xocalı soyqırımının üstündən on gün keçməsinə baxmayaraq, kanallar bir daha həmin faciəyə dair heç bir material təqdim etmirdi.

Halbuki unutqanlıq olmasın deyə, hər həftə ziyalı və tarixçi alimlərin iştirakı ilə 31-i mart 1918-ci il Bakı, Quba, Şamaxı, Səlyan, Lənkaran, Qarabağ qətliamları, Sumqayıt hadisələri, 20-si noyabr, 20-si Yanvar, Xocalı soyqırımı ilə bağlı tok-şou keçirilməlidir.

Gənc yazar Şəbnəm və onunla yanaşı bir çox insanlar matəmlə bağlı çıxışında bildirir ki, Xocalı sakinlərinin insanlığa xas olmayan bir vəhşiliklə qətlə yetirilməsi kadrlarının televiziya ekranlarında nümayiş olunması uşaqlara pis təsir göstərir. O, bir yazar kimi anlamalıdır ki, vulqar geyimli müğənnilərin ekranlarda mütəmadi olaraq görünməsi uşaqların manqurtlaşmasına gətirib çıxarmaqdansa, həmin kadrların yayılması sayəsində, bizim uşaqlarda ən amansız düşmən olan erməni cəlladlarına qarşı nifrətin, kin-küdurətin aşılanması vacibdir. Faciəli olayları unutmaq yox, onları yaddaşlara həkk etmək lazımdır.

Yenə də fəciəli olaya bir neçə gün qalmış əyləncəli proqramlar üstünlük təşkil edir. Gündə televiziya

ekranlarında insanların gözünü qabar edən, restoranlarda, şadlıq saraylarında, digər əyləncəli mərkəzlərdə vaxtlarının əksəriyyətini keçirən müğənnilər, özlərində qeyrət tapıb heç olmasa bir dəfə ya 20-si noyabrda, ya 20-si yanvarda, ya 26-sı fevralda, ya da ki, 31-i martda tariximizin qan yaddaşının uyuduğu yerə Şəhidlər Xiyabanına gedib, şəhidlərimizin müqəddəs ruhu qarşısında baş əysinlər. Nədənsə, qara hərflərlə yazılmış həmin faciəli günlərdə özlərini tamtəraqla reklam edən həmin naşı müğənnilər orada görünmürlər. Orada görünmək üçün adamda gərək vicdan olmalıdır. Onların isə vicdanları şadlıq saraylarının hündür sütunları altında dərin yuxuya gedibdir və həmin yerlərə Vətən uğrunda canlarını fəda edən şəhidlərimizin yaxınlarının fəryadı gedib çıxmır.

- Azərbaycanlıların minilliklə hissə-hissə yığılan adətləri aliliyinə, - deyə bu çıxışdan həvəslənən elm xadimi qürurla dilləndi və başını dik tutaraq həmin tərzə sözünə davam etdi. - nəcibliyinə, saflığına, ülviliyinə, müdrüklüyünə görə dünya xalqlarının adətlərindən qat-qat fərqlənir və bu da sivil yüksəliş normativlərinə bərabər olan bir şeydir. Böyüyə hörmət, ata xeyir-duası almaq, müdriklərin nəsihətlərinə qulaq asmaq, müəllim adını uca tutmaq, ülvi hisslərlə yaşamaq, qadınlara nəvaziş göstərmək, ailə

namusunu qorumaq, balacalara ali tərbiyə vermək bizim millətin xarakter kodeksi sayılır.

Azərbaycan zəngin mədəni irsi və ənənələri ilə fərqlənən qədim diyardır. Ölkəmiz əsrlərboyu sivilizasiyalararası dialoqun aparılmasında mühüm rol oynamışdır. "Bu gün Azərbaycan Avropa dəyərlərini qəbul edən və getdiyi yolu dərk edən müasir ölkəyə çevrilmişdir. Uğurlu inkişafın mühüm amillərindən biri ondan ibarətdir ki, Azərbaycan dünyəvi dövlətdir, yüksək tolerantlığı ilə fərqlənən ölkədir. Ümumdünya miqyasında inkişafın müasir vektorunun dərk edilməsi şəraitində milli ənənələrin qorunub saxlanılması zəruridir. Axı, ənənə toxunulmaz sayılan norma, ideya və predmetlərin donub qalmış toplusu deyil. Biz ənənənin kreativliyini, onun müasir dövrün qlobal problemləri labirintində öz orijinal yolumuzu tapmağa imkan verən nəhəng yaradıcı potensialını nəzərdən qaçıra bilmərik".

Gözəl ənənələr məskəni olan Azərbaycanda yaşayan insanlarda psixoloji dəyişiklik yarandı. Uşaq valideynin sözünə baxmır, ağsaqqal və ağbirçəkələrə hörmətlə yanaşılmır.

Sən düzgün buyurursan, hamımızın evinə daxil olan televiziya verilişləri çirkin səhnələrdən təmizlənməlidir. Maddiyyat gəldi-gedərdi, mənəviyyat isə əbədidir. Maddiyyatı üstün tutanlar saf cəmiyyət tərəfindən lənətlənəcək,

mənəviyyatı qoruyub saxlayanlar və onu saf şəkildə nəsillərdən-nəsillərə ötürənlər əbədi məşəl kimi qəlblərdə yaşayacaqlar.

Hal-hazırda ölkəmizi işıqlı gələcəyə aparacaq, çoxsaylı gənc nəsil yetişir. Adət-ənənələrimiz televiziya məkanı vasitəsilə korlanacaqsa, əlbəttə ki, bu sahədə mədəniyyəti olmayan müğənnilər mühüm rol oynayacaq, onda millət barbarlar səviyyəsinə enəcək, ölkəmiz isə işıqlı gələcəyə yox, tənəzzül adlı qaranlıq məkana düşəcək.

Səhnəyə çıxan müğənnilərin musiqi peşəkarlığı, mədəniyyəti, qabiliyyəti, əxlaqı, etikası, həmkarları və tamaşaçılar ilə olan davranışı, nəhayət geyimi nəzərə alınmalıdır. Özünü kloun halına salanlar, başında çalağan, hacıleylək yuvası quranlar, bədəninə, ayaqlarına və qollarına döymə vurduraraq rəsm qalereyası yaradanlar, bomjlara xas olan geyimlərə üstünlük verənlər, gecə xalatı, şortı, mayka geyənlər, sifətinə həddindən artıq kosmetika vurduraraq özünü sirk artistinə oxşadanlara səhnə yasaq olunmalıdır. Əxlaqa zidd olan hərəkətləri ilə məşhur olan “incəsənət” nümayəndələri gənc nəslin zövqünü korlayır, onların dünya görüşünü zəhərləyir, mənəviyyatını ucuzlaşdırır, mentalitetində isə dəyişiklik əmələ gətirmək istəyirlər. Yeniyetmələrimizi, cavanlarımızı, gənclərimizi avropalaşma adı altında diqtə olunan mənəviyyatsızlıq xəstəliyindən xilas etməli

və əvvəlki ədəb-ərkanın, bənzərsiz tərbiyənin, ən saf mənəviyyatın yaşanması istiqamətində mühüm işlər görməliyik.

Mənim, özünəməxsus oxu tərzinə malik olan, səviyyəsi, qabiliyyəti, bacarığı, istedadı, geniş repertuarı ilə tamaşaçıların məhəbbətini qazanan Vasif Məhərrəmliyə prinsipial, qətiyyətli, cəsarətli, dırnaqarası müğənnilərlə ünsiyyət qurmağı özü üçün təhqir saydığı üçün, sözündə düz olduğuna görə ona sonsuz məhəbbətim var. O, heç kimdən çəkinmədən naşı müğənniləri televiziya ekranından kəskin şəkildə tənqid və təhqir edir.

- Çılpaq bədənləri, arsızlığı, həyasızlığı, mənəviyyatsızlığı ilə Avropa səhnələrinə can atan müğənnilər anlamalıdırlar ki, həmin səhnələrə qədəm qoymaq üçün soyunub özünü vulqarcasına aparmaq lazım deyil. Özünəməxsus mədəniyyəti, əxlaqı ilə seçilən avropalılar soyunmağı, abırsızlığı çox görüblər, onlar saf mənəviyyatı ilə bütün millətlərdən fərqlənən azərbaycanlılardan yalnız gözəl, baxımlı, ürəkaçan performans, əsl sənət yaradıcılığının nümayişini gözləyirlər. Bunun üçün Alim Qasımov ilə qızı Fərqanənin milli geyimlərdə və bənzərsiz səs tembrləri ilə verdikləri konsertlərdə Avropa səhnələrini fəth etmələrini göstərmək kifayətdir. Qəzet müxbirləri onlar haqqında silsilə məqalələr yazmalı, televiziya kanallarının rəhbərləri isə onlar haqqında verilişlər hazırlamalıdırlar. Yetişən gənc

nəsil onlara baxıb fəxarət hissi duymalı və daim elə bir sənətkarların yaradıcılıqlarını diqqət mərkəzində saxlamalıdır.

## VII fəsil. Qarovulçu tərəfindən ram edilən müğənni özünə kömək axtarır

Əliyusif bir müxbir kimi ***"Bu şəhərdə"***nin kollektivi barəsində geniş reportaj hazırlayırdı. Heyranedici hal o idi ki, Rafael ilə Coşqun indiyənə kimi heç bir kollektivin həyata keçirə bilmədiyi bir işin öhdəsindən gəlmişdi. Onlar Heydər Əliyev adına konsert sarayında 9 gün tamaşa qoymaqla Azərbaycan konsert tarixində yeni rekorda əl atmışdılar. İş ondadır ki, həmin konsertlər, minlərlə tamaşaçı tutumu olan sarayda anşlaqla keçirdi. Əliyusif də həmin tamaşaların canlı şahidi olmaq üçün martın 14-nə iki bilet almışdı – özünə və nişanlısına. Müxbirin fikrinə görə teatr aləmində həddindən artıq peşəkar sayılan aktyorlar, daxillərindəki bütün potensiallarını səfərbər edərək, hamının fərəhinə səbəb olan biri-birindən gözəl səhnələr göstərirdilər. Həmin səhnələrin tamaşaya qoyulmasında

titanik zəhmət çəkən duet aktyorlar, orada həqiqətən də yüksək peşəkarlıq sənətini nümayiş etdirirdilər.

Adəti üzrə Əliyusif bir müxbir kimi zalda əyləşən yaradıcı insanlara, xüsusən də orada olan şou-aləmindəki müğənnilərə nəzər salardı. Lakin tamaşa o qədər maraqlı və cəlbedici idi ki, o, ətrafında olanları seyr edə bilmədi. Yalnız tamaşa başa çatana yaxın müxbir üç sıra qabaqda əyləşən Zemfiranı orada gördü. Qəribə idi ki, müğənni bu tamaşaya tək gəlmişdi. Çünki onun yanında nə Məzahir, nə də ki, Natiq vardı. Şübhə yox ki, o, Natiqin müğənni ilə arasının dəyməsindən və Məzahirin xaricdə olmasından xəbərsiz idi. Ümumiyyətlə, Zemfira kimi ambisioz bir adam belə məclislərə tək getməzdi. Elə Əliyusifi də düşündürən o idi ki, nə üçün o, burada təkdir?

Tamaşa başa çatan kimi camaat aramla qapıya tərəf getməyə başladı. Maraq müxbiri bürüdüyündən o, Gülnar ilə söhbət edə-edə Zemfiranın dalına düşərək, müğənninin hara getdiyini izlədi. Qadın ətrafındakı insanlara əhəmiyyət vermədən, əlində mobil telefonla danışa-danışa, birbaşa yolun kənarında dayanan maşınlara tərəf getdi. Əliyusif elə başa düşdü ki, o, öz maşınına minəcək, lakin hər şey başqa cür oldu. Zemfira maşına minəndə müxbir təəccübdən yerindəcə donub qaldı; müğənni İbrahimin cipinə minib buradan uzaqlaşdı.

Müxbir nişanlısını evlərinə ötürüb hava qaralandan xeyli sonra gəlib evinə çatır və darvazaya yaxınlaşanda öz həyəti ilə üzbəüz tərəfdə İbrahimin cipinin dayandığını gördü. Şübhə yox ki, restoran müdiri Zemfiranı saraydan gətirəndən sonra şübhə doğurmamaq naminə maşınını müğənninin həyətindən xeyli kənarda saxlamışdı. Artıq müxbirə bəlli oldu ki, ambisioz müğənni Naitqi özündən uzaqlaşdırandan sonra İbrahim ilə yaxınlıq etməyə başlamışdı.

Əliyusif evdə olan zaman yaxın dostunun düşünülməmiş hərəkətlərindən özünə yer tapmırdı. O, bircə şeyi bilirdi ki, İbrahim atı baş aparan və nüfuzlu bir insan olan Məzahirin saxladığı qadınla görüşdüyü üçün özünü təhlükəyə atıbdır. Müxbir istəyirdi mobil telefonla dostuna zəng edib, onu düşdüyü təhlükə barəsində xəbərdarlıq etsin, lakin son anda anladı ki, bu telefon danışığı deyil.

Zemfira güclü problemlə üzləşdiyindən elə həmin axşam İbrahimi yanına qonaq çağırmışdı. Hazırda Məzahir Bakıda olmadığı üçün müğənni kimi istəsə idi, onu da evinə dəvət edə bilərdi. Bunun üçün ilk növbədə o, itin dayəsinə xəbər vermişdi ki, ertəsi günü yalnız günortadan sonra bağa gəlsin. Akif ilə yaşanan qalmaqaldan sonra müğənni qətiyyətlə bildirmişdi ki, havadarı burada olmadığı təqdirdə o, ümumiyyətlə bura ayaq basmasın. Lakin bütün bu tapşı-

rığa əhəmiyyət verməyən qarovulçu nə vaxt istəyirdisə, elə o vaxt da bura gəlirdi.

Hal-hazırda Zemfira ehtiyat edirdi ki, İbrahim burada ola-ola Akif evə gəlsin. İbrahim isə qiyabi olaraq bilirdi ki, müğənni öz qarovulçusundan bərk çəkinir. Çünki o, yeni oynaşına hər şeyi danışmışdı.

Havaların kəskin soyuması Abşeronun bəzi kəndlərində fəsadlar törətmişdi. Su boruları sıradan çıxmışdı, qazın sərfiyatı isə aşağı düşmüşdü. Məhz bu səbəbdən bütün güc elektrik şəbəkəsinin üzərində idi. Lakin buna baxmayaraq bəzi yerlərdə elektrik enerjisi fasilələrlə verilirdi.

Evin qızdırlması üçün Zemfiranın evində bütün şərait vardı. Qaz buxarısında odundan da istifadə etmək olurdu. Ocağın yanına yığılmış odun yandırılaraq, böyük zalı istənilən şəkildə qızdırırdı. Əvvəlcədən oranın qabağına böyük jurnal masası, masanın isə kənarlarına iki kreslo qoyulmuşdu. Şüşə üzlü olan masanın üstünə cürbəcür təamlar və spirtli işkilər düzülmüşdü. İbrahim odunları kaminə düzən kimi badələri viski ilə doldurdu.

Müğənninin qarderobu o qədər zəngin idi ki, bir adam onun yanına on dəfə gəlsə belə o, yeni paltarda həmin adamın qarşısına çıxmalıydı. Lakin İbrahim qadın üçün adi qonaq sayılmırdı və oğlan birinci dəfə burada olduğundan Zemfira onun qarşısına vulqar paltarda çıxmağı qərara

almışdı. Zalda havanın soyuq olduğunu görən müğənni hələlik isti geyimindən istifadə etməli və ondan sonra o biri paltar ilə oynaşını cuşa gətirməli idi. O, düyməsi olmayan, lakin beli iplə bağlanan yaşıl rəngli maxer xalat geyib, baldırları hərdənbir çöldə qala-qala İbrahimdən sol tərəfdə əyləşdi. Kamindən çıxan alov salonu istənilən şəkildə qızdırmadığından qadın tez-tez baldırlarını xalatın ətəyi ilə örtməyə məcbur olurdu.

Zemfira isə restorandan gətirilmiş ağ balıq və quzu ətindən çəkilən kababları bölüşdürüb kefi saz halda dedi:

- Təəssüflər olsun ki, mən əvvəllər səni tanımamışam. Sən həqiqətən də dara düşən adama həyan olan bir kişisən.

- Açığı desəm, mən sənin sponsoruna görə yox, Natiqə görə yaxınlaşmaq istəmirdim. Amma etiraf etməliyəm ki, ilk vaxtdan sənə gözüm düşmüş və özüm-özümə sual verirdim, necə olur ki, sənin kimi belə bir gözəl-göyçək xanım onun kimi xəsis bir adamla vaxtını keçirir?

- Onun yağlı vədləri məni yoldan çıxarmışdı. – deyə hazırcavab olan qadın başını aşağı salaraq təşəxxüslə dilləndi. – Mən də tamahkar bir adam onun sözlərinə inanmışdım.

- Hansı vədləri vermişdi? – deyə İbrahim maraqlandı.

Elə bu vaxt bədəninin xeyli dərəcədə qızdığını hiss edən müğənni ar etmədən, əlbəttə ki, xumar baxışlarını bəyən-

diyi oğlandan çəkmədən ayağa qalxdı və naz-qəmzə ilə əynindəki maxer xalatı çıxarmağa başladı.

- Deyəsən, içki beynini dumanlandırdı? – deyə təəccübünü gizlətməyən restoran müdiri təbəssüm hissilə dilləndi. – Zema, buranı yataq otağı ilə səhv salmısan?

Oynaşının sözlərinə heç bir reaksiya verməyən müğənni maxer xalatını çıxararaq, əyninə pünyar xalat keçirdi. Sinəsi demək olar ki, tam açıq olan mavi rəngli xalat onun bütün əndamlarını nümayişə qoymuşdu. Sifətinin makiyajı az idi, qara seyrək saçları isə çiyinlərinə tökülmüşdü. İbrahim Zemfiranı belə bir qiyafədə görəndə həmin an dedi ki; "əynindəki xalatı geyməkdənsə, geyinməsəydin daha yaxşı olardı. Onsuz da hər yerin çöldə qalıbdır".

Restoran müdirinin xasiyyətinə aludə olan və onun mərd hərəkətlrinin vurğunu olan müğənni ünvanına yönələn heç bir sözdən incimirdi. İndiki məqamda o, bütün varlığı ilə İbrahimə vurulmuşdu.

Zemfira bir qədər fikirləşəndən sonra məyus halda dedi:

- Əzizim, soruşursan həmin alçaq mənə hansı vədlər vermişdi? O, mənə deyirdi ki, xüsusi bir restoranda, yəni millionerlərin toplaşdığı bir məkanda mənə daim mahnı oxumağa imkan yaradacaq, tanınandan sonra isə xarici qastrollar təşkil edəcəkdi. Sən demə o, fırıldaq adam imiş.

- Zema, sən Natiqin nəşəxor olduğunu bilirdin?

- Haradan biləydim? Onu yaxşı bilirəm ki, Natiq öz məqsədinə nail olmaq üçün bütün mümkün olan, hətta ən çirkin variantlardan istifadə edir. İş ondadır ki, bir dəfə o, burada olanda, məni məcbur edirdi, marixuana çəkim. Mən də imtina edə bilmədim. Çünki narkotiki çəkməsəydim, o, söz vermişdi ki, evdən getməyəcək. Halbuki Məzahir gəlişi barəsində mənə zəng edərdi və o, da bunu eşidən kimi başlayırdı məni şantaj etməyə. Əzizim, inanırsan, hara gedirdik, orada biz qalmaqalla üzləşirdik.

- İncimə, sənin özün kasıb ailədən çıxmısan, amma təkəbbürlük səndə en qədərdir. Özün ətrafdakı adamlarla yola getmirsən. Bir şey olan kimi hamını acılayırsan. Yaxşı, insanları alçaldıb, pisləri isə özünə dayaq seçirsən.

- Sən yenə də qonşunu müdafiə etmək istəyirsən? – deyə sorğu-sualdan təngə gələn müğənni hüznlə dilləndi. - Sənə dedim axı, o, yaramazın birisidir.

- Məndə olan məlumata əsasən, sən Natiq və Akif birləşərək, Əlini meşədə vəhşıcəsinə döymüsünüz. Qardaşı Elşəni heç nədən işdən çıxartdırmısan. İndi isə deyirsən ki, mənim dostum yaramazdır.

- Bəs, mən yazıq nə etməliydim? İki qardaşın qabağında mahnı oxuyaraq göbək rəqsi oynamalıydım?

- Gör, sənə nə deyirəm. – deyə üzünə ciddi ifadə verən restoran müdiri əsəbi halda dilləndi. – İstəyirsən camaatla

ayaqlaşmaq, onda xarakterində müəyyən dəyişikliklər etməlisən. Əks təqdirdə mən sənə kömək edə bilməyəcəm.

- Sən istəyirsən ki, mən qara camaat ilə bir yerdə olum? – deyə ayaqlarını bir-birinin üstünə aşıran müğənni narazı halda dilləndi. - Elə birinci görüşdən sonra jurnalistlər məni top atəşinə tutacaqlar. Sən bilmirsən, bizim əhatə dairəmiz necədir? Tanışlarımdan kimsə məni aşağı səviyyəli adamlarla görsə, onda məni nə toylara, nə təqdimat mərasimlərinə, nə də ki, mötəbər məclislərə dəvət edəcəklər. Mən mövcud cəmiyyətimizdə gülüş obyektinə çevrilə bilərəm.

- Zema, sən yanlış fikirdəsən. Bizim cəmiyyətimiz saf insanlardan ibarətdir, lakin naqis insanlar özlərinin çirkin tərbiyəsi ilə həmin cəmiyyəti içəridən parçalamaq niyyətindədirlər. Sən özünü ülvi tərbiyə görənlərdən uzaqlaşdırıb naqis insanlara yaxınlaşdıracaqsansa, onda heyvanların meşədə yaratdıqları qaydalar ilə yaşamalı olacaqsan.

- Sən də elə mənim qonşum kimi danışırsan. Dolaşıqlı və aydın olmayan sözlərdən mənim başım çıxmır. Şou-aləminin öz yaşayış tərzi, öz qanunları var və heç kim həmin çevrədən kənara çıxa bilmir. Kənara çıxandan sonra isə həmin çevrəyə qayıda bilmir.

- Sən, lap həbsxanada olan dustaqlar kimi fikir yürüdürsən. Əgər sən həyasızlardan ibarət olan və daim qalmaqala üstünlük verən adamların çevrəsindən söhbət

edirsənsə, onda məsləhətim odur ki, həmin çevrədən uzaq düşmək üçün, gecə və gündüz sən Allaha dua etməlisən. Zema, yadda saxla ki, mən hər adamla oturub-durmur, primitiv ədəb-ərkanı olmayanları isə ümumiyyətlə, yaxına buraxmıram.

Bax, sənə sual verirəm, nəyə görə Elşəni işdən azad etdin? Mən biləni o, bir dəfə olsun belə, sənə cavab qaytarmamış və verilən bütün tapşırıqları artıqlaması ilə yerinə yetiribdir. Lakin bütün bu xidmətə baxmayaraq, sən onu evdən uzaqlaşdırıb əvəzinə isə tamamilə əks xarakterli bir yaramazı işə götürdün.

Bu iradların qarşısında aciz qalan müğənni susmağa üstünlük verdi. Lakin indiki məqamda düşdüyü vəziyyətdən çıxış yolu tapmaq lazım idi. Bu işdə İbrahimdən başqa heç kim ona yardımçı ola bilməzdi. Zemfira yeni oynaşını ovsunlamaq üçün gəlib düz sol dizinin üstündə oturdu və sarmaşıq kimi oğlanın boynuna sarılaraq onun üzündən öpməyə başladı. Onlar bir qədər mazaqlaşandan sonra yeməyə başladılar. Müğənni vaxt itirmədən ağ balıq kabablarını nimçələrə qoyub büllur badələri konyakla doldurdu və naz-qəmzə ilə dedi:

- İbiş, sən məni əfi ilanın əlindən qurtarsan, onda deyərəm ki, sən əsl dostsan. Sən bütün mümkün variantlardan

istifadə edib, onu ən sərt üsul ilə cəzalandırmalısan. Yoxsa, o, mənim axırıma cıxacaq.

- Bu barədə narahat olma. Mən bir şey fikirləşib tapacağam. Ən əsas elə etmək lazımdır ki, onun əlində olan kampromat materiallar bizim əlimizə keçsin. Çox güman ki, Akif həmin materialları öz evində saxlayır. İlk növbədə onun harada yaşadığını müəyyənləşdirmək lazımdır.

- Məndə olan məlumata əsasən, o, Binəqədi kəndində yaşlı valideynləri və bacısı ilə birlikdə həyət evində yaşayır. – müğənni tərəddüd etmədən dilləndi. – Akifin dediyinə görə onların evi evdən çox daxmaya bənzəyir.

- Onun valideynləri olmasaydı, onda həmin evi yandırmaq mümkün olardı. Belə olan halda həmin materiallar da külə dönüb yox olacaqdı.

- Nə olsun ki, valideynləri orada yaşayırlar? Ev yanandan sonra gedib başqa bir yerdə ev salarlar.

- Sən heç anlayırsan nə deyirsən? – deyə artıq əsəbiləşən oğlan bu xudbin müğənniyə tərs nəzər saldı. – Bir yaramaza görə günahı olmayan yaşlı adamlar bayırda qalmalıdırlar? Həm də onların pulları var ki, gedib haradasa ev tikdirsinlər?

- Onda belə çıxır ki, sənin mənə yazığın gəlmir. – deyə qadın inciyərək oğlandan aralandı və dodaqlarını büzərək sözünə davam etdi. – Elə hamı məndən istifadə etməyə

çalışır. Amma dara düşən kimi heç kim mənə kömək etmək istəmir. Natiq məni belə bir vəziyyətdə görsəydi, heç vaxt imkan verməzdi ki, mənim gözlərim yaşarsın. - Zemfira göyçək bənizinə sərt ifadə verərək sözünə əlavə etdi. – Eybi yoxdur, mən başqa bir adam tapıb həmin çaqqalın evini külə sovurtduracağam.

- Səndə nə qədər kin-küdurət, nifrət var. – deyə restoran müdiri heyrətə gəldi. – həmin materialları əldə etmək üçün məndə kifayət qədər variantlar var. Onu elə cəzalandırmaq lazımdır ki, o, özü xoşluqla, həmin materialları gətirib sənə təhvil versin. Sadəcə olaraq bunun üçün vaxt lazımdır.

- O vaxta kimi mən bankrot olaram. Bankrot olmaqdan əlavə mən onun hərəkətlərindən dəli də ola bilərəm.

- Özünü təmkinli, ağıllı və səbrli aparsan sənə heç nə olmayacaq.

- Demək asandır. Qorxuram ki, Akif günlərin bir günü məni altına salıb birdəfəlik şikəst edəcək. Onda necə olacaq?

- Onda onu elə cəzalandıraram ki, o, daim qadın üzünə həsrət qalacaq.

Beləliklə, onlar bir qədər söhbət edib sonra gecənin ortasına kimi, şən məcrada vaxtlarını bir yerdə keçirdilər. İbrahim özünü sakit tərzdə aparsa da, müğənninin sözləri onu yaman bərk hiddətləndirmişdi.

## VIII fəsil. Fiziki işgəncələrə məruz qalan müğənni, bu dəfə zülmkarından qisas almağa imkan tapır

Xədicə gələcək gəlininin taleyindən çox narahat idi və bilirdi ki, ana evində qalmaqla hər an qıza təhlükə ola bilər. Çünki öz məqsədinə nail ola bilməyən Natiq gözü düşdüyü qızdan qisas almaq üçün əlverişli məqam axtarırdı. Lakin hər an ehtiyatlı olmağa çalışan Gülnarə özünü sığortalamaq üçün işdən çıxaraq, evində portret çəkməklə məşğul olurdu.

Bütün bunları nəzərə alan ana oğlunun toyunun vaxtını tezləşdirməyi qərara aldı. Onlar əvvəlcədən planlaşdırdığı kimi cavanların toyunu aprel ayından sonra etmək istəyirdilər. Toyu keçirmək üçün ən münasib vaxt iyun ayının ortası sayılırdı. Xəbəri vermək üçün münasib vaxt da təyin edildi.

İş ondadır ki, həmin gün hava kəskin şəkildə soyudu və güclü küləyin müşayiəti ilə qar yağmağa başladı. Yolda hərəkət edən nəqliyyat iflic vəziyyətinə düşdü. Camaatın gediş-gəlişi çətinləşdi. Xədicə oğlu ilə birlikdə yola çıxsa da, onlar şəhərə gedən avtobusla rastlaşmadılar. Ona görə ki, bütün yolları buz bağlamışdı. Şəhər istiqamətində hərəkət edən taksilər isə qiyməti iki-üç dəfə artırmışdılar.

Onların taksi ilə getməyə pulları olmadığından geri qayıtmalı oldular. Dəqiqliyi xoşlayan Xədicə telefonla zəng edib, şıltaq təbiətin yollarda böyük fəsadlar törətdiyini rəfiqəsinə bildirdi.

Hər şeyi təbii qəbul edən Qənirə havanın mülayimləş-məsini gözləməyə başladı.

Heç kimin gözləmədiyi kimi şaxtalı günlərin sayı çox oldu. Təəccübləndirən isə o idi ki, eyni vaxtda həm qar yağır, həm şiddətli külək əsir, həm də şaxta mənfi 8 dərəcədən aşağı düşmürdü. Şəhərin bir çox yerlərində elektrik naqilləri qırılmış, su boruları donaraq partlamış, yolları buz bağlamışdı. Yolların iflic vəziyyətinə düşdüyü-nü nəzərə alan Əliyusif həmin müddət ərzində etika, estetika və əxlaq ilə bağlı silsilə məqalələr yazmağa başladı. Bu istiqamətdə o, anası ilə maraqlı diskussiyalar apararaq, elmi xadimdən lazımi məsləhətlər alırdı.

Şaxtalı günlər yenicə arxada qalsa da, hava hələ də kifayət qədər soyuq idi və hamı qış geyimindəydilər. Nəzərdə tutulan görüşə hazırlıq görən Əliyusif pəncərədən bayıra baxanda lopa-lopa qarın yağdığının şahidi oldu. Ağlı kəsəndən bəri o, heç vaxt martın 16-da Bakıda qar yağdığını görməmişdi. Lakin şaxtanın olmamasından həmin qar yerə düşən kimi əriyirdi.

Qarın yağmasına əhəmiyyət verməyən müxbir vaxtından xeyli əvvəl şəhərin mərkəzinə yollandı. O, “Elmlər Akademiysı” metro stansiyasında sevgilisi ilə görüşüb oradan “Neftçilər” metro stansiyasına kimi getməliydi. Xədicə işdən çıxıb əvvəlcədən Qənirəgildə olmalıydı.

Beləliklə, cavanlar yolboyu ürəkdolusu söhbət edə-edə 8-ci km. qəsəbəsinə getdilər. Gülnarənin dərdi böyük olduğundan o, bənizində təbəssüm hissi yaratmaqda aciz idi. Natiqin çox vaxt qızı izləməsi, onu həddindən artıq qorxu altında saxlayırdı. Belə bir vəziyyətə düşməsinə o, özünə görə yox, nişanlısına görə narahat idi. O, qorxurdu ki, haçansa Əliyusif həmin emosional oğlanla görüşəcək və onların arasında ağır fəsadlarla nəticələnəcək bir münaqişə yaşanacaq. Bütün bu təhlükələrə baxmayaraq onlar hələ də şəhərin müxtəlif yerlərində görüşərək, oradan Gülnarənin yaşadığı binaya qədər yol qət edirdilər. Bu dəfə də onlar bir yerdə gəzişərək, gəlib “Komfort” şadlıq sarayının qabağına yetişdilər.

Havanın soyuq keçməsilə bağlı həyətdə camaat az idi. Onlar bir qədər qabağa iki bina arasında yerləşən köşkün yanına çatmışdılar ki, birdən sir-sifətindən zəhrimar yağan Natiq onların qarşısına çıxıb, əsəbi halda onlara nəzər yetirdi. Onu burada görən Gülnarənin bədənini üşütmə tutdu. Rəssam qız qorxdu ki, heç bir şeyə əhəmiyyət

verməyən Natiq həmin an Əliyusifin üstünə cumub burada qalmaqal yaradacaq. Lakin təəccüblü olsa da bu hikkəli oğlan onlara heç bir söz demədi.

İş onda idi ki, nişanlılar Natiqin yanından keçəndə onun telefonuna zəng olundu və o, həmin an əks tərəfdəki adama bildirdi ki, uzağı 40 dəqiqə ərzində deyilən ünvanda olacaq. Natiqin burada peyda olmasından bərk nigarançılıq keçirən Gülnarə, bir qədər aralanandan sonra dönüb geri baxdı və həmin oğlanın oradan yox olduğunu gördü. Bundan sonra həddindən artıq həyəcanlı görünən qız üzünü nişanlısına tutub hərarətlə dedi:

- Əli, səndən xahiş edirəm, işdir, həmin tərbiyəsiz adamla rastlaşsan, ona baş qoşma. O, çox təhlükəli adamdır və hər zaman əlindən şər işlər çıxır.

- Əzizim, sən elə danışırsan ki, guya biz İtaliyanın Siciliya adasında yaşayırıq. – deyə həyəcanlı olan qızı sakitləşdirməyə çalışan oğlan soyuqqanlıqla dilləndi və üzünə ciddi ifadə verərək həmin tərzdə sözünə əlavə etdi. – Mənim hələ onunla haqq-hesabım var. Meşədə göstərdiyi qəhrəmanlığa görə o, öz mükafatını alacaq.

- Məni çox istəyirsənsə, ona baş qoşma. – deyə qız təkidlə dilləndi. – Sən kamil və səbrli bir insan kimi həmin hadisəni yaddan çıxarmalısan. Əks təqdirdə səndən inciyəcəm.

Nişanlısının sözündən çıxmaq istəməyən müxbir söz verir ki, heç vaxt qisas əzmi ilə yaşamayacaq və həmişə Natiqlə üzləşməkdən boyun qaçıracaq.

Bu məsələdə demək olar ki, Əliyusifin bəxti gətirmişdi. Yuxarıda qeyd edildiyi kimi onlar emosional oğlanın yanından keçəndə, həmin an onun telefonuna zəng çalınmışdı. Zəng çalan uzun müddət onunla küsülü olan Zemfira idi və qadın həyəcanlı səsi ilə Natiqi köməyə çağırırdı. O, da tərəddüd etmədən müğənni ilə görüşmək üçün Rəsulzadə qəsəbəsində yerləşən restoranların birinə yollandı.

Ayrıca kabinetdə əyləşən Zemfiranın qanı qara idi.

Bu gün ertədən Akif yenə də öz tələbləri ilə onun kefinə soğan doğramışdı. Bu dəfə də onların arasında güclü mübahisə yaranmış və qarovulçu əsəblərini saxlaya bilməyib evin sahibəsini kötəkləmişdi.

Artıq bir neçə ay idi ki, onların arasında ayrılıq hökm sürürdü və belə bir ayrılıqdan sonra bu qızğın oğlan dərhal müğənnini qucaqlayıb onu öpməyə başladı. Lakin Zemfira mənəvi cəhətcə o qədər sarsınmışdı ki, onun mazaqlaşmağa halı qalmamışdı. Bir neçə dəqiqə keçəndən sonra qadının pərişan halına acıyan Natiq nə baş verdiyini öyrənməyi qərara aldı. Vaxtı itirmək istəməyən məzlum vəziyyətdə olan qadın tələsik halda, lakin bütün təfsilatı ilə başına gələn hadisələri həmsöhbətinə ərz etdi. Eşitdiklərindən

dəhşətə gələn oğlan əsəbidən sağ əlindəki badəni divara çırpıb, qəzəbli halda dedi:

- Deməkbelə? O, məni şantaj etmək istəyir? Bu azmış kimi o, səni zorlayıbdır?

Zema, mən sənə kişi kimi söz verirəm ki, mən o çaqqala qan qusduracam. Deməli, o, şantajdan istifadə etməklə, sənin namusuna toxunubdur?

- Natiq, inanırsan ən çox mən sənə görə narahat idim. – deyə həmsöhbətinin xasiyyətinə yaxından bələd olan qadın, bu sözlərlə onu daha da qıcıqlandırmağa başladı. - Qorxurdum ki, o, sənin hərəkətlərini, yəni mənimlə olan əlaqəni Məziyə deyəcək.

- Ona görə məni özündən təcrid etmişdin?

- Əzizim, sənin mərdliyin mənə bəllidir. – deyə qadın xumar gözləri ilə oğlanı süzərək yalmanırmış kimi dilləndi. – Akif kimi ilanı cəzalandırmaq üçün sadəcə olaraq, bir qədər cəsarət lazımdır. Hamı da bilir ki, həmin cəsarət səndə var və sən istəsən, fikirləşmədən onu sərt şəkildə tənbeh edə bilərsən. Lakin o, əvvəlcədən bildirib ki, sən xəbər tutan kimi bizim intim əlaqələrimizin videogörünüşü Məziyə təqdim olunacaq.

- Mən elə edəcəm ki, həmin çaqqal nəsə xəbər verməyə imkan tapmayacaq. Elə günü bu gün mən onu zəlil halına salacağam.

- Bu gün lazım deyil, ona görə ki, Məzahirin şəhərdə tutduğu evdə olacağam. Yalnız aprel ayının ortasında bağa qayıdacağam.

- Şəhərdəki ev harada yerləşir? – deyə Natiq maraqlandı.

- Xahiş edirəm, bu haqda məndən heç nə soruşma. Çünki Məzi, demək olar ki, hər gün orada olur. Başım işlərdən açılan kimi biz başqa bir yerdə görüşərik.

- Onda sənin telefon zəngini gözləyəcəm.

- Natiq, işdir sən mənim qisasımı ondan ala bilsən, onda əvvəlki kimi biz bir yerdə olacayıq. Onun evi kampromat materiallarla birlikdə yandırılmalıdır.

- Bunu etmək, mənim üçün su içmək kimi bir şeydir. Amma söz ver ki, bir daha mənim sözümdən çıxmayacaqsan. Nə vaxt səninlə görüşmək istəsəm, heç vaxt narazılıq etməyəcəksən.

Belə bir şərtə etirazını bildirməyən müğənni, əslində bir güllə ilə iki dovşan vurmağı planlaşdırmışdı. Natiq həddindən artıq emosional adam olduğundan o, Akifi cəzalandıran zaman, hətta onu fiziki cəhətcə məhv də edə bilər. Belə olan halda qadın onun cinayətini hansısa bir yol ilə polis orqanlarına çatdırmalı və birdəfəlik onu özündən təcrid etmək istəyirdi. Məhz həmin təlatümlü olaylardan sonra Zemfira şıltaqlıqları və inadkarlığı sayəsində Məzahirdən də üz döndərərək, yaşına uyğun olan bir adam olan

İbrahimlə sakit həyat sürmək fikrində idi. Ambisioz qadın əvvəl buraxdığı səhvləri bir daha təkrarlamaq istəmirdi.

Qisas almaq hissi ilə alışan Natiq gözəl bir qadının yanında olsa belə, özünə rahat yer tapa bilmirdi. Ağzı söyüşlərlə dolu olan oğlan əsəblərini cilovlaya bilməyərək, elə hey Akifi lənətləyirdi. Çünki o, inana bilmirdi ki, bir neçə il çörək verdiyi bir adam, heç nədən çəkinmədən onun məşuqunu zorlamış, hələ üstəlik hədə-qorxu gəlməklə, şantaj etməklə çalışmışdı ki, hər şey gizli qalsın.

Əslində hər şey elə Akif planlaşdırdığı kimi gedirdi. Lakin onun acgözlüyü və həddindən artıq əzazil olması, onun bütün məkrli niyyətlərini üzə çıxardı. Akifin verdiyi işgəncələrə və zorlama təşəbbüslərinə tab gətirməyən Zemfira başına gələn müsibətləri açıqlamalı oldu.

Zemfira dediyi kimi aprel ayında o, həqiqətən də bağ evinə köçdü və bu haqda Natiqə xəbər verdi. Qisas hissi ilə alışan bu coşqun oğlan Zemfiraya bildirdi ki, Akif orada peyda olan kimi qadın tez xəbər verməli və o, özünü deyilən yerə yetirənə qədər, qarovulçuya mümkün olan qədər çox spirtli içki içizdirməli idi. Bundan əlavə Zemfira imkan tapıb, Akifin badəsinə iki-üç dənə yuxu dərmanı atmalıydı.

Müğənni özünü evinə çatdıranda artıq Akif orada idi və dərhal qadından harada veyilləndiyini soruşdu. Zemfira da

çiynini silkələyərək: “Hər şeyə görə mən sənə hesabat verməliyəm?” deyə-deyə birbaşa yataq otağına yollandı.

- Otaqda çox yubanma, tez ol yemək hazırla. – kresloya yayxanan qarovulçu ayaqlarını jurnal masasının üstünə qoyaraq hökmlə dilləndi. – Yaman bərk acımışam. Həm də bundan sonra yadda saxla ki, haçan evə gəldin birinci gəl mənim üzümdən öp, ondan sonra işlərinlə məşğul ol. Yoxsa, soyuq hərəkətlərinlə mənim əsəblərimi oyadır və özümü də cin atına mindirərsən.

- Sən narahat olma, beş-on dəqiqəyə yemək hazır olacaq. - əzazil oğlanı hirsləndirmək fikrində olmadığı üçün qadın itaətkarcasına dilləndi. – Sən, konyak süz, mən indi gəlirəm.

- Mən konyak içməyəcəm, ürəyim italyan çaxırı istəyir.

- Mən biləni çaxır qurtarıbdır.

- Deməli, bu gün içməyəcəm.

Bu cavab Zemfiranı narahat etdi. Təlimata əsasən o, Akifin içəcəyi spirtli içkiyə yuxu dərmanı atmalı idi. Lakin ilanı yuvasından çıxarmaqda mahir usta olan müğənni hər hansı vasitə ilə yanındakı adamı spirtli içki qəbul etməyə vadar etməliydi.

Şıltaq qadın yemək hazırlayan kimi gəlib qarovulçunun yanında əyləşdi və dərhal badələri konyak ilə doldurub, dodaqlarında süni təbəssüm yaradaraq ehtirasla dedi:

- Görürəm, sən çox gümrahsan? Mənim bütün bədənim yorğunluqdan ağrıdığından, konyakın vasitəsilə həmin yorğunluğu bədənimdən çıxarmaq istəyirəm.

- Sadəcə olaraq, mən bu gün səninlə içmək istəmirəm. Sən içəndən sonra ağzına gələni danışmağa başlayır, əvəzinə isə mənim tərəfimdən kötəklənirsən. Məhz bu səbəbdən mən bu geçəni sakit tərzdə səninlə keçirmək istəyirəm.

- Bu dəfə qorxma, mən səni acılamayacam. – deyə müğənni göz-qaş edərək yaltaqcasına dilləndi.

- Mənim başımı bişirməklə, deyəsən hansısa bir hiyləgər fəndə əl atmaq istəyirsən? – deyə həmsöhbətinə qəribə nəzər salan qarovulçu şübhə ilə dilləndi. – Mən çox yaxşı bilirəm ki, sənin məni görməyə gözün yoxdur.

- Birinci dəfə idi ki, səninlə xoş davranmaq istədim, sən isə bu jesti başqa cür başa düşdün. – deyə maskalanmağa aludə olan qadın incimiş halda dilləndi. – Elədirsə, mənə yaxın düşmə. Çörəyimi yeyən kimi mən yatmağa gedəcəm.

- Yaxşı, yaxşı naz eləmə, - oğlan boş badəni Zemfiraya tərəf uzadaraq yumşaq tərzdə dilləndi. – badəni doldur.

Beləliklə, müğənni öz istədiyinə nail oldu. Fəndgir qadın fürsət tapan kimi, yəni Akif ayaqyoluna gedən zaman, əzilmiş yuxu dərmanlarının tozunu onun konyakına səpdi. Ondan sonra isə, verilən tapşırığın öhdəsindən gəldiyini telefon vasitəsilə Natiqə ərz etdi.

Həmin işarədən sonra bərk qəzəblənmiş bu oğlan dərhal Novxanıya yola düşdü. Onun dediyinə görə Natiq bir saat ərzində deyilən ünvanda olmalı idi.

Hər şey onların planlaşdırdığı kimi getmədi. Elə iki badədən sonra Akifin ayağı yer tutmur, başı isə hərlənməyə başladı. Hər bir şeydə ehtiyatlı olan qarovulçu o dəqiqə anladı ki, evin sahibəsi ona hansısa bir bihuşedici maddə veribdir. Bundan hiddətlənən oğlan qəzəblənərək, ləngər vura-vura qadının yaxasından tutmaq istədi, lakin qorxuya düşən müğənni geri çəkilərək, böyük masanın arxasında özünə yer tutdu və Natiqə zəng edib ona tələsməyi xahiş etdi.

- Nə olub, məndən qaçırsan? – deyə masanın kənarından yapışan Akif kefli halda dilləndi. – Zema, sən mənim içkimə nəsə qatmısan ki, halım pisləşdi.

- Mənim boynuma şər atma. Sadəcə olaraq sən, konyak içib keflənmisən.

- Mən, bir şüşə konyak içsəm də heç vaxt keflənməmişəm. İndi isə ayaqlarım özümə qulaq asmır.

Akifin bərələ qalan gözləri qızarmışdı və tez-tez qapanırdı. Lakin buna baxmayaraq Zemfira qorxu içərisindəydi. O, yaxşı bilirdi ki, belə bir vəziyyətdə qarovulçunun əlinə keçsə, onda mütləq yenə zorlanmaya məruz qalacaq. Akif Zemfiranın ondan qaçdığını görüb, cəld masanın üstündəki

büllur güldanı götürdü və qadının üzərinə atdı, lakin ağır güldan ev yiyəsinin yanından ötərək, pəncərəyə dəyib şüşəni sındırdı. O, qadının üzərinə qaçmaq istəyəndə, müvazinətini itirərək arxası üstə yerə sərildi. Fürsətdən istifadə edən müğənni kaminin yanında olan odun parçasını əlinə alıb, ona daim əzab verən adamın başına çırpdı. Ayaq üstə qalxmağa taqəti olmayan qarovulçu aldığı zərbədən sonra daha da halsız hala düşdü. Qorxu içərisində olan qadın hürkərək, otaqdan çıxıb qaçmaq istədi, lakin son anda gördü ki, Akif ayağa qalxa bilmir. Onda o, əlinə bir şey alıb, yerdə çapalayan oğlanı tam zərərsizləşdirmək fikrinə düşdü. Ən sərfəli silah qalın konyak şüşəsi sayılırdı. Amma həmin əşyanı götürmək üçün qarovulçunun yanından ötüb keçmək lazım idi. Zemfira tərəddüd içərisində olan zaman ayağa qalxmağa cəhd edən Akif, hirsini boşaltmaq üçün - "Fahişə, konyaka nə qatmısan? Tez ol, gəl məni qaldır. Sən məni öldürmək istəyirsən?" – ifadələrini söylədi.

Şüşə sınan vaxt Əliyusif evin eyvanına çıxaraq, oradan qonşunun evində baş verən səs-küyün şahidinə çevirildi. Orada gözlənildiyindən də maraqlı hadisələr baş verirdi. Evin qarovulçusu evin sahibəsini fahişə adlandırırdı, üstəgəl qadının ünvanına küçə söyüşləri yağdırırdı. Bütün bunlar özünü millət qarşısında layiqli müğənni kimi tanıtdırmağa çalışan Zemfiranın imici üçün mənfi hal sayılırdı.

## IX fəsil. Keçmiş sürücü ölümlə hədələnir

Artıq hava qaralmaq üzrə idi və orada baş verən hadisəni daha aydın seyr etmək üçün müxbir həyətə çıxdı. Elə bu vaxt kimsə qonşunun həyət darvazasını döyməyə başladı. Pultun vasitəsilə darvaza açıldı və həmin qonaq ev sahibəsinin dəvətilə içəri daxil oldu. Gələn adamın səsindən Əliyusif həmin an anladı ki, müğənninin dəvət etdiyi adam Natiqdir. Müxbir qorxurdu orada cinayət xarakterli bir hadisə baş versin, odur ki, o, tərəddüd etmədən həyətdə bitən tut ağacına qalxıb, elə oradan müğənninin qonaq otağına nəzər salmağa başladı.

Həddindən artıq qəzəbli görünən Natiq qonaq otağına daxil olanda, özündə güc toplayan qarovulçu əllərini yerə dirəyib ayağa qalxmağa cəhd edirdi. Həmin an qorxu içərisində olan qadın divarın küncünə qısılaraq, yerindəcə titrəyirdi. Natiq tərəddüd etmədən Akifə yaxınlaşıb, əlinə keçirdiyi beşbarmaqla onun sifətinə möhkəm zərbə endirdi. Qarovulçu arxası üstə yerə yıxılıb, üzündən fışqıran qanı saxlamağa cəhd etdi. Bu vaxt stress vəziyyətində olan müğənni cəld xilaskarının boynuna sarılaraq, minnətdarlığını bildirmək üçün dalbadal onun üzündən öpməyə başladı. Natiqin bu hərəkəti qadının ürəyindən olmuşdu.

Yerdə çapalayan oğlan hər vəchlə keçmiş dostuna izah etməyə çalışırdı ki, Zemfira kimi küçə qadını, nəinki Məzahiri, hətta onun özünü də aldadaraq, hamının mənliyini tapdalayır. Hirsdən boğulan Natiq isə onun sözlərinə heç bir əhəmiyyət vermədən qadına deyirdi ki, təhqir və təzyiqlərə görə qarovulçudan qisasını alsın. Zemfiranın daxilində yaranan kin-küdurət kulminasiya nöqtəsinə çatdığından o, Akifdən qisas almaq üçün ayağındakı ucuşiş ayaqqabısı ilə qurbanının sinəsinə, çiyninə, sifətinə zərbələr endirməyə başladı. Qadının daxilindəki hirs o qədər çox idi ki, qarovulçu huşunu itirsə belə, onun hirsi soyumurdu. Akifin sifəti qana bürünəndən sonra o, kənara çəkilərək rahat nəfəsini dərməyə başladı.

Zemfira tənginəfəs idi və o, bir qədər rahatlanmaq üçün bir badə konyak içib, yerdə uzanan oğlanın üstünə tüpürdü. Onlar hər ikisi Akif ilə nə edəcəklərini düşünürdülər. Yerdə uzanan qarovulçusuna həddindən artıq nifrət bəsləyən müğənni kreslosunu ona yaxın çəkib, əyləşəndə ayaqlarını qurbanının sinəsinə qoydu və ikrah hissi ilə dedi:

- Natiq, bu murdar köpəklə nə edəcəksən? Məndən olsa, onun qanını səhərə qədər içə-içə, ara vermədən işgəncələr verərəm.

- Onun vəziyyəti çox pisdir. – deyə Natiq nəzərlərini keçmiş dostundan çəkməyərək, yerə sərələnmiş qurbanın

gözlərinin qapaqlarını açıb ciddi halda dilləndi. - O, tamamilə bihuş olubdur. Sən nə qədər dərman vermisən?

- Deyəsən, dörd dənə. – deyə tərəddüdlə cavab verdi.

- Zalım qızı, sən nə etmisən? Onun ürəyi dayana bilər.

- Yaxşı, indi biz nə etməliyik? – deyə Zemfira ayaqlarını Akifin üstündən götürərək, təşviş içərisində soruşdu.

- Artıq problemlə üzləşməmək üçün bu zibili aparıb, başqa bir yerə tullamaq lazımdır.

- Mən ondan qisas ala bilməyəcəm?

- Mənə elə gəlir, sən öz qisasını artıqlaması ilə alacaqsan.

Ondan sonra Natiq aşağı düşüb avtomobilini həyətə sürdü və Akifi yük bölməsinə qoyub, cəld həmin yerdən uzaqlaşdı.

Bütün bu görüntülərdən dəhşətə gələn Əliyusif vicdanlı bir vətəndaş kimi ölçü götürməyi qərara aldı. O, evdəkilərinə heç bir xəbər vermədən evindən çıxıb, qonşunun qapısına getdi.

Əliyusifin ilk dəfə qonşusunun qapısında peyda olması müğənninin təəccübünə səbəb oldu. Zemfira vəcdə gəlmiş halda ətrafına nəzər salaraq, narazı halda soruşdu:

- Gecənin bu vaxtında mənim qapımda nə edirsən? Polisə düşmək istəyirsən?

- Yadda saxla ki, sən burada tək yaşamırsan. – deyə müğənnidən yanıqlı olan müxbir ciddi halda dilləndi. – Burada nə baş verirsə, ondan bizim xəbərimiz var.

- Bu nədir, məni şantaj edirsən? – deyə əsəbdən boğulan qadın hiddətləndi və həmin an bir qədər sakitləşərək, Əliyusifi qapıdan içəri saldı. – Qonşu, olmaya sən də məni zorlamaq istəyirsən?

- Xahiş edirəm, ifadələrinə fikir ver. – deyə müxbir bir addım geri çəkilərək, yerindəcə donub qaldı. – Mənim heç vaxt belə murdar fikirim olmayıbdır.

- Bəs, onda nə üçün bu vaxt mənim qapıma gəlmisən?

- Burada cinayət xarakterli hadisə baş verdiyindən, sənin qapına gəlməyə məcbur oldum. – Əliyusif qətiyyətlə dilləndi.

- Sən, Lerikdəki hadisəyə görə məndən qisas almaq üçün böhtan atırsan?

- Özünü mənimlə səhv salma. – ürək sözlərinin söyləməsinin vaxtı çatdığını hiss edən müxbir iradə ilə dilləndi. - Böhtan atmaq mənim xislətimə uyğun deyil. Qardaşımın yerinə götürdüyün işçini, nə hala saldığını öz gözlərimlə gördüm. Adamı da heç maşının yük bölməsinə salıb apararlar? Ona bir şey olsa, mən polisə xəbər verəcəyəm.

- O, məni zorlamaq istədiyi üçün, biz onu bu cür cəzalandırdıq.

Zorlamaq istəyibsə, polisə ver. Qoy o, etdiyi hərəkətlərə görə qanun qarşısında cavab versin.

Müxbir getməmişdən əvvəl qarovulçu ilə olan olayları onun yadına saldı və Akifin həyatında hər hansı bir təhlükə baş versə, onda bu haqda polisə məlumat verəcəyini bildirdi. Çaşqınlıq içərisində olan Zemfira otağına qayıdandan sonra dərhal Natiqə zəng edərək, bu haqda onu məlumatlandırdı. Bu xəbər emosional oğlanı həddindən artıq hiddətləndirdi və o, qətiyyətlə söz verir ki, Əliyusif burnunu lazım olmayan yerə soxduğuna görə, onu məhv edəcək.

Onların şər-xata adamlar olmasına baxmayaraq, müxbir bu məsələyə müdaxilə etməklə, özünün vətəndaşlıq borcunu yerinə yetirmiş oldu.

Natiq hadisənin kənara sızmasını biləndən sonra o, ehtiyatla hərəkət etməyi qərara aldı. Bərk qəzəblənən oğlan keçmiş dostunu yaşadığı bağ evinə aparıb, orada onu soyuq zirzəmiyə saldı. Alaqaranlıq zirzəmidə köhnə divan, kreslo, qamak, bir neçə döşək, böyük brizent, açılıb-bağlanan çarpayı və spirtli içkilərin yeşikləri vardı. Mebellər köhnə olduğundan buraya neçə gəldi atılmışdı.

Qış fəsli təzəlikcə çıxsa da, bu bağ evinə Natiqdən başqa heç kim gəlmirdi. Yerdə qalan ailə üzvləri burada yalnız bir də yayın əvvəlində görünürdülər.

Akif zədəli olsa da, dərmanların təsirindən dərin yuxuda idi. Natiq onu divana uzadıb, üstünü brizentlə örtdü və qapını qıfıllayıb, yatmaq üçün öz otağına yollandı.

Həddindən artıq əsəbi olan oğlan birtəhər yuxuya getsə də, sübh açılmamış zirzəminin taqqıltısı onun yuxusuna haram qatdı. Ev sahibi qəzəblənmiş halda qapını açanda, Akif divanda əyləşmiş və əlləri ilə bədənini ovuşdururdu. Gecə soyuq keçdiyindən girov saxlanan oğlanı üşütmə tutmuşdu.

- Çaqqal, sən hələ ölməmisən? – deyə Natiq əlində polislərin istifadə etdiyi rezin dəyənəyi hərlədə-hərlədə girovuna yaxınlaşdı. – Mən də bura ölü daşıyanları gətizdirmək istəyirdim.

- Natiq, məni isti otağa apar. Bütün bədənim soyuqdan titrəyir.

- Sənə verdiyim bütün pullar burnundan gəlsin. Gəda, sən məni pula görə baqaja qoymaq istəyirdin? Unutmusan, səni kim adam edib?

- Sənə qarşı nə etmişəm ki, məni bu hala saldın? Mən çörəyi itirən adamlardan deyiləm.

- Bəs, Zema ilə olan əlaqəni nəyə görə qoca kaftara çatdırmaq istəmisən? Yoxsa, sən bununla, ancaq mənim məşuqəmdən pul qazanmaq üçün onu şantaj edirdin?

- Həmin pullar, Zemanın yox, Məzahirin idi. Mən bununla həmin qoca kaftara zərər yetirmək istəyirdim.

- Əgər elədirsə, bəs nəyə görə mənim saxladığım qadını zorladın? Bilirsən də, belə şeylərin üstündə adamın başına necə oyun açırlar? – ondan sonra hirsini soyutmağa çalışan Natiq, "al payını, binamus" deyərək, dəyənəklə girovunun bədəninə bir neçə dəfə möhkəm zərbə endirdi.

Akif keçmiş müdirinin xasiyyətinə yaxşı bələd idi. Natiq hirslənəndə heç kim araya girə bilməzdi və o, hirsi soyuyana qədər istədiyini həyata keçirməliydi. Elə bu səbəbdən Akif huşunu itirənə qədər döyüldü. Məhz ondan sonra Natiq üzünü çevirib otağına qayıtdı.

Həmişə emosional görünən ev yiyəsi hisslərinə hakim çıxaraq, birtəhər özünü ələ ala bilirdi. Belə bir vəziyyətdə, Akifin onu aldatdığına görə o, həmin adamı öldürə də bilərdi, lakin son məqamda Natiq girovunu rahat buraxdı.

Axşama yaxın Zemfira Natiqə zəng edib, onunla görüşməyi bildirdi. Qadın son aylar keçirdiyi fiziki və mənəvi əzablara görə girov saxlanılan oğlandan qisas almaq fikirində idi. Onlar görüşəndə müğənni həmin fikrini oynaşına izah etdi. O, dedi:

- Natiq, o əclafın dərisini diri-diri soysam da, ondan tam şəkildə qisas ala bilməyəcəm. Ona görə ki, onun verdiyi əzabların sayı-hesabı yoxdur.

- İstəyirsən, elə günü bu gün mən onun başını kəsib, balonun içərisində spirtə qoyum? Onsuz da mən onu döyə-döyə məhv edəcəm.

- Unutmaq lazım deyil ki, Akif son nəticədə sağ buraxılmalıdır. – deyə qadın təəssüflə dilləndi. – Mənim, küpəgirən qarılar kimi burnunu hər yerə soxan qonşum bu məsələdən hali olmasaydı, onda məmnuniyyətlə, həmin iyrənc adamı özüm öldürərdim.

- Gəl, səninlə belə bir şərt kəsim. – deyə yanındakı qadını qucaqlayan oğlan ehtirasla dilləndi. – Hirsini soyutmaq üçün mən sənə istədiyin şəraiti yaradacağam, amma bu gün, səhərə kimi sən mənim qonağım olacaqsan.

- Səhərə kimi yox, gecənin ortasına kimi. – deyə müğənni etiraz etdi. – Çünki Məzahirin gecə vaxtı evə gəlmək ehtimalı çoxdur.

Çıxılmaz vəziyyətdə qalan Natiq qadının iradını qəbul etdi və onu zirzəmiyə apardı. Soyuq zirzəmidə olan Akif ac qaldığından xeyli zəifləmişdi. Zemfira burada olan dəyənəyi götürüb, oğlanın ünvanına söyüşlər yağdıra-yağdıra onun harasına gəldi zərbələr endirməyə başladı. Keçmiş qarovulçu huşunu itirəndə, həddindən artıq qəzəbli görünən müğənni əl saxlamalı olurdu, yalnız Akif özünə gələndə qadın zərbələrini ona endirməyi davam etdirirdi. Beləcə,

girov saxlanılan oğlan bir saat ərzində bir neçə dəfə amansızcasına döyülərək, tamamilə yarımcan hala salındı.

Akifi döyməkdən böyük həzz alan müğənni özünü müəyyən mənada xoşbəxt adam kimi hiss etməyə başladı və Natiqin ona belə bir şərait yaratdığı üçün o, iki-üç saatı bu kinli-hikkəli oğlanla keçirib, ondan sonra evinə yollandı.

Ertəsi günü yalnız səhər tezdən ev yiyəsi anladı ki, saxladığı girova yemək lazımdır. O, bir qədər azuqə götürüb, Akifi yeməklə təmin etdi. Girov saxlanılan oğlanın həddindən artıq zəifləməsinə baxmayaraq, Zemfira demək olar ki, hər gün bu evə gəlib mütəmadi şəkildə onu döyüb, yüksək əhval-ruhiyyə ilə qaldığı məkana qayıdırdı. Beləcə bu işgəncələr bir həftədən çox davam etdi və yalnız Akifin anası Zemfiraya zəng edəndən sonra hər iki manyak təşvişə düşdü. Onların fikirincə, hər ikisi kifayət qədər saxladıqları girovdan qisas almışdılar. Artıq onu buraxmaq da olardı.

Öz hisslərini nəzarət altında saxlamağı bacarmayan Natiq zirzəmiyə enən zaman, divanda uzanan Akifin sifətini görən kimi yenə də başladı onu döyməyə.

Aldığı zərbələrdən divandan yerə aşan Akif qışqıra-qışqıra, qarşısındakı adamdan əl saxlamağını istədi. Girovun bütün bədəni sızaq-sızaq idi və hər dəfə döyüləndə köhnə zədələr ona dəhşətli ağrılar verirdi. Akif bu qeyri-

insani işgəncələrə tab gətirməyib, hətta əl saxlanılması üçün yalvarmağa da başladı. Əks təqdirdə gözləri qanla dolan Natiq onu şikəst olunanacan döyəcəkdi. “Bundan sonra sənə dərs olar və bilərsən ki, başqasının qadınına sataşanın aqibəti neçə olur”, deyərək siqaretini yandırdı.

Həm fiziki, həm də mənəvi zərbələrə məruz qalan Akif başa düşdü ki, keçmiş müdiri ona ifrat dərəcədə nifrət hissi bəsləyir və hansı cəzanı istəsə, ona qarşı tətbiq edə bilər.

Məhz bu səbəbdən o, Natiqdən aman diləmək üçün ehtiyat variantlardan istifadə etməyi qərara aldı. Akif bütün iradəsini toplayıb, burnundan açılan qanı əli ilə tuta-tuta hüznlə dedi:

- Natiq, bir anlığa əl saxla, gör nə deyirəm. Sən mənim xasiyyətimə yaxşı bələdsən. Mən heç vaxt kiminsə qadınına göz dikməmişəm. Onu bil ki, Zemfira sən fikirləşdiyin kimi adi qadın yox, əsl əfi ilandır. Elə pozğun qadının üstündə adam çörək kəsdiyi bir kəsə əl qaldırmaz.

- Sən hələ söz də güləşdirirsən?

Bu ifadələrdən sonra Natiq yerdə uzanan oğlanın üzünə tüpürərək, dəyənəklə yenə də zərbələr endirmək istədi, lakin bu vaxt Akif əllərini qabağa verib tələsik halda dedi:

- Gör hələ nə deyirəm, ondan sonra vur öldür. Sən o, qancığa inanırsan? O, hər ikinizə xəyanət edibdir.

- Necə yəni hər ikimizə? – deyə həddindən artıq əsəbi olan ev sahibi birdən-birə əl saxladı və bərələ qalmış gözləri ilə yerindəcə donub qaldı. – Zema, daha kiminlə gününü keçirir?

- Restoran müdiri İbrahimlə. O, hamınızı barmağına dolayır, siz isə onun başının üstündə pər-pər fırlanırsınız.

- Dediklərini sübut edə bilərsən?

- Sübut odur ki, onların hər ikisi restoranda görüşüb vaxtlarını keçirirlər. İbrahim Məzahirin qorxusundan bağa gələ bilmir. Zemanın telefon danışıqlarından o dəqiqə ayırd etmək olur ki, onların arasında intim əlaqə hökm sürür.

Bu sözlərdən vəcdə gələn Natiq bir anlığa fikirə getdi və yavaş səslə "deyirəm axı, o, nəyə görə tez-tez İbrahimin restoranına gedir? Sən demə, torbada pişik var imiş", ifadələrini söyləyərək, buradan çıxdı. Evin sahibi əlində bir şüşə araq və köhnə bir palto ilə geri qayıdıb, qızınmaq üçün keçmiş sürücüsünə verdi. Sonra o, götür-qoy etmək üçün otağına qalxdı.

Bir anın içərisində Zema Natiqin gözündən düşdü. Heç bir şeyi araşdırmadan, lakin eşitdiyi sözlərlə kifayətlənən emosional oğlanın həmin andan, yolunda çox şeylərdən keçməyə hazır olduğu bir qadına olan nifrəti birə-beş artdı. Natiqin fikirincə, müğənni özünü sığortalamaq üçün onunla Akifin arasını vurmuşdu. Onun üçün bir növ Akif kimi zəif

bir adamla ixtilafda olmaq, heç bir problem yaratmırdı. Lakin buna baxmayaraq Natiq keçmiş sürücüsünü, hətta Akif Zemfiranı xəyanət etdiyinə görə zorladığından, bu işi belə qoymamalı və ondan necə heyif alacağını planlaşdırmağa başladı. Ona görə ki, Akif onun qüruruna toxunmuşdu.

Dərin xəyallara qərq olan Natiq indi nifrət hissilə bir müddət yaşadığı qadının surətini gözlərinin önünə gətirərək, ondan hansı şəkildə qisas almaq barəsində düşünməyə başladı. O, istəyirdi ki, Zemfira bir müğənni kimi səhnədə öz fəaliyyətini dayandırsın və ömrünün axrına kimi həm mənəvi, həm də fiziki cəhətcə məhrumiyyətlərə düçar olaraq, ağır sarsıntılar içərisində yaşasın.

Bu günə qədər Natiqin nifrət etdiyi insanlar arasında Məzahir və Əliyusif ilə Gülnarə vardısa, bu gündən etibarən, həm Zemfira ilə İbrahim, həm də Akif həmin siyahıya düşdülər. Bu başı yelli oğlan onlara elə əzab vermək istəyirdi ki, ümumiyyətlə salamat qalmaq üçün həmin adamlar başlarını götürüb, ölkədən didərgin düşsünlər. Lakin polis ilə çox vaxtı problemləri olan Natiq elə etməliydi ki, həmin adamlardan heç birisi kömək almaq üçün polisə müraciət etməsinlər. Bunun üçün o, şantajdan istifadə etməliydi. Kompromat materiallara malik olan Natiq belə bir oyunları oynamaqda, özünü mahir usta adlandırırdı. Məsələ onda idi ki, birinci kimdən başlamaq

lazım idi? Onun fikirincə, Akif əlində girov olduğu üçün elə onun özündən başlamalıydı. Qara günlərini gözünün qabağına gətirən keçmiş sürücü bir neçə gün soyuq zirzəmidə qalmalıydı.

## X fəsil. Məkrli insanlar və ülvi hisslərlə yaşayan müxbir

Natiq imkanlı ailədən olsa da və biznes əməliyyatı zamanı yaxşı pul qazansa da o, Zemfira ilə sıx əlaqələr qurandan sonra, daim yüngül xasiyyətli qadının başıboşluğundan istifadə edərək, müxtəlif aksesuarları brend markası adı altında, yəni, həmin malları israfçı müğənniyə sırımaqla, iri məbləğdə pullar almışdı. Bir sözlə, Natiq bir neçə gün ərzində tanıdığı insanlar arasında böyük qalmaqal yaratmaq fikrində idi.

İlk öncə emosional oğlan Akifi həmin evdən uzaqlaşdırmaq üçün hərəkətə keçdi. O, girov saxladığı oğlanın yanına gedib, öz tələblərini irəli sürdü. Sağ qalmaq və pul qazanmaq istəyirsə, onda bir daha Zemfiranın yaşadığı bağa ayaq

basmamalıdır. Akif isə ona izah edir ki, qadın ona xəyanət etdiyi və onu restoran müdirinə dəyişdiyi üçün belə bir sərt şərtlər qoymuşdu. Susmağa görə müğənni ona hər ay 3 min manat pul verirdi. Bundan sonra onun nə qədər məvacib alacağı maraqlandıran məsələlərdən biri idi.

- Mən, istəsəm səni öldürərəm, amma qoca anana görə sənə ömür verir, məruz qaldığın fiziki işgəncələrə görə isə səni işlə təmin edəcəyəm. – deyə Natiq ciddi halda dilləndi, sonra bir qədər ara verəndən sonra həmin tərzdə sözünə əlavə etdi. – Deyirsən, şantaja görə Zema hər ay sənə 3 min manat pul verirdi. Nə olar, mən sənə həmin məbləğin yarısını ödəyəcəyəm, amma bunun üçün sən mənim İran-dan gətizdirdiyim, malların üstündə nəzarətçi olacaqsan. O ki, qaldı Zemaya, həqiqətən də məni çaqqal oğlana dəyiş-diyi üçün mən onu lüt qoyacam və elə edəcəm ki, Bakıda yaşamaq onun üçün baş ağrısı olsun. Yəni, o, qısa müddət ərzində gəldiyi rayona qayıtmalıdır.

Belə bir vəziyyətdə Akifin başqa bir çıxış yolu yox idi. Necə olsa da o, tətbiq etdiyi bütün naqis hərəkətlərə görə əfv olunurdu. Sir-sifəti və bütün bədəni sızaq, açıq yaralar, ağır zədələr ilə bol olan Akif tərəddüd etmədən həmin təklifi qəbul etdi. Natiq uzaqgörən adam kimi onu belə bir vəziyyətdə evinə yola sala bilməzdi. O, ilk növbədə girov saxladığı oğlana bildirdi ki, anasına zəng edib, hər şeyin

qaydasında olduğunu bildirsin. Ondan sonra isə Natiq yaxından tanıdığı həkimlərdən birini evinə dəvət edərək, Akifi müalicə etdirməyə başladı.

Keçmiş sürücünün müayinəsi gözlənildiyindən də çox çəkdi. İndi-indi Natiq başa düşmüşdü ki, o, Zemfira ilə birlikdə girov saxladığı adamı nə kökə salıbdır. İşgəncələr nəticəsində Akif demək olar ki, yarımcan olmuşdu.

Günlər ötdükcə yalnız Akifin işləri yaxşılığa doğru gedirdi. Zemfira heç cürə əvvəlki həyat tərzinə qayıda bilmirdi. O, demək olar ki, yağışdan çıxıb yağmura düşmüşdü. Natiqdən canını birtəhər qurtaran qadın yenə də onun caynağına keçmişdi. Emosional oğlan isə yaxın əlaqələr zamanı daim öz sırtıqlığını nümayiş etdirərək, Zemfiranı risq ayağına verirdi. Çünki gec-tez Məzahir qadının bu ikili həyatından şübhələnəcək və bu xəyanətkar hərəkətlərə görə məşuqəsinin başına sığal çəkməyəcək. Müğənni ehtiyatını saxlamaq üçün qərara almışdı ki, Natiq ilə bağda yox, yalnız neytral bir mənzildə görüşsün. Bunun üçün Natiq şəhərdə ayrıca bir mənzil tutmalı oldu.

Günlərin bir günü onlar bir yerdə olanda Zemfira Akifin sonrakı aqibəinin necə olacağını oynaşından soruşdu.

- Gözəlim, heç üç həftə keçməmiş mən onu barmaqlıqlar arxasına göndərəcəyəm. Buna əmin ola bilərsən.

- Nə etmək fikirindəsən? – deyə müğənni marağını gizlətmədi.

- Planımı həyata keçirəndən sonra hər şeyi sənə danışacağam.

- Bəs, qonşum ilə nə edəcəksən? İnanırsan, hər gün onun sifətini görəndə hirsimdən bədənim od tutub yanır. O, demaqoq sonuncu dəfə mənə hədə-qorxu gələndən sonra özümə rahat yer tapmıram.

- Ona görə də narahat olma. Mən onun üçün də yaxşı sürpriz hazırlamışam. Amma sən mənə bu işdə kömək edəcəksən.

- O necə sürprizdir? – deyə müğənni yalvarıcı tərzdə soruşdu.

- Bu haqda da sənə heç nə deməyəcəm. Lakin verilən tapşırıqları can-başla yerinə yetirməli olacaqsan.

- Mən hazır!

- Bilirəm ki, sənin ondan xoşun gəlmir, buna baxmayaraq sən onunla aranızda olan ədavəti müvəqqəti olaraq dayandırmalısan. Yəni, aranızı sazlamalısan.

- Başa düşmədim?

- İstəyirsən ki, mən onu da şərləyib həbsxanaya saldırım, onda irad bildirmədən mənim dediklərimə qeyd-şərtsiz əməl etməlsən? İlk növbədə sən elə etməlisən ki, nəinki həmin çaqqalın, hətta onun ailə üzvlərinin də arası səninlə

düzəlsin. Çalış nazı-qəmzə ilə, xoş münasibətlə onu ələ al və cürbəcür bəhanələrlə onu evinə dəvət et.

- Mən, geridə qalmış insanlarla əlaqə yaratmalıyam? – deyə müğənni vəcdə gəldi. – Hələ üstəgəl onları evimə də dəvət etməliyəm?

- Hər ikimizin sərbəst hərəkəti üçün bu vacibdir. Biz rəqiblərimizi elə sıradan çıxarmalıyıq ki, onlar bir daha bizimlə üz-üzə gəlməsinlər.

- Olmaya, sən Məzahiri onun üstünə qızışdırmaq istəyirsən? Deyəsən, bir güllə ilə iki dovşan vurmaq istəyirsən? Bu, böyük qalmaqala gətirib çıxaracaq.

- Mən uşağam, ya ağlım kəsmir? Burada mən, başqa bir fənd işlədəcəyəm. Sadəcə olaraq polislər müxbirin boynuna oğurluq qoyub, onu həbs edəcəklər.

Natiq ətraflı olaraq əhli-kef qadını təlimatlandırdı ki, onlar tərəfindən heç bir qüsur baş verməsin. Zemfira həqiqətən də müvəqqəti öz münasibətini qonşularına qarşı dəyişdi. O, nəinki Əliyusifgil ilə, hətta o birisi qonşusu Arifgil ilə də xoş münasibətlər qurmağa başladı. Həyətdə olarkən maqnitofonun səsini azaldır, qonşularla üz-üzə gələndə onlara salam verir, hətta onları kəndin yolunda görəndə maşını ilə evlərinə aparmağı təklif edir və s.

Qonşular elə zənn edirlər ki, Zemfira ətrafdakı insanların haqlı iradına tab gətirməyib, buradakı cəmiyyətlə

ayaqlaşmağa başlayıbdır. Yalnız Xədicə başqa fikirdə idi. O, birmənalı şəkildə bildirirdi ki, quduran insan heç vaxt saf cəmiyyətlə bir yerdə ola bilməz.

*"Eurovision"*da Azərbaycanı ləyaqətlə təmsil etmək üçün **"Buta Palace"** da seçim turunun finalı keçirildi. Həmin müsabiqə "İctimai" kanalın vasitəsilə canlı yayımda tamaşaçılara nümayiş etdirildi. Saniyə olsun belə, televiziya kanalından ayrılmayan Əliyusif kimin qalib gəlməsini diqqət mərkəzində saxlamışdı. Onun əvvəlcədən verdiyi proqnoza görə Azərbaycanı həmin beynəlxalq musiqi yarışmasında virtuoz ifalarına və bənzərsiz səs tembrinə görə iki namizəddən biri təmsil etməliydi – Xəyyam Mustafazadə və ya Səbinə Babayeva. Yarışmanın gedişində lazımi dəstək olmadığından Xəyyam yarımfinalda irəliləyişini dayandırmışdı. Tale elə gətirdi ki, həmin müsabiqənin qalibi əksəriyyət tamaşaçıların səbirsizliklə gözlədiyi, böyük ümid bəslədiyi Səbinə Babayeva elan olundu. Bu seçim ondan xəbər verirdi ki, demokratik şəraitdə təşkil olunan həmin müsabiqədə, başda münsiflər heyətinin prinsipial mövqeyi olmaqla, "İctimai" kanalın vasitəsilə obyektivlik mühüm rol oynadı.

İş ondadır ki, əvvəlki seçim turlarında olduğu kimi bu dəfə də nə tanışlıq, nə telefon zəngi, nə də ki, nüfuzlu bir şəxsin sifarişi həyata keçmədi. Ümumiyyətlə, incəsənətə,

xüsusilə də musiqi sənətinə aludə olmayan tamaşaçılar, bayağı mahnılar oxuyan müğənnilər, istedada qısqanclıqla yanaşanlar, özlərini səhnə ulduzu adlandıranlar yadda saxlamalıydılar ki, müsabiqənin qalibi toyxanada oxumaq üçün yox, Avropanın nüfuzlu musiqi yarışmasında iştirak etmək üçün dəyərli tamaşaçıların etimadını qazanır.

Xədicə də həmin verilişə baxmış və müəyyən vaxt keçəndən sonra, həmin müsabiqə ilə bağlı, oğlu ilə fikir mübadiləsi aparırdı. Demək olar ki, onların fikirləri üst-üstə düşürdü. Onlar bir qədər söhbət edəndən sonra, dərindən köksünü ötürən Xədicə sevincək halda dedi:

- Artıq *"Eurovision"* yaxınlaşmaq üzrədir. Allah Səbinəyə kömək olsun! Əminəm ki, o, da Nigar və Camal kimi səhnədən triumfator kimi ayrılacaq və dünyaya səpələnmiş azərbaycanlıların hamısına sevinc bəxş edəcək.

- Şəxsən mən onun tutduğu mövqeyə, yorulmaz fəaliyyətinə və istedadına nikbinliklə yanaşıram. Mən də əminəm ki, o, da bizə qələbə əzmini yaşadacaq.

- Açığını desəm, Müslüm Maqomayevin səsinin vurğunu olan Qənirə elə zənn edirdi ki, Xəyyam Mustafazadə seçim turunun qalibi olacaq. Lakin onun proqnozu özünü doğrultmadı.

- İndi hər nədirsə, biz hamılıqla xarici qonaqların qarşısına ləyaqətlə çıxmalı və əsl azərbaycanlılığımızı bütün

dünyaya sübut etməliyik. Bakıda keçiriləcək *“Eurovision”* orijinallığına görə bütün yarışmalardan fərqlənməlidir.

- Əli, unutma ki, üzümüzə gələn ay sənin toyundur və sən əsas diqqətini həmin toy mərasiminə yönəltməlisən.

Əliyusiflə Gülnarənin toyu iyun ayının əvvəlinə **“Arzu”** şadlıq sarayında təyin olunmuşdu. İlk təbrik edənlərdən biri İbrahim oldu. O, dostunun müxbir və kasıb olduğunu bildiyi üçün, toy ərəfəsi Əliyusifə ən dəyərli - *“Eurovision”*un finalına iki bilet hədiyyə etdi. Yarımfinalları televiziya ekranlarından ciddi-cəhdlə izləyən və bu barədə iki məqalə işləyib qəzet səhifələrinə çıxaran müxbir biletləri alanda onun sevincinin həddi-hüdudu olmamışdı. Ona görə ki, Əliyusif yatıb yuxusunda görə bilməzdi ki, nə vaxtsa o, musiqi tarixinin səhifələrində layiqli yer tutacaq belə bir nüfuzlu beynəlxalq musiqi yarışmasını canlı şəkildə seyr edəcək.

Bulvarda izdiham o qədər böyük idi ki, iynə atılanda yerə düşməzdi. Turistlərlə yerli adamlar bir-birilərinə qarışmışdı, maraqlısı da o idi ki, onların arasında heç bir ayrıseçkilik hiss olunmur, sanki hamı bir-birinə doğma idi. Elə yarımfinallar gedən vaxtı müsahibə verən turistlər xüsusilə bir şeyi qeyd edirdilər – qonaqpərvərliyi nümayiş etdirən əhali, onlara qarşı o qədər mehriban idi ki, Bakıda onlar özlərini yad hiss etmirdilər.

Nişanlılar camaatın arasından sıyrılaraq, yüksək əhval-ruhiyyə ilə, son illərin ən möhtəşəm tikilisi sayılan **"Bakı-Kristal"** xola tərəf getdilər. Xəzər dənizinin qoynunda salınan bu incəsənət məbədi öz əzəməti, müasirliyi və tətbiq olunan işıqlandırma texnologiyası ilə Avropada mövcud olan bütün konsert zallarını geridə qoyurdu. Daxilində vətənpərvərlik hissləri aşılanan hər bir kəs bu binanın fasadına yaxınlaşanda qeyri-ixtiyari olaraq qəhərlənirdi. Eləcə də Əliyusif öz nişanlısı ilə **"Bakı-Kristal**" xolun astanasından içəri daxil olanda sevincdən onun gözləri yaşardı. Bir anlığa onun yadına, 57-ci *"Eurovision"*nun açılışı zamanı Natiq Şirinovun "Natiq" ritm qrupu ilə insanı riqqətə, cuşa gətirən şou göstərməsi düşdü. Həmin ifanı eşidən müxbirin daxilində bir anlığa belə bir təsəvvür yarandı – ikinci Qarabağ müharibəsi başlayan zaman orduya hücum əmri veriləndə, şanlı əsgərlərimiz məhz cəngini xatırladan bu musiqinin ritmləri altında düşmən üzərinə yerisin.

Finalın möhtəşəm başlanğıcı, repertuarına görə bütün ifaçılardan fərqlənən İsveç təmsilçisi Lorinin qələbəsi və həmin şounun bağlanmasında dünya şöhrətli müğənni Emin Ağalarovun qeyri-adi iştirakı hamını heyran etdi. Bu ondan xəbər verirdi ki, Azərbaycan qısa müddət ərzində, yəni, 10 ay civarında Avropada ən möhtəşəm bir sarayın tikilişinə,

*“Eurovision”*un tarixində misli görünməmiş bir təşkilatçılıq bacarığını nümayiş etdirmiş və ən önəmlisi isə incəsənət sahəsində bütün millətlərin heyrətinə səbəb olan, milli-mədəniyyət potensialını üzə çıxarmaqla, beynlərə əbədi həkk olunan yaddaqalan musiqi şousunu həyata keçirdi. Əlbəttə ki, belə bir nailiyyət dostlarımızın sevincinə, düşmənlərimizin isə paxıllığına səbəb oldu. Təsəvvür etmək çətin deyil, daim azərbaycanlıların paxıllığını edən, milli-mədəni sərvətlərimizi, milli kulinariyamızı oğurlayan, şanlı tariximizi özünükləşdirən, milli-memarlıq abidələrimizi mənimsəyən, Avropanın parlament saraylarında həyasızlıq edən, nüfuzlu ölkələrin ictimai fondlarında və təşkilatlarında dilənçiliklə məşğul olan ermənilərdən neçə nəfəriin xəbislikdən ürəyi partlayaraq cəhənnəmə vasil olubdur.

Xarici qonaqlar, xüsusən də müğənnilər, nüfuzlu KİV-lərin nümayəndələri, teleradio aparıcıları Bakıya gəlib dənizkənarı park – Bulvarı görəndə, onlarda Nitsa, Monte-Karlo, Kann və başqa sahilkənarı şəhərlər barəsində olan steriotiplər darmadağın oldu. Bakı özünün füsunkar gözəlliyi, mötəşəmliyi, arxitektura ansamblları, məbədləri, sarayları. heykəlləri, fəvvarələri, parkalrı və bağları ilə bir çoxlarının təsəvvüründə evrika oldu. Qədim tarixi kökə, zəngin mədəniyyətə malik olan Azərbaycan xalqının gözəl

adət-ənənələri var. Ən əsas xüsusiyyətlərdən də biri o idi ki, azərbaycanlılar keçmiş əsrlərdə olduğu kimi özünün qonaqpərvərliyi, sülhpərvərliyi, dostluğa sədaqətliyini nümayiş etdirərək, hamıya sübut etdilər ki, ölkəmiz öz paytaxtı ilə bu işıqlı dünyada cənnəti xatırladacaq bir məkandır.

*"Eurovision"*un yüksək səviyyədə keçirilməsi bir çox Avropa ölkələrində yaşayan xalqların təsəvvüründə dəyişiklik yaratdı. Mənfur ermənilər özlərinin çirkin təbliğatı sayəsində bizi vandallar, barbarlar kimi qələmə vermiş və həmin xalqlar bizə yuxarıdan aşağı baxmağa çalışırdılar. Onlar əmin idilər ki, bizim həmin yarışmanı yüksək səviyyədə keçirməyə nə qabiliyyətimiz, nə də ki, imkanımız çatacaq. Lakin başda ermənilər olmaqla, bizim xalqın mədəniyyətinə, tərəqqisinə, yaşayış tərzinə qısqanclıqla yanaşan, ermənilərin təsiri altına düşənlər, təşkilatçılığın həddindən artıq peşəkarcasına qurulmasını görəndə öz fikirlərində yanıldılar. Hamı anladı ki, Azərbaycanın özünəməxsus mədəniyyəti, qabiliyyəti, bacarığı, ünsiyyət forması var və sübut olundu ki, bizim xalq hər hansı bir nüfuzlu festivalı, yarışmanı, çempionatı, hətta olimpiadanı da keçirməyə qadirdir.

Daxilində olan bir çox müsbət keyfiyyətləri aşılamağı xoşlayan ANS kanalı mayın 24-də də öz ampluasına uyğun olaraq, veriliş hazırlayıb mavi ekrana çıxartdı. Həmin günü

***“Günə baxan”*** hamımızı fərəhləndirən bir verilişlə, azərbaycanlıların nə dərəcədə qonaqpərvər, istiqanlı, ürəyi açıq olduğunu bütün aləmə nümayiş etdirdi. Studiyaya dəvət olunan xarici müxbirlər, müğənnilər orada elə ab-hava ilə rastlaşdılar ki, onlar indiyənə kimi Azərbaycanda olmadıqlarına görə heyifsləndiklərini və bundan sonra bu torpaqda kök salmaq arzusunda olduqlarını heç kimdən gizlətmədilər. Onlar dadına görə bir çox xalqların yeməklərindən kəskin dərəcədə fərqlənən milli yeməklərimizin bir hissəsilə - lülə, tikə, badımcan, pomidor, kartof, istiot kababları, sac üstə qızartma, quzu ətindən qovurma, ət qutabı və başqa təamlarla tanış olandan və şəkərbura, paxlavanı çay ilə içəndən sonra, bizim mətbəximizin nə qədər zəngin, dadlı və bənzərsiz olduğunun şahidinə çevrildilər. Paralel olaraq studiyada muğam, aşıq, xalq mahnıları milli geyimlərdə olan ifaçılar tərəfindən səsləndirildi. Həqiqətən də həmin gün bu layihənin təşkilatçıları sözün əsl mənasında, bizim hansı mədəniyyətə, tərbiyəyə, adət-ənənəyə, etikaya malik olduğumuzu nümayiş etdirərək, hamımızı cuşa gətirdi.

Bununla belə, ana ilə bala xeyli söhbət edəndən sonra orta məxrəcə gəldilər. Çünki hər ikisinin fikirləri üst-üstə düşürdü.

## XI fəsil. Qisas arzusu ilə yaşayan qadın

Son illər oğlunu evləndirməyə çalışan Xədicə nəhayət ki, öz arzusuna nail olmaq üzrə idi. İyun ayının başlanğıcında Əliyusif **"Arzu"** şadlıq sarayında toy etmək üçün oranın inzibatçısı ilə razılaşma əldə etdi. Lakin hadisələrin sonrakı gedişatı onların ailəsində böyük problem yaratdı.

Natiqin qurduğu plana əsasən, Zemfira Əliyusif ilə öz arasını yavaş-yavaş düzəltmişdi. Artıq müğənni müxbirə bildirmişdi ki, yaxın günlərdə Elşəni təzədən işə götürəcək, özü də yüksək maaşla. Onun bu hərəkəti hamının təəccübünə səbəb olmuşdu. Hamını bir sual düşündürürdü; nəyə görə müğənninin xasiyyətində yaxşılığa doğru dəyişikliklər əmələ gəlibdir? Əliyusif elə başa düşmüşdü ki, son vaxtlar o, qonşusuna kəskin notlar üzərində iradlarını bildirdiyi, xüsusən də, Akif ilə bağlı olan hadisədən agah olduğu üçün və bunu Zemfiraya bildirərək, polisə xəbər verməsi ilə hədə-qorxu gəldiyi üçün, həmin ramedilməz qadın qorxuya düşüb, xasiyyətini dəyişməli olmuşdu.

Əliyusif peşəkar müxbir olsa da, ağlına belə gətirə bilməzdi ki, bir dəfə onu şərləyən adamlar ikinci dəfə də həmin fəndi həyata keçirməyə cəhd edəcəklər. O, başa düşməli idi ki, anasının dediyi kimi pis fikirli, alçaq niyyətli, məkrli, qudurmuş, mənfur və naqis insanlar nadir

hallarda islah oluna bilər. Bu da yalnız ibadətə qurşandıqda, əməli saleh olan bəndələrlə daim ünsiyyətdə olan zaman baş verə bilərdi.

Natiqin təlimatına əsasən, Zemfira Əliyusifi evinə dəvət edib, oradakı otaqları, xüsusən də, yataq otağını və zinyət əşyalarının saxlanıldığı termonu ona tanıtdırmalıydı.

Bir dəfə elə olur ki, Zemfira onların qapısına gəlir və evdə tək olan Mədinədən Əliyusifi soruşur. Bacı isə izah edir ki, qardaşı nəşriyyatdadır, gələn kimi onu evlərinə göndərər. Günortadan bir neçə saat sonra evinə gələn müxbir vəziyyətdən hali olan kimi dərhal qonşusunun evinə yollanır.

Müğənni qonşusunun xasiyyətinə yaxşı bələd idi və bilirdi ki, Əliyusif heç bir vəchlə evdə tək qalan qadının qapısından içəri keçməzdi. Odur ki, o, müxbirə izah edir ki, evində lampa xarab olubdur, lampanı dəyişmək üçün ona kömək lazımdır. Əliyusif də məcburiyyət qarşısında qalıb, qadının evinə daxil olur və ev yiyəsi ilə birlikdə yataq otağına gedir. Oğlanın təəccübünə səbəb olsa da, Zemfira əyninə idman paltarı geyərək, bütün əndamını parça altında gizlətmişdi.

Həqiqətən də çilçıraqın heç bir lampası yanmırdı. Müxbir o dəqiqə başa düşdü ki, haradasa naqil qırılıbdır. O,

nasazlığın harada baş verdiyini müəyyən etmək üçün evinə gedib oradan indikator gətirdi.

Bu vaxt müğənni termonun qabağında əyləşib, qarşısındakı zinyət əşyalarını bir-bir üstündə yoxlayırdı. Əliyusif onun hərəkətlərinə heç bir əhəmiyyət vermədən öz işini davam etdirməyə başladı. O, on-on beş dəqiqəyə işini başa çatdırıb aşağı düşdü. Zemfira qonaq otağına keçən qonşusunun qarşısını kəsib, orada ona içki təklif etdi. Lakin gözlənilməz olmasa da müxbir həmin təklifdən imtina etdi. Bir sözlə, Əliyusif istəmirdi ki, qonşu ilə olan münasibət dostluq həddinə gəlib çatsın. Məhz buna görə də o, əvvəlki qaydada olaraq arada olan pərdəni saxlamaq fikirində idi.

Natiqə söz çatanda ki, Əliyusif Zemfiranın evinə qədəm qoyub, tələsik halda müğənni ilə görüş təyin etdi. O, müxbiri şərləyib həbs etdirmək planını həyata keçirmək niyyətində idi. Emosional oğlanı ən çox yandıran Gülnarənin ondan imtina edib, Əliyusifə ərə getməyə razılıq bildirməsiydi.

Oynaşlar elə Novxanıda yerləşən restoranların birində görüşüb, yüngülvarı qəlyanaltı qəbul edə-edə söhbət etməyə başladılar. Birinci olaraq Natiq fikrini bildirdi. O, dedi:

- Əzizim, sənə deyirdim axı qısa müddət ərzində mən onu uzunmüddətli ezamiyyətə göndərəcəm. Artıq vaxt yetişibdir. İndi mənə diqqətlə qulaq as. Sabahdan etibarən

sən müxbirin evində kimlərin olub-olmadığını müəyyənləşdirməli, daha doğrusu, həmin caqqalın evdə tək olması anını güdməlisən.

- Bunu, mən necə edə bilərəm? Axı, mən bütün işlərimi atıb, hər gün səhər tezdən axşama kimi onların qapısını güdə bilmərəm.

- Mənə lazımdır ki, müxbir evdə tək olsun. Ondan sonra mən onu ilişdirəcəm.

- Axı, sən nə etmək fikirindəsən? Əgər, düşünürsən ki, mən onun başını bişirib, yatağıma salmağa calışacağam, bu mümkün olan şey deyil. Ona görə ki, mənim hər küçədən keçənin altında uzanmaq fikrim yoxdur. Həm də Əliyusif nişanlıdır və öz gözəlçəsinə sadiq bir adamdır.

- Mən o, haqqda qəti fikirləşmirəm. Yəni, mən o dərəcədə vicdanımı və namusumu itirmişəm ki, sevdiyim qadının bədənindən nişangah kimi istifadə edim?

Yaxşı, sənə izah edərəm, nəyə görə onun evdə tək olması mənim üçün gərəklidir. Elə ki, demaqoq evdə tək qaldı, sən öz evindən çıxıb, təxminən iyirmi dəqiqə başqa bir yerdə olmalı və maşının ilə onun qapısına getməlisən. Avam müxbir nə lazım olduğunu soruşduqda, sən ona deyəcəksən ki, həyət qapısının açarı şəhərdə yaddan çıxıb qalıbdır və vacib tədbir olduğu üçün kolyeni evdən götürməlidir. Bu işdə o, mütləq şəkildə sənə kömək etməlidir.

- Qapı bağlıdırsa o, mənə necə kömək edə bilər? – qadın suala sual ilə müraciət etdi.

- Mən Akifi döyəndə o, həmin hadisələri haradan müşahidə edirdi?

- Öz həyətindən. – deyə qadın tərəddüd etmədən cavab verdi.

- Elə o, da sənin həyətinə öz həyətindən keçə bilər. Deməli, sən onu inandırmalısan ki, həmin brilliant kolye sənə hava-su kimi lazımdır. Bu minvanla o, sənin evinə daxil olub, yataq otağına keçməli, oradan kolyeni götürüb gəldiyi yol ilə də geri qayıtmalıdır. Həmin günü müşahidə kameraları hər şeyi çəkməlidir ki, müxbiri həbs etdirməyə əsas olsun.

- Bu üsul ilə biz onu tutdura biləcəyik?

- Əlbəttə! Bundan əlavə hamının yanında özünü təmiz oğlan kimi qələmə verən həmin çaqqal oğru kimi tanınacaq və bununla da bütün dost-tanışları qarşısında biabır olacaq.

- Onda belə çıxır ki, nəinki mənim, hətta incəsənət sahəsində ad-san qazanan bütün rəfiqələrimin canı ondan qurtulacaq. – deyə müğənni sevincək hisilə dilləndi və bir qədər ara verəndən sonra istehza ilə oynaşından soruşdu. – Yaxşı, de görüm, sən bunu nə vaxt etmək istəyirsən, onun toyundan əvvəl, yoxsa toyundan sonra?

Bu sözlərdən sonra Natiq yerindəcə donub qaldı, sanki həmin xəbər onun üçün gözlənilməz idi. O, bilirdi ki, Əliyusif Gülnar ilə görüşür və onlar gec-tez ailə quracaqlar. Amma yaxın günlərdə toy edəcəkləri barəsində məlumatdan o, bixəbər idi. Lakin indi eşitdiyi xəbər onun üçün şok effekti verdi. Natiq bir qədər fikirə gedəndən sonra özünə gəldi və üzünü müğənniyə tutub təşəxxüslə soruşdu:

- O, çaqqal toyu nə vaxt etmək istəyir?

- Səhv etmirəmsə, iyun ayının ortasına kimi. – deyə Zemfira çaşqınlıqla cavab verdi. – Eşitdiyimə görə o, toyuna Baloğlan Əşrəfovu, Yusif Mustafayevi və ya Manaf Ağayevi dəvət etmək istəyir.

- Eybi yoxdur, mən onun arzusunu ürəyində qoyacam. Biz elə etməliyik ki, müxbir toya qədər brilliant kolyeni termodan götürsün. Hər şey bizim nəzərdə tutduğumuz kimi olsa, onda həmin sürpriz onun üçün toy hədiyyəsi olacaq.

- Mən əlimdən gələni edəcəm ki, - müğənni sevinc hissilə dilləndi. - həmin demaqoq toy gecəsi görmədən dəmir barmaqlıqlar arxsına düşsün. Ondan sonra mən sənə unudulmaz bir gecəni hədiyyə edəcəm.

Hər iki məkrli insan hər şeyi dəqiqliklə götür-qoy edib, razı halda bir-birilərindən ayrıldılar. Ertəsi günü Natiq özünə sadiq olan bir kəsi, müvafiq tapşırıqlarla Əliyusifgilin küçəsinə göndərdi. Həmin oğlan öz maşınında otura-

raq, həmin qapıdan girib-çıxanları nəzarət altında saxlamalıydı. Lakin hər şey onların planlaşdırdığı kimi getmirdi, evdən kim gedirdisə-getsin, yenə də Əliyusifin yanında adam qalırdı.

İş elə gətirir ki, iyunun 1-də Xədicə qızı ilə birlikdə Gülnarəyə gəlinlik paltarı almaq üçün şəhərə yollanır. Elşən isə günorta yeməyindən dərhal sonra zöhr namzını qılmaq üçün kənd məscidinə üz tutur. Əliyusif həyətdə üzüm talvarının altında oturub, *"Eurovision"* ilə bağlı məqalə hazırlayırdı.

Elə ki, Natiqə bildirdilər müxbir evdə təkdir, o, bu məlumatı Zemfiraya ötürdü. Müğənni isə şəhərdəki bütün işlərini kənara qoyub, dərhal kəndə qayıdır. Şəhərdə tıxaclar olsa da o, yarım saat ərzində maşının əyləcini nəzərdə tutulan ünvanda basır. Vaxtı itirmək istəməyən qadın hövlnak halda qapını döyür. Əliyusif qapının ağzında qonşusunu görəndə təəccüblənir.

- Əli, səndən xahiş edirəm, mənə kömək et.

- Məndən asılıdırsa, kömək etməyə hazıram.

- Məni televiziya studiyasına dəvət ediblər. Ondan sonra isə fotosessiyam olacaq.

- Studiyaya ötürmək lazımdır? – deyə müxbir çaşqınlıq içərisində dilləndi.

- İş ondadır ki, evin açarları gözəllik salonunda qalıbır. Mənə isə hava-su kimi brilliant kolyem lazımdır. Yadına düşür, sən onu mənim boynumda görmüşdün?

- Hə, yadıma düşdü. Bəs, mən nə etməliyəm? Açarların ardınca gözəllik salonuna getməliyəm?

- Yox, buna vaxt çatmaz. Yaxşısı budur, sən çəpərdən mənim həyətimə keç oradan evə qalx. Yataq otağıma gedib orada termonun birinci siyirməsini aç, kolye böyük mücrünün içərisində qırmızı qutudadır.

Bu anda Əliyusif çıxılmaz vəziyyətdə qaldı və qərar verməyə tələsmədi. O, indi bilmirdi nə etsin, pis vəziyyətə düşən qadına kömək etsin, ya da ondan imdad diləyən kəsin xahişini yerə salsın. Zemfira görəndə ki, qonşusu bu məsələdə tərəddüd edir, hərçənd ki, onun etirazı Natiqin planlarına daxil deyildi, o, növbəti bir fəndə əl atdı. Müğənni tələsən adam kimi ayaqlarını yerə döyəcləyə-döyəcləyə səbirsiz halda dedi:

- Əli, hasarı aşmaqdan qorxursansa, onda mən başqa bir adam tapım.

Sanki həmin söz müxbirin qüruruna toxundu və o, müsbət cavab verməklə, özünü ağır məngənəyə saldı. O, qamətini şax tutub qonşusunu həyətə dəvət etdi. Sonra bağdakı taxta nərdivanı divara söykəyib, Zemfiranın həyətinə tullandı.

Evin giriş qapısı açıq idi. Əliyusif çətinlik çəkmədən qonaq, oradan isə yataq otağına keçdi və tələsik halda termonun siyirməsini açdı. Siyirmədə on beş ədədə yaxın qutu vardı, onlardan yalnız dördü qırmızı rəngdə idi. O, bir-bir qutuları yoxlayıb yalnız axırıncı qutuda, Lerikdə Zemfiranın boynunda gördüyü kolyeni tapdı.

Heç on dəqiqə keçməmiş Əliyusif əlində qırmızı qutu müğənninin yanına qayıtdı. Bu vaxt Zemfira maşınında oturub, öz iti ilə oynayırdı. O, elə etmək istəyirdi ki, qonşulardan heç kim onu müxbirin qapısında görməsin. Müğənni kolyeni alan kimi təşəkkürünü bildirdi və tələsik halda buradan uzaqlaşdı.

Zemfira Novxanıda yerləşən **"Cənnət bağı"** restoranına getdi və orada onu gözləyən Natiqlə görüşdü. Fəndgir oğlan çörək yemək üçün yaxşı təamlar sifariş etmişdi. Bu məsələdə ehtiyatlı olmağa çalışan Natiq buradakı müştərilərin diqqətinə Zemfiranı cəlb etməmək üçün, görüş yerini ayrıca bir otaqda təyin etmişdi. Sevincindən alışan oğlan qadını qucaqlayaraq, heyrətlə dedi:

- Zema, hər şey plan üzrə gedir. Bu gündən etibarən sən mənim köhnə nömrəmə zəng etmirsən. Əlaqə yaratmaq üçün sənə yeni nömrə verəcəm. – Natiq cəld cibindən bir dənə kart çıxarıb məşuqəsinə uzatdı və ara vermədən sözünə əlavə etdi. – Çalış, iki gün evdə görünmə. Üçüncü

günü evinə gələndə kolyenin oğurlandığı haqda polisə xəbər verirsən. Bizim polislərimiz isə çətinlik çəkmədən, müşahidə kameralarının köməyi ilə oğrunun kim olduğunu müəyyənləşdirəcəklər.

- Bəs, bu haqda Məzahirə necə xəbər verəcəm?

- Elə ki, sən evinə gəlib öz brilliantını siyirmədə aşkarlamadın, dərhal qara öküzü bu haqda məlumatlandırırsan. Onun bilməsi vacibdir.

- Məzahir bilsə ki, müxbir məndən oğurluq edibdir, onda o, həmin demaqoqun ailəsinə qan uddurar.

- Bir dəfə demişdin ki, onun ərə getməli bacısı var. – Natiq əli ilə alnına tumar çəkə-çəkə tərəddüdlə dilləndi. - Mən onu istəsəm, Dubaydakı fahişəxanaların birinə göndərərəm.

- Elə olsa, onda müxbir üçün yaman böyük dərs olacaq. O, yaman mədəniyyətdən, tərbiyədən, əxlaqdan məqalələr yazır. İnanırsan, bu hərəkətinə görə bütün həmkarlarım səni alqışlayacaqlar.

Bundan sonra hər iki oynaş söhbəti dayandırıb çörək yeməyə başladılar. Onlar kiminsə evini yıxmağa hazırlaşdıqları üçün müəyyən mənada özlərini xoşbəxt hiss edirdilər.

Planda nəzərdə tutulduğu kimi Natiqin tanıdığı adamlardan iki nəfər qaz ustaları kimi, qaz sobalarını yoxlamaq adı ilə Xədicənin evinə gedir və verilən brillianti

qutu qarışıq, qonaq otağındakı divanın altına atırlar. Onlar bunu elə edirlər ki, kresloda oturub elmi jurnal oxuyan elmi əməkdaş heç nədən şübhələnmir.

Zemfira yalnız iki gündən sonra Ninanı evindən götürərək, təmizlik işləri görmək üçün bağına gəldi. Bəd niyyətini həyata keçirməyə hazırlaşan müğənni itinin dayəsini şahid qismində bura gətirmişdi. Bir az keçəndən sonra Zemfira evdə həyəcan təbili vurur və birmənalı şəkildə bəyan edir ki, onun evindən oğurluq ediblər.

## XII fəsil. Saxta ittihamlarla həbs olunan müxbir

Həyasız müğənni "itkini" müəyyən edən kimi dərhal bu haqda Məzahirə xəbər verir. O, da öz növbəsində rayon polis idarəsindən ora əməkdaşlar göndərir. İlk növbədə həmin evə sahə müvəkkili gəlib, evin sahibəsilə sorğu-sual aparır.

Məzahir əlaqəli insan olduğundan hər yerdə onun tanışları vardı, o cümlədən, polis idarəsində də. O, rayon

polis idarəsində özünə münasib adamlar tapıb onlara tapşırıq verdi ki, axtarış elə aparılmalıdır ki, onun adı heç bir şeydə hallanmamalıdır.

Evə gələn müstəntiqin primitiv verdiyi sualdan bəlli oldu ki, müğənni bu oğurqluğa görə heç kimdən şübhələnmir. Onda hər şey sıfırdan başlanmalıydı. Polisi maraqlandıran o idi ki, evə girən oğru siyirmədə olan bütün qiymətli zinyət əşyalarını yox, yalnız brilliant kolyeni oğurlayıbdır. Axtarış işini asanlaşdırmaq üçün o, evdə olan müşahidə kameralarının video yazısını özü ilə götürüb idarəyə yollandı.

Bu vaxt Əliyusif evdəkilərlə birlikdə öz otağını səliqə-sahmana salırdı, daha doğrusu otağın bəzi yerlərində təmir işləri aparılırdı. Otaq toy gününə hazır olmalıydı. Toyun başlanmasına isə üç gün qalmışdı. Mədinə şüşə, pəncərələri yuyurdu, Xədicə isə mebellərin quruluşu ilə məşğul idi. Bağda abadlıq işlərini həyata keçirən Elşən xəbər tutur ki, qonşunun evində oğurluq olubdur. O, bu haqda evdəkiləri məlumatlandıranda Xədicə birmənalı şəkildə bildirir ki, “Zemfira evinə o qədər kişi gətiribdir ki, indi də həmin kişilərdən biri onun evindən oğurluq ediblər”.

Əliyusif bu hadisəyə heç bir reaksiya vermədi. Lakin onun ağlına gələ bilməzdi ki, itən əşya məhz müğənniyə ötürdüyü həmin brilliant kolyedir. O, isə üç gün bundan

əvvəl Zemfiraya göstərdiyi köməklik barəsində anasıgilə xəbər verməmişdi. Elə bu amilə görə də müxbirin başı qalmaqallarla üzləşəcək.

Müşahidə kameralarından çəkilən video yazıları nəzərdən keçirən müstəntiqin "bəxti" güldü. Ona kim lazım idisə də, həmin adam da vizual görüntüyə düşmüşdü. Müstəntiq həmin şəkili ev sahibəsinə göstərəndə, o, həmin adamın kimliyini açıqlamış və guya təəccüblənirmiş kimi qonşusundan belə bir qeyri-qanuni hərəkəti gözləmədiyini bildirdi. Hər şey bəlli olan kimi müstəntiqin göstərişilə Əliyusifin saxlanılması üçün tədbirlər görüldü.

Müxbir saxlanılıb polis idarəsinə aparılan kimi həm ailə üzvləri, qonşular, həm də dost-tanışlar təəccübdən özlərinə yer tapa bilmədilər. Lakin buna baxmayaraq Əliyusif polis idarəsində müstəntiq tərəfindən dindirilməyə başlandı.

Yekəqarın, balacaboy, qarayanız, uzunsifət hüquq-mühafizə əməkdaşı sorğunun əvvəlində qarşısındakı vətəndaşa əsl cinayətkar kimi yanaşmağa başladı. Artıq onda elə bir əminlik yaranmışdı ki, Zemfiranın kolyesini məhz bəd əməllərdən uzaq olan Əliyusif oğurlayıbdır. Nail adlı müstəntiq ixtiyarında olan bütün dəlilləri ortaya qoyandan sonra, müxbir qəti olaraq buna öz etirazını bildirdi. O, dedi:

- Həqiqətən də mən hasarı aşıb qonşunun evinə girmişəm, lakin bütün bunlar ev yiyəsinin razılığı ilə baş veribdir.

- Onda belə çıxır ki, Zemfira xanım özü deyib ki, brilliant kolyeni oğurla və ona ötür?

- Mən onun xahişini yerinə yetirmişəm və yadda saxlayın ki, mən indiyənə kimi heç vaxt başqasının malına göz dikməmişəm.

- Əgər elədirsə, hər şeyi necə varsa, kağızda yaz.

Bundan sonra Əliyusif bir daha yazılı surətdə həmin hadisəni kağız üzərində ərz etdi. Müstəntiq izahatı oxuyandan sonra hiddətləndi və qəzəbli halda gözlərini bərəldərək qışqırdı:

- Sən kimi dolayırsan? Bu nədir, cəfəngiyat yazmısan?

- Xahiş edirəm, mənim üstümə qışqırmayın. – deyə Əliyusif vəcdə gəldi. – Hadisənin necə baş verməsini mən, bütün təfsilatı ilə yazmışam. Əlavə etməyə isə heç bir sözüm yoxdur.

- Deyəsən, sən özünü kurortda hiss edirsən? – kobud hüquq-mühafizə əməkdaşı əvvəlki kimi qışqırdı. – Tez ol, de görüm, kolyeni harada gizlətmisən? Yoxsa, sənin işin çox ağır olacaq.

- İzahatda göstərmişəm ki, mən kolyeni götürən kimi Zemfira xanıma verdim. Oğrunu başqa yerdə axtarın.

- Sən tanınmış müğənniyə şər atmaq istəyirsən? Eybi yoxdur, kamerada qalarsan, onda ağlın başına gələr.

Artıq Əliyusif başa düşdü ki, məsələ çox ciddidir və qəzəblənmiş müstəntiq onunla zarafat etmir. Növbətçi polis zabitin əmrinə əsasən, müxbiri ümumi kameraya apardı. Kamerada ondan başqa, müxtəlif yaşda olan dörd nəfər saxlanılan şəxs vardı və onların hər biri müəyyən cinayətin üstündə bura gətizdirilmişdilər.

Hər şeydən arxayın olan və oğlunun təmizliyinə inanan Xədicə axşama qədər oğlunu gözlədi və onun gəlmədiyini görüb, dərhal Elşən ilə birlikdə polis idarəsinə yollandı. Həmin vaxt onu narahat edən o idi ki, Əliyusif sahə müvəkkili ilə gedəndən sonra bir neçə saatdan sonra onun mobil telefonu tamamilə söndürülmüşdü.

Eyni şəkildə müstəntiq elmi işçiyə hadisənin necə baş verdiyini izah edir. Eşitdiyi sözlərdən vəcdə gələn ana oğlu ilə görüşmək istəyir, lakin ona izah edirlər ki, idarənin rəisi olmadan ona bu imkan yaradılmayacaq. Rəis isə yalnız səhər tezdən orada olacaq.

Daim qürurlu, mətanətli, vüqarlı görünən ana bu dəfə evinə məzlum bir insan kimi ayaq basdı. O, hələ də anlaya bilmirdi ki, mənən və qəlbən təmiz olan Əliyusif necə ola bilər ki, hansısa bir adamdan oğurluq etsin. Bu məsələ Arifgilə də bəlli olanda, onların hamısı bir ağızdan bildirir-

lər ki, uşaqlıqdan tanıdıqları həmin oğlan hər hansı bir cinayəti törətməyə qadir adam deyil. Elə Arif də tərəddüd etmədən, səhər tezdən qonşusu ilə birlikdə, məsələni ayırd etmək üçün polis idarəsinə yollanır.

İdarənin rəisi onların kimliyini eşidən kimi, hər ikisini qəbul etmək məcburiyyətində olur. Gələn adamların qabiliyyətini və mədəniyyətini görən rəis onlar üçün görüş təşkil edir, lakin xəbərdarlıq edir ki, Əliyusif yüksək məbləğdə zinət əşyası oğurladığı üçün cinayət məsuliyyətinə cəlb ediləcək. Bu, xəbər onsuz da başını itirmiş anaya şok effekti yaşatdı və o, yenə də əmin idi ki, oğlu həmin cinayəti törətməyibdir.

Onlar mənəvi cəhətcə sarsılan Əliyusif ilə görüşəndə, hər bir şeyi bütün təfsilatı ilə ondan öyrənir və dərhal müstəntiqin otağına yollanırlar. Xədicə oğlunun günahsız olduğunu bildirəndə, zabit onun qarşısına faktı – müşahidə kameralarının çəkilişini - qoymalı olur. Həmin görüntülər məzlum ananın gözləri önündə canlananda onun başı gicəllənir və qadın bir anlığa özünü itirir.

- Bu, əxlaqsız qadın olan qonşumun qurduğu tələdir. – deyə dəhşətə gələn ana dili topuq vura-vura dilləndi və yerindəcə tir-tir əsərək, qətiyyətsiz halda sözünə davam etdi. – İnanmaram ki, mənim oğlum haram mala əl atsın.

- Xədicə xanım, özünüz ziyalısınız, amma camaat arasında hörmətlə tanınan müğənnini təhqir edirsiniz. Xahiş edirəm, bir qədər özünüzü ələ alın. Əks təqdirdə mən bu görüşü təxirə salmalı olacağam.

- Üç gündən sonra oğlumun toyudur. – deyə ziyalı qadın yumşaq tərzdə dilləndi. – Bəlkə, ona imkan verəsiniz bəy kürsüsündə əyləşsin, ondan sonra istintaqı davam etdirmək üçün yenidən polis idarəsinə gətirəsiniz.

- Bu mümkün deyil. – deyə müstəntiq tərəddüd etmədən qətiyyətlə dilləndi.

- Əliyusif elə bir ağır qanun pozuntusuna yol verməyibdir ki, onu daim dəmir barmaqlıqlar arxasında saxlayasınız. Mənə elə gəlir, onu zaminə buraxmaqla istintaqı davam etdirmək olar.

- Brilliant kolyeni yiyəsinə qaytarsın, ondan sonra mən öz səlahiyyətimdən istifadə edərək, onu bəylik kürsüsünə buraxaram. Həm də mən elə bilirdim, siz xoşluqla kolyeni gətirib bizə təhvil verəcəksiniz, amma bu baş vermədi. Prokurorun razılığı əldə olunan kimi biz sizin evinizdə axtarış aparacayıq.

- Cənab müstəntiq, prokurorun sanksiyası olmadan gəlib evimizdə axtarış apara bilərsiniz. - yazıq görkəmə düşən ana mülayim tərzdə dilləndi, sonra dərindən köksünü ötürərək yalvarıcı tərzdə sözünə əlavə etdi. – Bilirsiniz,

dəvətnamələr paylanıbdır, şadlıq sarayının behi verilibdir, cehiz gətirilibdir, gəlinlik paltarı alınıbdır, imkan yaradın qoy Əliyusif bəylik kürsüsündə əyləşsin.

- Sizə dedim axı, - deyə müstəntiq səsini qaldırdı. - bəylik kürsüsündə əyləşmək üçün, oğurlanan kolye yiyəsinə qaytarılmalıdır. Mən sizə təkzibedilməz faktlar göstərdim, indi isə istəyirsiniz ki, onu azadlığa buraxmaqla özüm qanunu tapdalayım? Xahiş edirəm, otağı tərk edin, mənim hələ bir ətək işim var.

Həmin fakt qarşısında aciz qalan Arif birtəhər qonşusunun qolundan tutub, onu evlərinə aparır.

Xədicə gördüklərini övladlarına danışanda, hamı bir ağızdan bildirdilər ki, bu qurma işdir və Əliyusifi peşə fəaliyyətilə bağlı həbsxanaya salmaq istəyirlər. Bu xəbəri gizlətməyin heç bir xeyiri yox idi. Çünki sonra gec olacaqdı. Mütləq bu barədə Qəniregilin ailəsi məlumatlandırılmalıydı. Onlar da bu hadisədən hali olanda şok vəziyyətinə düşdülər. Hamı öz-özünə belə bir sual verirdi: Əliyusif kimi təmiz, neqativ hallara qarşı mübarizə aparan, mənəviyyatı maddiyyatdan üstün tutan, cəmiyyətdə baş verən eybəcərlikləri öz qələmi ilə ifşa edən bir oğlan necə oğurluq edə bilər?

Əliyusifi el içində xar etmək üçün Zemfira müxtəlif kanallarda fəaliyyət göstərən kriminal proqramlara xəbər verdi. Onunla bağlı kadrlar telekanallarda nümayiş olundu.

Elə həmin günün axşamı polis idarəsindən axtarış dəstəsi Xədicənin evinə gəlib, orada öz işlərinin icrasına başladılar. Ailənin gözləmədiyi halda brilliant kolye divanın altında tapıldı və qonşularının (Arif həyat yoldaşı ilə birlikdə şahidlik edirdi) iştirakı ilə, həmin dəlil maddi sübut kimi protokollaşdırıldı.

Kolyenin divanın altından tapılması nəinki ailə üzvlərində, hətta Arifgildə də şok effekti yaratdı. Belə çıxırdı ki, bu məsələ ilə bağlı olan şübhələr hamıda alt-üst olurdu. Doğrudanmı həmin brilliant kolye Əliyusif tərəfindən götürülmüşdü?

Bütün bunlara baxmayaraq, xeyir işin başlanmasına bir gün qalmış, hər iki ev toyu təxirə salmalı oldu. Çətinliklə də olsa, çağırılan qonaqlar bu haqda məlumatlandırıldı.

Əliyusif şərlənsə belə, işlədiyi yerdə, qohum-qonşular arasında hörmət sahibi olan Xədicə biabırçılıqla üzləşmişdi. Vəziyyətdən çıxış yolu tapmaq lazım idi. Elmi işçinin yadına İbrahim düşdü. O, restoran müdiri olsa da, onun hüquq-mühafizə orqanlarnda kifayət qədər dost-tanışları vardı.

Ağlını itirməkdən qorxan ana oğlunu şərdən qurtarıb, təmiz adı ona qaytarmaq üçün səmərəli variantları arayıb üzə çıxarda bilmirdi. Çaşqınlıq içərisində olan Xədicə fikirini bütünlüklə cəmləşdirməkdə aciz idi. Dəqiq bilmirdi nəyə əl atsın. Lakin o, belə bir vəziyyətdə abırını itirmiş müğənninin qapısına xahiş-minnətə getməkdən də çəkinmirdi. Halbuki evdəkilər o cümlədən də, Arif ilə Ofeliya da izah edirdilər ki, hər şeydən razı olan və camaata barmaqarası baxan bir həyasızın qapısına getməyin heç bir mənası yoxdur. Kövrək qəlbli ana isə birmənalı şəkildə bildirirdi ki, son zamanlar Zemfiranın xasiyyətində böyük dəyişikliklər yaranıbdır və həmin qadın onunla xoş münasibətdədir.

Ertəsi günü günortaya az qaimış müğənni itinin dayəsi ilə evinə gəlir. Xədicə tərəddüd etmədən qonşusunun evinə yollanır. Əvvəlki günlərə nisbətən Zemfiranın qanı qara idi və o, elmi əməkdaşı xoş sifətlə qəbul etmədi. Xədicə o dəqiqə qonşusunun mimikasından anladı ki, müğənni aqressiv tonda onunla söhbət aparacaq. Lakin buna baxmayaraq ziyalı qadın yalvarıcı tərzdə dedi:

\- Zemfira xanım, azdan-çoxdan sən Əliyusifin xasiyyətinə bələdsən və onun nə dərəcədə təmiz, pak, saf insan olduğunu izah etməyə heç bir ehtiyac yoxdur.

\- Mən də əvvəllər elə başa düşürdüm, - deyə müğənni üz-gözünü turşutdu. - amma öz fikirimdə yanıldım. Qonşu,

bir ziyalı kimi mənim sənə böyük hörmətim var. Bu hadisədən sonra heç bilmirəm kimə inanım. Artıq etibarım heç kimə qalmayıbdır.

- Qəti olaraq, onun haqqında pis fikirləşməyin. Xüsusi tərbiyə alan Əliyusif həqiqətən də büllur kimi təmiz, saf oğlandır.

- Qonşü, gəl açıq danışaq, büllur kimi təmiz olan oğlan əliəyrilik etməz.

- Mənim oğlum heç vaxt əliəyri ola bilməz. – deyə həmsöhbətini qıcıqlandırmaq istəməyən elmi xadim birtəhər əsəblərini daxilində boğa bildi. - Zemfira xanım, gəlin hər şeyi ayıq başla aydınlaşdıraq. Burada böyük anlaşılmamazlıq yaranıbdır. Məlumdur ki, evinizdən oğurluq olubdur, amma həmin oğurluğu mənim oğlum etməyibdir.

- Mən də Əlidən şübhələnməzdim, lakin müşahidə kameralarına düşən kadrlara baxanda mən 100 faiz əmin oldum ki, brilliantımı kim oğurlayıbdır. Ağlıma belə gəlməzdi ki, tanıdığım hansısa bir adam mənim çəpərimi aşıb evimə basqın edər. Bu haqda müzakirə etməyə belə dəyməz.

- Əli əminliklə deyir ki, o, sizin xahişinizlə çəpəri aşıbdır. İndi isə deyirsiniz ki, belə şey olmayıbdır.

- Bir adam cinayət edəndə işini yüngülləşdirmək üçün günahını başqa adamın boynuna yıxmaq istəyir. Birincisi,

sənin evindən tapılan qutunun üstündə Əlinin əl izləri var. İkincisi, o, mənim xahişimlə çəpəri aşıb brilliantı gətirsəydi, onda həmin qiymətli qaş məndə olardı. Hazırda o, canını qurtarmaq üçün cürbəcür fırıldaqlara əl atır.

- Kolyeni kimsə bizim evə atıbdır. Oğrunu başqa yerdə axtarmaq lazımdır.

Təkəbbür sahibi olan Zemfira Xədicənin ondan əl çəkmədiyini görüb, bezikmiş halda:

- Qonşu, mən neçə gündür evdə olmamışam. Mən sənət adamıyam və hazırda dincəlməliyəm. Mənə elə gəlir, bu məsələni başqa vaxt müzakirə etsək daha yaxşı olar.

Zavallı ana nə qədər dil töksə də, həyasız müğənni heç bir kompromissə getmədi, məhz ondan sonra o, məyus halda öz evinə qayıtdı.

## XIII fəsil. Nahaqdan iş kəsilməsi

Artıq Xədicə birmənalı şəkildə başa düşdü ki, Zemfira heç bir xahişnaməyə əhəmiyyət vermədən öz şikayətini geri götürməyəcək və nəticədə Əliyusif saxta ittihamlar üzrə

dəmir barmaqlıqlar arxasına göndəriləcək. Paralel olaraq İbrahim dostunu dardan qurtarmaq üçün polis orqanlarında işləyən ən yaxın adamlarına müraciət etdi. Müstəqil araşdırmalar heç bir nəticə vermədi. Ona görə ki, bütün dəlillər Əliyusifə qarşı idi.

Hamını bircə şey maraqlandırırdı; əgər, Əliyusifin iddia etdiyi kimi o, həmin brillіantı oğurlamayıbsa, bəs necə olur ki, həmin qiymətli kolye onun yaşadığı evdən tapılır? Müxbirin çəpərdən necə aşması, evə daxil olması, kolyeni siyirmədə axtarıb götürməsi və gəldiyi yol ilə evə qayıtması aşkar şəkildə kameraya düşübdür.

Maraqlı isə o idi ki, həmin kolyenin haradan alınması, kim tərəfindən Zemfiraya hədiyyə edilməsi qəti olaraq araşdırılmamışdı.

Tapılan əşya ekspertizaya veriləndən sonra, bu dəfə Zemfiranın özü dəhşətə gəldi. Ekspertiza zamanı müəyyən olunur ki, həmin kolyenin üzərindəki qaşlar brilliantlarla yox, sirkon daşlarla bəzədilibdir. Deməli, belə çıxır ki, həmin əşyanın qiyməti 50 min manat yox, cəmi 100 manata yaxındır. Burada əsas sual yaranırdı, kolye əvvəlcədən sirkonla düzəldilmişdi, yoxsa əşya Əliyusif tərəfindən "oğurlanandan" sonra üzərindəki brilliant qaşlar sirkonla əvəzlənmişdi? Bu sübuta yetirilsə, onda müxbirin vəziyyəti daha da ağırlaşır. Bu məsələ ilə bağlı müstəntiq müxbiri öz

otağına gətizdirir. Siqaretini ağzına qoyan zabit üzünə soyuq ifadə verərək, ciddi halda dedi:

- Bilmirəm sən kimə arxayınsan, amma inadkarlığın səni uçuruma aparacaq. Törətdiyin cinayəti nə qədər gizlətsən də, sən prokurorun əlindən yaxa qurtara bilməyəcəksən.

- Bir daha bəyan edirəm, mən elə bir cinayət işi görməmişəm ki, onu boynuma alım. Nail müəllim, hər gün məni bura çağırtdırıb, boynuma yeni-yeni cinayətlər qoymaq istəyirsiniz.

- İndi demək istəirsən ki, - deyə müstəntiq bir qədər sərt şəkildə soruşdu. - brilliant qaşları sirkonla sən əvəz etməmisən?

- Əlbəttə yox! – müxbir başını dik tutaraq qətiyyətlə dilləndi.

- Onda bunu kim edibdir?

- Brilliant kolyeni oğurlayan adam.

- Mənim apardığım istintaqa görə kolyeni sən oğurlamısan. Deməli, qaşları da sən dəyişmisən.

Əliyusif, mən elə bilirdim sən sakit adamsan, amma göründüyü kimi bu belə deyil. Tez ol, boynuna al görüm, əsl kolye haradadır?

- Kamerada oturanda mən hər şeyi götür-qoy etdim və belə qənaətə gəldim ki, kolyeni mənim qonşuma elə sirkon qaşlarla hədiyyə ediblər. Bunu müəyyən etmək çətin deyil.

- Sən elə danışdın ki, guya mən ayağımı-ayağımın üstünə qoyub oturmuşam. – deyə müxbirin sözündən əsəbləşən müstəntiq səsini qaldırdı. – Artıq kolyenin alındığı mağaza ilə əlaqə saxlamış və oradan öyrənmişəm ki, həmin kolye brilliant qaşlarla bəzədilmişdi. Tez ol, de görüm oğurladığın əsl əşya haradadır? Sən həmin qiymətli əşyanı bizə qaytarmasan, onda evindəki əşyaları satdırıb Zemfira xanıma dəyən ziyanı ödəyəcəksən. İşdir, həmin qiymətə əşyalarınız olmasa, onda eviniz hərraca qoyulacaq.

- Cənab müstəntiq, siz mənə hədə-qorxu gəlirsiniz? Mənim boynuma oğurluq qoymağınız azdır, hələ bir bizim evimizi də hərraca qoymaq istəyirsiniz?

- Danışığına fikir ver, demaqoqun biri demaqoq. – deyə müstəntiq onun üstünə qışqırdı. – Sənin kimi həyasızları çox görmüşəm. Bir şey olan kimi başlayırsınız qışqır-bağır salmağa. Lakin bir-iki gün kamerada qalandan sonra muma dönürlər.

- Başa düşün ki, həmin kolye tamamilə başqa bir adam tərəfindən oğurlanıbdır. Əgər, həmin kolyeni mən götürmüşəmsə, onda nəyə görə mən maddi sübut kimi sayılan həmin dəlili divanın altına atıram? Deməli, kimsə zinət əşyasını gətirib, əlbəəl tapdığınız yerə qoyubdur. Nail müəllim, əsl cinayətkarı tapmasanız və ya bu işin açılmasında polis fəallığı göstərməsəniz, onda belə çıxacaq

ki, siz nahaqdan məni dəmir barmaqlıqlar arxasına salmaq istəyirsiniz.

- Elə mənim fəallığım nəticəsində Əliyusif adlı oğru tutulub bura gətirilibdir.

- Mən belə bir özbaşınalığa görə Respublika Prokurorluğuna şikayət edəcəm.

- Sən burada da demaqoqluğundan əl çəkmək istəmirsən? Camaat arasında kifayət qədər tanınan bir adamdan, özü də zəif cinsin nümayəndəsindən oğurluq etmisən, indi isə deyirsən Respublika Prokurorluğuna şikayət edəcəksən.

- Unutmayın ki, biz hüquqi dövlətdə yaşayırıq və hər bir insan öz hüququnu qorumaq imkanına malikdir, o cümlədən də mən. Siz məni kiminsə sifarişi ilə tutdurmağa çalışırsınız.

- Sən nə dərəcədə həyasız adamsan, - deyə qəzəblənən zabit həmin an coşdu. - burada oturub indi də mənə böhtan atırsan? Bu yolla sən törətdiyin cinayəti gizlətmək istəyirsən? Tez ol, de görüm əsl kolyeni harada gizlətmisən?

- Sizə əvvəlcədən demişəm ki, kolyeni başqa yerdə axtarmaq lazımdır. Mən həmişə bir çox insanlara bədbəxtlik gətirən qiymətli zinyət əşyalarından uzaq olmağa çalışmışam. Lakin bütün bunlara baxmayaraq, şər qüvvə məndən yan ötmədi.

- Mənim də hövsələmin həddi-hüdudu var, - deyə hirsdən boğulan müstəntiq ayağa qalxıb, saxlanılan şəxsə yaxınlaşdı. - elə bilirsən, mənim əsəblərim dəmirdəndir? Görürəm, sən özünü kurortdakı kimi hiss edirsən. Sənin kimilərin dilini açmaq mənim üçün su içmək kimi bir şey sayılır. Gec-tez sən etdiyin oğurluğu boynuna alacaqsan. İşdir, bunu xoşluqla etməsən, onda səni burada zəlil edəcəm.

- Siz mənə fiziki güc tətbiq etsəniz, mən bu haqda nəinki yerli müvafiq orqanlara, hətta beynəlxalq təşkilatlara şikayət edəcəm. – deyə emosiyalara qapılmaq istəməyən müxbir aludəliklə dilləndi.

- Mən də bunu elə edəcəm ki, guya sən mənim üstümə hücum çəkmisən, biz də məcburiyyət qarşısında qalıb səni, fiziki güc tətbiq etmişik. Belə olan halda sən BMT-yə də şikayət etsən xeyri olmayacaq. Kolyenin yerini göstərmək üçün sənə iki saat vaxt verirəm.

Çıxılmaz vəziyyətdə qalan müxbir bilmirdi hansı tədbirlərə əl atsın. O, bu məsələdə günahsız olsa da, bütün dəlillər ona qarşı idi. Müvəqqəti olaraq bəylik kürsüsündən məhrum olan günahsız oğlan dəqiq başa düşmüşdü ki, bu hiyləni Zemfira və onun ətrafı qurubdur. Ən dəhşətlisi isə o idi ki, bütün bu cəfəngiyat elə qurulmuşdu ki, hər şey inandırıcı görünürdü. Buna görə də ətrafında olan bir çox

adamlar yavaş-yavaş ondan şübhələnməyə başladılar. İndiki məqamda Əliyusifin bəraət qazanması üçün heç bir şansı yox idi.

Natiq tərəfindən qurulan ssenarini peşəkarcasına həyata keçirən Zemfira istədiyinə nail olsa da, o, çaşqınlıq içərisində idi. Söhbət brilliant kolyedən gedirdi. Məzahir brilliant qaşların Əliyusif tərəfindən sirkon qaşlarla əvəzləndiyi cəfəngiyata inansa da, Zemfira 100 faiz əmin idi ki, bunu başqa bir adam edibdir. Plan qurulmamışdan əvvəl artıq əsl brilliant kolye yoxa çıxmışdı. Sual verilirdi kim tərəfindən? Tam da olmasa, müğənni əmin idi ki, bunu Natiq edə bilərdi. Ona görə ki, bir neçə ay bundan əvvəl emosional oğlana pul lazım olduğundan o, kolyeni lombarda qoymuşdu. Zemfira elə zənn etdi ki, bu məsələdə Natiqin özünü lombard işçiləri aldada bilərdilər. Bütün bunlara baxmayaraq o, müəmmalı məsələni ayırd etmək üçün Natiqlə görüşməli oldu.

- Natiq, kolyenin dəyişdirilməsindən məlumatın var da? – deyə məyus halda olan müğənni narazılıqla dilləndi.

- Eşitmişəm. – Natiq üzünə təəccüb ifadəsi verərək tərəddüd etmədən dilləndi.

- İş ondadır ki, kolyeni yalnız sənə vermişəm və çox güman ki, kolyenin qaşları həmin ərəfədə dəyişdirilibdir. Deyə bilərsən bu nə məsələdir?

- Sən, getdikcə ağlını itirirsən. – deyə eşitdiyi sözlərdən qıcıqlanan oğlan hiddətləndi. – Elə çıxır ki, kolyeni dəyiş-dirməklə mən sənin malına yiyələnmişəm? Heç dediyin sözlərdən utanırsan? Mən sənin yolunda ölümə getməyə belə hazıram, sən isə mənə hansısa bir fırıldaq işi yapışdırmağa çalışırsan.

- Mən demirəm ki, bunu sən etmisən, - deyə son günlər mənəvi cəhətcə sarsılmış görünən qadın məşuqunu sakitləşdirməyə çalışdı. – Bildiyimə görə sən o vaxt kolyeni lombarda qoymuşdun. Deyirəm, bəlkə bu fırıldağı həmin lombard işçiləri edibdir?

- Lombardda zinət əşyaları ilə bağlı fırıldaq etmək mümkün deyil. Amma buna baxmayaraq mən lombardda sorğu-sual aparacağam. Zema, mənə elə gəlir, sənin kolyeni evində olan xidmətçilər dəyişdiriblər.

- Bu mümkün olan şey deyil. – müğənni səbirsizliklə dilləndi. – Çünki kolye həmişə mənim boynumda olubdur. Natiq kolyeni tapmaq lazımdır.

Natiq gördü ki, qadın hərtərəfli olaraq, əsaslı şıkildə ondan şübhələnir. Ona görə də o, vaxt qazanmaq üçün ehti-yat variantını işə saldı. O, başını incimiş halda yellədərək, hüznlə dedi:

- Zema, mən sənə görə ölümə getməyə hazıram, sən isə bir kolyeyə görə məni pis vəziyyətə qoyursan. Mən mütləq

lombarda gedib orada hər şeyi aydınlaşdıracam. Amma əvvəlcədən sənə xəbər verirəm ki, bu sirr hər ikimizin arasında qalmalıdır. Ona görə ki, bu məsələ ilə bağlı istintaq işi gedir və kolyenin dəyişdirilməsilə bağlı yalnız demaqoq qonşundan şübhələnirlər.

Zema, çalış bir qədər səbirli ol. Gec və ya tez həmin kolye tapılacaq və sən şad-xürrəm olacaqsan.

Sən bilirsən də biz hansı yükün altına girmişik? Bu məsələnin üstü açılsa, bizi uzun müddətli həbs cəzası gözləyir. İndi biz yalnız məhkəmənin başlanacağı günü gözləməliyik.

- Bəs, məhkəmənin vaxtı nəyə görə uzadılır?

- Bilmirsən, cinayətkar kimdir? O, media işçisi olduğundan müstəntiq bir qədər ehtiyatlı hərəkət edir. Amma sən bu barədə qəti narahat olma. Mən müstəntiqə kifayət qədər hörmət etmiş və o, söz veribdir ki, müxbir heç cürə dəmir barmaqlıqdan yaxa qurtarmayacaq.

Natiq öz işinin ustası idi və onun üçün Zemfira kimi dərrakəsi olmayan, avam, lovğa bir qadını aldatmaq su içmək kimi bir şey sayılırdı. Onlar bir-biriləri ilə əlaqə saxlamaq üçün ehtiyat telefonlardan istifadə edirdilər. Zemfira demək olar ki, hər gün Natiqə zəng edib, ondan kolye barəsində məlumatlar alırdı.

Müğənni ilə növbəti görüş zamanı o, izah edir ki, kolyeni girov qoyduğu lombard bağlanıbdır və orada işləyən adamlar yoxa çıxıblar. Bir sözlə, Natiq bu məlumatı elə formada çatdırır ki, Zemfira kolyenin məhz lombardda dəyişdirildiyinə inanır. Lakin buna baxmayaraq o, deyir:

- Zema, yaxın zamanda lombardın yiyəsini tapıb ondan orijinal kolyeni alacağam. Paralel olaraq mən hakimlə danışıb ona elə qərar verdirəcəm ki, demaqoq qonşuların məcburiyyət qarşısında qalıb, 50 min manatı sənə qaytaracaqlar.

Cinayət işinin açılması üçün prokuror sanksiya verən kimi müxbir cinayətkar şəxs qismində dindirilməyə başlandı. Ona təhkim olunan vəkil də çaşqınlıq içərisində qalmışdı. O, Əliyusifin səmimiyyətinə inanmaq istəsə də, faktlar hər şeyin əksini deyirdi. Artıq belə şayiələr yayılırdı ki, guya toy etmək və şadlıq sarayının pulunu ödəmək üçün müxbir həmin oğurluğa əl atmışdı.

Məhkəmə olanda bir neçə şahid dindirildi və yaxın adamlara söz də verildi. Əliyusifi tanıyanlar onun nə dərəcədə təmiz, saf qəlbli, tərbiyəli və mədəni olduğunu hakimin diqqətinə çatdırmağa çalışdılar. Lakin bütün bunlara baxmayaraq prokuror aşkar şəkildə həmin cinayəti Əliyusifin boynuna qoydu. Vəkil nə qədər çalışsa da, lazımi səviyyədə müttəhimi müdafiə edə bilmədi. Hakim istintaq

zamanı aparılan işlə Əliyusifi tanış edəndən sonra o, yazılanlara münasibət bildirmək üçün hakimdən söz aldı. Anasını kövrəltməmək üçün özünü şux göstərməyə çalışan müxbir başını dik tutaraq aludəliklə dedi:

- Hörmətli hakim, insan sadəlövh olanda onun başına belə müsibət açmazlar. Mən istərdim ki, qonşum Zemfira burada iştirak etsin, lakin o, bilərəkdən məhkəmənin son iclasına gəlmədi. Çünki bütün bunlar, yalnız onun hiyləsinin nəticəsidir. Müstəntiq isə işi tez başa çatdırmaq üçün obyektiv axtarışla məşğul olmadı. Proses zamanı aydın oldu ki, o, qiyabi yolla da olsa, mənim qonşumun tərəfini saxlayır.

- Nəyə görə siz qonşunuzla ifrat dərəcədə düşmənçilik aparırsınız? – deyə hakim soruşdu.

- Mən onunla yox, o, peşəkar fəaliyyətimlə bağlı mənimlə düşmənçilik edir. Zemfiranın qeyri-istedad kimi bizim mahnıları korladığına görə və musiqi təhsili olmadığı üçün mən onu tənqid atəşinə tutdum. Ümumiyyətlə, təkcə o, yox, hər bir naşı müğənni mənim iradlarımla üzləşirdi. O, özünü elə aparır ki, sanki ətrafında heç bir qonşu yaşamır; ən yüksək səslə maqnitofonda eybəcər hala salınmış mahnıları oxudur, üzr istəyirəm hamınızdan, evində eyş-işrət məclisləri təşkil edir, vulqar geyimlərdə küçəyə çıxır, itinə görə qonşuları polisə verir, ümumiyyətlə,

azərbaycanlı qadınına xas olmayan bir həyat tərzi sürür. Elə ki, haqq səsimi ucaldıram, oluram pis adam.

Hörmətli hakim, bir müddət əvvəl o, evində öz qarovulçusunu öldürmək istədiyi üçün, mən ona xəbərdarlıq etməklə həmin cinayətin qarşısını aldım. Məhz buna görə də qisas almaq üçün qonşum məni şərlədi.

Prokuror ayağa qalxıb etirazını bildirdi və hakimdən çıxışı dayandırmaq üçün vəsadət qaldırdı. O, izah etdi ki, müxbir özünə bəraət qazandırmaq üçün müğənnini şərləyir. Prokurorun vəsadəti təmin olundu və Əliyusif sözünü axıra çatdıra bilmədi. Belə bir haqsızlığa tab gətirməyən Xədicə birbaşa yerindən dedi ki, o, bu haqsızlığı yerdə qoymayacaq və Ali Məhkəməyə, dövlət başçısına, insan hüquqları ilə bağlı müvafiq təşkilatlara və birliklərə şikayət edəcək. Hakimin göstərişi ilə elmlər namizədi, sonra isə o biri qohumlar da zaldan çıxarıldı.

Məhkəmənin gedişatından müxbir başa düşdü ki, prokuror heç bir detallara fikir vermədən açıq şəkildə Zemfiranın mövqeyini müdafiə edir, hakim isə dolayısı yolla hüquq işçisinə dəstək verir.

İstintaq zamanı aparılan qeyri-obyektiv işin nəticəsinin yekunu olaraq Əliyusifə 6 il iş kəsildi. Ən hiddətləndirici hal o idi ki, 18 ay müddətində onun ailəsi Zemfiraya 50 min manat pul ödəməliydi, əks təqdirdə onların yaşadığı ev

hərraca qoyulacaqdı. Bütün bunlara baxmayaraq müxbir verilən hökmdən narazıdırsa, o, Appelyasiya Məhkəməsinə şikayət edə bilərdi.

Əliyusif vaxt itirmədən Appelyasiya Məhkəməsinə şikayət etdi və həmin gün öz hüquqlarını müdafiə etmək üçün, başına gələn bütün hadisləri ayrıca bir kağızda ərz edərək, işlədiyi qəzet orqanına göndərdi. Müxbir əmin idi ki, yenidən istintaq işi bərpa olunacaq və o, növbəti məhkəmə prosesində bəraət qazanıb, məhkəmə zalından evinə buraxılacaq.

## Mündəricat

**I hissə: Hər kəs öz əqidəsini nümayiş etdirir**

**Ön söz: Qələmin çəkdiyi yol............................. 5-13**
**I fəsil. Haqsızlığa tab gətirməyən ziyalı ailə..... 15-26**
**II fəsil. Xəyanətə aludə olan qadın.................... 26-39**
**III fəsil. Samovar çayı arxasında maraqlı söhbət..................................................................... 40-51**
**IV fəsil. Televiziya proqramlarnın seçimində tamaşaçıların rəyi nəzərə alınmalıdır................... 51-62**
**V fəsil. İradlarla dolu olan fikirlər................... 62-73**
**VI fəsil. Televiziyadakı qüsurlara birdəfəlik son qoyulmalıdır.................................................... 73-84**
**VII fəsil. Zemfira öz sənətini təbliğ etmək üçün müəyyən yollar arayır.......................................... 85-95**
**VIII fəsil. Pula görə özünü alçaltmaq istəməyən qarovulçu........................................................... 95-108**
**IX fəsil. Sponsorun prodüsser qarşısında qoyduğu tələb....................................................... 108-117**
**X fəsil. Dost və tanışların görüşü**
**XI fəsil. Cürbəcür fikirli insanların bir yerə toplaşması....................................................... 118-129**
**XII fəsil.Kefli olan saç ustalarının səmimi**

**açıqlamaları........................................................ 130-138**

**XIII fəsil. Qarovulçular dəyişilməklə evdəki qayda-qanunlar da dəyişdi.................................. 138-150**

## II hissə: Etimaddan sui-istifadə edən əqidəsiz insanlar

**I fəsil. Şantajdan istifadə edən qarovulçu müğənnini öz itaəti altına alır.............................. 164-177**

**II fəsil. Şıltaq müğənninin qara günləri......... 178-190**

**III fəsil. Gərgin vəziyyətdən çıxmaq üçün lazımi məsləhətin alınması.................................. 190-201**

**IV fəsil. Şantajdan məharətlə istifadə edən qarovulçu ev yiyəsinin namusuna təcavüz edir..202-212**

**V fəsil. Mənəviyyat uğrunda mübarizə aparmaq şərafətli iş sayılır....................................... 212-222**

**VI fəsil. Keçmişin müsbət keyfiyyətləri gələcəyə gətirilməldir......................................... 222-232**

**VII fəsil. Qarovulçu tərəfindən ram edilən müğənni özünə kömək axtarır........................... 232-242**

**VIII fəsil. Fiziki işgəncələrə məruz qalan müğənni, bu dəfə zülmkarından qisas almağa imkan tapır........................................................ 243-254**

**IX fəsil. Keçmiş sürücü ölümlə hədələnir...... 255-267**
**X fəsil. Məkrli insanlar və ülvi hisslərlə yaşayan müxbir...................................................... 267-278**
**XI fəsil. Qisas arzusu ilə yaşayan qadın...... 279-289**
**XII fəsil. Saxta ittihamlarla həbs olunan müxbir............................................................. 289-300**
**XIII fəsil. Nahaqdan iş kəsilməsi................ 300-312**